الله
رسول
محمد

QAÇQINLARA KÖMƏK ETMƏK

ADNAN OKTAR
(HARUN YƏHYA)



HARUN YƏHYA (ADNAN OKTAR)

QAÇQINLARA KÖMƏK ETMƏK

Dünyada 60 milyondan çox mühacir var — Suriyadan Myanmaya, Liviyadan Yəmənə. Bu kitab onların fəryadına qulaq asır və sevgi ilə həlli təqdim edir.

— 16 fəsil —

Mündəricat

1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Giriş 9

4 Mühacirlərə dəstək olmaq Allahın razı olacağı gözəl rəftardır 14

5 Adnan Oktarın A9 TV-də mühacirlər mövzusundakı şərhləri 25

6 Rohinca faciələri: Myanmadan Yərmuka 29

7 Mühacirlərin həyatını necə asanlaşdıra bilərik? 71

8 Liviya, Tailand və mühacir yolları 96

9 Avropa mühacir böhranı və həll yolları 119

10 A9 TV şərhləri və Avropanın hərəkəti 161

11 Şimali Afrika və Türkiyənin rolu 183

12 Sevgi ilə həll 235

13 Mühacirlər dəyərdir, divarlar deyil 249

14 Sonsöz 296

15 Əlavə bölmə: Təkamül yalanı 314

16 Qeydlər 348

FƏSİL

Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

Giriş

Müsəlmanlar tarixin heç bir dövründə bugünkü qədər şiddətli hücum və zülmlə qarşı-qarşıya qalmamışdı. İraqdan Arakana, Liviyadan Suriyaya, Çindən Avropa ölkələrinə, dünyanın dörd tərəfində yaşayan müsəlmanlar bu gün qorxunc bir şiddət yağışı altında, balaca köməyə belə möhtac olaraq yaşamaq məcburiyyətindəirlər. Gecə-gündüz demədən davam edən bombardmanlar, səmada səssizcə meydana çıxıb bir anda ətrafı alov topuna çevirən pilotsuz uçuş aparatları, radikal qrupların qan donduran şiddəti, öz xalqına mərhəmətsizcə zülm etməkdən çəkinməyən diktatorlar, kasıblıq, aclıq və Quranı tərk edib xurafatlarla müsəlmanlara qorxunc bir həyat təqdim edən mövhumatçılərin səbəb olduğu acılar, bu gün milyonlarla məzlum müsəlmanı öz vətənlərində yaşanmaz hala gətirir.

Yaranan mənzərə elə dəhşətlidir ki, bu şiddətli yıxım dalğası qadın, uşaq, yaşlı demədən önünə çıxan hər müsəlmanı udarkən, kömək çağırışları çox zaman cavabsız qalır. Bu gün II Dünya Müharibəsində baş verən vəhşiliklər filmlərə mövzu olarkən, dövrümüzdə hər gün şahid olunan daha dəhşətli və qorxunc görüntülər adi axşam xəbərləri kimi qəbul edilir.

Qurana görə, yer üzündə zəif olan qadınlar, kişilər və uşaqlar, müsəlmanların məsuliyyətindədir.

Digər bir ifadə ilə, müsəlmanlar bir tərəfdən müharibə, zülm və şiddətlə mübarizə apararkən, digər tərəfdən də dünyanın laqeydliyi və müsəlman əleyhdarlığı ilə mübarizə etmək məcburiyyətindədir.

Şübhəsiz ki, bu müsəlman əleyhdarlığında İslamı səhv izah edərək, xurafatlar səbəbi ilə İslamı şiddət dini kimi göstərən mövhumatçı sistemin təsiri böyükdür. Bəhs etdiyimiz mövhumatçı sistem sevginin,

gözəlliyin, şəfqətin, azadlığın, qadın haqlarının, demokratiyanın həqiqi qaynağı olan İslamı qaranlıq, qadağanedici, qadın düşməni, bütün gözəlliklərə qarşı bir sistem olaraq göstərir. Xüsusilə qərb mediasında bu tərz bir imici dəstəkləyən görüntülərin tez-tez yer alması, vəziyyəti daha da qızışdırarkən, zülm altında inləyən məzlum müsəlmanlara gedəcək ən kiçik bir köməyə də maneə törədir. Mövhumatçılığa görə İslam dünyasına istiqamətli düşmənlik elə bir mərhələyə çatmış vəziyyətdədir ki, qərb dünyası dənizdə boğulan körpələri, yük maşınında havasızlıqdan ölən məzlumları, mühacir düşərgələrində insanlıqdan kənar şərtlərdə yaşayan zəif insanları görməməzlikdən gəlir.

Mühacir probleminin başından bəri Türk əsgərlərinin mühacirlərə göstərdiyi şəfqət müsəlman əxlaqına əhəmiyyətli bir nümunədir.

Bütün bu zülm və şiddət milyonlarla məzlum qadın, uşaq, yaşlını, təhlükəli və bilinməyən bir səfərə itələyir və milyonlarla insandan yaranan nəhəng mühacir dalğaları meydana gəlir. Məhz bu gün dünyanın şahid olduğu, tarixin ən böyük immiqrant böhranının səbəblərindən biri də budur. Milyonlarla müsəlman, doğulub böyüdükləri torpaqlarını, evlərini, mədəniyyətlərini, ənənələrini, həyatlarını, ailələrini, varlıqlarını geridə buraxaraq sonunda nə olacaqlarını bilmədikləri bir səfərə, bilmədikləri torpaqlara doğru yola çıxır. Bir çoxu bu uğurda şəhid

olarkən, hədəflərinə çatan az insan heç layiq olmadıqları insanlıqdan kənar rəftarlarla qarşılaşırlar.

Uca Rəbbimiz Nisa surəsinin 75-ci ayəsiylə zəif insanlara sahib çıxmamızı, onları qorumamızı və dünyadakı zülmün sona çatması üçün cəhd göstərməmizi əmr etməkdədir. Yenə məzhəbi, mənşəyi, dini nə olursa olsun yolda qalmışı, yoxsulu və əsiri yedirtmək, kasıblara və ehtiyac sahiblərinə kömək olmaq sonsuz rəhmət sahibi Rəbbimizin bütün insanlara əmridir. Bu gün dünyadakı zülmün səbəbi, insanların Allahın dinini tərk etmələri, şeytanın fitnəsi ilə bir-birlərinə düşmələri, İslam əxlaqından uzaqlaşmaları və bütün bunların nəticəsində, məzlumlara kömək etməmələridir.

Plakat: “Mühacirlərə xeyr”

Dünya ölkələrinin bir araya gələrək büdcələrinin çox az bir hissəsi ilə bütün dünya mühacirlərinin problemlərinə əlac tapmaları, bu insanlara etibarlı bir sığınacaq və insan şərəfinə yaraşan həyat təqdim etmələri çox asandır. Bu səbəbdən ortaya çıxan mühacir probleminin həlli üçün bütün insanların etməli olduğu; Allahın əmri gərəyi qısa müddətdə bir araya gəlmək, zülmdən qaçan və etibarlı sığınacaq axtaran bu məzlumlara şəfqətlə və sevgi ilə qucaq açmaq və hal-hazırkı bütün imkanları onlarla paylaşmaqdır. Vicdanı sızıldadan və XXI əsrə əsla yaraşmayan mühacir problemi ancaq bu şəkildə qəti bir həll tapacaqdır.

Bu kitabda dövrümüzün ən böyük problemlərindən biri olan mühacir problemini bütün detalları ilə ətraflı müzakirə edəcək, hər mövzuda olduğu kimi bu mövzuda da Uca Rəbbimizin əmri istiqamətində hərəkət edilməsi vəziyyətində, bəhs etdiyimiz acılı mənzərələrin asan şəkildə sona çata biləcəyini izah edəcəyik.

FƏSİL

Mühacirlərə dəstək olmaq Allahın razı olacağı gözəl rəftardır

(“Elmi araşdırma” jurnalı, sayı 109, iyul 2013-cü il)

Dövrümüzdəki mühacirlərə qarşı müsəlmanların mövqeyi necə olmalıdır?

Mühacirlərə kömək etmək müsəlmanlara nələr qazandırar?

Mühacirlər evinizə geri dönün Niyə bizi təhlükəyə atırsınız Yurdlarından qaçmaq məcburiyyətində qalan məzlum insanları, bəzi təxribatçıların çirkin rəftarlarına görə təkrar müharibə mühitinə qaytarmağa çalışmaq böyük bir vicdansızlıqdır. Belə bir vicdansızlığın Allah Qatında günahı çox böyük ola bilər.

Birləşmiş Millətlər Təşkilatı dünya üzərində təxminən 50 milyon mühacirin olduğunu bildirməkdə və bu mühacirlərin çox böyük bir hissəsini müsəlmanların meydana gətirdiyinə diqqət çəkməkdədir. Xüsusilə də müstəmləkəçi ölkələrin İslam torpaqlarının zəngin qaynaqlarını ələ keçirmə hədəflərinə görə son bir əsrdir milyonlarla müsəlman torpağını, evini, işini tərk etmiş, qonşu ölkələrdə, düşərgələrdə çox çətin şərtlər altında yaşamaq məcburiyyətində qalmışdır. Müharibə, şiddət və işğal nəticəsində reallaşan bu sığınmaların ardından tərk edilən torpaqlara başqa xalqlar yerləşdirilmişdir. Məsələn dövrümüzdə Fələstin

xalqının üçdə ikisi mühacir mövqeyindədir. Hətta Fələstində yaşayanların belə böyük hissəsi evlərini tərk etmək və düşərgələrdə yaşamaq məcburiyyətində qalmışdır. ABŞ müdaxiləsinin ardından yurdlarından ayrılmaq məcburiyyətində qalan çox sayda iraqlı, zülm gördükləri Myanmada evlərini tərk edən rohincalılar, 2 milyona yaxın əfqan, kəşmirli, somalili... Qısacası yüz minlərlə mühacir vardır. İndi də Suriyada yüz minlərlə mühacir ana yurdlarını tərk etməkdədir.

İslam tarixində mühacir hüququ çox əhəmiyyətli yer tutur

İslamiyyətin ilk illərində işgəncə və zülmə dözülməyəcək nöqtəyə gəldiyində peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) yanındakı müsəlmanlarla birlikdə Mədinəyə sığınmışdı. Məkkədən Mədinəyə köç edən bu müsəlmanlara "mühacirlər" (köç edənlər) deyilmişdir. Mühacirlər mədinəli müsəlmanlar tərəfindən çox gözəl bir şəkildə qarşılanmışlar. Mühacirləri saxlayan, onlara hər cür kömək edən mədinəli müsəlmanlar isə "ənsar" (kömək edənlər) olaraq adlandırılmışdır. Allah bu iki mömin birliyinin hər ikisindən də razı olduğunu belə bildirməkdədir:

> *İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər – məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır.*
>
> **(Ənfal surəsi, 74)**

Peyğəmbərimiz (s.ə.v)-in "ənsar-köməkçi" adını verdiyi Mədinə xalqı əvvəlki illərdə həcc mövsümlərində Məkkəyə gedərək gizlicə Rəsulullah (s.ə.v)-ə beyət edən, ya da beyət edən müsəlmanların təbliği ilə İslam dinini qəbul edən Yəsriblilərdən meydana gəlirdi. İslamı məkkəli müsəlmanların çoxundan daha gec qəbul etmişdilər, amma onlar kimi gözəl əxlaqlı, səmimi və fədakar idilər. Bu qiymətli şəxslər onlara sığınan mühacirləri qardaş bilmiş, mallarını evlərini, yeməklərini mühacirlərlə könüldən bölüşmüş və üstün bir əxlaq göstərmişlər. Allah ənsarın göstərdiyi bu gözəl əxlaqı belə bildirmişdir:

Biz mühacirik. Bizi ölümə göndərməyin. Zəif, çarəsiz qalmış bu məzlum insanlar, yalnız canlarını qurtarmaq istəməkdə və müharibə mühitinə geri dönməmək üçün yalvarmaqdadırlar. Bu yalvarışa laqeyd qalmaq böyük bir vicdan boşluğudur.

> *Mühacirlərdən əvvəl Mədinədə (Yəsrib) yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

Ənsarın bu gözəl əxlaqı xeyirlərə vəsilə olmuş və İslam yalnız Mədinəyə deyil, bütün dünyaya yayılmışdır. Allah hicrət edənləri və onlara kömək edən bu üstün əxlaqlı ənsarı Tövbə surəsində bu şəkildə müjdələmişdir:

> *Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur.*
>
> **(Tövbə surəsi, 100)**

Quran ayələrində göstərdikləri fədakarlıq, sevgi, şəfqət və mərhəmətləri tərifl ənən bu birliyin gözəl rəftarı bütün dünya müsəlmanlarına nümunə təşkil etməli və dövrümüzün müsəlmanları da mühacirlərə eyni əxlaqı göstərməlidir.

Köməyə möhtac olan müdafiəsiz insanlara kömək etmək insanlığın gərəyidir. Lakin hər şeydən əvvəl Quranın əmridir.

Peyğəmbərimiz (s.ə.v) zamanındakı ənsar kimi suriyalı mühacir qardaşlarımıza sahib çıxmaq İslam anlayışının tələbidir

Suriya ilə əlaqədar müzakirələri dinləmək, bəzi provokatorların çirkin əməllərinə görə bu məzlum insanların təkrar müharibə mühitinə dönməyi seçdiklərini eşitmək, gömrük qapısında gözləyərkən üzlərindəki o çarəsiz ifadəni görmək vicdanlı insanların hamısını əlbəttə çox narahat etmişdir. Düşünün ki, bu insanların çox böyük hissəsi peşə sahibi, geniş imkanlara sahib, evi, avtomobili, dolanışıq qaynaqları olan insanlar idi. Ancaq Suriyadakı zülm o qədər şiddətlidir ki, ölüm qorxusu ilə arxalarına belə baxmadan qardaş torpaqlara sığınıb hicrət etdilər. Bombalanmaq, təcavüzə məruz qalmaq, silahın qundağı ilə öldürülmək yerinə mühacir olmağı seçdilər. İllərdir əziyyətlə qurduqları həyatlarına dair hər şeyi geridə buraxaraq yalnız ailələrini qoruya bilmək üçün torpaqlarımıza sığındılar.

Ölkəmizə gələn bu suriyalı bacı-qardaşlarımızla olan əlaqəmizi siyasət və ya ölkə iqtisadiyyatı çərçivəsində düşünmək, “konyunktura, geosiyasət, real siyasət” kimi anlayışların arxasına sığınaraq “soyuq izahlar” etmək insanlıq adına böyük bir fəlakət olar. Həyatımıza dair hər şeyi olduğu kimi hal-hazırda baş verən bu vəziyyəti də İslam əxlaqı çərçivəsində, sağlam fikir və vicdanla düşünməmiz və ona görə vicdanımızı istifadə edərək davranmamız lazımdır.

İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli Allah qəlblərdə bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)

Allahın Quranda bildirdiyi üstün mərhəmətli əxlaq

Allah Quranda, mühacirlərlə, yəni zalım rəhbərlərin zülmündən qaçan müdafiəsiz insanlarla qarşı-qarşıya olduqlarında müsəlmanların necə rəftar etmələrini belə bildirir:

> *Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?*
>
> **(Nisa surəsi, 75)**

Ayədə bildirildiyi kimi məzlum kişilər, qadınlar və uşaqlardan bəhs edildiyində müsəlmanların dərhal köməyə qaçmaları əmr edilməkdədir. Allah bu ayəsi ilə irq, inanc, məzhəb ayrı-seçkiliyi edilmədən zülmə məruz qoyulan hər qövmə kömək etməyi müsəlmanlar üzərinə məsuliyyət etmişdir.

Evini, yeməyini, suyunu və digər maddi imkanlarını bu məzlum insanlarla paylaşmamaq, köməyə möhtac olan müdafiəsiz insanlara kömək etməmək, yalnız öz mənfəətlərini düşünmək Quranda göstərilən çirkin davranışdır. Quranda "yolda qalmış kəslərə" kömək əli uzadılması belə əmr edilmişdir:

Əsgəri və polisi ilə alicənab türk milləti mühacirlərə kömək əlini hər zaman uzatmışdır və uzatmağa davam edəcək. Onlar, Türk xalqı üçün yük deyil, tam tərsinə Allahın qonağıdırlar.

> *Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.*
>
> **(İsra surəsi, 26)**

Görüldüyü kimi yolda qalmış kəslər Quran ayələrinə görə kömək ediləcək ən vacib qrupdur. Mühacirlik isə yolda qalmış olmanın, yəni evsiz, yeməksiz səfər halının tam qarşılığını meydana gətirməkdədir.

Məhz İslam əxlaqının və vicdanın gərəyi olaraq bizlər də Peyğəmbərimiz (s.ə.v)-i və səhabələri üstün əxlaq nümunəsi göstərərək ən gözəl şəkildə qarşılayan ənsar kimi olmalıyıq. Özümüzdən əvvəl suriyalı qbacı-ardaşlarımızı düşünməli, əvvəl onların yeməyini, isinməsini, yatacaq

yerini təmin etməli, onları narahat edəcək hər cür rəftar və danışıqdan diqqətlə çəkinməliyik.

Qırğınlara, sürgünlərə məruz qalan, evləri, şəhərləri yandırılan, öz ölkələrində vətəndaş olaraq belə tanınmayan Myanmadakı müsəlmanlar, dünyanın gözləri qarşısında qorxunc bir faciə yaşamaqdadırlar.

Hicrət, yalnız Peyğəmbərimiz (s.ə.v) dövründə yaşamış olan səhabələr üçün deyil, onlardan sonra yaşayan və onların yolunu izləyən bütün möminlər üçün son dərəcə gözəl bir nümunə meydana gətirməkdədir. Əhəmiyyətli olan isə, hicrətin şəklindən çox, hicrət əsnasında baş verən mənəvi inkişaf, imani yetkinlik və gözəl əxlaq, ya da bir başqa deyişlə hicrətin ruhudur. Bu ruh, fərqli şəkillərdə də olsa bütün möminlər tərəfindən hər dövrdə və hər coğrafiyada yaşana bilər.

FƏSİL

Adnan Oktarın A9 TV-də mühacirlər mövzusundakı şərhləri

(12 may 2013-cü il, A9 TV)

Suriyalı mühacirlərə ünvanlanmış sözlər çox ayıbdır, qonağa belə deyilməz. Baxın, bu insanlar necə gəlir bilirsiniz?

Uşaqları ilə birlikdə qaçır, deyirlər ki, "uşaqlarımıza, qızlarımıza təcavüz edirlər, bizləri öldürəcəklər". "Allah rizası üçün bizi qurtarın" deyirlər. Qapıya gəlmiş, sən də qapını üzlərinə bağlayırsan. Allah əsirgəsin, bilirsən hansı mövqeyə düşürsən? Bu cinayətlərə, təcavüzlərə tamaşaçı kimi olarsınız o zaman. Bir uşağı kimsə öldürmək istəyir, əlini qaldırmış, əlini tutsan dayandıracaqsan. Nə deməkdir bu? Tutmazsan əlini, bu cinayətə səssiz qalmış olar o adam, Allah əsirgəsin.

Etməyin, bu cür etməyin. Milyonlarla insan belə olsa Türkiyə qəbul edəcək suriyalı bacı-qardaşlarımızı.

Rohinca müsəlmanları üçün öz ölkələrindən tək qaçış yolu köhnə gəmilərlə dənizə yelkən açmaqdır. Amma bu yazıq insanlar sığındıqları ölkələr tərəfindən geri çevrilir və ya yolda həyatlarını itirirlər.

Təxribat edirlər, provokatorlar tapırlar. Biz bunlardan təsirlənmərik. 100 min bomba partlatsalar, Suriyadan bizə sığınan insanlara qapı bağlatdırmarıq. Türkiyə Cümhuriyyəti vətəndaşı edilsinlər, qanun çıxarılsın, geri göndərməyək onları Suriyaya və ya iki vətəndaşlıqları olsun. Türk vətəndaşlığına da keçirək. Ev verək, Hatayda məskunlaşsınlar.

Allah əsirgəsin, bu necə bir şeydir belə? Allah Qatında məsuliyyəti ola bilər bunun. Cinayətə tamaşaçı qalmış olarıq belə bir vəziyyətdə.

Mən maraqlanıram, bu kəslər özləri Suriyada olsaydılar və bəziləri onları öldürməyə çalışsaydı, uşaqlarına, xanımlarına təcavüz etməyə cürət etsəydilər və qapı da üzlərinə bağlanılsaydı, necə qarşılayardılar bu vəziyyəti?

Təbii ki, heç kim bunun özünə edilməsini qətili olaraq istəməz.

Mühacirlərə kömək insana iman dərinliyi və yetkinlik qazandırar

Mühacirlərə kömək etmək insanın nəfsindəki xəsis və eqoist ehtiraslardan təmizlənməsinə vəsilə olar. Bu səbəbdən Peyğəmbərimiz (s.ə.v) zamanında olduğu kimi bu gün də mühacirlərə kömək edənlər və onlara maddi-mənəvi müxtəlif imkanlar təqdim edənlərin Allahın icazəsi ilə imanları möhkəmlənmiş və əxlaqları yetkinləşmişdir. Çünki mühacirlərə kömək edənlər sahib olduqları malları Allahın razılığını qazana bilmək üçün istifadə edərək, maddiyyata dəyər vermədiklərini göstərərlər. Bu kəslər mömin bacı-qardaşlarının hüzuru və rahatlığı üçün fədakarlıq edərkən, öz nəfslərindəki eqoist duyğulardan xilas olmuşlar.

Buna görə mühacirlərə kömək hər şeydən əvvəl imanda dərinləşmək, kamil imana qovuşmaq üçün əhəmiyyətli vəsilədir. Allah Quranda bu üstün əxlaqı belə xəbər verməkdədir:

> *Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.*
>
> **(Ənfal surəsi, 72)**

Myanmada quldur dəstələri tərəfindən qətliama məruz qalan və sonra yandırılan Duchira kəndinin sağ qalanları rohinca müsəlmanlarına olan vəhşilikləri dilə gətirir.

Ənsarın göstərdiyi üstün əxlaqı, fədakarlığı göstərmə zamanıdır. Ənsar kimi olmaq ehtiyac içində olana qucaq açmaqdır, lazım olsa aç qalmaq, amma mühaciri yedirmək, lazım olsa yatmamaq, amma mühacirə yatacaq yer təmin etməkdir. Ənsar kimi olmaq irq, din, rəng ayrı-seçkiliyi güdmədən möhtac olanı bağrına basmaq deməkdir. Bizə yaraşan, şərtlər nə olursa olsun ənsar kimi olmaqdır.

FƏSİL

Rohinca faciələri: Myanmadan Yərmuka

("Harakah Daily" və "Burma Times" - 4 yanvar 2014-cü il)

Myanmanın Arakan əyalətindəki Rohinca müsəlmanlarına qarşı mərhəmətsiz üsullarla icra edilən etnik təmizlik hərəkəti müddətində baş verən qırğın, zülm, işgəncə və vəhşiliyin ölçüləri təxəyyülün sərhədlərini aşacaq xüsusiyyətdədir.

Rohinca soyqırımını dayandırın.

1942-ci ildən bəri icra edilən sistematik təmizləmə siyasəti istiqamətində edilən qırğın və sürgünlər nəticəsində, bölgədəki 4 milyon müsəlmandan geriyə hal-hazırda yalnız 700 mini qalmışdır. Bu günə qədər 3 milyon müsəlman, qonşu ölkələrə köçməyə məcbur edilmiş, yüz minlərlə müsəlman şəhid edilmiş, on minlərlə məskunlaşma ərazilər yandırılaraq yox edilmiş, on minlərlə qadın təcavüzə məruz qalmış, yüzlərlə məscid və mədrəsə dağıdılıb xarabaya çevrilmişdir. Həbs edilmiş və işgəncə görən minlərlə müsəlman olduğu bilinməkdədir. Ancaq bu kəslərin aqibətləri məlum deyil.

Son illərdə Banqladeş hökuməti sərhədlərini mühacirlərə bağladığı üçün qaçaq olaraq bu ölkəyə sığınmaq istəyən yüzlərlə müsəlman, sərhəddəki çay və dənizlərdə boğularaq həyatını itirməkdədir. Bu da ölkəni tamamilə müsəlmanlardan təmizləmək istəyən Myanma rəhbərliyinin maraqları ilə üst-ütə düşməkdədir.

Myanma müsəlmanlarını, vətəndaşlarını qoru. Myanma müsəlmanlarına edilən şiddəti dayandırın. Lütfən, arakanlı rohinca müsəlmanlarının həyatını qorumaq üçün Myanmanın Arakan əyalətinə medianı və BMT-nı göndərin. Dünyanın müxtəlif yerlərində Rohinca müsəlmanlarının yaşadığı vəhşiliyin başa düşülməsi üçün müxtəlif nümayişlər edilməkdə, kömək istənilməkdədir. Lakin yenə də bu böyük zülmü kifayət qədər çatdırılmamışdır. Myanmadakı dövlət dəstəkli etnik təmizliyi dayandırın.

2013-cü ildə iyun ayı etibarı ilə yenidən alovlanan hücumlarda 330-dan çox müsəlman kəndi, məscid və mədrəsələr də daxil olmaq üzrə atəşə verilərək müsəlman qardaşlarımız evlərində diri-diri yandırılmışdır. Müstəqil insan haqları quruluşlarına görə, yalnız 2012-ci il iyun ayında bu bölgədə 1000 müsəlman mərhəmətsiz şəkildə şəhid edilmiş və 125 min

adam evlərindən və kəndlərindən sürgün edilərək meşələrdə yaşamaq məcburiyyətində buraxılmışdır.

İnsan Haqları İzləmə təşkilatı, ötən aylarda arakanlı müsəlmanlara qarşı işlənən insanlıq cinayətləri ilə əlaqədar 153 səhifəlik hesabat nəşr etmişdir. Hesabatda Myanma səlahiyyətliləri, Arakan əyalətində rohinca müsəlmanlarına qarşı etnik təmizlik etməklə günahlandırılmışdır. BMT tərəfindən edilən şərhə görə isə arakanlı müsəlmanlar dünyanın ən çox zülmə məruz qalan ictimai qrupudur.

Rohinca müsəlmanları, uzun illərdir böyük bir haqsızlıq, soyqırım və faciə yaşamaqdadırlar. Dünya liderlərinin bu mövzuya laqeyd qalmaları, insanlığın üz-üzə gəldiyi böyük fəlakəti gözlər önünə sərməkdədir.

Myanma rəhbərliyi, hər nə qədər özünü şiddət və terror hadisələrinin xaricində göstərmək istəsə də hücumlara göz yumaraq, müsəlmanlara kömək çatdırılmasını maneə törədərək, səyahət və insan kimi yaşamaq azadlığını məhdudlaşdıraraq və təcavüzkarları qoruyaraq bu soyqırıma dəstək verir.

Bununla yanaşı, dövlətin müsəlmanlara gətirdiyi tətbiq və sanksiyalar tam mənası ilə insanlıqdan kənardır.

Rohinca müsəlmanlarının vətəndaşlıq haqları yoxdur və dövlətin heç bir imkanından faydalana bilməzlər. Pasport ala bilməz və xəstələndiklərində dövlət xəstəxanalarına qəbul edilməzlər. Dövlət, ya da xüsusi təşkilatlarda ödənişsiz işlədilirlər. Dövlət məmuru olma və orta məktəbdən sonra təhsilə davam etmə haqları yoxdur.

Müsəlmanlar, bir kənddən başqa kəndə getmək üçün belə dövlətə vergi vermək məcburiyyətindədirlər. Saat 21.00-dən sonra küçəyə çıxmaları, polisdən icazə almadan qohum, qonşu ziyarətinə getmələri qadağandır.

Müsəlmanların beton ev tikmələri də qadağandır, ancaq taxta ev tikə bilərlər. Bu evlərin mülkiyyəti də dövlətə aiddir. Sabit telefon, ya da mobil telefon, motorlu nəqliyyat vasitəsi sahibi olmaları qadağandır.

Onlara bir cinayət isnad edildiyində müdafiə etmə haqları yoxdur, dərhal həbs edilirlər. Polis, ya da əsgər səbəb göstərmədən evlərinə basqın edə bilər. İstədiklərində zövq olaraq da həbs oluna bilərlər.

1962-2011-ci illər arasında kommunist hərbi rəhbərliklə idarə edilən Myanmada müsəlmanların yox edilməsi sanki dövlət siyasəti halına gətirilmişdir. Ardından geniş diametrli pozuntuların yaşandığı siyasi seçkilər nəticəsində ölkədə yenə kommunist hərbi xunta guya demokratik rəhbərliyə keçmişdir. Nəticədə bu gün yenə kommunist hərbi xunta, eyni siyasəti kukla hökumət üzərindən davam etdirməkdədir. Məqsəd, yox edərək, ya da sürgün edərək müsəlmanların sayını sıfıra endirməkdir.

Arakanda davam edən, indiyə qədər müsəlmanların zülmünü həmişə mövhumatçı buddistlərə aid edərək etnik mübarizə kimi göstərməyə çalışmışlar. Halbuki hər kəsin bildiyi kimi buddistlər, inancları gərəyi insan öldürməkdən qəti uzaq olan sadəlövh, itaətli və sülhsevər insanlardır. Həqiqi cinayətkarlar isə özünü buddist olaraq göstərən, kommunist dərin dövlətə bağlı quldur dəstəsi və terror təşkilatları olduğu

artıq bilinməkdədir. Daha əvvəlki şiddət və qırğınları "Lion Thein" adlı terror təşkilatı etməkdə ikən, yaxın zamanda başlayan yeni terror hadisələrini "969 hərəkatı" boynuna götürməyə başlamışdır.

Bu quldur dəstələrinin üzvləri ümumiyyətlə Tailand və Çində kommunist partizan təhsili alaraq Myanmaya gələn militanlardan meydana gəlməkdədir. Şərqi Türküstandakı müsəlmanlara qarşı icra edilən bənzər etnik təmizlik hərəkatı, Kommunist Çinin çox yaxın dost və müttəfiqi olan Myanmadakı hadisələrin də pərdə arxasında olduğu ehtimalını ağıla gətirməkdədir. Çünki, zəngin yeraltı qaynaqları, neft ehtiyatları və enerji qaynaqlarına sahib olan və Orta Şərqin neft və qazının keçid nöqtəsində yerləşən Myanma, Çinin strateji olaraq ən əhəmiyyət verdiyi ortaqlarından biridir. Belə bir ölkədə müsəlmanların söz sahibi olması isə kommunist Çin dövlətinin ən son istəyəcəyi vəziyyətdir.

Dünyanın dörd tərəfində müsəlmanların başına gələn zülm, şiddət və qırğınlara dünyada bir çox ölkə necə həmişə tamaşaçı qalırdısa, Arakan üçün də dəyişən bir vəziyyət yoxdur. Məhz on illərdir dəyişməyən bu mənzərə, müsəlmanlar aşağıdakı ayələrin hökmünü yerinə yetirib birlik olmadıqca, bu acıların sona çatmayacağının çox açıq göstəricisidir:

> *Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.*
>
> **(Ənfal surəsi, 73)**

> *Və haqlarına təcavüz edildiyi zaman, birlik olub etiraz edənlərdir.*
>
> **(Şura surəsi, 39)**

Müsəlmanların bir araya gəlib tək bir bədən olaraq hərəkət etmələrini istəməyən, gərəksiz görən, ya da passiv və bitərəf qalan kəslər isə çəkilən bu əzabların, baş verən bu zülmlərin, tökülən müsəlman qanlarının vicdanı məsuliyyətini boynuna götürmək məcburiyyətində qalacaqlar.

Hörmətli Adnan Oktarın bu məqaləsi, "Harakah Daily" və "Burma Times" qəzetlərində dərc olunmuşdur:

http://en.harakahdaily.net/index.php/articles/analysis-a-opinion/8322-events-in-Myanma-are-crime-against-humanity-.html

http://burmatimes.net/events-in-Myanma-are-crime-against-humanity/

Rohinca xalqından Birləşmiş Millətlər Təşkilatına kömək fəryadı

(“Harakah Daily” və “Burma Times”- 27 yanvar 2014-cü il)

Sizə nə olub ki, Allah yolunda və: “Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!”–deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)

Cənub-Şərqi Asiyanın Hind-Çin bölgəsinin ən böyük ölkəsi olan Myanmada 70 milyonun yalnız 3 milyonunu müsəlman əhali təşkil edir. Ancaq buna baxmayaraq müsəlmanlara qarşı ciddi vəhşilik tətbiq olunur. Bu vəhşiliyin əsas qaynağı isə etnik və dini ayrı-seçkilikdir.

Dünya, Yərmukdakı məzlumların vəziyyətini, ancaq oradakı insanlar aclıqdan ölməyə başladığında fərq etmişdi. Bu dəhşətli vəziyyət Suriyanın müxtəlif yerlərində hələ də davam edir.

Ölkədə yaşayan təxminən 800.000-ə yaxın rohincalı müsəlmanı vətəndaşlığa qəbul edilmir. Bu insanlar, keçmişdə qonşu ölkə Banqladeşdən gəlmiş olan "qaçaq immiqrantlar" olaraq görülür. Digər tərəfdən sərhəddəki sahil zolağında yaşayan rohincalılar Banqladeş rəhbərliyi də ölkəsinə qəbul etmir.

İki ölkənin də kənarlaşdırmaq istədiyi Rohinca insanları, bu torpaqlarda "vətənsiz insanlar" olaraq həyat mübarizəsi verirlər. İki ölkənin də rədd etməsi ilə rohincalılar şəxsiyyət vəsiqəsinə, buna görə də hər hansı bir vətəndaşlıq haqqına belə sahib deyildirlər. Varlıqları isbat edilə bilmədiyi kimi, yoxluqları da isbat edilə bilmir.

Mühasirə altındakı Yərmuk düşərgəsində insanlar aclıqdan ölür.

Təhsil, səhiyyə kimi sosial haqlardan və sosial xidmətlərindən faydalana bilmirlər, xəstəxanalara qəbul edilmirlər, dövlət dairələrində işləyə bilmirlər. Təhsil imkanları olmadığı üçün oxuma yazma bilməyənlərin nisbəti 80%-dir. Uşaqlarına doğum haqqında şəhadətnamə belə ala bilmirlər və evlənmə icazələri də yoxdur. Mal, mülk, torpaq sahibi ola bilmirlər. Betondan ev tikmə icazələri yoxdur, ancaq bambuk, ya da taxta evlərdə yaşaya bilirlər ki, bunlar da evlərə hücum ediləndə və çoxlu yağıntıda asanlıqla dağılırlar.

Myanmanın Arakan əyaləti, ölkədəki təbii qaz xətlərinin və neft ehtiyatlarının üzərində yerləşir. Boru xətlərinin üzərində olan kəndlərin boşaldılıb müsadirə edilməsi, bölgədəki müsəlmanların vətəndaşlıqdan çıxarılıb soyqırıma məruz qoyulması, bölgə üzərində mənfəətləri olan kütlələr üçün hər zaman əhəmiyyətli oldu. Bölgədə insanlığın itirilməsi ilə çox az adam maraqlanır. Təbii qaz boru xətləri, Myanmada bir çox müsəlmanın evlərini tərk etmələrinin səbəbidir. 21-ci əsrdə, ticari mənfəətlərin vicdanı həssaslıqdan üstün olması isə acı bir mənzərə yaradır.

1978-ci ildən indiyə qədər Myanmada "qeyri-qanuni immiqrant" olaraq görülən rohinca xalqına istiqamətli təzyiq və zülm siyasəti olduğu bilinən bir həqiqətdir. 2012-ci ilin iyunundan bəri də bu tətbiqlər şiddətlənmiş vəziyyətdədir. O gündən bu günə, çoxu Arakan (Rakhine) əyalətində yaşayan müsəlmanlar olmaq üzrə, 240 adamın həyatını itirdiyi, 250 mindən çox adamın da yaşadıqları yerləri tərk etmək məcburiyyətində qaldıqları ifadə edilir.

Rohinca müsəlmanları, öz ölkələrindən qaçmaq üçün köhnə gəmilərə minmək məcburiyyətindədirlər. Bu gəmilər çox vaxt heç quruya çata bilmir.

Rohinca xalqına istiqamətli hücumlar isə sona çatmış deyil. 14 yanvar 2014-cü il tarixində Myanma Hərbi Qüvvələri, Polis Qüvvələri (Hlun Hteins) və Rakhine terroristləri Arakan əyalətində olan Ducharidan (Kilai-Daung) adlı Rohinca kəndinə vəhşi və qanlı basqın reallaşdırdılar. Şahidlərin bu hücumlarda təxminən 60 adamın öldürüldüyünü, bir çox günahsız kəndlinin həbs olunduğunu, qadın və qızlara təcavüz edildiyini, 200 qadın, 6 kişi və 5 uşağın da itkin olduğunu iddia edirlər. İnsan haqları təşkilatları, rohinca müsəlmanlarının yaşadığı Ducharidan kəndinə edilən hücumda yüzlərlə adamın da qorxudan qaçaraq bölgəni tərk etdiyini bildirdilər. Hal-hazırda, 340 sığınacaq və 4000 adamın yaşadığı məskunlaşma sahəsi tamamilə boşalmış vəziyyətdədir. Kənd dövlət adamları tərəfindən "qadağan bölgə" elan edildi və kənardan gələn müşahidəçilərin, jurnalistlərin və rohincalıların kəndə girişləri qadağan edildi.

İddialara görə hadisələr Duchiradan kəndi rəhbəri Aung Zan Phyu tərəfindən səkkiz rohincalının öldürülməsi ilə başladı. Kəndlilərin bu hadisəyə şahid olmasına görə, cinayəti gizlətmək istəyən kənd rəhbəri, kəndliləri həbs etməyə çalışdı və onlara atəş açdı. Həmçinin hadisələr əsnasında kənddəki gənc qızlardan birinə təcavüz edildi. Bu hadisələrdən sonra bölgədə gərginlik daha da artdı və hadisə yerindəki polislərdən biri kəndlilər tərəfindən öldürüldü. Ardından da Arakan (Rakhine) əyalətinə bağlı Maungdaw bölgəsinin rəhbərliyi, təhlükəsizlik güclərinin kəndlilər üzərinə atəş açması əmrini verdi. Hadisənin şahidləri, onların kəndlilərin cəsədlərini gizlətməyə çalışdıqlarını söyləyirlər. 22 yanvar günü gələn xəbərlərdə isə Naypyidaw rəhbərliyinin, rohinca xalqından olan 10 yaşdan yuxarı bütün kişilər üçün "həbs edilmə əmri" çıxartdığı bildirilir. Bunun da günahsız xalqa qarşı yeni bir soyqırım dalğasının xəbərçisi olduğu narahatlığı gedərək böyüyür.

Ancaq bu, rohincalıların ilk qırğın xəbəri deyil. Rohincalıların əsir alınaraq insan ticarətində istifadə edildikləri, müxtəlif işgəncələrə məruz qalaraq öldürüldükləri, cəsədlərinin yük maşınlarla meşəyə daşındığı, hissələrə ayrılaraq kəsilib çuxurlara atıldığı, qadınlarına təcavüz edildiyi və öldürülmədən əvvəl sinələrinin kəsildiyinə dair şahidlər olduğu izah edilir.

Rohinca xalqı qorxu içindədir. Ancaq özlərini qorumaq üçün heç nə edə bilmirlər. Nə sığına biləcəkləri bir təşkilat, nə vətəndaşlıq haqları, nə də hüquqi haqları var. Dünyaya səslərini eşitdirə biləcəkləri ən sadə bir texnoloji imkandan belə məhrumdurlar.

Myanma hökuməti, BMT İnsan Haqları Xüsusi Məruzəçisi Tomas Laka Quintananın hadisələrin araşdırılması tələbi üzərinə bütün bu hadisələri yalanladı və bir polis məmuru xaricində rohinca xalqından ölən heç kim olmadığını ifadə etdi. Arakan (Rakhine) əyaləti Baş naziri Hla Maung Tin isə, dünya mediasını "qaralama kampaniyası" icra etməklə günahlandırdı. Təbii ki, bunu təkrar xatırlatmaq lazımdır ki, rohincalıların vətəndaş olaraq qəbul edilmədikləri üçün əhali qeydiyyatı onsuz da yoxdur. Bu səbəbdən ölsələr də, ortadan itsələr də, onların varlığını, ya da yoxluğunu isbat edəcək rəsmi bir qeydiyyat yoxdur. Bu səbəblə iddialar doğrudursa, hadisə şahidlərinin ifadələri və cəsədlərin varlığı, hadisələrin isbat edilə bilməsindəki ən əhəmiyyətli dəlildirlər. Lakin dövlət adamlarının qırğınlara bağlı dəlilləri tez bir şəkildə yox etdiyi və bu səbəblə də dünyanın, baş verən bu hadisələrə bağlı dəlillərdən xəbərsiz qaldığı bildirilir.

Bəli müsəlman rohinca xalqı çox çətin vəziyyətdədir. Bu insanların qurtuluşu üçün əvvəlcə BMT-nin hərəkətə keçməsi və rohinca xalqının bütün yaşama haqlarını zəmanət altına alacaq bir iş üçün lazımlı addımları atması lazımdır. Maungdaw bölgəsindəki hadisələrin daha da

böyüməsinin qarşısının alınması və edilən qırğınların doğruluğunun təsbit edilə bilməsi üçün, dəlillər ortadan qaldırılmadan əvvəl beynəlxalq araşdırma qrupunun gedib ölkədə araşdırma etməsi ən təcili mövzudur. Ardından mühasirə altına alınan kənddən çıxarılan xalqın, sığınacaqlarına geri dönə bilmələri və orada onlara etibarlı bir mühit yaradılması üçün qalıcı qərarlar alınması lazımdır. İşgəncələrin, təcavüzlərin, talanların, haqsız həbslərin, cinayətlərin dayandırılması; bu hüquqsuz tətbiqləri edənlər haqqında lazımlı sorğulamaların və qanuni əməliyyatların edilməsi; və beynəlxalq medianın, baş verənləri hadisə yerində araşdırmasının təmin edilməsi, atılacaq əsas addımdır.

Ardından da Rohinca xalqının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Arakan (Rakhine) bölgəsinə Birləşmiş Millətlər Təşkilatının Sülh Gücü göndərilməsi də həyati əhəmiyyət daşıyır. Bunun ardından atılması lazım olan ən əhəmiyyətli addım isə BMT-nin, rohinca xalqına vətəndaşlıq haqqı təmin edilib mühafizə altına ala bilmələri üçün lazımlı cəhdlər etməlidir. Ölkədəki digər vətəndaşlar kimi, təhsil, səhiyyə, dərman və müalicə imkanları kimi sosial haqlardan faydalanıb, bütün insani haqlara sahib ola bilmələri üçün Myanma hökuməti ilə təmasların qurulması lazımdır.

Myanma və Banqladeş arasında sıxışıb qalan bu vətənsiz və müdafiəsiz xalqı müdafiə altına alınması üçün lazımlı addımları atmaq əlbəttə vicdanlı hər insanın məsuliyyətidir. Dünyada sülhü, təhlükəsizliyi, təməl insan haqları və azadlıqları qorumağı özünə məqsəd etmiş BMT-nin isə bu mövzuda qabaqcıl olması və vaxt itirmədən hərəkətə keçməsi son dərəcə əhəmiyyətlidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi, “Harakah Daily” və “Burma Times” qəzetlərində dərc olunmuşdur:

http://en.harakahdaily.net/index.php/articles/analysis-a-opinion/8418-a-cry-for-help-to-the-un-from-rohingya-of-myanmar.html

http://burmatimes.net/a-cry-for-help-to-the-u-n-from-rohingya-of-myanmar/

Əgər mühacir düşərgəsində yaşasaydınız?

(“Kuwait Times” - 3 fevral 2014-cü il)

Heç bir əşyanız, pulunuz, yeməyiniz hətta şəxsiyyət vəsiqəsiniz belə olmadan, soyuq bir qış günündə yollara düşməyi heç ağlınızdan keçirmisiniz? Hətta bu çətin vəziyyətdə yanınızda uşaqlarınızın da olduğunu və onları da qoruyacaq və isidəcək heç bir şeyiniz olmadığını düşünə bilirsiniz? 6 milyon suriyalı da bunları heç düşünməmişdi, amma bu gün hamısı evlərini tərk etmək məcburiyyətində qaldılar. Mühacir vəziyyətinə düşən bu insanlar üçün əsl problem da bundan sonra başlayır. Dağılmış ailələr, sağlam olmayan və pis həyat şərtləri. Minlərlə insan isə yollarda həyatını itirir.

Sahillərdə sığınacaq yer tapa bilən rohincalılar, özlərinə havadan atılan yeməklərlə həyatlarını davam etdirə bilirlər. Bir çoxunun isə belə bir imkanı belə yoxdur.

Vətəndaş müharibəsindən əvvəl Suriya ən çox mühacir saxlayan ölkələrdən biri idi. Cəmi 2 milyon mühacir ev sahibliyi edən Suriyada bu gün ən çətin vəziyyətdə olanların bir hissəsi bəlkə də burada onsuz da mühacir olaraq yaşayan fələstinlilərdir. 1957-ci ildə İsrail-Qəzza müharibəsindən qaçan fələstinli mühacirlər üçün yaradılan Yərmuk mühacir düşərgəsi, zamanla artan köçlərlə 600 min əhaliyə çatmışdı. Vətəndaş müharibəsinin davam etməsi ilə düşərgədən köçlər olsa da düşərgə hələ izdihamlı bir mühacir əhalisinə sahibdir. Rejim güclərinin əvvəl hücum etdiyi daha sonra isə mühasirə altına alaraq qida və dərman girişinə icazə vermədiyi düşərgədə həyat hər keçən gün çətinləşdi. Belə ki, keçdiyimiz il insanlar qida tapa bilmədiyi üçün ağac yarpaqları ilə bəslənmək məcburiyyətində qalınca, suriyalı alimlər "pişik it, əti yeyilə bilər" fətvası belə vermişlərdi. Bu məlumat "kömək" etdiklərini göstərmək üçün kafidir. Yərmuk düşərgəsindəki mühacirlərin təcili köməyə ehtiyacı var.

Bu əlbəttə görünən ən təcili vəziyyətlərdən yalnız biridir. Lakin "mühacir" sözü artıq hər kəs üçün demək olar ki, eyni çətinliyi təmsil edir. Yalnız Suriyadan ayrılmaq məcburiyyətində qalan mühacirlər deyil, xüsusilə Orta Şərq başda olmaq üzrə dünyadakı heç bir mühacirin həyatında bir yaxşılaşma müşahidə edilmir. Hər il gedərək daha çox insan, yaşadığı torpaqları tərk etmək məcburiyyətində qalır. Bunların bir hissəsi, ölkə içində başqa yerlərə köç edərkən, geri qalanı da xarici ölkələrə köç edirlər. 95%-i Pakistan və İran kimi qonşu ölkələrə sığınan əfqanıstanlı mühacirlər dünyadakı ən böyük kütləni meydana gətirirlər. Dünyadakı hər dörd mühacirdən biri əfqandır. Əfqanıstanı Somali və İraq izləyir. Livanda BMT-də qeydiyyatlı 450.000 mühacir yaşayır. Toplama düşərgəsinə bənzər 12 məskəndə yaşayan bu mühacirlər yoxsulluq içində varlığını davam etdirməyə çalışırlar. Konstitusiya haqları rədd edilmiş, simvolik bir siyasi haqdan belə məhrumdurlar. Mühacirlərin çoxu, daha

sonra İsrail ordusuna çevrilən milislər tərəfindən 1947-48 illər arasında Fələstindən sürgün edilmişdi. Yəni ötən 66 ildən bəri insanlar, hələ də vətəndaşlıq haqqına sahib deyil və mühacir olaraq yaşayırlar. Yeni nəsillər mühacir düşərgəsində doğulub böyüyür.

Yaxşı, bəs dünyadakı bu mühacir problemi necə həll edilər? Olduqları yerlərdəki çətinliklərə görə yer dəyişdirmək məcburiyyətində qalan insanların ilk ehtiyacı, rahat yaşaya biləcəkləri ölkələrə sərbəst giriş və sərbəst yaşama haqqıdır. Bu şəkildə uzun səfərlərdən sonra bir də sərhəd qapılarında gözləmək məcburiyyətində qalmayacaq və heç olmasa səfərlərinin ilk addımı asanlaşacaq. Bu problemi həll etmək və Orta Şərqdə gedərək böyüyən mühacir probleminə bir çıxış yolu tapa bilmək məqsədi ilə əvvəlcə müsəlman dövlətlərin Avropa Birliyini xatırladan birlik qurması vacibdir. Bir-birlərinə Avropa Birliyindəki kimi sərbəst hərəkət etmə haqqı tanıyacaq olan ölkələrin vətəndaşları bu şəkildə çətin bir vəziyyət meydana gəldiyində, insan hərəkəti dəhlizi tapa biləcəklər. Bu vəziyyətdə vətəndaşlıq haqqı, vizasız iş haqqı kimi mühacirləri məhdudlaşdıran və həyatlarına insani şərtlərdə davam etmələrinə mane olan ünsürlər də ortadan qalxacaq və bu vəziyyətə bir yönü ilə çözüm təqdim edilə biləcək.

Du Chee Yar Dan kəndi, Arakanda qırğın yaşayan kəndlərdən yalnız biridir.

Yalnız mühacirlərin həyat standartlarını yaxşılaşdırılaraq daha insani bir mərhələyə gətirilməsi üçün baxdığımızda, Orta Şərqin öz birliyinə möhtac olduğunu görürük. Uzun, siyasi və bürokratik yolların kənarına çıxılıb bu təcili vəziyyətin sürətli həlli üçün, azadlıq və bərabərlik qanunlarını müdafiə edən hər fərdin birlik çağırışı etməsi vacibdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Kuwait Times" qəzetində dərc olunmuşdur:

http://news.kuwaittimes.net/living-refugee-camp/

Yərmukda baş verən insanlıq cinayətinə təcili son verilməlidir!

(“Islam Online” - 27 fevral 2014-cü il)

Rohinca müsəlmanlarına kömək edən yeganə qruplardan biri olan Sərhədsiz həkimlərin də bölgəyə girişi artıq qadağandır. Bölgəyə səhiyyə qrupu girə bilmədiyi kimi, bölgədən doğru məlumat almaq da get-gedə çətinləşir.

21-ci əsrdə, guya inkişaf etmiş demokratiyanın yaşandığı, insan haqlarının bütün dünya tərəfindən qəbul edildiyi bu əsrdə, Suriyanın mühacir düşərgələrində insanlar çox ağır şərtlərdə ölümlə pəncələşir. Məhz əzabların yaşandığı və bəzi insanların aylardır yemək belə yemədiyi

bu düşərgələrdən biri də Şama bağlı Yərmukdur. Suriya rejiminə bağlı əsgərlər tərəfindən 6 aydan çox müddətdir mühasirə altına alınmış olan Yərmuk mühacir düşərgəsində insani dəyərlər unudulmuş vəziyyətdədir. Mühasirə Yərmuk düşərgəsində günlərlə aç, susuz və bir dəri, bir sümük qalmış mühacirlər var.

Yərmuk düşərgəsinin qurulma səbəbi 1957-ci ildəki Ərəb-İsrail müharibəsindən sonra fələstinlilərin müdafiə altına alınmasıdır. Hal-hazırda isə məqsədinin tam tərsinə xidmət edən bir quruluşa bürünmüşdür. Bu düşərgə, burada yaşayan minlərlə günahsız fələstinli üçün sanki məzara çevrilmək üzrədir.

Myanmada müxtəlif kütlələrin dəstəyini alan quldur dəstələri cinayətlər törətməkdə və müsəlmanları evsiz qoymaqdadırlar. Müsəlmanlar Myanmada tamamilə qorumasız bir xalqdır. Evsiz qalan rohinca müsəlmanlarının iki variantı vardır: Ya bu quldur dəstələrin zülmünə boyun əyəcəklər, ya da qaçacaqlar. Ancaq hər iki ehtimal da ölüm deməkdir.

Dünya ictimaiyyəti 100-ə yaxın insanın aclıq və səfalət səbəbiylə ölməsinə tamaşaçı qaldı və sanki baş verənlərə göz yumuldu. İslam dünyası da hələ lazımlı reaksiyanı göstərməmişdir.

Əziyyətə məruz qaldıqdan sonra hicrət edib, sonra da səbir edərək cihad edənləri – bunlardan sonra Rəbbin şübhəsiz ki, bağışlayandır, rəhmlidir. (Nəhl surəsi, 110)

BMT-yə bağlı UNWRA-nın (Birləşmiş Millətlər Təşkilatının Yaxın Şərqdəki Fələstinli Qaçqınlara Kömək və İş Agentliyi) kömək qrupları ancaq daha bir neçə gün əvvəl bölgəyə kömək apara bildi. O da çox məhdud miqdarda bir köməkdir. Bölgədəki fəallardan Rami es-Seyid, "Yərmuk mühacir düşərgəsində aclıq səbəbiylə çox sayda xəstə var. Bu xəstələr üçün mütəxəssis həkimlərin girməsi lazımdır. Düşərgədə insanlar bir tərəfdən aclıqla, digər tərəfdən də xəstəliklərlə boğuşur" deyir.1

"Independent" qəzetində nəşr olunan xəbərə görə, aralarında uşaqların da olduğu Yərmuk düşərgəsində insanlıq faciəsi yaşanmaqdadır. Xəbərdə

Suriya rejimi tərəfindən mühasirədə saxlanılan bölgədə insanların duzlu su, heyvan qidası və yarpaqlarla bəsləndiyi ifadə edilməkdədir. “Independent” qəzetinə müsahibə verən zərər çəkmişlərdən Kais Səid 3 gündür yemək yemədiyini ifadə edərək, “İnsanlar ot, pişik, it yeməyə başladı” demiş, faciənin ölçülərini gözlər önünə sərmişdir.2

Sağ tərəfdə batmış qaçqın qayıqlarından biri Yəmənin sahilində görünür. Bu gəmidə 70 afrikalı qaçqın tələf oldu. Digər şəkillər isə, Yəmənə köç etməyin nə qədər çətin və ibtidai şərtlərdə reallaşdığını anlamaq üçün yetərlidir.

Düşərgədə humanitar həyat şərtləri təmin edilmir. İnsanlar aç və xəstəliklərə boyun əymiş vəziyyətdə yaşamaqdadır. Agentliyin nəşr etdiyi xəbərlərə görə düşərgədə əvvəlcədən yaşayan insan sayı 600 min ikən 2014-cü ilin əvvəlinə qədər bu rəqəm 20 minə düşmüşdür.3 100 mindən çox insan evini buraxaraq qaçmaq məcburiyyətində qalmışdır.

Yenə qəzetlərdə yer alan xəbərlərə görə düşərgədə yaşayan mühacirlər yoxluq və aclıq səbəbindən yeyilməyəcək hər cür şeyi yeməyə başlamışlar. İçmək üçün su olmadığı üçün duzlu su içmək məcburiyyətindədirlər. İsinmək üçün evlərindəki mebelləri yandırırlar. Bu əzablı mənzərə bütün dünya üçün utanc vericidir.4

Beynəlxalq Əfv Təşkilatı (Amnesty International) Suriya hökumətinə Yərmuk düşərgəsi də daxil olmaq üzrə, Şamda mühasirə altında tutduğu yerlərə insani köməyin çatdırılmasına icazə verməsi çağırışı etmişdir. Əfv təşkilatından verilən məruzədə Suriya hökumətinin göndəriləcək yardımlara maneə törətdiyi bildirilmişdir.5

Bəzi Qərb ölkələri insan haqları mövzusunda həqiqətən də çox həssas davranırlar. Bir yerdə insan haqq və azadlıqlarına məhdudlaşdırma olduğunda bir çox Qərb ölkəsi bu vəziyyətə sərt reaksiya verər. Ancaq çox dəhşətli vəziyyətdə olan Yərmuk üçün ciddi səy göstərmədiklərini görürük.

Qərb ictimaiyyəti ekoloji zərərdən bəhs etsək dünyanı ayağa qaldıraraq, bir delfin sahilə çıxsa onu qurtarmaq üçün hər cür texniki imkanları tətbiq edərək, yaşıllığı qorumaq üçün maksimum səviyyədə ciddi davranaraq gözəl vicdan nümunəsi göstərməkdədir. Mövzu insan canı olduğunda isə daha çox həssas və vicdanlı hərəkət etməsi lazımdır.

İslam dünyası da bu problemin həlli üçün, ciddi birlik ruhu sərgiləyib, möhtac vəziyyətdə olan bacı-qardaşlarımıza əl uzatmalıdır. Əsəd rejimi mühasirəni qaldırması üçün təcili olaraq razı salınmalıdır. Bacı-qardaşlarının göz görə-görə həyatını itirməsini heç bir müsəlman əsla qəbul edə bilməz. İslam ölkələri bu mövzuya ciddi yanaşmalı və bəhs etdiyimiz mühasirənin dərhal qaldırılması üçün Suriya rəhbərliyinə təzyiq etməlidir.

Suriya rəhbərliyinin sözünü ən çox dinlədiyi dövlət şübhəsiz ki, Rusiyadır. Yərmukdakı mühacirlərə humanitar yardım çatdırılması və xəstələrin oradan çıxarılaraq çox yaxşı baxılacaqları xəstəxanalara yerləşdirilmələri vacibdir. Əks halda hər gün yeni ölümlər olacaqdır. Bu səbəblə Rusiyanın Suriya üzərindəki imtiyazını istifadə edib oradakı günahsız insanların xilas olmasına vəsilə olacaq cəhdlər etməsi son dərəcə vacibdir.

Yərmuk problemi əsla regional bir məsələ olaraq hesab edilə bilməz. Günahsız insanların işıqsız, susuz, yeməksiz və dərmansız buraxılmasını heç bir vicdan qəbul edə bilməz. Dünyanın bir bölgəsində zəlzələ yaxud sel kimi təbii fəlakət yaşandığında, hər ölkə əlindəki imkanlarla zərər çəkmişlərin köməyinə qaçmaqdadır. Bunun nümunəsini keçmişdə dəfələrlə gördük. Hətta bir-birləri ilə problemlər yaşayan ölkələr belə, belə bir vəziyyət yaşandığında bir-birlərinə kömək əli uzatmaqdadırlar. Demək ki, insanlar və dövlətlər istədikləri təqdirdə bu həmrəyliyi sərgiləyə bilməkdədirlər. Məhz indi də belə bir köməkləşmə və həmrəylik nümunəsi sərgiləmənin tam zamanıdır.

İnsanlar, təşkilat və quruluşlar və dövlətlər birlikdə səsini yüksəltdikcə Əsəd rəhbərliyi dərhal geri addım ataraq ya mühasirəni tamamilə qaldıracaq, ya da yüngülləşdirəcək. Bu surətlə də orada yaşayanlara lazımlı humanitar yardım çata biləcək. Bu ictimai rəyin yaranması üçün lazım olan məsuliyyəti almaq və həssaslığı göstərmək hamımızın üzərinə düşən insanlıq vəzifəsidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "İslam Online"da dərc olunmuşdur:

http://www.islamonline.com/news/articles/2/The-Crime-against-Humanity-in-Yarmouk-Must-Be-Ende.html

Myanmadakı zülmün pərdə arxası

(“Harakah Daily” və “Burma Times”, 14-17 aprel 2014-cü il)

Fransadan daha böyük sahəsi olan Birmanın qlobal güclər üçün maraq mərkəzi olduğu bilinən bir həqiqətdir. Üstəlik Birma Orta əsrlərdə belə “mərkəz” mənasını verən adı ilə, böyük bir krallığın nümayəndəsi idi. Və bundan əsrlər sonra da Birma yenə, hələ də tam olaraq kəşf edilməmiş ucsuz-bucaqsız təbii zənginlikləri ilə Asiyanın “mərkəzi” olma xüsusiyyətini davam etdirir.

Kimsə mühacir olmaq istəməz. Lakin bu gün dünyada milyonlarla insan evlərini və mallarını geridə buraxaraq köçmək məcburiyyətində qalıblar. Dünyanın imkanları isə hər kəsi yedizdirməyə və yerləşməyə kifayət edir. Yetər ki, vicdanlı insanlar vicdanlarını kifayət qədər istifadə etsinlər.

Birma torpaqları qalay, sink, qurğuşun, volfram, qızıl, gümüş kimi mədənlərlə yanaşı neft və təbii qaz yataqları, qiymətli daş, taxta-şalban, düyü və dəniz məhsulları baxımından olduqca bərəkətlidir.

Ancaq bütün bunlara baxmayaraq Birma, indiki adı ilə Myanma, dünyanın ən kasıb ölkələrindən biri olaraq bilinir. Təbii zənginliklər xarici dövlətlər tərəfindən çıxarılır və ölkə daxili qarışıqlıqlar da bu kasıblığı artırır. Torpaqlarındakı yerüstü və yeraltı zənginliklərini çıxaracaq texnologiyaya və imkanlara sahib olmaması bir tərəfə; daxili

qarşıdurmalar, demokratiyanın yaşanmaması və insan haqları pozuntuları da yenə bu ölkənin kasıblıq səbəblərindəndir.

Övladına tapdığı quru çörəkdən başqa yedirəcək yeməyi olmadığı üçün ağlayan bir atanı yenə övladı təsəlli edir. Dünya ictimaiyyəti isə bu acılı mənzərə qarşısında laqeyd qalır. Bu laqeydlik gün keçdikcə daha da dəhşətli hal alır.

Birmanın strateji əhəmiyyəti isə şübhəsiz ki, əvvəlcə Çin, Hindistan, Tailand, Banqladeş və Laos kimi ölkələrin ortasında yer almasından qaynaqlanır. Bu səbəbdən, beynəlxalq ticarət baxımından da çox böyük bir strateji əhəmiyyətə sahibdir. Şimali Himalay dağının cənub yamacları, şərqi meşə olan dağ ətəkləri, qərbdə və cənubda isə Benqal körfəzi və Hind okeanı ilə əhatə edilmiş Birma, tarix boyunca ətrafındakı ölkələrin də tarixini və siyasətini şəkilləndirmiş bir ölkədir.

1947-ci ilə qədər İngilis müstəmləkəsi altında olan Birma, bu tarixdən sonra uzun illər hərbi xunta altında varlığını davam etdirdi. Birma bu dövrdə özünü sanki dünyaya bağladı. Bütün Asiyada tərəqqi yaşanarkən, Birma öz daxili problemlərinə qərq oldu. Dünya isə bu vəziyyətə Birmanı həm iqtisadi, həm də diplomatik baxımdan təcrid edərək cavab verdi.

Mühacirləri ölkəsində istəməyən insanlar görəsən özləri bənzər bir vəziyyətdə olsaydılar necə davranardılar? Divardakı yazı: “Mühacirlər evinizə qayıdın”.

Hindistana və Hind okeanına Cənubdan çıxış yolu axtaran və Birma ilə əlaqələrini gücləndirmək üçün uzun illərdir əhəmiyyətli səy göstərən Çin isə, bu dövrdə beynəlxalq cəmiyyətlərin Birmadan uzaq dayanmasını öz strateji mənfəətlərinə görə istifadə etdi. Cənubi və Qərbi Çini Hind okeanına bağlayacaq quru yolları, dəmiryolları, limanlar və boru xətləri tikmək üçün hərəkətə keçdi. Ancaq Çinin Birmaya sərmayə qoymaq üçün tək məqsədi ticari deyil əlbəttə. Çin eyni zamanda öz təhlükəsizliyini qorumaq və Çinin regional gücünü genişlətmək baxımından da Birmanı əhəmiyyətli ölkə olaraq görür.

Məhz bu baxımdan diqqətə alınacaq əhəmiyyətli bir nöqtə də, Myanma-Çin arasında imzalanan enerji müqavilələridir. Çinin enerji çatışmamazlığı və enerji yolları mövzusundakı həssaslığı bilinən həqiqətdir. Bu istiqamətdə Myanma, Çinin enerji təhlükəsizliyi baxımından çox əhəmiyyət verdiyi bir ölkədir. Myanmanın dənizdəki təbii qaz qaynaqları, keyfiyyəti aşağı da olsa nefti, Çinin enerji qaynaqlarını növlərə ayrılma siyasəti çərçivəsində əhəmiyyətli yer tutur.

Bilindiyi kimi Myanmanın Arakan əyalətinin paytaxtı Sittwenin (Akyab) 120 kilometr cənubunda olan liman şəhəri Kyaukpyu dəniz sahillərində

cəmi 1.2 trilyon kub metrlik təbii qaz və yenə bu bölgədə 2.1 milyard barellik neft ehtiyatı təsbit edildi. Çin buradakı neft və təbii qaz layihələrinə böyük sərmayələr qoydu. Bu bölgədə ildə 12 milyard kub metr qaz və 22 milyon ton neftin Çinə nasosla vurulacağı, Birma sahili boyunca yerləşən 2.402 kilometrlik iki ayrı boru xətti tikildi və oktyabr 2013-cü ildə bu boru xətləri dövrəyə girdi. Dünyanın ən böyük ehtiyatlarından biri olaraq xarakterizə edilən, 562 hektarlıq yer işğal edən boru xətləri və ətrafı Myanma hökuməti tərəfindən hərbi bölgə elan edildi və müdafiə altına alındı. Myanma burada 13 min 500 əsgər saxlayacaq, boru xətlərinin keçdiyi kəndlər isə boşaldılıb dövlət tərəfindən müsadirə edəcəkdi.

Arakanda müsəlmanların sıx olduğu əyalət paytaxtı Sittwedən başlayan və Yunnan əyalətindən Çinə girən Çin-Myanma təbii qaz və neft boru xətləri Arakan problemini qiymətləndirmədə olduqca əhəmiyyətlidir. Biri Arakan əyaləti sahillərindəki Kyauk Phru yaxınlığındakı limandan Çinə və digəri də Sittwe limanından Hindistana çatan bu boru xətti yalnız Myanmanın enerji qaynaqlarını Çinə daşımaqla bitmir, eyni zamanda Sittwedə qurulacaq dərin dəniz limanı ilə, Orta Şərqdən Çinə gedən tankerlərin boşaldılacağı liman halına gətirilir. Bura, Çinin Malaka boğazına və dolayısilə Sinqapur və Malayziyaya olan asılılığına alternativ olaraq düşünülür.

Məhz bütün bu strateji məlumatlar, Rakhine bölgəsinin Çinin enerji təhlükəsizliyi baxımından daşıdığı əhəmiyyəti ortaya qoyur. Arakan müsəlmanları isə, bölgənin ola biləcək bir qeyri-sabit ünsürü olaraq görüldüyünə görə, Çinin enerji təhlükəsizliyi baxımından da təhdid olaraq qiymətləndirilir. Bu səbəblə də bölgədən sürgün edilmələrinə, ya da ölkəni tərk etmələrinə müsbət baxılır. Hər nə qədər, bölgədə davam edən zülm siyasəti bir müstəmləkəçilik problemi olsa da, bu perspektivlə

baxıldığında əslində böhranın son halının daha çox regional güc rəqabətinin davamı olduğu ortaya çıxır.

Məhz Arakanda müsəlmanların ciddi çətinliklərə məruz qalmalarının altında yatan ən böyük səbəblərdən biri budur. Bəli, Birma üzərində atılan addımlarda, real siyasi və iqtisadi çıxarlar kritik rol oynayır. Bölgədəki qarşıdurmaların arxasında guya buddistlərin torpaq, çinlilərin isə neft və qaz sərmayələrini zəmanət altına alma hesabları var. Bu səbəblə də oradakı müsəlmanların bölgəni boşaldıb tərk etmələri üçün ciddi təzyiq siyasəti edirlər. Edilən hücumlara da buna görə lazım olan müdaxilələr edilmir.

Görəsən həll yolu nə ola bilər? Əslində orada yaşayan müsəlman xalq nə Myanmanın buddist xalqı, nə də Çinin enerji zəmanəti baxımından təhdid ünsürü deyil. Arakan müsəlmanları sülh tərəfdaşı, məzlum bir xalqdır. Tək istədikləri öz torpaqlarında təhlükəsizlik içərisində yaşamaq və ölkədəki vətəndaşlıq haqlarından hər kəs kimi faydalana bilməkdir. Burada əsas vəzifə torpaqlarında bir-birindən fərqli onlarla etnik və dini qrupu saxlayan Myanma hökumətinə düşür. Yalnız ölkədəki haqq və azadlıqların hər kəs üçün bərabər olaraq təsis edilməsini təmin etmək, Arakan müsəlmanlarına da bu zəmanəti verməkdir. Bu demokratik addımlar atıldığı təqdirdə Çin də, Birma hökuməti də, Arakan müsəlmanları da rahatlayacaq. Belə asan və ədalətli bir yol varkən, zülm və təzyiq ilə bölgədə təhlükəsizliyi və qeyri-sabitlik etməyə çalışmaq isə, həm çətin, həm də son dərəcə səhvdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Harakah Daily" və "Burma Times"də dərc olunmuşdur:

http://en.harakahdaily.net/index.php/articles/analysis-a-opinion/8794-behind-the-persecution-in-Myanma.html

http://burmatimes.net/behind-the-persecution-in-Myanma/

Əgər Arakanlı olsaydınız?

(“Burma Times” - 15 aprel 2014-cü il)

Cənub-Şərqi Asiyada Myanmanın müəyyən bölgələrində yaşayan rohinca müsəlmanları 2012-ci ildən bəri beynəlxalq mətbuatın gündəmindədir. Öldürülən insanlar, yandırılan kəndlər, dənizdə ölümə tərk edilən mühacirlər xəbərlərə əks olunan hadisələrin yalnız bir hissəsidir.

Yaxşı, bəs Myanmada nələr baş verir?

Arakanlı müsəlmanlar bir zamanlar bu bölgədə 350 il boyunca hakimiyyət sürmüş bir krallığın dövrümüzdə yaşayan mənsublarıdır. Amma bu gün öz ölkələrində azlıq təşkil edirlər. Gördükləri şiddət və düşmənlik elə ağla sığmaz ölçülərə çatdı ki, dünyanın ən çox zülm görən birliyi olaraq tanınırlar. Nə yaşayacaqları bir ölkələri var, nə də sığına biləcəkləri bir yerləri...

Mühacirləri ölkələrinə geri göndərmək istəyənlər, bu səbəblə ülgüclü məftillərlə, qalın divarlarla ölkə sərhədlərinə sədd çəkənlər, bu insanları əslində ölümə göndərməyə çalışdıqlarının şübhəsiz fərqindədirlər. Dünyanın düşdüyü bu ağıl tutulması insanlıq adına şok edici bir mənzərədir.

Bir an üçün Arakanlı bir müsəlman olduğunuzu düşünün. Bu dəhşətdən xilas olmaq üçün nə edərdiniz? Qarşınızda iki variantınız olardı:

1) Ya ölkənizdə qalardınız... Amma bu vəziyyətdə bu çətinlikləri qəbul etmək məcburiyyətində qalacaqdınız:

Qorxunc şərtlərə sahib düşərgələrdə, bir yerə getmək, ya da düşərgədən ayrılmaq kimi azadlığınız olmadan, İslam əleyhdarı və şiddətə meylli radikal qrupların malınıza və canınıza hücumlarına məruz qalaraq

yaşayacaqsınız. Hər hansı bir vətəndaşlıq haqqınız olmayacaq, təhlükəsizlik güclərindən kömək gözləməyəcəksiniz. Dövlət xəstəxanalarına gedə bilməyəcək, pulunuz olsa belə motorlu nəqliyyat vasitəsi və mobil telefon satın ala bilməyəcəksiniz. Ayrıca ancaq taxtadan olmasına icazə verilən eviniz hər hansı bir səbəbdən yanarsa altı il həbsə girəcəksiniz.

Bu, baş verən elə şiddətli bir zülmdür ki, 1942-ci il ilə 1996-cı illər arasında iki milyon arakanlı evlərini tərk etdi, 15.000 məskunlaşma yeri talan edildi, 20.000 qadın təcavüzə məruz qaldı, 300.000 adam şəhid edildi, 5.000 məscid dağıdıldı və 2012-ci ildə 330 kənd əhalisi ilə birlikdə yandırıldı.

2) Ya da ölkənizi tərk edərdiniz... Yaxşı, bəs hara gedəcəksiniz və daha da əhəmiyyətlisi getmək istədiyiniz yerə necə çatacaqsınız?

Banqladeş İslam ölkəsi olmasına baxmayaraq, həcmindən artıq doldurulan köhnə balıqçı gəmiləri ilə məzlum insanları çox vaxt ölkəsinə almır və dənizdə ölümə tərk edir. Belə ki, bu gəmilər ümumiyyətlə daşıdığı insanlarla birlikdə dərin okean sularına qərq olur.

Dünyada heç bir səbəb bir insanı müharibənin, yəni ölümün içinə bilə-bilə göndərməyi məqbul hala gətirməz. Bu, açıqlana bilməz, tərif edilə bilməz bir ruh boşluğudur.

Deyək ki, Tailanda getmək istədiniz. Sizi qəbul etdiklərini düşünək. Bu vəziyyətdə insan tacirlərinin əlinə düşüb kölə olaraq satılma riskiniz var.

Necə ki, “Reuters” agentliyi yaxın tarixdə Tailandlı immiqrant bürosu işçilərinin də əlbir olduğu nəhəng insan ticarəti şəbəkəsini ortaya çıxardı. Onsuz da Tailand çox vaxt bu yazıq insanları qəbul etmir və dənizdə ölümə tərk edir. Malayziya isə gözəl İslam əxlaqı göstərərək bu məzlum insanlara çox vaxt kömək edir, amma ora uzaq olduğuna görə, köhnə balıqçı gəmiləri ilə getmək mümkün deyil.

Ağıllara durğunluq verən bu zülm, siz bu sətirləri oxuyarkən hal-hazırda davam edir. Sərhəd tanımayan həkimlər, arakanlılara xeyirxahlıq etdikləri iddiası ilə bir müddət əvvəl bu ölkədə fəaliyyət göstərməkdən məhrum edildilər. Halbuki bu həkimlər arakanlılara kömək edən yeganə qruplardan biri idi, amma artıq onlar da yoxdur.

Arakandakı insanlıqdan kənar tətbiqlərin bir nümunəsi də yaxın tarixdə Myanma təhlükəsizlik gücləri və radikal buddistlərin hücumuna məruz qalan Du Chee Yar Dan kəndində yaşandı. Kənardan girişlərə bağlanılan kəndə bir şəkildə girməyi bacaran beş müsəlman, aralarında uşaqların da olduğu ən az 10 arakanlının kəsilmiş başlarını bir su çəninin içində tapdılar.

Dünyada vicdansızlıq nümunələrinin artdığı bu günlərdə Türkiyə, nümunəvi hərəkətlə mühacirləri bağrına basmışdır. Mühacirləri sərhəddə sevgi ilə qucaqlayan Türk əsgəri və Türk polisi, bir çox böyük dövlətə gözəl bir dərs verməkdədir.

Bütün bunlar olarkən radikal buddist qruplar da bir tərəfdən bütün ölkəni motosikletlərlə gəzib müsəlmanlara qarşı nifrət təbliğatı edir.

Dünyanın uzaq bir yerində yaşayan bu günahsız insanların qarşı-qarşıya olduqları bu dəhşət verici zülm bütün dövlətlər tərəfindən görməzlikdən gəlinir. Halbuki yalnız xəbərlərdə gördüyümüz bu məzlumlar bizlər kimi ailəsi olan, sevdikləri olan, işləri olan, peşələri olan insanlardır. Amma dünya onları görmür və yalnızlıqları içində hamısını ölümə tərk edir.

Görəsən bu qorxunc mənzərəni sona çatdırmaq üçün nə etmək lazımdır?

Əvvəlcə Myanma hökuməti və ölkədəki buddist çoxluğun ölkələrini müsəlmanların ələ keçirəcəyi düşüncəsi ilə əsassız qorxularından xilas olmaları lazımdır. Arakanlı müsəlmanlara istiqamətli insan haqları pozuntularının təcili sona çatdırılması lazımdır və arakanlıların layiq olduqları insani rəftarı görmələri vacib əhəmiyyət daşıyır.

Buddistlər, quruluş olaraq sülhsevər insanlardır. Ölkədəki hər iki inanc qrupunu da hədəfləyən və "sülh vurğusu" edən kampaniyanın ciddi müsbət təsirləri olacaq. Bu əhatəli çalışma ilə, insanlar İslamın sülhsevər ruhu haqqında məlumatlandırıla bilər. Fərqli etnik qrupların keçmişdəki sülhsevər həyatlarından nümunələr verilərək razı salına bilər.

ABŞ, BMT və AB həmişə vəziyyətdən narahat olduqlarını məruzə etsələr də bunlar çox təəssüf ki, hər hansı bir təsir oyandırmır. Müsəlman ölkələr isə bu mövzuda günah qazanacaqları səssizlik içindədir. Daha çox vaxt itirmədən bir araya gəlinməli və sevgi, birlik, sülh və qardaşlıq içində bütün dünyanın əzilən insanlara kömək edilməlidir. Heç bir iqtisadi narahatlıq, ya da dünyəvi çıxar köməyə ehtiyacı olan insanların yanında olmaqdan daha əhəmiyyətli ola bilməz.

Türkiyə-Suriya sərhədi boyunca yaradılacaq tampon bölgə, həm suriyalı mühacirlərin ölkələrindən ayrılmadan qorunmalarına, həm də lazım olan köməyi almalarına imkan verəcək böyük bir ehtiyacdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Burma Times”da dərc olunmuşdur:

Bütün dünyanın diqqəti, hal-hazırda bir tikə çörəyə möhtac vəziyyətə düşmüş suriyalı mühacirlər üzərində olmalıdır. Onların ehtiyacları və düşdükləri çətin vəziyyət, bütün insanlığı maraqlandırmaqdadır.

http://burmatimes.net/how-does-it-feel-to-be-a-Rohinca/

Yəmənin böyük problemindən biri: Köç

(“National Yemen” - 30 iyun 2014-cü il)

Hər il minlərlə insan ya evlərini buraxıb Yəmənə köçürlər, ya da Yəməndə də evlərini, qohumlarını, dostlarını tərk edib başqa diyarlara gedirlər. Bəzisinin səbəbi kasıblıq, bəzisinin isə can qorxusudur. Səbəbi, ya da sayı nə olursa olsun köç Yəmənin qarşı-qarşıya olduğu ən böyük problemlərdən biridir. İstər xarici qaynaqlı olsun, istərsə ölkə daxili

səbəblərdən qaynaqlansın buna bir çözüm tapılması lazımdır. Çünki idarə edilə bilməyən köç axını yeni böyük problemləri də bərabərində gətirə bilir.

Suriyalılar sülh dolu bir həyata layiqdirlər Suriyalı mühacirlərin vəziyyəti beynəlxalq ictimaiyyəti maraqlandıran bir mövzudur. İnsan həyatı və təhlükəsizliyindən bəhs edildiyində bir anlıq belə təxirə salma qəbul edilməməlidir. Suriyalı mühacirlər üçün BMT nəzarətində, müdafiə altında bufer zonası qurulması əsas şərtdir.

Yəmənin Miqrasiya İdarəsi (YDI) 2013-cü il aprel ayında qarşıdurmalar səbəbindən evlərini tərk edərək ölkə daxilində fərqli bölgələrə köç edənlərin sayının yarım milyonu keçdiyini açıqlamışdı. 2009-cu ildə miqrantlara lazımlı qida və sığınacaq köməyi təmin etmək məqsədi ilə qurulan büro indi miqrantların daha da çətin vəziyyətdə olduğunu açıqladı. Çünki Dünya Qida Proqramının (WFP) suriyalı mühacirlərə köməyi artırması səbəbi ilə mart ayından indiyə qədər Yəmənin daxilindəki miqrantlara qida yardımı yarı yarıya azalmışdır.

Yəmən üçün bir başqa köç problemi isə yetişmiş insan gücünün daha yaxşı gəlir əldə edə bilmək məqsədi ilə xaricə köç etməsidir. Bu məqsədlə köç edənlərin sayı 1 milyonu keçmişdir. Şübhəsiz yaxşı təhsil almış, yetişmiş insan qaynaqlarını itirmək Yəmən üçün problem olsa da bunun bəzi faydaları da var. Yəməndən kənara köç edənlərin ölkədə qalan yaxınları və qohumlarına göndərdikləri valyutalarla ölkə iqtisadiyyatına bilavasitə kömək edirlər. Digər tərəfdən bu emiqrantlar yaşadıqları ölkələrdə Yəmən lehinə könüllü dəhliz rolu da ola bilirlər.

Liviya sahillərində, köhnə və çürük gəmilərin içində sahilə çatmağa çalışan mühacirlər, çox vaxt bu hədəflərinə çata bilmirlər. Mühacirlərin bu faciəsi, dünyanın bir çox yerində beləcə davam edir.

Qarşıdurmalardan, ya da kasıblıqdan ötrü qonşu ölkələrə qaçanların sayı da xeyli çoxdur. 700 mini Səudiyyə Ərəbistanında olmaq üzrə, bəzi Orta Şərq və Afrika ölkələrində cəmi 900 min yəmənli emiqrantın olduğu təxmin edilir.

Somalidə vətəndaş müharibəsi başladıqda bu ölkədəki 60.000-ə qədər yəmənli, ölkələrinə qayıtmış, ancaq Yəmənin Somalidən aldığı köç bununla da bitmir. Somalinin düşdüyü qeyri-sabit vəziyyəti Yəmənə gələn somalili immiqrant sayında sanki partlayış meydana gəlmişdir. Hal-hazırda müxtəlif orqanlar Yəməndə 700.000 somalili immiqrant olduğunu söyləyirlər.

Liviyada xalqın iki variantı var. Ya şiddət mühitinin çətinlikləri içində yaşayacaqlar və ya mühacir olaraq çətin səfərə çıxacaqlar.

Eynilə Somali kimi Efiopiya da, Yəmənə köç edən Şərqi Afrika ölkələrindən biridir. Yəməndəki efiopiyalı sayı 10.000 olaraq təxmin edilir. Rəsmi statistika tərəfindən təsdiq edilmədiyi üçün bu rəqəmlərin çox etibarlı olmadıqlarını ifadə etməkdə də fayda var.

2008-ci ildə nəşr olunan BMT hesabatına görə isə yalnız bir ildə Afrikadan Yəmənə gələn immiqrant sayı 50.000-ə çatır.

İmmiqrantlar Şərqi Afrikadan Yəmənə ümumiyyətlə dəniz yolu ilə və olduqca pis şərtlərdə gəlir, çox insan isə insan qaçaqmalçılarının əlinə düşürlər. Əllərindəki son bir neçə qəpiyi onlara qapdıran immiqrantlar, çoxu əldə düzəltmə gəmilərlə Yəmənə keçirilirlər. Gəmilər ən təməl insani ehtiyacları belə qarşılamaqdan uzaq, üstəlik olduqca da dayanıqsız olurlar.

İnsan qaçaqmalçılarını təhlükəsizlik keşikçilərinə tutulmamaq üçün immiqrantları liman ya da körpülərə deyil, yaşayış yerlərindən uzaq yerlərə buraxmağı seçirlər. Hətta bəzən sahildən bir neçə kilometr uzaqda dənizə atır, ya da gəmini batırırlar. İmmiqrant gəmiləri əsasən bu səbəblərlə çox vaxt ölümlərə səbəb olur. Bir çox immiqrant dənizdə həyatını itirir.

İmmiqrantların Yəmində sahilə çıxmaları xilas olduqları mənasını vermir. Quruya ayaq basdıqdan sonra rəsmi olaraq Yəmənə qəbul edilsələr belə işsizlik son həddə olduğu Yəmində olduqca çətin şərtlərdə yaşayırlar.

Somalililər əsasən yəmənlilərin işləmək istəmədikləri işlərdə olduqca aşağı maaşla işləyirlər. Bir somalili mühacir Yəmində aylıq 50 dollara qədər maaşla işləyir. Mühacirlərin işlədikləri işlərin çətinliyi bir tərəfə, immiqrantlar tez-tez alçaldılmalara da məruz qalırlar.

Şübhəsiz, bu rəftarlar heç bir şəkildə müsəlmanlara yaraşmır. Çünki mərhəməti sonsuz olan Uca Rəbbimiz Bəqərə surəsinin 83-cü ayəsində, yoxsulların cəmiyyətdəki mənəvi hüzurunun təmin edilməsi üçün xor görülməmələrini, onlara gözəlliklə davranılmasını əmr etmişdir.

Hər müsəlman hz. Peyğəmbər (s.ə.v) zamanında Mədinəyə hicrət etmiş olan mühacir müsəlmanlara, mədinəli müsəlmanların (ənsar)

məhəbbətlə və səmimiyyətlə qucaqlarını açdıqlarını unutmamalı, özünə onları nümunə götürməlidir.

İslam dünyası tarixdə mühacirlər ilə ənsar arasında reallaşdırılan qardaşlıq nümunəsindəki həmrəyliklə bu gün hər zamankindən daha möhtacdır. Qəlbdə kin, nifrət, mərhəmətsizlik kimi duyğuların silinməsi; yerinə, qardaşlıq, mərhəmət, sevgi, şəfqət və hüsnü zənn kimi hisslərin yerləşdirilməsi əsas şərtdir.

Möminlər digər möminlərə qarşı son dərəcə mərhəmətli və son dərəcə təvazökar olmaqla məsuldurlar. Əks rəftar qəti olaraq Qurana uyğun deyil. Qürur, qısqanclıq, paxıllıq, pis söz söyləmə, çəkişmə möminlərin deyil, inkarçıların xüsusiyyətidir. Bu səbəblə nəfsinə görə belə bir qəflətə düşmüş olan mömin dərhal özünü düzəltməli, Allaha sığınmalı və həqiqi mömin rəftarını göstərməlidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "National Yemen"-də dərc olunmuşdur:

http://nationalyemen.com/2014/06/30/one-of-the-dozens-of-problems-facing-yemen-is-immigration/

FƏSİL

Mühacirlərin həyatını necə asanlaşdıra bilərik?

(“Burma Times”, “Dhamir” və “Fair Observer” - 1 sentyabr

2014-cü il)

İtaliya, yüzlərlə mühacirin xilas olmasına vəsilə olan Mare Nostrum adlı qanunu Avropa Birliyinin təzyiqləri nəticəsində qüvvədən qaldırmaq məcburiyyətində qaldı. Yerinə gətirilən Triton adlı yeni sistemə isə bir xilasetmə əməliyyatı demək səhv olar. Bu sistem mühacirləri deyil, yalnız Avropa sahillərini qorumaq üçün hazırlanmış kimi görünür.

İslam ölkələri 2014-cü ildə yenə müharibə, işğal, aclıq, yoxluq və qarşıdurmalarla sarsılmağa davam edir. Ölümlər, yaralanmalar, dağılan evlər və çətinlik içində yaşamağa davam edən insanların kömək

fəryadları hər kəsin ürəyini sıxır. Artıq həm İslam aləmi, həm də dünya ölkələri yer üzünə sevginin hakim olmasını istəyir.

İsraillə Fələstin arasında 7 iyuldan bəri davam edən qarşıdurmalarda indiyə qədər Qəzzada 1.400 ev dağıldı və 19.070-ə yaxın yaşayış yeri ziyan gördü. Hücumlarda 25-ə qədər xəstəxana və səhiyyə təşkilatı da zərər gördü. Mövzu ilə əlaqədar olaraq Birləşmiş Millətlər Mühacirləri Qoruma Təşkilatı (UNRWA), 100 min fələstinlinin evsiz qaldığını və bir qisminin BMT düşərgələrində yaşadığını bildirdi. Yaralı sayının 5 mini aşdığı düşünülsə Qəzzanın hal-hazırda çox təcili şəkildə yemək, səhiyyə və sığınma ehtiyacını aradan qaldıracaq köməyə ehtiyacı var.6

İtaliya sahilində, italyan xilasetmə qrupu mühacirlərə kömək edərkən.

Fələstinlilər yalnız Qəzzada deyil, mühacir olduqları digər ölkələrdə də çətin şərtlər altında yaşayırlar. Məsələn Suriyanın Yərmuk düşərgəsində

20 min fələstinli bir tərəfdən aclığa, bir tərəfdən də ölkədəki vətəndaş müharibəsinə baxmayaraq həyata yapışmağa çalışır. Yərmukda aclıqdan ölən insanların görüntülərini unutmaq isə mümkün deyil.

Şəkildə İtaliya sahillərində boğulmaq təhlükəsində olan və xilasetmə qruplarını görüncə sevinən mühacirlər görülür.

Daha əvvəl baş verən İsrail-Ərəb müharibəsindən qaçan fələstinlilər, Suriya ilə yanaşı İordaniya və Livan başda olmaq üzrə müxtəlif ölkələrə sığınmışdılar. Sağlamlıq şərtlərinin pis olmasına görə, düşərgələrdə yaşayan insanlarda bir çox xəstəlik baş qaldırır. Yaralıların müalicələri çətinləşir. Qəzza və İordan çayının Qərb sahilində on illərdir düşərgələrdə yaşayanların sayı 1 milyon 850 minə yaxındır. Fələstinli mühacirlərin cəmi sayı isə təxminən 5 milyona yaxınlaşır. Bu rəqəm Fələstin əhalisinin 70%-nə bərabərdir.7

İraqda İŞİD hücumlarından qaçan türkmənlər və şiələr də yeni bir mühacir dalğası meydana gətirmiş vəziyyətdədir. İsti hava və pis şərtlər ən çox uşaqlara təsir edir. Ötən həftə türkmən mühacir düşərgəsində 5 uşaq isti hava şəraitinə görə həyatını itirdi.

Bir insan, aclıq və müharibə təhdidi altında olmadığı müddətcə ölümlə üzləşəcəyini bilə-bilə özünü bu böyük təhlükənin içinə atmaz. Bu insanlar yalnız insan kimi, təhdid altında olmadan yaşamaq istəməkdədirlər.

Suriyalı mühacirlər də çox çətin şərtlər altındadır. Beynəlxalq Kömək və İnkişaf Komitəsi İdarə Heyəti başçısı Dr. Bassam Dowayhe, Suriyadakı son vəziyyəti belə izah edir: “Təxminən 300 min insan öldürüldü, 400 min insan isə yaralandı, ya da həbs edildi, bir milyon yarım ev dağıdıldı. Ona

görə 11 milyondan çox mühacirimiz var. 6 milyonu Suriyada, 5 milyonu isə ətraf ölkələrdə...” Bu həqiqətlər önümüzdə dayanarkən üzümüzü çevirmək, köməyə laqeyd yanaşmaq, qalıcı və köklü həllər yaratmamaq bir müsəlmana əsla yaraşmaz.

İslam coğrafiyası üzərindəki problemlər yalnız Suriya və Fələstinlə də məhdud deyil. Uyğur türkləri, iraqlılar, əfqanlar, arakanlılar, somalililər, sudanlılar başda olmaq üzrə daha bir çox müsəlman xalq da köməyə möhtac vəziyyətdə vicdan sahibi ölkələrə gözlərini zilləmiş vəziyyətdədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) əlverişsiz hava şərtləri və ərzaq qiymətlərinin yüksək olmasına görə 26-sı Afrikada olmaq üzrə 33 ölkənin xaricdən qida köməyinə möhtac qaldığını vurğuladı. FAO Somalidə xüsusilə ölkə daxilində köç etmək məcburiyyətində qalanlar ilə çöldə yaşayan yoxsullar olmaq üzrə təxminən 870 min, Cənubi Sudanda 3.5 milyon və Sudanda 5 milyon insanın qida köməyinə ehtiyac duyduğuna diqqəti çəkdi.8 BMT də Sudanda köməyə ehtiyacı olan insan sayının keçən ilə görə artdığını ifadə edir. Birləşmiş Millətlər Təşkilatı (BMT) Cənubi Sudan Humanitar İşlər Koordinatoru Toby Lanzer Sudandakı vəziyyətin ən az Suriya qədər təhlükəli olduğunu söyləyir.

Somalidə də çox çətin şərtlər hökm sürür. BMT-nin məlumatlarına görə 870 min adam həyatda qala bilmək üçün insani köməyə ehtiyac duyur.

Dünya ictimaiyyəti bu qədər əzaba şahid olarkən, çətin vəziyyətdə və darda olan bu insanların köməyinə çata bilməyəcək qədər yetərsiz vəziyyətdədir?

Bu il bir başqa hesabat daha açıqlandı. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) qida israfı ilə mübarizə edən prof. Per Pinstrup-Andersen Avropada hər il 100 milyon ton qidanın zibilə atıldığını ifadə etdi. FAO-nun ən optimist təxminlərinə görə dünya səviyyəsində istehsal olunan qidanın üçdə biri yeyilmədən əvvəl ya itirilir, ya da israf edilir.

Nəticədə bu məlumatlar dünyada 7 milyard insanı doyuracaq yemək qaynaqlarının olduğunu bizə göstərir. O halda, ilk etapda bu qaynaqların ehtiyacı olan coğrafiyalara əl birliyi ilə çatdırılması, ardından da yer üzündə heç bir insanın aç və açıqda qalmaması üçün çalışacaq sistemlərin qurulması ən təcili mövzudur.

Yemək israfı mövzunun yalnız bir istiqamətidir. Əsas ən böyük israf müharibə üçün istehsal olunan silahlar, şəhərləri dağıtmaq üçün kəşf edilən bombalardır. Hal-hazırda yer üzündə sevgi sanki həbs edildiyi üçün, ölkələr aqressiv şəkildə silahlanmağa çalışır. Nifrət isə yalnız dağıtma və yeni əzablar gətirir. Hər cür israfın qarşısı alındığında, malı Allah rizası üçün, bir ibadət olaraq insanlara paylayan mexanizmlər qurulduğunda bu problemlər ortadan qalxacaqdır.

Dünyanın həqiqi xəstəliyi sevgisizlikdir. Eqoizmin, nifrətin və qarşıdurmaların arxasında qatı sevgisizlik var. Fərqli irq, məzhəb və inancdadır deyə başqa cəmiyyətlərlə razılaşa bilməməyin və müharibələrin arxasında sevgisizlik var.

Yer üzü artıq sevgi və ədalətlə hökm edib qan axıtmayacaq, axan qanı dayandıracaq sevgi sahiblərini gözləyir. Allah ən qısa zamanda insanlığı sevginin hakim olduğu gözəl günlərə çatdırsın.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Burma Times”, “Dhamir” və “Fair Observer”də dərc olunmuşdur:

http://www.fairobserver.com/region/middle_east_north_africa/refugees-stopping-the-madness-01650/

http://burmatimes.net/refugees-stopping-the-madness/

Suriyalı mühacir qardaşlarımızın təhlükəsizliyi qonaqpərvər Türk xalqına əmanətdir

(“Voix Maqazine” - 15 sentyabr 2014-cü il)

Rohincalıların dənizə açıldıqdan sonra ümumiyyətlə ilk dayanacaqları Tailanddır. Lakin Tailand rəhbərliyi artıq mühacirlərin girişinə icazə vermir. İnsan qaçaqçıları ilə əlaqədar tüklər ürpərdici hekayələr isə vəziyyəti daha dəhşətli hala gətirir.

BMT-yə görə dünya üzərində təxminən 50 milyon mühacir var. Bu mühacirlərin böyük bir hissəsini isə müsəlmanlar təşkil edir... Fələstin xalqının üçdə ikisi mühacir vəziyyətindədir... ABŞ-ın müdaxiləsinin ardından çox sayda iraqlı, zülm gördükləri Birmada evlərini tərk edən

arakanlılar, 2 milyona yaxın əfqan, kəşmirli, somalili qısacası milyonlarla mühacir... Bu mühacirlərə son bir neçə ildə suriyalılar da əlavə olundu....

Tailanddakı xunta rəhbərliyi, mühacirlərin çətin vəziyyətdəki həyatlarını daha çətin hala gətirməkdədir. Tailand Beynəlxalq Mühacir Müqaviləsini imzalamamışdır və bu səbəblə insan haqlarına sığmayan əməlləri ölkədə rahatlıqla edildiyi bilinməkdədir. Əlbəttə bütün xalq eyni fikirdə deyil, lakin buna baxmayaraq, Tailanddakı insan haqları pozuntularının Myanmadakından çox da fərqli olmadığı deyilə bilər.

Suriyadakı vətəndaş müharibəsi dördüncü ilinə girdi, bu müharibənin məcburi köçə məruz qaldığı insan sayı isə milyonlarla ifadə edilir. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığına (UNHCR) görə təşkilat qurulduqdan indiyə qədər şahid olunan ən böyük köç Suriyada yaşandı. Çünki müharibədən əvvəl 22 milyonluq Suriya əhalisinin yarısı məcburi olaraq başqa ölkələrə köçdü. Mühacir vəziyyətindəki suriyalıların 75%-i qadın və uşaqlardan ibarətdir. Suriyalıların böyük əksəriyyəti ölkə daxilində yer dəyişdirərkən 2.5

milyon suriyalının 97%-i qonşu ölkələrə sığındı. Bu qonşu ölkələr içində ən çox immiqrant alan ölkə isə Türkiyədir....

Əslində Türkiyə tarixində ilk dəfə bu qədər geniş köç hadisəsi ilə qarşılaşdı. Ölkəmizə yalnız üç il ərzində 1 milyon 200 min mühacir daxil oldu. Gələn suriyalı mühacirlərin təxminən 250 mini düşərgələrdə yaşayır, geri qalanlar isə müxtəlif şəhərlərdədir. 2014-cü ilin sonlarına doğru bu rəqəmin bir milyon yarıma çatacağı fərz edilir.

Myanmada edilən zülmlər bir tərəfə, Tailand mühacir düşərgələri də rohincalılar üçün ürəkaçan görüntülər sərgiləməməkdədir.

Keçmişə qayıtsaq Türkiyə torpaqlarının əsrlərdir köçkünlərin sığındığı ölkə olduğunu görərik. 1917-ci il bolşevik inqilabından sonra ruslar, nasist zülmündən qaçan yəhudilər, ermənilər, 1979-cu ildən sonra iranlılar, əfqanlar, Səddamdan qaçan iraqlılar həmişə Türkiyəyə sığındılar... Türk xalqının vicdanı, mərhəməti və qonaqpərvərliyi tarix boyunca ölkəmizi

qapılarını məzlumlara, yolda qalmışlara açıq saxladı. Üstəlik ən dərin iqtisadi yaralar aldığı zamanlarda belə millətimizin bu gözəl əxlaqı heç dəyişmədi.

Yuxarıda: Tailand mühacir düşərgələrindən görüntülər. Aşağıda: Tailand mühacir düşərgələrində yaşayan günahsız uşaqlar.

Ölkəmizin qonaqpərvərliyi əslində beynəlxalq mühitdə də təsdiqləndi. Türkiyədəki mühacir düşərgələri, "New York Times" tərəfindən "mükəmməl" olaraq qiymətləndirildi. Mühacir düşərgələrini gəzən hər kəs təqdirlərini ifadə etdi. Düşərgələrə maddi və texniki dəstəklər sürərkən, vəziyyəti yaxşı olan mühacirlərin şəhərlərə yerləşdikləri və məsələn yalnız İstanbuldakı bu sayı 67 minə çatdığı ifadə edildi. Lakin şübhəsiz aralarında vəziyyəti yaxşı olmayanlar və metropollarda səfalət içində yaşayanlar da var. Xüsusilə çadır şəhərlərin qışın soyuğunda daha soyuq, yayın istisində daha isti olması, infrastruktur və təhlükəsizlik

problemləri, su və qida çətinliyi, təmizlik və gigiyena kimi problemlər ciddi mənada çətinlik çəkilir. Dövlət səlahiyyətliləri Türkiyənin imkanları istiqamətində bu mövzuda tədbirlər alınacağını bildirirlər.

Banqladeşdəki mühacir düşərgələrində yaşayan rohincalılar

Lakin son zamanlarda ölkəmizə gələn suriyalı bacı-qardaşlarımızla əlaqədar olaraq narahat edici bəzi səslər eşidilir. Bu bacı-qardaşlarımızla əlaqəmizi siyasət və ya ölkə iqtisadiyyatı çərçivəsində düşünən, "konyunktura, geosiyasi, real siyasi" kimi anlayışların arxasına sığınaraq ölkələrinə geri dönsünlər kimi "soyuq" sözlər deyənlər var. Halbuki bu cür sözlər Türk xalqının ənənəvi qonaqpərvərliyi, vicdanı və mərhəməti ilə əsla uyğun gəlmir.

Mərhəmətsiz, eqoist və amansız kiçik bir icmanın təxribatçılığı ilə yarandığı aydın olan bu ürküdücü reaksiyalardan yola çıxaraq,

ölkəsindəki mühacirləri artıq görən və ya rahatlığını, ya da demoqrafiyasını pozmamaq üçün "mühacirlərə qapılar bağlansın, mühacirlər evlərinə geri göndərilsən" deyənlər bir anlıq özlərini bu insanların yerinə qoysunlar. Düşünün ki, bu insanların çox böyük hissəsi peşə sahibi, geniş imkanlara sahib, evi, avtomobili, dolanışıq imkanları olan insanlar idi. Ancaq Suriyadakı zülm o qədər şiddətli hala gəldi ki, ölüm qorxusu ilə arxalarına belə baxmadan qardaş torpaqlara üz tutdular. Bombalanmaq, təcavüzə məruz qalmaq, silah qundaqları ilə öldürülmək yerinə mühacir olmağı seçdilər. İllərdir əziyyətlə qurduqları həyatlarına dair heç bir şeyi ağıllarının ucuna belə gətirmədən yalnız ailələrini qoruya bilmək üçün torpaqlarımıza sığındılar. Unutmayın! Heç kim çətin vəziyyətdə qalmadıqca ölkəsini, evini, nizamını, ailəsini tərk edib tanımadığı bir ölkədə küçələrdə səfalət içində yaşamaq istəməz. Bu səbəbdən ölümdən qaçan insana qapını bağlamaq, içəri almamaq üçün BMT-nin təsdiqi gözləmək, onları geri göndərək demək hər şeydən əvvəl vicdansızlıqdır və böyük bir insanlıq ayıbıdır.

Ölümdən qaçan insana qapını bağlayıb sonra "nə gözəl imkanlarımız bizə qaldı" deyə biləcək bir vicdansızlığı Türk xalqı əsla qəbul etməz. "Mühacirləri qəbul etməyək, ya da geri göndərək" deyənlərin bu təklifini düşünmələri lazımdır. Bu insanların geri döndükləri yerdə yeməkləri olacaq? Qalacaqları yerlər vardır? Ən əhəmiyyətlisi onların təhlükəsiz şəraitdə yaşayacaqları yerlər hazırdır? Yoxsa onları cəhənnəm kimi bir mühitə geri göndərmək istəyirlər? Bu sualların cavablarını əvvəlcə Türk xalqına verməlidirlər. Əks halda onları geri göndərən, onların qətl edilməsindən də məsul olar. Bir mühaciri "ölkəsinə geri göndərək" demək, onu qatilin əlinə təslim edib "buyurun, öldürün" deməkdir. Əgər bu edilsə qatilin qanı, "göndərək" deyən adamın da əlinə bulaşar. Dünyada heç bir səbəb qatilə insan təslim etməyi məqbul hala gətirə bilməz. Bu, açıqlana bilməz, tərif edilə bilməz bir ruh boşluğudur.

Əgər ölkə rəhbərliyindəki kəslər arasında bu məntiqdə olanlar varsa vəziyyət daha da dəhşətlidir. Çətinlikdə olan o insanlara mərhəmət etməyən, öz insanına da mərhəmət etməz. Məzlumu çətin zamanda qorumayan öz xalqına da kömək etməz. Mərhəmətsiz bir ruhun təzahürü hər yerdə və hər şərtdə həmişə eynidir.

Sayları nə olursa olsun suriyalı mühacirlər Türk xalqının bacı-qardaşıdır. Bizim torpaqlarımıza sığındığı andan etibarən bizim vətəndaşımızdır. Bizlər onlara sahib çıxmaqla mükəlləfik. Bu uğurda çətinliklərə sinə gərərik. Bizlər qatilə insan təslim edə bilmərik, çünki bizlər qurtarıcıyıq. Allahın qonaqlarının mütləq bərəkətləri ilə gələcəklərini unutmarıq. Bu səbəbdən mühacirlərə istiqamətli sevgisiz və mərhəmətsiz səslər ölkəmizdə əsla tərəfdaş tapmaz, tam tərsinə Türk xalqının vicdanını hərəkətləndirər, Anadolu qonaqpərvərliyini daha da inkişaf etdirər. Tarix boyunca Türkiyə dini, etnik şəxsiyyəti və irqi nə olursa olsun, ona sığınan məzlumlara diqqətlə və sevgi ilə sahib çıxmışdır. Suriyalı bacı-qardaşlarımız narahat olmasınlar; bu sistemi pozacaq, onları qırğının ortasına geri göndərəcək bir zehniyyətin bu ölkədə sığınmasına icazə yoxdur.

Biz Türk xalqı olaraq qapılarımızı sonuna qədər zərər çəkmiş vəziyyətdəki bacı-qardaşlarımıza açıq saxlayarıq, onlara baxar, onları qoruyarıq. Lakin bu mövzuda ölkəmizi tək buraxmamaq da son dərəcə əhəmiyyətlidir. Bu yöndə ediləcək ən gözəl addım isə, əvvəlcə müsəlman dövlətlərin Avropa Birliyini xatırladan bir birlik qurmalarıdır. Bir-birlərinə Avropa Birliyindəki kimi sərbəst yaşama haqqı tanıyacaq olan ölkələrin vətəndaşları bu şəkildə çətin bir vəziyyət meydana gəldiyində asan bir çıxış yolu və bir insani koridor tapa biləcəklər. Bu vəziyyətdə bərabər vətəndaşlıq haqqı, vizasız işləmək kimi haqlar tanınaraq, mühacirləri məhdudlaşdıran və həyatlarına insani şərtlərdə davam etmələrinə mane

olan şərtlər də ortadan qalxacaq. Unutmayaq! Bir ölkəni rifaha aparacaq olan sənayesi və ya etnik eqoizmi deyil, insanlığıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Voix Magazine"də dərc olunmuşdur:

http://voixmag.com/the-safety-of-our-syrian-refugee-brothers-is-entrusted-to-the-hospitable-turkish-people/

Bufer zonası suriyalılar üçün etibarlı sığınacaqdır

("Arabian Gazette" - 2 oktyabr 2014-cü il)

Müharibələr yalnız hərbi ünsürləri deyil, uşaq, qadın, yaşlı dinləmədən vətəndaşları vurmağa, şəhərləri yerlə bir etməyə, ölkələrin infrastrukturunu yox etməyə səbəb olur. Sevgisizlik və nifrətlə insanların bir-birinə yaxınlaşması isə zülmün ən böyüyüdür. İnsanın həyat qidası olan "sevgi" olmadıqda ortalığı yalnız dağıdıcı bir şiddət və əzab əhatə edir. Suriyada da 2011-ci ilin mart ayından başlayan vətəndaş müharibəsi, minlərlə can almağa və dağılmış "ölü şəhərlər" ortaya çıxarmağa davam edir.

Myanma hökuməti, ölkədəki rohincalıların Banqladeş vətəndaşlığına keçməsini istəməkdə, Banqladeş isə Myanma vətəndaşı olan bu insanları təbii olaraq öz vətəndaşı olaraq qəbul etməməkdədir. Bu xalq vətənsizdir.

Bir tərəfdən rejim təyyarələri şəhərləri çəllək bombaları ilə yerlə bir etməyə davam edərkən, digər tərəfdən də müxtəlif müxalif qrupların öz aralarındakı yer qazanma məqsədli qarşıdurmaları davam etməkdədir. İndi buna bir də İŞİD-i yox etmək üçün yaradılan beynəlxalq koalisiyanın bombalamaları əlavə olundu.

Suriyada 3 milyondan çox bina dağıdıldı, 160 mini vətəndaş olmaq üzrə 200 mindən çox insan öldü. Ən az 6 min adamın işgəncə gördüyü təsbit edilərkən aclıq, susuzluq və sağlamlıq şərtlərinin pisləşməsi isə həyat şərtlərini hərtərəfli çətinləşdirir. Ölən vətəndaşların 18 mininin uşaq, 16 mininin qadın olduğunu düşünsək ölkədəki dəhşətli mühitin ölçülərini də daha yaxşı anlaya bilərik. Məhz bu can bazarından qaçmağa çalışan təxminən 10 milyon məzlum suriyalı evlərini tərk etdi. Bunların 4 milyona yaxını da xarici ölkələrə mühacir olaraq sığınmaq məcburiyyətində qaldı.

Suriya ilə 911 km sərhədə sahib olan Türkiyə isə təxminən 1.5 milyon mühacirə qapılarını açaraq onlara ev sahibliyi etməyə başladı. Türkiyə bu insanlara hər biri bir mahal böyüklüyündə olan 24 çadır şəhər qurarkən, bu müddət ərzində 3.5 milyard dollar da pul xərclədi. Mühacir sayının isə ilin sonuna qədər 2 milyona çatacağı nəzərdə tutulur.

BMT-nin xoşməramlı səfiri aktrisa Angelina Jolie, Türkiyədəki mühacir düşərgələrini ziyarət etdikdən sonra mətbuat açıqlaması ilə Türkiyənin düşüncəli və vicdanlı siyasəti üçün təşəkkür etmişdir.

Son dövrdə, yalnız İŞİD hücumlarından qaçan 170 min suriyalı çox qısa müddətdə Türkiyəyə sığındı. Hətta bu bacı-qardaşlarımızın 138 mini 2-3 gün içərisində böyük köç dalğası ilə ölümdən qaçaraq bizim ölkəmizə gəldi. Bu rəqəm Avropanın 3.5 ildə qəbul etdiyi mühacir sayına bərabərdir. Suriyadan 2 milyona yaxın insan can qorxusuyla qaçarkən onları sərhəddə gözlətmək doğru hərəkət deyil. Çünki ölüm dərhal arxalarındadır. Eyni şəkildə, sərhəd bu şəkildə idarəsiz vəziyyətdə ikən gələn insanları nəzarət etmək də çox çətindir. Əgər gələnlər arasında beynəlxalq terror üzvləri varsa, bu vəziyyətdə onları təsbit etmənin də imkanı yoxdur. Ölkəyə girən insanların təkrar Suriyaya dönmək istəmələri zamanı da, kimin nə üçün ölkəsinə geri dönmək istədiyinin müəyyən etmək böyük çətinliklər olacaqdır. Bu səbəbdən oradakı mövcud etibarsız sərhəd xətti yalnız bir can bazarının yaşanmasına səbəb olmur, dünyanı da təhdid edən bir şiddətin bölgədə asanlıqla yerləşməsinə səbəb olur.

Müharibədən, davadan, ölümdən qaçan insanların güvən içində yaşayacaqları bir bölgəyə ehtiyacları vardır. Bu nöqtədə insaniyyət adına alınacaq ən məqsədəuyğun beynəlxalq qərar, Suriyanın Türkiyə sərhədi boyunca "etibarlı bölgə" yaradılmasıdır. Suriya rejimindən, İŞİD-dən, PKK-dan və digər bütün terrorçulardan insanları qoruyacaq, oradakı xalqın güvən içində yaşayacağı bir bölgə meydana gətirmək ən təcili ehtiyacdır. Bu səbəbdən BMT-nin qərarı ilə yaradılacaq bufer zonası ilə milyonlarla insanın etibarlı və hüzurla sığına biləcəyi bir mühit də yaradılmış olacaq. İnsanlar bütün dünyada sevginin yox olmadığını, sevginin nifrətə qalib gəldiyini görmüş olacaq. Bu səbəbdən bütün insanlığı sakitləşdirən qərar budur.

ABŞ Qərargah Rəisləri Komitəsinin sədri Dempsey bufer zonanın bir ehtimal ola biləcəyini, ancaq davam edən kampaniyanın bir parçası olmadığını ifadə edir. ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsi üzvü və

Respublikaçı vəkil Adam Kinzinger isə, Suriya-Türkiyə arasındakı sərhəd ziyarətinin ardından Suriyada insani səbəblərdən ötrü "uçuşa qadağan bölgə elan edilməsi lazım olduğunu" ifadə edir. Məntiqli və təcili olanı da budur. İndi artıq suriyalılara sevgimizi və şəfqətimizi, zalımlara da dünyanın sahibsiz olmadığını göstərmə vaxtıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Arabian Gazette"də dərc olunmuşdur:

http://www.arabiangazette.com/buffer-zone-safe-haven-syrians/

Türkiyə-Suriya sərhədində təcili olaraq etibarlı bölgə yaradılmalıdır

("News Rescue" - 14 oktyabr 2014-cü il)

2011-ci ildən bu günə qədər davam edən Suriya vətəndaş müharibəsi, II Dünya Müharibəsindən indiyə qədər yurdundan çıxarılan insan sayının ən yüksək olduğu vəziyyətlərdən biridir. BMT məlumatlarına görə təxminən 200 min insanın öldüyü, on minlərlə insanın Baas rejimi həbsxanalarında işgəncəyə məruz qaldığı, milyonlarla insanın yaralandığı Suriya hal-hazırda sözün tam mənası ilə kabus ölkə halına gəlmişdir. Təxminən 7 milyon insanın isə evini tərk etmək məcburiyyətində qaldığı bilinməkdədir. Bunların bir hissəsi Suriya içində yer dəyişdirmiş, böyük bir hissəsi isə İordaniya, Livan və Türkiyə olmaq üzrə qonşu ölkələrə sığınmışdırlar.

Suriyada baş verən insanlıq faciəsinin ölçüləri qorxunc mərhələlərə çatmışdır. Qarşıdurmaların başladığı ilk gündən indiyə qədər vətəndaşlar üçün etibarlı sahə və uçuşa bağlı sahə yaradılması lazım olduğunu ifadə etmişdik. Bu gün gəlinən mərhələdə etibarlı bölgənin yaradılması təxirəsalınmazdır. Heç uzatmadan və təxirə salmadan uçuşa bağlı etibarlı bir sahə yaradılmalı və Suriya xalqına hüzur imkanı tanınmalıdır.

Avropanın bəzi ölkələrində mühacirlərə insanlıqdan kənar davranışlar, qadın, kişi, uşaq demədən alınan sərt tədbirlər, mədəniyyətin beşiyi sayılan bu ölkələr baxımından təəccüblüdür. Avropa, insan hüquqları mövzusunda sinifdə qalmışdır.

Etibarlı bölgə hərbi hərəkat demək deyil. Tamamilə mülki məqsədli, qadınları, uşaqları, yaşlıları qoruma məqsədli strategiyadır.

Özünü qoruma imkanı olmayan insanlara qoruma təmin edilməsidir. Evlərini, işlərini, məktəblərini arxada buraxıb gələn insanlara illər boyunca ibtidai şərtlərdə yaşamaq yerinə yeni bir həyat qura bilmək imkanı verilməsidir. 3 ildir əzab çəkən, evləri dağılan, qohumları öldürülən, ibadətxanaları yandırılan bu insanlara hüzur içində yaşaya biləcəkləri bir bölgə təmin etmək bütün dünyanın məsuliyyətidir. Əgər dünya evsiz, yurdsuz, aç və açıqda qalmış bu insanlara yaşaya biləcəkləri etibarlı bir torpaq təmin edə bilmirsə, bu, insanlıq vicdanında böyük bir çöküş olduğu mənasını verər. Vicdanı ilə hərəkət etməyən, Allah qorusun, bir gün özü də vicdanlı rəftarı gözləyən vəziyyətə düşə bilər. Buna görə bütün bürokratik maneələri sürətlə qaldıraraq etibarlı bölgə qurulmalıdır.

Etibarlı bölgə kürdlər üçün də sığınacaq və qoruma təmin edəcək.

Türkiyənin İŞİD-ə kömək etdiyi və kürdləri çətin vəziyyətə salacaq strategiya izlədiyi yönündəki xəbərlər həqiqəti əks etdirməməkdədir. Əvvəlcə Türkiyənin İslam anlayışı heç bir şəkildə İŞİD ilə uyğun deyil; Türkiyə, şiddətə qəti olaraq qarşı ölkədir və radikal terrorun antidotudur. Xüsusilə PKK və tərəfdaşları tərəfindən icra edilən bu qara təbliğatın əsas məqsədlərindən biri ABŞ və Qərbin nəzdində PKK-ya maddi mənəvi dəstək təmin etmək üçün səyidir. Halbuki Kürd xalqının qoruyucusu PKK deyil, Türkiyədir. PKK İŞİD-in Kobani hücumu qarşısında kürd anaları, qadınları, yaşlıları, uşaqları geridə buraxıb qaçmış, suriyalı kürdlər təhlükəsizliyi Türkiyədə tapmışdır. Dağlarda nizamsız hərbi taktikalar ilə savaşan PKK, Türk əsgərini arxadan vuraraq güc qazanmışdır. Ancaq düz ərazidə özü kimi nizamsız hərbi taktikası olan İŞİD qarşısında ağır məğlubiyyətə məruz qalmışdır. Beləcə "İŞİD-ə qarşı qəhrəman kürd partizanları" nağılı da sona çatmışdır. ABŞ və Qərb ölkələri kürdləri qorumaq istəyirsə, bölgədə yeni bir Şimali Koreya yaratmaq həvəsində olan leninist-stalinist PKK-ya deyil, Türkiyəyə dəstək olmalıdır. Başda Kobanidə yaşayanlar olmaq üzrə kürdlərin zəmanətlərindən biri etibarlı bölgənin tikilməsi olacaqdır.

Etibarlı bölgə işğal siyasəti deyil.

Türkiyənin heç bir zaman qonşularına qarşı işğalçı siyasəti olmamışdır. Türk ordusu mərhəməti və şəfqəti ilə tanınan bir ordudur. 30 il boyunca qonşu ölkələrdə özünə silah doğruldan terror təşkilatı bəslənmiş olmasına baxmayaraq, heç bir zaman ədalət və hüquqdan kənar bir addım atmamışdır. Etibarlı bölgə yaradıldığında bölgənin qoruyucu gücü təbii olaraq Türk ordusu olacaq. Əfqanıstanda, Bosniyada, Somalidə şəfqətini və xidmət anlayışını isbat etmiş olan Türk əsgəri Suriya sərhədində də can qorxusu ilə özünə sığınan insanlara ən gözəl imkanı təmin edəcəkdir.

Şəkillərdə yunan və macar polislərinin mühacirlərə insan haqlarına zidd hərəkətləri görülməkdədir. Halbuki mühacirlər, zülm altında olan məzlum bir birlik olmalarına görə insani davranışa hər kəsdən daha çox layiq olmaqdadırlar.

Suriyadan köç etmək məcburiyyətində qalanlara yaşaya biləcəkləri etibarlı bölgə yaratmaq bütün dünyanın məsuliyyətidir.

Türkiyənin yalnız ötən həftə bir gün içində qəbul etdiyi mühacir sayı, bütün AB ölkələrinin 2013-cü il boyunca qəbul etdiyi mühacir sayı qədərdir, sadəcə Kobanidən gələn qonaqlarımızın sayı 130 mini aşmışdır. Türkiyənin bu günə qədər qəbul etdiyi suriyalı qonaqların sayının 2 milyona yaxınlaşdığı təxmin edilməkdədir. Suriyalı qonaqlar üçün edilən xərclər isə 7 milyard TL-ni aşmışdır. Bu bir çox nazirliyin büdcəsindən yüksək bir məbləğdir. Bizlər Türk milləti olaraq əzabdan qaçan qonşularımızı qonaq etməkdən məmnuniyyət hiss edirik. Ancaq vəziyyətin beynəlxalq bir problem olduğu da göz ardı edilməməlidir.

İnsan həyatı, hüzuru və təhlükəsizliyindən bəhs edildiyində bir dəqiqəlik təxirə salma belə qəbul edilməməlidir. Etibarlı bölgə qurulma müddəti mənasız müzakirələrlə, süni bürokratik maneələrlə daha çox uzadılmamalıdır. Suriya məzlumlarının qorunması insani məsuliyyətdir və bu məsuliyyət bir an əvvəl bütün dünya tərəfindən boynuna götürülməlidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi, “News Rescue”də dərc olunmuşdur:

Myanmada 1962-ci il dövlət çevrilişi ilə gələn hərbi rejim müsəlman xalqın şəxsiyyətini tamamilə rədd etmişdir. (yanda) 1982-ci ildə isə müsəlmanlar, tam mənası ilə vətəndaşlıqdan çıxarılmışdır. (altda)

http://newsrescue.com/secure-zone-must-established/#ixzz3GA73TmwM

FƏSİL

Liviya, Tailand və mühacir yolları

(“Voix Magazine” - 27 noyabr 2014-cü il)

Bir an üçün düşünün: Təhlükəsiz vəziyyətdə ölkənizdə yaşayırsınız. Hər şey yolunda gedir. Ancaq dünyəvi ehtiras və nifrət bəlasının səbəb olduğu qarışıqlıq birdən dağıdıcı bir qarşıdurma mühiti yaradır və günahsız insanlar kütləvi şəkildə qətl edilir. Bu vəziyyət Suriya, İraq, Liviya, Myanma kimi dünyanın bir çox yerində hal-hazırda yaşanır. Haqqında bəhs etdiyimiz mərhəmətsizlik elə şiddətlidir ki, günahsız qadınlar, uşaqlar və kişilər dünyanın gözləri qarşısında şəhid edilir.

Vicdan sahibi hər insanın üzərinə düşən məsuliyyət, məzlumların haqqını müdafiə etmək və zülmü ortadan qaldırmaqdır. Rohincalıların bu gün dünyanın gözləri qarşısında məruz qaldıqları zülm, tarixdə bənzərinə az rast gəlinən insanlıq ayıbıdır. Onları bu zülmdən qurtarmaq bizim məsuliyyətimizdir.

Zülm qapınıza söykəndiyində canınızı qurtarmaq üçün tək həll yolu qaçmaqdır. Sevdiklərinizə etibarlı bir sığınacaq tapma ümidi ilə yanına ala bildiyiniz hər kəsi alar və öz ölkənizdə, ya da başqa bir ölkədə mühacir halına gələrsiniz. Bu əsla ixtiyari seçim olmaz; əzabdan və ölümdən qaçmaq üçün tək yolunuz olar.

Bu vəziyyət hal-hazırda Liviyada yaşanır; minlərlə mühacir və immiqrant, evlərini tərk edib etibarlı gələcək, yaxşı həyat ümidi ilə Liviyaya gəlirlər. Eritreya, İraq, Fələstin, Somali, Sudan və Suriyadan gələn bu insanların sayı 2011-ci ildən indiyə qədər ciddi şəkildə artdı. Üstəlik çox adamın ölkələrində yaşadıqları vəhşilik sonrasında xüsusi bir baxıma ehtiyacı olur. 2014-cü il aprel ayı etibarı ilə Liviyada UNHCR-ə qeydiyyatlı 9230 mühacir və 26.298 qaçaq var. Üstəlik bir çox adam qeyri-qanuni yollarla ölkəyə daxil olmağa davam edir. Ancaq Liviyada meydana gələn şiddət mühiti bu kəsləri yeni bir problemlə baş-başa buraxır.

Beynəlxalq Əfv Təşkilatının, dünyanı suriyalılara qucaq açmağa çağıran #OpenToSyria etiketi ilə etdiyi kampaniya, insan haqları adına gözəl bir cəhddir.

Liviyadakı bir çox diplomat və xarici vətəndaşlığı olan adam son aylarda artan şiddət hadisələri səbəbindən ölkəni tərk etdi. Ancaq ölkədə əllərindəki bütün pulu insan tacirlərinə verərək bu vəziyyətdən qaçmağa çalışan minlərlə məzlum mühacir və immiqrant var. 1000 dollara yaxın pulu bir şəkildə yığan mühacirlər əvvəl qaçaqmalçılar tərəfindən Liviyadakı səhradan keçirilir və sahildə dəniz səfərini edəcək digər tacirlərə təslim edilir.

Liviya üçün bu alışılmış bir vəziyyət deyil. Qəddafi dövründə belə Liviya insan tacirlərinin mərkəzi qəbul edilirdi. Ölkələrindəki zülmdən qaçan köçkünlər üçün Liviya, əvvəl Cənubi İtaliyaya, oradan da Avropanın digər şəhərlərinə keçid üçün çıxış nöqtəsi kimidir. Liviyadan Avropaya yola çıxan gəmi sayı qarşıdurmadan əvvəl gündə beş ikən, bu gün gündə on beşə çıxmış vəziyyətdədir. Hal-hazırda minlərlə adam (xüsusilə Səhra altı Afrikadan gələn immiqrantlar) ikinci yurdları olaraq qəbul etdikləri Liviyadakı şiddət mühitindən qaçmaq üçün etibarsız balıqçı gəmilərinə bel bağlayırlar. Bu səfər əsnasında mühacirlərin bir çoxu ölürdü. Belə ki, yalnız bu il Aralıq dənizində 1000 adam bu şəkildə vəfat etdi. Təxminlərə görə Liviyadan edilən bu səfər əsnasında hər on adamdan biri həyatını itirir. Tacirlərə verəcək pulu tapa bilmədikləri üçün Liviyada qalanlar isə şiddət, qaçırılma ya da həbs olunma kimi təhlükələrlə qarşı-qarşıyadırlar. On minlərlə miqrant ölkədə hal-hazırda inşaat işçisi, xidmətçi, baxıcı olaraq işləyir və şiddət mühitinə baxmayaraq Liviyadan ayrıla bilmirlər. Ölkədə qalıb işi seçənlər olsa da, ayrılmaq istəyənlər üçün çox vaxt konsolluqlar, ya da işə götürənlərdən dəstək gəlmir. Hətta miqrant işləyənlər də artıq davam edən qarşıdurmanın bir hissəsi halına gəlir və qaçırılma, fiziki və cinsi şiddətin zərər çəkmişləri arasında yerini alırdılar. Bu kəslər ciddi təhdid altında olmalarına baxmayaraq qarşıdurma bölgəsindən çıxa bilmir və etibarlı bir sığınacaq tapa bilmirdilər. Tripoli və Benqazi UNHCR ofislərində qeydiyyatlı təxminən

37.000 mühacir var və bu kəslər son dərəcə ibtidai şərtlərdə yaşamalarına baxmayaraq davam edən qarşıdurmalara görə buradan ayrıla bilmirlər.

Türkiyə, hal-hazırda dünyada ən çox mühacir saxlayan ölkədir və bu mövzuda tamamilə öz milli büdcəsini istifadə etməkdədir. Mühacir düşərgələri "New York Times"ın deyimi ilə "mükəmməldir". Tarix Türkiyənin verdiyi bu vicdan dərsini əsla unutmayacaq.

Ölkə içində yer dəyişdirmək məcburiyyətində qalan kəslər də Liviyadakı digər əhəmiyyətli bir problemdir. Belə ki, dövlət çevrilişi əsnasında 550.000 adam bu şəkildə evlərini tərk etmək məcburiyyətində qaldı: Bu insanların böyük əksəriyyəti geri dönmüş olsa belə 59.425 adam hələ də geri dönmək üçün evlərinin yenidən inşasını, ya da təmir edilməsini gözləyir. Son dərəcə izdihamlı olan, qida, səhiyyə xidmətləri və gigiyena baxımından yetərsiz nəzarət mərkəzlərində tutulan bu kəslər daha çox siyasi səbəblərlə evlərini tərk etmək məcburiyyətində qalmışlar. Məsələn Qəddafiyə dəstək verdikləri üçün kəndləri və qəsəbələrindən ayrılmaq məcburiyyətində qalan bu insanlar müxtəlif silahlı qrupların əllərində şiddət, istismar və kölelik kimi insanlıqdan kənar rəftarlara məruz qalırlar.

Ölkə daxilində köç etmək məcburiyyətində qalan kəslər və immiqrantların qarşı-qarşıya olduğu digər bir problem isə ayrı-seçkilikdir. İllərdir Liviyada yaşamalarına, bu ölkəni ikinci vətənləri olaraq mənimsəmələrinə baxmayaraq pis rəftar görürlər. Uzun müddətdir

bu ölkədə yaşamaları və burada qurduqları nizam və dostluq bağları səbəbiylə ölkəni tərk etmək istəməyən kəslər şiddət mühitini bütün çətinliyi ilə yaşayırdılar. Digər bir ifadə ilə həm mühacirlər, həm də immiqrantlar Liviyada çox çətin şərtlərlə qarşı-qarşıyadırlar və hər an silahlı militanlar, cinayət dəstələri, ya da insan tacirlərinin hədəfi olma təhdidi ilə yaşayırlar.

Fərqli qrupların müxtəlif cinayətlər işlədiyi Liviyada nizamın tezliklə təmin edilməsi, qanunların tətbiq edilməsi vacib əhəmiyyət daşıyır. Ölkədə ciddi bir hüquqi sistem olmadığı üçün cinayətlər araşdırılmır, məhkəmələrə getmir. liviyalılar ölkələrinə zərər verən bu böhranın öhdəsindən gəlmək üçün bir araya gəlməli, çünki birlik təmin edilmədən Liviyanın hər hansı bir sabitliyə qovuşması mümkün deyildir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Voix Magazine"də dərc olunmuşdur:

http://voixmag.com/the-conundrum-of-Liviyas-refugees-and-migrants/

Dənizin "quru suları"na tərk edilənlər

("Arab News" və "Burma Times" - 7 noyabr 2014-cü il)

Bu həftə İstanbul böyük faciə ilə oyandı. Mühacirləri daşıyan 7-8 nəfərlik kiçik bir gəmi, içindəki 46 adam ilə batmışdı. Əksəriyyəti qadınlar və uşaqların olduğu əfqan mühacirlər idi. İnsan tacirlərinin bir başqa batan gəmisindən isə, yalnız 6 adam xilas ola bilmişdi.

Əslində ötən ayın sonlarında mühacirlər mövzusu xüsusilə İngiltərədən gələn şok şərhlərlə gündəmi çox məşğul edən bir mövzu oldu. İngiltərə Xarici İşlər Nazirliyi məsləhətçisi Joyce Anelay, Avropa Birliyinin Aralıq dənizindəki xilasetmə əməliyyatlarına, "könülsüz olaraq cazibə ünsürü

yaratdığı" səbəbi ilə qatılmayacaqlarını açıqladı. Anelaya görə, "qurtarılan hər immiqrant bir başqasını təşviq edir. Əgər qurtarılmayıb dənizdə başıboş buraxılsalar digərləri də yola çıxmağa təşviq edilməz, beləliklə immiqrant axınına maneə törədilmiş olar."

Bu təəccüblü səbəb, əslində AB ölkələrinin daha çox immiqrant qəbul etməmək üçün istifadə etdikləri bir üsuldur. Xüsusilə Şimali Afrikadan İtaliyaya və Yunanıstana, ya da Orta Şərqdən Bolqarıstana çata bilən immiqrantlar, AB ölkələri arası sərbəst keçiddən faydalanaraq digər AB ölkələrinə asanlıqla keçə bilməkdədirlər. 2013-cü ilin oktyabr ayında 500 adamın həyatını itirdiyi faciəvi qəzadan sonra İtaliya, Mare Nostrum adı verilən bir xilasetmə əməliyyatı başlatdı və bu müddət ərzində 150 mindən çox immiqrantı dənizdən qurtardı. İtaliya bu əməliyyat vəsiləsi ilə gündə orta hesabla 400 adamı dənizdən qurtardı.

Lakin İtaliya da, maddi səbəbləri qarşıya qoyaraq, noyabrın 1-dən etibarən Mare Nostrum adı verilən xilasetmə əməliyyatını sonlandırdığını açıqladı. Bunun yerinə AB ölkələri sərhədlərində, Mare Nostrumun üçdə bir büdcəsi ilə Triton adında bir əməliyyat başladıldı. Əslində Tritonu bir xilasetmə əməliyyatı hesab etmək səhv olar. Bu yeni tətbiq yalnız AB sərhədlərini 60 mil kənara qədər dəniz polisi ilə qoruma altına alır. Sərhədlərə yaxınlaşan və təhlükəli olan immiqrant gəmiləri ilə isə maraqlanmırdı!

İngilis yazıçısı Robin Lustig, İngiltərənin aldığı bu qərar ilə əlaqədar olaraq bunları söylədi: "Başqalarını təşviq etməmək üçün xilasetmə əməliyyatlarını həyata keçirməmək, izdihamlı bir şosedə qarşıya keçən bir uşağı qurtara bilmərəm çünki bu vəziyyət digər uşaqları da eyni şeyi etməyə təşviq edə bilər deməkdən fərqsizdir." Ayrıca, Lustig; "Siyasətçilərin niyə səsə ehtiyacları olduğunu anlaya bilirəm. Amma bunu

qərəzli olaraq insanların ölümünə icazə verərək necə edərlər? Bu qərar həqiqətən şok edicidir" dedi.9

Əslində immiqrantlarla əlaqədar uzun zamandır qüvvədə olan şok edici başqa tətbiqlər də var. Məsələn, batmaqda olan immiqrant gəmilərində olanları qurtaranlar AB ölkələrinin bir çoxunda cinayətkar sayılır. Keçdiyimiz illərdə immiqrantları qurtaran İtalyan balıqçılar insan qaçaqçılığı ittihamı ilə mühakimə olundular və gəmilərinə əl qoyuldu. Bu insanlara evlərinin qapılarını açan və ya kirayəyə verənlər də yenə cinayətkar sayıldılar.10

Şübhəsiz, hər nə sanksiya olursa olsun bu vəziyyət vicdanlı bir insanı, bir immiqrantı xilas etməkdən geri çəkindirə bilməz. Lakin bu tətbiqlərin dəhşətli nəticələrini müşahidə etmək də mümkündür. Məsələn Ərəb Baharının ilk günlərində yanacağı bitən bir gəmi 16 gün boyunca Aralıq dənizində süründürülmüş, ətrafdakı bir çox gəmi vəziyyətə şahid olmasına baxmayaraq tamaşaçı olaraq qalmış, hətta vəziyyətin fərqində olan NATO vertolyotları köməyə çatmışdır. Hər kəsin tamaşaçı qaldığı bu hadisədə 72 immiqrant o gəminin içində insanlığın gözü qarşısında aclıqdan həyatını itirdi.

Buradan yola çıxaraq, xüsusilə AB ölkələrində kök salmağa başlayan vicdan zəifliyini vurğulamaq lazımdır. Burada nəzərdə tutulan şübhəsiz ki, qiymətli Avropa xalqları deyil. Lakin görülür ki, maddi və irqçi mənfəətləri daha üstün görən siyasət anlayışı, ölkə rəhbərliklərini, insanları dənizdə ölümə tərk edəcək qədər ruh boşluğuna sürüyə bilməkdədir.

Bunu da ifadə edək, can verən bir insanı suyun içində ölümə tərk etmək, onu birbaşa öldürməklə eyni şeydir. Bir canı alan necə qatil olsa, bir canı bilərək ölümə tərk edən də eyni şəkildə qatil hökmündədir. Bəzən vicdanı istifadə etmənin əvəzi böyük ola bilər. Bir başqasına kömək edən insan

şikəst ola bilər, malından mülkündən ola bilər, hüquqi problemlərlə boğuşa bilər. Amma onsuz da vicdanlı olmaq bütün bunlara sinə gərə bilmək deməkdir. Doğrunu etmənin gətirdiyi həzz və vicdan rahatlığı, dünyanın heç bir dəyərinə bərabər deyil.

Dövlətlər ehtiraslı siyasətin və real siyasi çıxar hesablarının pəncəsinə düşmüş və siyasətçilərin bir hissəsi də buna aldanaraq vicdanı həssaslıqlarını itirmiş ola bilərlər. Bəzən çəkilən çətinliyi bilmədən kondisionerli otaqlarda mənfəətə uyğun qanunlar çıxartmaq asandır. Belə vəziyyətlərdə insanların hansı səbəbdən bu çətin şərtlər altında ölkələrindən qaçdıqlarını anlamaq da çətinləşər. Halbuki bir insan ölüm qorxusu, aclıq və müharibə təhdidi altında olmadığı müddətcə bir gəminin içinə sıxışaraq, ölümlə üzləşəcəyini bilə-bilə ölkəsindən ayrılmaz. Varını-yoxunu satıb, bu pulun hamısını insan tacirlərinə verməz. Bu insanların ölümü gözə alaraq qaçışlarının səbəbi İngiltərənin və AB-nin yaxşı imkanları deyil. Bu insanlar yalnız insan kimi, təhdid altında olmadan yaşamaq istəmələridir.

Burada soruşulacaq əsas sual budur: Bir insanı dənizin ortasında ölümə tərk etmək necə bir məntiq və vicdanın göstəricisidir? Bunu edən insan necə yaşayır? Bir insanın ölümünə vəsilə olduğunu, yəni bir insan öldürdüyünü bilə-bilə necə gecələri rahat yata bilir?

Cinayəti insan tacirlərinə yükləmək vicdanı rahatlaşdırmaq adına bir bəhanə olaraq istifadə edilsə də yalnız keçən il 3.400-dən çox adamın öldüyü bu böyük faciənin bir hissəsi olmaq, AB ölkələrinə yaraşmamaqdadır. Qiymətli Avropa, gəminin içindəki o yazıqları immiqrant, afrikalı, orta şərqli, yoxsul, səfil deyə deyil də “insan” olaraq görsə qiymətli qala bilər. Avropa eqoizmlə deyil fədakarlıqla inkişaf edə bilər. Xüsusilə İngiltərə, ölümə tərk edilmiş immiqrantlara istiqamətli bu şok edici qərarı tezliklə qüvvədən salmalıdır. Unudulmamalıdır ki, vicdan

korlaşması dövlətdən xalqa bir dəfə əks olundusa, çətinliklər, degenerasiya və fəlakətlər qaçınılmaz hala gələr. Gözəl Avropa bu fəlakətlərə qapı açacaq təməl yaratmamalıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Arab News" və "Burma Times" qəzetlərində dərc olunmuşdur:

http://www.arabnews.com/columns/news/656601

http://burmatimes.net/drowning-migrants-is-a-blot-on-humanity/

Gəmilərlə gələn mühacirlər Tailand üçün yükdür?

("The Malaysian Insider" və "Burma Times" - 30 noyabr 2014-cü il)

Bir neçə gün əvvəl Tailand istiqamətində hərəkət edən gəmiyə sığınaraq Myanmadan qaçan on min vətənsiz Rohinca müsəlmanı getmək istədikləri yerə çata bilmədi. Eyni dövrdə Benqal Körfəzi üzərindən Malayziyaya getmək üzrə Banqladeşdən ayrılan 4000 banqladeşli və rohincalıdan da yalnız 460-ı Malayziyaya çatdı; bu vəziyyət geriyə qalan və yerləri hələ də bilinməyən minlərlə məzlumun aqibəti narahatlığa gətirib çıxardı.

Bənzər bir hadisə bunun kimi bir çox gəminin dənizdə itdiyi 2008-ci ildə yaşanmışdı. Bir neçə yüz adam Rohinca, İndoneziya və Hindistan sahillərində aç və susuz bir şəkildə tapılarkən, digərləri dənizdə itmişdi.

Suruçdakı mühacir düşərgəsi, Kobanidən gələn kürd qardaşlarımızın yaşaması üçün xüsusi olaraq dizayn edilmiş, hər detalı düşünülmüş, bənzərsiz bir mühacir düşərgəsidir.

İstəksiz bir yurd

Bir çox immiqrantın getməyə çalışdıqları və yeni bir həyata başlamağı ümid etdikləri ölkələrdən biri olan Tailand, çox çətin şərtlərdə yaşayan və dənizdə həyatını itirmə riskini gözə alan gəmi ilə gələnləri istəmir.

Tailand çox sayda immiqrantı qəbul edən Asiya-Sakit Okean bölgəsindəki 20 ölkədən biridir. Bu günə qədər sığınacaq axtaran 13.000 insana və 82.000 qeydiyyatlı immiqranta (2013-cü il iyun ayı etibarilə) istəksiz də olsa bir yurd oldu.

Tailand dünyanın ən böyük üçüncü dəniz məhsulları ixracatçısı və ASEAN rəqəmlərinə görə Cənub-Şərqi Asiyanın ikinci böyük iqtisadiyyatıdır. Ölkənin iqtisadi rifahına baxmayaraq Tailandlı səlahiyyətlilər gəmilərlə ölkəyə gələn insanları dənizə geri dönməyə məcbur edirlər. Bir müddət əvvəl Tailandın hərbi hökuməti illərdir düşərgələrdə yaşayan 100.000 mühaciri gəldikləri ölkələrə geri göndərəcəyini dilə gətirdi.

Tailand çox immiqrant axışına görə bir sıra problemlərlə qarşı-qarşıya ola bilər ancaq mültəciləri dənizə geri göndərmək tam mənası ilə onların ölüm fərmanlarını imzalamaq və cinayətə ortaq olmaqdır.

Ordunun Milli Təhlükəsizlik Əməliyyatları katibi polkovnik Banpot Phupianın bu sözləri olduqca düşündürücüdür:

“Onlarla maraqlanmaq Tailand üçün yükdür və onlara baxmaq üçün çox pul xərcləmək məcburiyyətindəyik.”11

Gözəl ölkə Suriya indi xarabaya çevrilmişdir. Ölkə insanlarını itirmiş müharibə sahəsinə, milləti olmayan qaranlıq ölkəyə çevrilmişdir. Bu xarabalığı tərk etmək məcburiyyətində qalan insanlara sahib çıxmaq bizim məsuliyyətimizdir.

Bu sözlər hərbi ənənələrin və kommunist Çinin böyük ölçüdə təsiri altında qalan bir qitənin, Asiyanın qaranlıq və soyuq ürəyindən gəlir. Tailand ABŞ-ın müttəfiqi olmaqla birlikdə iqtisadiyyat, hərbi və siyasət baxımından Çindən ən çox təsirlənən ölkələrdən biridir. Polkovnik Phupianın sözləri də bunu təsdiqləməkdədir.

Digər bir polis polkovniki Sana Prakobphol isə bunları söyləmişdir:

"Əgər gəlirlərsə onları geri çevirməliyik... Myanma dəniz sərhədini keçdiklərində onları geri itələmiş olacağıq. Sonra nə edəcəkləri öz problemləridir."12

Bir tərəfdə təhlükədə olan həyatlar, digər tərəfdə mənfəətlər

Tailand xuntası qaçqınları sərhədindən uzaqlaşdırarkən və ya onları dənizdə ölümə tərk edərkən, ölkədə insan qaçaqçılığı böyüyən ticarət sahəsi olaraq görülür. Bu o qədər qazanclı bir ticarət sayılır ki, balıqçılar gəmilərini mümkün olduğu qədər çox insan daşıyacaq şəklə gətirirlər.

Tailand dünyanın ən böyük insan ticarəti mərkəzlərindən biri olaraq bilinir. İnsan ticarəti quldurları, qohumları onları azad etməsi üçün fidyə ödəyənə qədər minlərlə insanı meşə düşərgələrində saxlayır.

Xarabaya çevrilmiş ölkə Suriyada qalan xalq, elektrik, suyu olmayan şəhərlərdə, yemək, çörək tapa bilmədən, bombardmanların altında və xarabalıqların arasında yaşamaq məcburiyyətindədir. Ölkədə qalan uşaqlar üçün təhsil dayanmışdır, hər biri çətin işlərdə işləmək məcburiyyətindədir.

Aclıq oyunları

Qısa müddət əvvəl reallaşan hərbi çevriliş və hərbi vəziyyət, ölkədə hüququn suverenliyi mövzusundakı narahatlıqları artırdı. Hollywood istehsalı "Aclıq oyunları" filmi, ölkədə çevriliş əleyhinə simvol halına gələn üç barmaqlı salamı ilə Tailandlı gənclər üçün ilham qaynağı olmağa davam edərkən, Tailandda hərbi vəziyyət varlığını qoruyur.

Dünyada yalnız dağıntı və ölüm verən terror problemi, ölkələri ağuşuna alarkən zülm görən insanlar başqa ölkələrə sığınmaqdan başqa bir yol tapa bilmirlər. Demokratik ölkələrdə bütün insanların zülmdən qaçma haqqı vardır. İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməsinin 14-cü maddəsi belə deyər: "Hər kəsin zülmdən qaçıb başqa ölkələrdə sığınma haqqı vardır".

Buna görə gəmi ilə gələn insanlar qeyri-qanuni immiqrantlar deyildir, çünki sığınma haqqı beynəlxalq hüquqa görə qəti olaraq qanunidir. Lakin Tailand Mühacir Müqaviləsini imzalamamışdır və mühacirlərlə əlaqədar yerli bir qanuni tənzimləməyə sahib deyil. Bu vəziyyət mövcud hərbi hökumətə beynəlxalq hüquq və ya birlikləri diqqətə almadan öz başına davranma imkanı verməkdədir.

İstismar edilmiş və müdafiəsiz xalqlar

Hal-hazırda zülm və etnik şiddətdən qaçan 120.000-dən çox Myanmalı mühacir Tailand-Myanma sərhədində onlara verilən on düşərgədə yaşamağa çalışırlar. Tailand qanunlarına görə düşərgələrin xaricində olan qeydiyyatsız mühacirlər həbs olunmaqda və deportasiya edilməkdədirlər. Mühacirlərin gəlir əldə etmə haqları yoxdur. Bu müdafiəsiz insanlar çox vaxt ayrı-seçkiliyə məruz qalırlar. Onlar üçün Tailanddakı insan haqları sui-istifadələri Myanmadakından çox fərqli deyil. Bu insanlar hətta, balıqçı gəmilərində işləmək üzrə bir neçə dollara satılırlar.

Dünyada kasıb və çətinlik içində yaşayan xalqlar ilə zəngin aristokrat kütlələr arasında böyük bir natarazlıq hökm sürməkdədir. Bəzi Avropa xalqı, sehrbazlıq nümayişlərinə minlərlə funt xərcləyərkən, bu xərcləri evsiz qalmış mühacirlər üçün etməyi rədd etməkdədirlər.

Dünya səviyyəsində mühacir problemi

Digər tərəfdən Suriya Vətəndaş Müharibəsinin başlaması ilə suriyalı mühacirlərin sayı digər millətlərdən olan mühacirlərin sayını aşdı və yüksək həddə çatdı (2014-cü ilin noyabr ayından etibarən üç milyondan çox). Orta Afrikada isə 485.000-ə qədər insan öz ölkələrində yerlərindən edilərkən, indiyə qədər 421.000-dən çoxu ölkələrindən qaçdı. Bu səbəbdən mediada tez-tez bəhs edildiyi kimi dünyanın diqqəti və qaynaqları əksəriyyətlə Suriya və Orta Afrikada cəmlənsə də, mühacir məsələsi ilə əlaqədar olaraq dünya səviyyəsində daha çoxunun edilməsi lazımdır.

Qısa zamanda mühacir problemi həll edilməyəcək kimi görünsə də Asiya Sakit okean bölgəsində, nisbətən daha çox rifaha sahib bir ölkə olan Tailand, zülm içində yaşayan bir çox insanın ümidi olmağa davam edir. Beynəlxalq cəmiyyət və ya daha çox Ümumi Milli Məhsul (ÜMM)-yə sahib ölkələr bu insanların səsini eşidənə qədər Tailand, qəti olaraq bu insanları sərhədləri içində tutmanın bir yolunu tapmalıdır.

Bu, İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməsi və demokratiyaya istiqamətli müsbət inkişafı ifadə etdiyi üçün, dünyanın gözündə çox müsbət addım olacaq və şübhəsiz Tailandın da buna ehtiyacı vardır. Əks halda Asiyanın qaranlıq və soyuq üzü Tailandı əhatə edəcək və onu tək müttəfiqi Çinlə baş-başa buraxacaqdır.

Ayrıca dünyanın mühacirlərin hekayələrinə daha çox diqqət verməsi və onları saxlayan ölkələrə dəstək olması lazımdır. Düşərgələr ailələrin və uşaqların yaşayacaqları yerlər deyil; buralar yalnız keçici məqsədlərlə istifadə edilməlidir. Tailandda təxminən 375.000 immiqrant uşaq var və

İnsan Haqları İzləmə Təşkilatının hesabatına görə ölkə bu uşaqların minlərləsini həbs edərək onlara fiziki və mənəvi zərər verir.

Buna baxmayaraq Tailand Asiyanın kommunist, süni, sevgisiz girdabına basdırılmamalıdır. İnsan haqlarına hörmət göstərməli və ehtiyac içində olanları qorumalıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "The Malaysian Insider" və "Burma Times"da dərc olunmuşdur:

Heç kim müharibəyə layiq deyil. Kimsə, xarici ölkələrin küçələrində sahibsiz, evsiz və kimsəsiz qalmaq istəməz. O insanların da insan kimi yaşama haqları vardır. Müharibə mühitində əllərindən alınan bu haqqı, vicdanlı insanlar olaraq biz onlara verməliyik.

http://www.themalaysianinsider.com/sideviews/article/are-the-boat-people-a-burden-for-thailand-harun-yahya

http://burmatimes.net/boat-people-burden-thailand/

Yenidən Rohinca, yenidən insanlıq faciəsi

("Arab News", "Rohinca National Organisation (ARNO) Arakan" və "Burma Times". 29 noyabr 2014-1 dekabr 2014)

Uzun illərdir beynəlxalq ictimaiyyətin uzaqdan izlədiyi mövzulardan biridir Rohinca müsəlmanları. Öz ölkələrində mühacir vəziyyətində olan, heç bir sosial haqqı olmayan və bəzən şiddətə məruz qalan zülm içindəki insanlardır. 2012-ci ildəki dəhşətli hücumlar və yanğınlar əsnasında dünyanın bir az olsun tanımağa başladığı müsəlman azlıq rohincalıların yaşadığı Myanmada dəyişən çox da bir şey yoxdur.

Kasıb ölkələrdə doğulan insanlar, Avropa kimi zəngin ölkələrdə yaşayan insanlarla şübhəsiz eyni haqlara sahibdirlər. Lakin insanların eqoizmi, insan haqları anlayışını ortadan qaldırmaqdadır. Dövrümüzün ən böyük problemlərindən biri budur.

Ötən ay Myanma hökumətinin Birləşmiş Millətlərə təqdim etdiyi plan, ətrafda sülh, hüzur, ədalət və birliyi hədəfləyirdi. Myanma Xarici İşlər Naziri bu planı BMT-yə təqdim etmiş və bir çox ölkənin də təsdiqini qazanmışdı. Bir çox ölkə, illər sonra Myanma hökumətinin müsəlman azlığa qarşı etdiyi ayrı-seçkilik siyasətindən geri addım atdığını düşünmüşdü.

Plana görə ölkə daxilində zülm görən azlıq Rohinca müsəlmanları iki variant ilə baş-başa buraxıldı: Birincisi ya Banqladeş vətəndaşlığına keçəcək, beləliklə vətəndaşlıq haqqı əldə etmiş olacaq və 1982-ci il vətəndaşlıq qanununa uyğun düşəcək sənədləri təmin etdikləri təqdirdə daha sonradan Myanma vətəndaşı olmağa haqq qazana biləcəklər. İkinci variant isə bunu qəbul etməmək idi ki, bunun mənası qorxunc şərtlərdəki düşərgələrə sürgün edilərək məhbus mövqeyində yaşamaları və nəhayət ölkədən atılmaları idi.

Bir çox insan, mühacirlərin yaşadığı faciəni düşünməkdən çəkinməkdədir. Halbuki yalnız bir anlıq özlərini bu məzlumların yerinə qoyduqlarında, baş verən faciəni daha yaxşı anlayacaqlar.

İlk baxışda birinci variant, Myanma hökumətinin rohincalılara verdiyi bir vətəndaşlıq imkanı olaraq qiymətləndirilə bilər. Lakin buradakı əsas məqsəd, 1982-ci il qanunu ilə onsuz da ölkə daxilində bütün haqlarını itirmiş olan rohincalıların rəsmi olaraq immiqrant vəziyyətinə daxil edilmələridir. Öz torpaqları üzərində tamamilə xarici statusunda qalacaq olan rohincalıların böyük bir hissəsinin təkrar Myanma vətəndaşı sayıla bilməsi üçün keçmişlərinə dair sənədləri təqdim edə bilməyəcəkləri bilinməkdədir. Çünki bu insanların keçmişlərinə aid sənədlər, sahib olduqları hər şey ilə birlikdə 2012-ci ildə rohincalıları hədəf alan qorxunc qiyamlar əsnasında yanıb yox olmuşdur. Bu səbəbdən sənədlərini təmin edə bilməyənlər, öz ölkələrində Benqal vətəndaşı olaraq immiqrant

statusunda qalacaq. Myanma hökuməti isə bu insanları qısa bir müddət sonra, "əcnəbi" olduqları səbəbi ilə ya düşərgələrə göndərəcək, ya da ölkədən deportasiya edəcək. Benqal vətəndaşlığına keçmiş olan bu insanlar, Banqladeş tərəfindən də qəbul edilməməkdədir. Çünki bu insanlar Banqladeşdə doğulmamışlar. Nəticədə bu qanun Banqladeşə aid edilməməkdədir.

Bu zaman Benqal vətəndaşlığına keçməyi qəbul etməyənlər də yaşadıqları kənd və qəsəbələrdən alınaraq məhbus damğası yeyəcəkləri mühacir düşərgələrinə göndəriləcəklər. Tətbiq ediləcək plan daxilində, bu insanların qısa müddət sonra ölkədən deportasiya edilmələri və Myanma hökumətinin bu insanları digər ölkələrə mühacir olaraq göndərmək üçün BMT-yə müraciət edəcək. Problem budur ki, BMT zülm görən bu insanları mühacir olaraq tanımamaqdadır.

Sən pisliyi ən gözəl şəkildə dəf et! Biz onların Bizə yaraşdırdıqları sifətləri çox yaxşı bilirik. (Muminun surəsi, 96)

Bəhs etdiyimiz plan daxilində bir milyon rohincalı, bu qorxunc son ilə qarşı-qarşıya qalacaq.

İnsan Haqları İzləmə Təşkilatı (Human Rights Watch) Asiya hissəsinin müdir müavini Phil Robertson "Reuters" agentliyinə bu sözləri demişdir:

"Bu plan olduqca narahat edicidir, çünki bu plan ilə bütün Rohinca xalqı, bütün haqlarından məhrum ediləcək, istədikləri müddətdə məhbus qalacaqları bağlı düşərgələrə sistematik olaraq kilidlənəcəklər."13

Uzun zamandır Myanma üzərindən keçən enerji koridorları və buna bağlı ticari əlaqələrə zərər gəlməməsi üçün dünyanın super gücləri və ASEAN üzvlərinin Rohinca müsəlmanları mövzusunda Myanma hökumətinə hər hansı bir sanksiya tətbiq etdikləri və bu mövzuya yalnız tamaşaçı qaldıqları bilinməkdədir. Dünyada insanlıq cinayətlərinin dövrümüzdə çox geniş sahədə və olduqca vəhşi şəkildə işlənməkdə olduğu doğrudur. Lakin Rohinca müsəlmanları məsələsi, dünya ölkələrinin rahatlıqla tədbir görəcəyi və həll gətirə biləcəyi mövzuların başında gəlməsinə baxmayaraq hakim olan bu səssizlik başa düşüləcək hal deyil. İndi Myanma hökumətinin təqdim etdiyi bu təklifin hiyləgər görünüşünün bəzi ölkələri və BMT-ni razı salma ehtimalı, vəziyyəti daha ürküdücü hala salacaqdır.

Real siyasətin insanlığın qabağına keçdiyi, siyasətin zalımlıq kimi qəbul edildiyi, ölkələrin sevgi deyil mənfəət üzərinə ittifaq qurduğu bu günlərdə şiddətin, qəzəbin və müharibələrin yayılmasının bir səbəbi var. O səbəb, insanların və ölkələrin sevgini həll olaraq görməmələridir. Bir ölkə xalqı, illərdir bütün dünyanın gözlərinin qarşısında bu cür böyük bir soyqırım və zülm altında yaşamaqda, bütün dünya bunu bilməkdə, amma səsini çıxarmamaqdadır. Demək ki, buradakı problem isbat problemi deyil, vicdan problemidir.

Myanmada insanlıq faciəsinin çox uzun zamandır davam etməkdə olduğu sirr deyil. Bunun üstünü örtmək, zülmə tamaşaçı qalmaq dünyanı əhatə edən fəlakətləri daha da gücləndirə bilər. Bu səbəbdən əvvəl insanlıq adına, sonra bu ürküdücü ssenarini düşünərək dünya ölkələrinin mənfəətdən çox ədalət və sevgiyə əhəmiyyət vermələri əsas şərtdir. Bunun üçün dünya, sistematik olaraq illərdir əzilən Rohinca müsəlmanlarına əl uzatmalı, aldatmamalı və bu məzlum xalq üçün bir həll yolu tapmalıdır. Bu bir həqiqətdir ki, dünyanın dörd bir tərəfində yığıncaqlar təşkil edən, təbii qaz, neft müqavilələrində imzası olan, bir-

birindən silah alıb bir-birinə mərmi satan hər ölkənin bir ovuc məzlumu qorumağa da, Myanma hökumətini razı salmağa da gücü yetər. Bunun üçün ölkələrin real-siyasi hesablardan uzaqlaşıb vicdanlarını korlaşdırmadıqlarını göstərmələri gərəkdir. Baxaq görək buna hazır olan vardır?

Hörmətli. Adnan Oktarın bu məqaləsi "Arab News", "Arakan Rohinca National Organisation (ARNO)" və "Burma Times" qəzetlərində dərc olunmuşdur:

http://www.arabnews.com/columns/news/649721

http://burmatimes.net/deafening-silence-over-Rohinca-issue/

http://www.Rohinca.org/portal/index.php/scholars/68-harun-yahya-/1096-deafening-silence-over-Rohinca-issue.html

FƏSİL

Avropa mühacir böhranı və həll yolları

(“Daily Mail” - 8 dekabr 2014-cü il)

İnsanlıq Yərmukda qorxunc bir faciəyə şahid oldu. Bu fəlakətin necə qarşısı alınmadısa, Suriyada bir çox bölgədə davam edən bənzər faciələrin hələ də qarşısı alınmır.

Açıq dənizin ortasında kiçik bir gəmiyə sığışan aç və susuz onlarla insanlar...

Bir çayı, ya da tikanlı məftilləri keçmək bahasına verilən canlar...

Yərmukda skelet halına gəlmiş uşaqlar, qadınlar və yaşlıların görüntüləri həqiqi mənada ürək ağrıdan idi. Lakin hər fəlakətdə olduğu kimi bunun da unudulması uzun sürmədi.

Tam xilas olduq dedikləri anda qarşılaşdıqları hörmətdən salıcı rəftarlar...

Yərmukdakı xalq, mətbuatın bölgəyə çatması ilə düşdükləri vəziyyəti plakatlarla dünyaya izah etməyə çalışdılar. BMT yardımları bölgəyə çatsa da xalqın yaşadığı kabus hələ sona çatmış deyil.

Son bir neçə ildə Avropaya köçməyə çalışanların yaşadıqlarının qısa bir xülasəsi bu cümlələrdir. Son illərdə Avropa böyük bir köç dalğasına məruz qalır. Bunun səbəbi bəzən iqtisadiyyat, bəzən təhlükəsizlikdir.

Yaşadıqları yerdəki dolanışıq çətinliyi təhlükəsizlik problemləri ilə birləşəndə insanlar daha firavan, daha etibarlı gördükləri yerlərə köçüb buralarda yaşamaq istəyirlər. Çox vaxt bu köç ölkə daxilində baş verir, ancaq Ərəb baharı və qlobal böhran kimi faktorlar bu köçlərin gedərək daha çox həddini aşmasına gətirib çıxarır.

"Su yoxdur, yemək yoxdur, elektrik yoxdur, nəzarət məntəqələri ilə əhatə olunmuşuq, hər gün bombalanırıq. Mühasirədəyik." "BMT bizim var olmadığımızı söyləyir." "Blokada altındakı Yərmuk xalqı." "Bir az çörəyə, şəkərə, südə və una ehtiyacım var. Yərmuk düşərgəsi" "Susuz keçən 16 gün. Yərmuk."

İspaniya, Malta və İtaliya Şimali Afrikadan, Yunanıstan Egey dənizi və Trakyadan, Almaniya isə Balkanlardan çox sayda köçə məruz qalır. Türkiyə isə Suriya və İraqdan rekord səviyyədə köç qəbul etmiş vəziyyətdədir.

Türkiyə İspaniya, İtaliya və Almaniyadan daha az inkişaf etmiş olmasına baxmayaraq mühacirləri rədd etmir və onlara daha yaxşı imkanlar təqdim edir. Yaxın keçmişdə Türkiyədəki mühacir düşərgələrini ziyarət edən BMT-nin yaxşı niyyət elçisi Angelina Jolie "Türkiyəyə, bu insanların gəlməsinə icazə verməsi və geri dönməyə məcbur edilməyəcəkləri zəmanəti verməsini təmin edən açıq qapı siyasətindən ötrü minnətdarım"14 deyərək bu vəziyyəti təqdir etmişdi. Papa Francis də

2014-cü ilin noyabr ayında Türkiyə ziyarətində Türkiyənin bu hərəkətini tərifləmiş və beynəlxalq ictimaiyyəti Türkiyəyə kömək etməyə dəvət etmişdi.

Avropa ölkələrinə baxdığınızda bənzər vəziyyəti görmək demək olar qeyri-mümkündür. İtaliya artıq açıq dənizdə mühacir daşıyan gəmilərə xilasetmə əməliyyatı etməyəcəyini açıqlayarkən, Yunanıstan Türkiyə sərhədində xəndəklər və divarlar ilə mühacirlərə mane olmağı planlayır. Almaniya isə Balkan ölkələrindən gələn mühacirlərə mane olmaq üçün mühacir qanunu və şərtlərində dəyişiklik etdi. Bənzər bir dəyişiklik İsveçrədəki iltica qanununda yaşandı. İsveçrədə sərtləşdirilən qanun 78,5% kimi böyük bir nisbətlə xalq tərəfindən təsdiqləndi.

Mühacir mövzusunda baş verən tək problem siyasi sığınma üçün müraciət etmək və qəbul olunmasının çətinləşdirilməsi deyil. Müxtəlif çətinliklərlə sərhədləri və dənizləri aşan mühacirlər özlərini bir Avropa ölkəsinə atdıqlarında da çətinlikləri sona çatmır. Bir çox Avropa ölkəsi həddindən artıq gələn mühacir axınına görə təzyiq altındadır. Ancaq bu vəziyyət oralarda baş verən insan haqları pozuntularını, heç bir şəkildə haqlı göstərməyə yetmir.

Bir çox mühacir Avropa ölkələrində pis rəftara, təhqirə və alçaltmalara məruz qalır. Beynəlxalq Əfv Təşkilatının təqdimat filmindəki mühacirin "Siz avropalılar heyvanlara yaxşı davranırsınız. Lütfən bizə heyvanlarınıza davrandığınız kimi davranın. Biz ölürük"15 sözü baş verən həqiqətləri ortaya qoyur.

Avropa Ədalət Məhkəməsi ötən iyun ayında Malta dövlətini somalili bir mühacirə təzminat ödəməyə məhkum etdi. Bu qərarın səbəbi isə mühacirin deportasiya edilmək məqsədi ilə saxlanıldığı həbsxanada aylarla həddindən artıq istiyə və ya soyuğa dözmək məcburiyyətində qalması, mühacirin çölə çıxmasına da icazə verilməməsi idi. Ədalət

Məhkəməsi məhkəmənin sonunda qərarın alçaldıcı və insan qüruruna yaraşmayan rəftara görə verildiyini açıqlamışdı.16

Avropada mühacirlərin yaşadıqlarına bir başqa nümunə "Euronews" internet saytında "Avropada mühacirlərə acınacaqlı münasibət"17 başlığı ilə yer aldı. Hadisə Almaniyada mühacir qəbul edən şirkətdə əldə edilən görüntülərə söykənir. Görüntülərdə iki təhlükəsizlik işçisi qəhqəhə çəkərkən, biri ayağı ilə əlləri qandallı əlcəzairli immiqrantın başını əzir. "Vurmayın" deyə qışqıran mühacir natəmiz yataq üzərinə zorla yatırdılır.

Avropadakı demokratiya və insan haqları səviyyəsi ilə uyğunlaşmayan bu vəziyyət məhkəmə orqanları tərəfindən verilən qərarlar sayəsində ortadan qaldırıla bilər. Gərək milli məhkəmələr, gərəksə Avropa İnsan Haqları Məhkəməsi kimi beynəlxalq məhkəmə qərarları mühacirlərin vəziyyətinin yaxşılaşdırılmasına kömək edəcək. Təbii ki, bunun üçün xüsusilə milli məhkəmələrin ədalətli və bitərəf çalışması lazımdır.

Bir başqa həll yolu isə mühacir qəbul edən ölkələrin digər AB ölkələri tərəfindən dəstəklənməsidir. AB immiqrantlar üçün insan şərəfinə yaraşan qonaq evləri üçün pul maliyyələşdirməli, nəzarət evləri açmalıdır. İmmiqrantların içindəki qadınlar, uşaqlar və baxıma möhtac olanlar, insani meyarlara uyğun şəkildə AB ölkələrinə paylanmalıdır. Ayrıca mühacirlərə sərhədlərini bağlamaq yerinə, yoxlanışlı qanuni keçid yolları açılmalıdır. Bu sayədə hər il yüzlərlə insanın açıq dənizləri, ya da çayları keçərkən ölmələrinin qarşısı alına bilər. Ayrıca mühacirlər həbsə atılmamalıdır. Bunun üçün də qanunların dəyişdirilməsi lazımdır. Ancaq problemin kökdən həlli, bu kimi maddi tədbirlərin mənəvi təhsillə gücləndirilməsi ilə mümkündür. Yalnız öz rahatlığını, öz hüzurunu düşünən eqoist əxlaqın yerini paylaşmağı, fədakarlığı əsas götürən sahə insanlara sevgi və şəfqətlə yaxınlaşan bir yanaşma olması lazımdır. Bunun üçün də həm dövlətə, həm qeyri-hökumət təşkilatlarına, həm də

mediaya çox böyük vəzifə düşür. Çox istiqamətli kampaniya ilə sevgi və həmrəylik əxlaqını diriltmək mühacir problemini həll etmədə ən əhəmiyyətli addım olacaqdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Daily Mail" qəzetində dərc olunmuşdur:

http://dailymailnews.com/2014/12/08/what-can-european-countries-do-against-the-tide-of-migration/

Rohinca müsəlmanları öz yurdlarından sürgün edilir

("Burma Times" - 20 mart 2015-ci il)

İslam, Uzaq Şərq coğrafiyası və Birma (Myanma) sərhədlərində yerləşən Arakan torpaqlarına 8-ci əsrdən etibarən bölgəyə səyahət edən müsəlmanlar yoluyla çatdı və 1203-cü ildə Benqalın müsəlman olması ilə birlikdə Arakan tamamilə İslam idarəsinə girdi. Bölgənin müsəlmanlar tərəfindən fəth edildiyi 1430-1638-ci illər arasında bir neçəsi xaricində bütün hökmdarlar İslamı seçdilər. Arakanda məskun salmış müsəlmanlar bu tarixdən etibarən bu torpaqlarda yaşayan Benqal Kralı Sultan Cəlaləddin Məhəmməd Şah tərəfindən taxta keçirilən Süleyman Şahın nəvələridir.18

Yərmukdakı vəziyyət üçün yalnız “insanlıqdan kənar” deyib keçmək yetərli deyil. Suriya bu fəlakəti davamlı olaraq yaşamaqdadır. Müsəlmanların birlik olaraq bu faciəni aradan qaldıracaq tədbirlər görməsi vacibdir.

Tarixin də təsdiqlədiyi kimi, dövrümüzdə öz yurdlarında zülmə məruz qoyulan, kəndləri və evləri yandırılan, anaları, qızları işgəncəyə məruz qalan, kişiləri qətl edilən Rohinca müsəlmanları yaşadıqları torpaqların həqiqi sahibləridir. Üstəlik müsəlmanlar, Arakan cəmiyyətinin siyasi və sosial həyatında 350 ildən daha uzun müddət boyunca ölkə rəhbərliyində

əhəmiyyətli vəzifələrdə oldular, hətta baş vəzir, katib, qubernator, qazı, orduda generallıq, nazirlik kimi yüksək rütbəli vəzifələrdə idarə etdilər.

Lakin Arakanın müsəlman sultanlarından II Salim Şahın 1638-ci ildə intriqa nəticəsində öldürülməsi ilə, imperatorluq geriləmə və çöküş dövrünə girdi. 1784-cü ildən sonra Birma işğalı ilə bölgədə yaşayan müsəlman xalq böyük bir zülm və təzyiq altına alındı və böyük bir hissəsi İngilis rəhbərliyindəki Benqala sığınmaq məcburiyyətində qaldı. İngilis Şərqi Hindistan Şirkəti qeydlərinə görə 1799-cu ildə 35 min arakanlı müsəlman, Birmalıların zalım hərəkətlərinə görə ölkələrini tərk etdilər. Qeydlərdə bu ifadələr yer alır: "...Arakanın işğalından bir gün sonra Birmalılar 40 min insanı öldürdü; gözəl bir qadın gördüklərində əvvəl yoldaşını öldürüb onu ələ keçirirdilər; gənc qızlar ailələrindən zorla alınırdı, bu kasıb insanların sahib olduqları hər şeyə əl qoyuldu."19 Birmalıların təcavüzündən qaçan müsəlmanların bir hissəsi ölkələrini tərk edib, Hindistana köç etmək məcburiyyətində qaldılar.

Ola bilsin ki, Allah sizinlə düşmənləriniz arasında bir sevgi (dostluq) yaratsın. Allah hər şeyə qadirdir. Allah bağışlayandır, rəhmlidir. (Mumtəhənə surəsi, 7)

1824-cü ildə bölgəyə hakim olan ingilislərin ölkədən çəkilmələrinin ardından, qısa müddət sonra müsəlmanlara istiqamətli hücumlar daha çox artdı. İkinci Dünya Müharibəsi və Yapon işğalı əsnasında müsəlmanlar üzərindəki təzyiqin artması nəticəsində 1942-ci ildə Minbya qəsəbəsinə bağlı Çanbilli kəndindəki müsəlman qadın, kişi və uşaqlar qılınc və mizraqlarla vəhşicəsinə qətl edildi. Qırğının ardından bölgə talan edildi, müsəlmanlara aid bütün qızıl, gümüş və qiymətli əşya ələ keçirildi, heyvanları müsadirə edildi. Kənddə başlayan və bütün Arakana yayılan hücumlarda 307 müsəlman kəndi xəritədən silindi, 100 mindən çox müsəlman şəhid edildi və 80 minə yaxını yerlərindən sürgün edildi.20

Müsəlmanların hərəkətlərini məhdudlaşdıracaq qadağalar əsas 1948-ci ildə Birmanın müstəqilliyini qazanması ilə gətirildi. Bütün bunların məqsədi Arakandakı müsəlman əhalini ortadan qaldırmaq idi. 1962-ci il dövlət çevrilişi ilə birlikdə hərbi rejim müsəlman xalqın şəxsiyyətini tamamilə rədd etdi, təbliğat üsulları ilə əcnəbi olaraq göstərilməyə başladılar, məmurluq və polislik kimi vəzifələrdən alındılar və Arakan əyaləti içərisində səyahət azadlığına da maneə törədildi.

İllərdir insan haqlarının liderliyini edən Avropa, əməllərində müvəffəqiyyətsiz olmuşdur. Bəzi Avropa ölkələri müəyyən sayda mühacir qəbul edərkən, bəzilərində insanlıqdan kənar görüntülər sərgilənmişdir. Bir qisim avropalı siyasətçilərin sərt ifadələri, mühacirlərin sərhədlərdə gözlədilməsi, hətta mühacirlərin insanların gözləri qarşısında açıq dənizlərdə ölümə tərk edilməsi 21-ci əsrin şahid olduğu ən ürək ağrıdan görüntülərdəndir.

Arakan torpaqlarının həqiqi sahibləri olan müsəlmanlar, 1990-cu ildən sonra yenə çətin şərtlərdə həyatını davam etdirməyə davam edirlər. Əhalinin azaldılması üçün sistematik təzyiq tətbiq olunur; yerli rəhbərliyin vergi tətbiq etməsi nəticəsində əkinçilik və heyvandarlıq etmək olmur, torpaqları müsadirə edilir, üstəlik həbs, işgəncə, məscidlərin və qəbiristanlıqların dağıdılması, "qadınların inkişafı" adı altında müsəlman gənc qızların kəndlərindən çıxardılmaları və işgəncələr, təhsil haqlarının əllərindən alınmış olması, bu günahsız xalqa tətbiq olunan zülmün yalnız ümumi təsviri ola bilər.21

Rohinca müsəlmanları öz torpaqlarından, əsl yurdlarından sürgün edildilər və təhlükəsiz olacaqlarını düşündükləri digər ölkələrə köç etmək məcburiyyətində qaldılar. Bu gün bu torpaqların həqiqi sahibləri evlərini, kök saldıqları yurdlarını, mədəniyyətlərini, tarixlərini buraxıb ətraf ölkələrə sığınaraq ən ağır şərtlərdə canlarını qurtarmağa çalışırlar. Birmada 240,000-dən çox müsəlman, ölkə daxilində mühacir

vəziyyətindədir və ölkədə yaşayan 810,000-dən çox müsəlmana vətəndaşlıq haqqı tanınmır. Ölkənin Tailand sərhədində 120,000 mühacir var.22 Bunun xaricində bu gün Pakistan, Səudiyyə Ərəbistanı, Malayziya, Tailand, Banqladeş və bəzi Avropa ölkələrində yüz minlərlə Rohinca müsəlmanı mühacir statusunda yaşayır. Tək Banqladeşdə 1,5 milyon Rohinca müsəlmanı ac-susuz, meşələrdə və çay kənarlarında yaşamağa çalışırlar.

Dünyanın harasında olursa olsun, vicdanı olan və ürəyi qatılaşmamış hər insanın üzərinə düşən məsuliyyət, məzlumların haqqını müdafiə etmək, ədalətə dəstək olmaq və dünya üzərindəki zülmü ortadan qaldırmaq üçün əlindən gələni etməsidir. Sosial mediada yazılan bir cümlə, paylaşılan bir məqalə, iclasda deyilən bir söz və ya insanların bu açıq-aşkar zülm mövzusunda xəbərdar edilmələri, ictimaiyyətin diktator rejimlərə, tiranlara və zalımlara qarşı birləşməsi üçün atılan hər addım bu və bənzəri insanlıq cinayətlərinin dayandırılması və maneə törədilməsi üçün bir sədd meydana gətirəcəkdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Burma Times”da dərc olunmuşdur:

http://burmatimes.net/the-Rohinca-muslims-are-being-exiled-in-their-own-lands/

Böhranın 4-cü ilində suriyalı mühacirlər

(“Arabian Gazette” - 21 mart 2015-ci il)

Suriyada 2011-ci ilin mart ayında başlayan vətəndaş müharibəsinin dördüncü ili doldu. Böhran boyunca 200 mindən çox insan həyatını itirdi. 11 milyondan çox insan isə həyatları boyunca yaşadıqları evləri, yerləri tərk etmək məcburiyyətində qaldılar. Bunların 7.6 milyona yaxını Suriya

içində sürgün həyatı yaşayır. 4 milyon adam da özlərinin və ailələrinin canlarını qurtara bilmək üçün ölkədən qaçmağa məcbur qaldı. Bəlkə də 5 il əvvələ qədər bu sətirləri oxuyanlardan çox fərqli olmayan həyatları, başlarına gələn qorxunc fəlakət nəticəsində alt-üst oldu. Dəhşət mühitindən xilas ola bilənlər isə bu gün hər şeyə yeni başdan başlamaq məcburiyyətindələr.

Ölkəsinə sığınmaq istəyən mühacirlərin bir hissəsinə Almaniya qapılarını açdı. Lakin bu dəfə mühacirlər, alman irqçilərinin reaksiyası ilə qarşılaşdılar. Mühacirlər sığındıqları ölkələrdə də onların əleyhinə göstərilərə görə rahat deyildirlər. Solda: Alman Sağçılar Birliyi, Münihdə mühacirlər əleyhinə nümayiş təşkil edirlər.

Dörd ildir davam edən əziyyət və qeyri-müəyyən mühit

Təxminən 4 ildir sürgündə yaşayan milyonlarla suriyalı, dondurucu soyuqların olduğu bir qışı daha aclıq və səfalət içində keçirməyə çalışır. Bu yazıq insanlar BMT və humanitar yardım təşkilatları ilə həyatlarını ancaq davam etdirə bilirlər.

Gedərək ağırlaşan qış şərtlərində mühacirlər aclıqla bərabər sığınma mövzusunda da böyük çətinliklər yaşayırlar. Çoxu uşaq və körpə olmaq üzrə mühacirlərin əhəmiyyətli bir hissəsi yetərli qida, geyim və yanacaq tapa bilmədikləri üçün çətin qış şərtlərinə məğlub olaraq həyatlarını itirirlər.

Bu gün suriyalı mühacirlərin təxminən 95%-i, yəni 3.8 milyon adam bölgədəki beş qonşu ölkədə sığınmağa çalışır. Bunlar: Türkiyə, Livan, İordaniya, İraq və Misirdir. Birləşmiş Millətlər Mühacirlər Yüksək Komissarlığı (UNHCR) bu ölkələrdəki 380 min adamın yenidən yerləşdirilməyə ehtiyac duyduğunu açıqladı.

AB-nin mühacir himayə etməsində böyük ayıbı

Yuxarıda saydıqlarımızdan başqa ölkələrin qəbul etdiyi suriyalı sayı cəmi mühacirlərin 2%-dən daha azdır. Avropa Birliyi ölkələrinin indiyə qədər qəbul etdiyi suriyalı mühacir sayı isə son dərəcə dəhşətli bir rəqəmdir: Yalnız 5 min...

Bu insanlıq ayıbı qarşısında ötən dekabr ayında 30-a qədər qabaqcıl beynəlxalq yardım quruluşu ortaq məruzə hazırlayaraq, zəngin qərb ölkələrin 2015-ci ilin sonuna qədər suriyalı mühacirlərin heç olmasa 5%-nin, yəni təxminən 160 min adamı qəbul etmələrini istədi. Almaniya insani müraciət və ya fərdi dəstək proqramları vasitəsi ilə 28 min 500 mühaciri qəbul etməyə söz verdi.

Birləşmiş Millətlər Təşkilatının 2014-cü ildə mühacirlər üçün regional yardım çağırışı daxilində tələb etdiyi 3.74 milyon dolların isə 18 noyabr 2014-cü il etibarıyla ancaq 53%-i çatdırıldı.

Qadınlar, uşaqlar və heç kim əsir olmamalıdır. Orta Şərqdə kök salmış mövhumatçılıq probleminin Avropa tərəfindən təhdid olaraq görüldüyü doğrudur. Lakin Avropa bu problemi, Orta Şərq ölkələrinə qəbul edərək deyil, onlara Qurandan doğru təhsili verərək həll edə bilər. Kin və nifrət siyasəti, mövhumatçılığı daha da gücləndirəcək səhv siyasətlərdir.

Suriya böhranına istiqamətli beynəlxalq əlaqə son dərəcə yetərsizdir

Bu gün Suriya daxilində və xaricində sürgün halında yaşayan cəmi 10,8 milyon insan təcili insani köməyə ehtiyac duyur. Ancaq Suriya böhranına istiqamətli beynəlxalq dəstək yox deyiləcək qədər azdır. İndiyə qədər rifah səviyyəsi yüksək ölkələr tərəfindən 79 min 180-nə yenidən yerləşdirmə sözü verildi.

Bölgədəki insanlıq faciəsini gündəmə gətirmə adına Beynəlxalq Əfv Təşkilatı #OpenToSyria başlığı ilə yeni bir kampaniya başlatdı. Kampaniya ictimai rəy meydana gətirərək, rifah səviyyəsi yüksək ölkələrə yenidən yerləşdirmə və digər insan qəbul proqramları sayəsində daha çox suriyalı mühacirin qəbul edilməsi üçün təzyiq göstərmə məqsədi güdürdü.

Yenə bu kampaniya daxilində Suriyadakı qarşıdurmalardan qaçan və qonşu ölkələrdə həyat mübarizəsi verən mühacirlərlə əlaqədar yeni bir hesabat nümayiş olundu. Hesabatın başlığı, "çətinlik, ümid və yenidən yerləşdirmək: Suriyadan gələn mühacirlər öz hekayələrindən bəhs edir".

Hesabatda səkkiz zərər çəkmiş ailənin həyatından bəhs edilərək böhranın insani ölçüsünə vurğu edilir. Hesabat, ictimaiyyətin diqqətini Suriya böhranının insani ölçüsünə çəkməsi baxımından müsbət bir cəhd olaraq qiymətləndirilir.

Beynəlxalq Əfv Təşkilatı Mühacir və İmmiqrant Haqları Direktoru Şerif Əl Sayid-Ali, "Hesabat, rəqəmlərin arxasındakı insanların həqiqi hekayələrini öz sözləri ilə izah edir" deyərək böhranın meydana gətirdiyi mənzərənin dəhşətinə diqqət çəkir.

Avropada getdikcə yayılan irqçilik, əslində Avropanın demokratiyasına zərbə vurur.

Mühacirlərə dəstəkdə Türkiyənin tarixi qabaqcıl rolu

Ölkələrin öz əhalisi ilə müqayisə ediləndə Suriyadan gələn ən böyük mühaciri Türkiyənin saxladığı həqiqəti ortaya çıxır. Ölkədəki mühacir sayının 1,6 milyondan çox olduğu təxmin edilir.

Türkiyədə tikilən 22 düşərgədə 220 min mühacir sığınır. Düşərgələr tam tutumda işləyərkən, Suriyadan gələn mühacirlərin 85%-i də bu düşərgələrin xaricində yaşayır. Yalnız İstanbulda Suriyadan gələn mühacir sayı 330 minə yaxındı.

Düşərgə şərtləri dünyadakı nümunələri ilə müqayisə edildiyində son dərəcə yaxşı vəziyyətdədir. BMT-nin 2014-cü ili Suriyadan gələn mühacirlər üçün regional fond yaratma çağırışı daxilində Türkiyə üçün ayrılan 497 milyon dollarlıq köməyin 5 noyabr 2014-cü il etibarı ilə yalnız 28%-i, yəni təxminən 140 milyon dollar Türkiyəyə çatdı. Halbuki Türkiyə suriyalı mühacirlər üçün öz büdcəsindən bunun təxminən 30 qatını, yəni 4 milyard dollar xərclədi.

2014-cü ilin oktyabr ayında Türkiyə suriyalı mühacirlər üçün hüquqi statusu zəmanət altına alan Keçici Qoruma Əsasnaməsini göstərdi. Lakin əsasnamə hələ tətbiq olunmağa başlamadı.

Bəhs etdiyimiz tarixi fəlakətdə Türkiyənin boynuna götürdüyü kritik yük və əhəmiyyətli rol ortadadır. Ancaq, bu həqiqəti bütün dünyanın görməsi və bu insanlıq faciəsi qarşısında isti evlərində, qarınları tox, sağlam, dinc, rahat, xoşbəxt və etibarlı bir şəkildə yaşayan bütün insanların, bir gün bəlkə də bənzər bir faciənin öz başlarına gələ biləcəyi ehtimalını da düşünərək eyni həssaslığı göstərmələri əhəmiyyətlidir.

Hörmətlin Adnan Oktarın bu məqaləsi, “Arabian Gazette”də dərc olunmuşdur:

Əfqanlar dünyada ən böyük mühacir qrupunu meydana gətirməkdədir. İllər ərzində həmişə davam edən əfqan köçü, artıq dünyanın unutduğu səssiz bir faciə halını almışdır. Ölkələrindən qaçan əfqanlar uzun illərdir qaçqın düşərgələrində yaşamaqdadırlar.

http://www.arabiangazette.com/syrian-refugees-in-the-fourth-year-of-the-crisis/

Xaraba bir ölkə: Suriya

(“Middle East Monitor”- 31 mart 2015-ci il)

15 mart 2015-ci il... Suriyadakı vətəndaş müharibəsinin beşinci ildönümüdür. Son dörd il ərzində şahid olduğumuz barbarlıq görüntüləri ilə, bu dəhşət verici vətəndaş müharibəsinin necə başladığını unutmuş ola bilərik.

Müharibə uşaqların əsla görməməli olduqları şəkilləri göstərdi, onları heç olmamalı mühitlərə sürüklədi. Kiçik yaşda ailəsini itirən, ölkəsindən qaçan və dənizin soyuq sularında boğulma təhlükəsi ilə üzləşən bu uşaqlar gözəl bir həyat yaşamağa layiqdirlər.

Ərəb Baharının təsirində qalan suriyalılar başlanğıcda dəyişmə və siyasi islahat həsrətində idilər. Daha yaxşı bir gələcək axtarışında, onlarla ildir davam edən zalım Baas rejiminə qarşı geniş kütlələrin dəstək verdiyi sülhsevər etirazlar təşkil etdilər. Məqsədləri, hər insanın doğuşdan layiq

olduğu təməl azadlıq və dəyərləri məhdudlaşdıran Baas rejimini kökdən rədd etmək idi.

Daha yaxşı gələcək üçün bir ümid qığılcımı olaraq başlayan etirazlar, bir xalqın müharibə ilə parçalanaraq dağıntı yığınına çevrilməsi ilə nəticələndi. Bu gün Suriya xarab olmuş şəhərləri, qəsəbələri və ümidini itirmiş insanları ilə pərişan bir ölkə halına gəlmiş vəziyyətdədir.

İtalyanın Lampedusa adası sahillərində 2.100 immiqrantın son anda boğulmadan qurtarılması ilə mühacir problemi yenidən gündəmə gəlmişdi. Lakin Avropa Birliyinin təzyiqi, İtalyanın həyata keçirdiyi Mare Nostrum adlı xilasetmə missiyasının sonlanmasına səbəb oldu. Bu da bərabərində daha çox ölüm gətirdi.

Suriya müharibəsi beşinci ilinə girərkən, demək olar ki, hər xəbər qaynağı ölkənin içində olduğu səfalət və çəkilən insan əzabları haqqında hekayələrə yer verdi. Həyatlarını iti nişançı lüləsinin kölgəsində davam etdirməyə çalışan insanların və hətta uşaqların hekayələri idi bunlar. Siyasi sabitliyə sahib ölkələrdə yaşayan bizlər üçün bir uşağın

məktəbində vurularaq öldürülməsini xəyal etmək olduqca çətindir; amma Hələb kimi bir şəhərdə məktəbin bağçasında oyun oynayan beş yaşında bir uşaq hər an ölümlə üz-üzədir.23

Suriyalı uşaqlar dünyada heç bir uşağın yaşamaması olan şeylər yaşadı. Oyuncaq və uşaq parkları yerinə vertolyot səsləri, çəllək bombaları, müharibə təyyarələri, mərmi və ağır silahlar hər gün şahid olduqları şeylər oldu. Körpələrin yuxusu, yerə düşən bombaların səsi ilə bölündü. Bəzən ana ataları tərəfindən tələşlə qucaqlanaraq yaxındakı qəsəbələrə qaçmaq məcburiyyətində qaldılar.

Hər il minlərlə immiqrant dənizlərdə boğulur, bələri itkin düşür, bəziləri də boğulmaqdan son anda xilas olunur. Bu xəbərlər televiziya və qəzetlərdə adi hala gəldi və bir müddət sonra insanların diqqətini çəkmədi. Halbuki dənizlərdəki bu faciə fasiləsiz davam etməkdədir.

Bəziləri də partlayıcılarla birlikdə yağ bidonu, su tankı, ya da qaz silindrlərinə doldurulan metal, dəmir-dümür və mismarlarla hazırlanan

əldəqayırma çəllək bombalarından qaça bilmədilər.

Rejim güclərinin nizamlı olaraq təşkil etdiyi çəllək bombası hücumlarında hər ay 250 uşaq həyatını itirirdi. Şamın Cobar bölgəsində kiçik uşaqlar anesteziya istifadə edilmədən əməliyyat edilmək məcburiyyətində qalırdı. Şəhərlərdə on minlərlə evsiz suriyalı, bombalanan binaların xarabaları arasında həyat mübarizəsi verirdi.

Suriyalıların yaşadıqları vəziyyəti göstərən hər statistika, hər rəqəm, hər fotoşəkil ürək sıxırdı. Suriyanın hər yerində mərmi hücumları və bombardmanlar dayanmadan davam edirdi. İndiyə qədər təxminən 210.000 adam öldürüldü, 1.5 milyon vətəndaş ağır yaralandı, ən az 200.000 adam da həbs olundu. Hal-hazırda 2.400 adam itkindir, 20.9 milyon adam da evlərini tərk etmək məcburiyyətində qalıb.24

Bir zamanlar fərqli mədəniyyət, etnik quruluş və inanclara ev sahibliyi etmiş bu ölkə son dörd ildir tamamilə parçalanmış vəziyyətdədir. Bu ölkənin ictimai toxumasını meydana gətirən sünni, şiə, xristian, kürd, ələvi, yezidi və digər bir çox birlik əsrlər boyunca sülh içində bir yerdə yaşadılar. Ancaq müharibə bu qrupları bir-birinə qarşı etdi və hadisələri daha da çətin və içindən çıxılmaz bir hala gətirdi.

Suriyadakı qarşıdurmanın başqa bir ölçüsü daha mövcuddur. Suriyanın xaricində Livan, Türkiyə və İordaniyada həyat mübarizəsi verən üç milyon mühacir qardaşımız var. Bu düşərgələrdə hər gün həyatda qala bilmək üçün çətin mübarizə verirlər.

Çox böyük çətinliklərdən keçdikdən sonra bu düşərgələrə çata bilən suriyalılar indi çətin şərtlərdə yaşamağa davam edirlər. Bir tərəfdən də uşaq və gənclərin təhsil imkanları olmadığı üçün radikal ideologiyaların asanlıqla təsirinə düşə biləcək vəziyyətdədirlər.

21-ci əsrdə Suriya deyiləndə ağla insanlıq faciəsi gəlir. Suriyada sabitlik təmin edilənə qədər, beynəlxalq cəmiyyətin məsuliyyətini mütləq yerinə yetirməsi gərəkdir. Bu mövzuda heç olmasa davam edən bu mərhəmətsiz müharibədən ötrü əzab çəkənlərə lazım olan köməyin çatdırılması üçün vicdanımızın səsini dinləməliyik.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Middle East Monitor"da dərc olunmuşdur:

https://www.middleeastmonitor.com/articles/middle-east/17801-syria-the-downward-spiral-of-desolation

Qaçaq immiqrantlar: Avropada yalnız bir statistikadır?

(“Morocco World News” və “MBC Times” - 9 aprel 2015-ci il)

Avropa sərhədlərində mühacirlərə istiqamətli insanlıqdan kənar hərəkətlər, vicdanı məhrumiyyətinin ölçülərini göstərməkdədir. Qaçqınların problemlərini başa düşməyərək şiddət və hücumlarla qaçqınların tələblərinə cavab vermək əslində Avropanı Avropa edən dəyərləri sarsıdır.

“Bu insanların bir çoxunun şəxsiyyəti müəyyən oluna bilmir ya da bunu istəmirlər. Onlar iqtisadi problemlərlə yanaşı terroristlərin və cinayətkarların sızması baxımından da bütün Avropa üçün potensial təhlükəsizlik təhdidi meydana gətirirlər.”

Artıq dünyada 7 milyard insanı yedirmək üçün kifayət qədər qida mənbələri var. Lakin eqoizm və vicdansızlıq ədalətin önünə keçməkdədir. Dünyanın bir tərəfində insanlar aclıqdan ölərkən, digər tərəfində böyük israfın yaşanması bunun göstəricisidir.

Yuxarıdakı sözlər İtalyan səfir Alessandro da Pedysə aiddir. Səfirin "bu insanlar" olaraq xarakterizə etdikləri isə məruz qaldıqları təhlükələrdən xilas olmaq üçün Avropaya sığınan qaçaq immiqrantlardır. "Təhlükəsizlik təhdidi" meydana gətirdiyi iddia edilən immiqrantların arasında isə kiçik uşaqlar, qadınlar və yaşlılar da vardır.

Pedysin bu sözlərinə bir çox insan heyrətlənmir hətta tam tərsinə bu fikri dəstəkləyir belə...

Avropa Birliyinin bir müddət əvvəl tətbiq etdiyi Triton missiyası, mühacirləri xilas etməkdən çox Avropa Birliyinin sərhədlərini qorumağı hədəfləyir.

Çox təəssüf ki, Avropadakı bir çox hökumət qaçaq immiqrantları köməyə ehtiyacı olan insanlar olaraq deyil, "cansıxıcı" bir məsələ olaraq görür. Məsələn İtaliya yaxın bir zamanda dənizdə qalmış qaçaq immiqrantlar üçün apardığı xilasetmə əməliyyatlarını, Avropa Birliyinin təzyiqi ilə, dayandırma qərarı aldı. Halbuki İtaliya, ötən oktyabr ayında 400-dən çox immiqrantın dənizdə həyatını itirməsindən sonra "Mare Nostrum" adlı bir xilasetmə proqramı başlatmışdı. Ancaq ayda təxminən 10 milyon avroya düşən Mare Nostrumu AB-nin Triton missiyası ilə dəyişdirildi ki, Tritonun Mare Nostrum qədər təsirli olacağı düşünülmürdü.

İnsan həyatının dəyəri qiymətsizdir. Vicdanlı hər insan, məzlumları qorumaq və xilas etmək üçün əlindən gələnin ən yaxşısını etmək məcburiyyətindədir.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) Cənub Avropa direktoru Laurens Jolles bu missiyanın yetərsizliyini: "...Onun əsas vəzifəsi insan həyatını xilas etmək deyil və buna görə təcili ehtiyaca cavab ola bilməz" şəklində ifadə edirdi. Necə ki, bu dəyişiklik bir fəlakətə gətirib çıxardı və bir neçə həftə əvvəl üstü açıq qayıqlarla Liviyadan yola çıxan ən kiçiyi 12 yaşında olan 300 adam dənizdə itdi.

Myanmadan davamlı mühacir axınına məruz qalan Malayziya və İndoneziya kimi müsəlman ölkələr, mühacir problemini Myanmaya aid bir problem olaraq deyil, öz dindaşlarının problemi olaraq görərək həll yolu tapmalıdırlar. Əlbəttə doğru olan bütün müsəlmanların birlik olub öz qardaşlarını mühafizə altına almasıdır.

Bir çox insan hökumətin rəsmi olaraq bu insanları eləcə ölümə tərk etməsi qarşısında şok oldu, xüsusilə Afrikadan Avropaya gedərkən Aralıq dənizini keçməyə çalışan 3.000-dən çox immiqrantın öldüyü ağır 2014-cü ildən sonra. Ancaq qısa bir müddət əvvəl İngilis hökuməti də heyrətverici şəkildə bu tip əməliyyatların daha çox immiqrantı təşviq etdiyini iddia edərək artıq qaçaq immiqrantlar axtarma və xilasetmə əməliyyatlarında iştirak etməyəcəyini açıqladı. Bu mənfi yanaşma Almaniyadakı bir immiqrant düşərgəsində əlcəzairli immiqrantların məruz qaldıqları pis rəftarı göstərən şəkillər və videolar ortaya çıxdığında daha açıq hala gəldi. Bu şəkillərdə bir məmur əlcəzairli immiqrantın başına ayağı ilə basarkən, digər məmur qollarından basır və immiqrant üzüstə yerə yatırdılırdı. Yaxşı bəs, bunlar nadir hadisələrdir? Qəti olaraq deyil.

Mənfur "ölümə tərk edilən qayıq" hadisəsində, NATO Liviyadan gələn immiqrantlarla dolu dənizdə qalmış bir qayığa 15 gün boyunca kömək etməyi rədd etdi və nəticədə aralarında bir körpənin də olduğu 63 adam susuzluqdan və aclıqdan öldü.

Avropada bəzi rəsmi vəzifəlilər və bəzi hökumətlər mühacirlər üçün edilən kömək və cəhdləri məhdudlaşdırma yanaşmasını mənimsəyirlər. Amma digər mövzularda edilən səylər qeyri-stabillik olduğunu ortaya qoyur. Məsələn bir İngilis şurası sehrbazlıq nümayişi üçün 19.000£ xərcləyərkən, İncəsənət Şurası da sarı işıqlarla bəzənmiş zibil konteyneri üçün 95.000£ xərcləyir. Nazirlər və rəsmi vəzifəlilər 3 milyon£ dəyərində biskvit yeyərkən, yenə AB fondları vasitəsi ilə Amsterdamda, gecəliyi 75.000 avroya bərabər böyük əyləncə daxil 300.000 Avro kokteyl məclislərinə xərclənir. Əlbəttə sənət əsərləri və gözəl şeylər satın almaqda səhv bir şey yoxdur, ancaq bu tip fəaliyyətlər üçün yetərli pul tapılırsa, qaçaq immiqrantların həyat şərtlərinə kömək etmək və yaxşılaşdırmaq üçün də fondlar yaradıla bilər. İnsanlıq faciəsi daha çox vacibdir.

Lakin, bu çarəsiz insanlar insanlıqdan kənar rəftar görürlər. Nə qədər "qiymətli" olduqlarını müəyyən edən isə ümumiyyətlə doğulduqları ölkə olur. Halbuki insanlar bərabər yaradılarlar. Üç səmavi din irqçiliyi, ayrı-seçkiliyi qadağan edər və Beynəlxalq İnsan Haqları Bəyannaməsində bu təməl prinsip açıq şəkildə ifadə edilər. Buna baxmayaraq daha kasıb ölkələrdə doğulan insanlar, Avropadakılarla eyni şərəfli həyata sahib olmağı istədiklərində, kobud şəkildə geri çevrilməyə davam edilirlər.

Görəsən, qaçqın immiqrantları yük olaraq görənlər, hətta bəzən "narahat edici statistika" kimi düşünənlər, bu insanların hər birinin ruhu, ümidləri və xəyalları olan insanlar olduqlarını heç düşündülər? Davamlı müharibələr və qarşıdurmalar nizamı pozulan ölkələrindən həyatlarını qurtarmaq üçün qaçanlar var...

Yalnız bir anlıq özünüzü bu insanların yerinə qoyun: Sizi və ailənizi izləyən silahlanmış insanlardan qaçarkən sığındığınız qapıların üzünüzə bağlanmasını istəyərdiniz? Ailəniz üçün pul qazanmağa çalışarkən təhqirə və pis rəftara məruz qalmaq istəyərdiniz? Sırf Avropa hökumətləri "bir mesaj vermək istəyir" deyə dənizdə ölümə tərk edilmək istəyərdiniz? Sadəcə imkanları daha məhdud bir ölkədə doğulduğunuz üçün təhqirə və pis rəftara məruz qalsanız və şərəfli bir həyatdan məhrum buraxılsanız necə hiss edərdiniz?

Unutmayaq: Hər cür fərdi hərəkət və reaksiyalarımızdan məsuluq. Başqalarının insan həyatına lazımlı hörməti göstərməməsi bizim də eyni şeyi etməmiz mənasını verməz. Hər insan qiymətlidir və mümkün olan ən böyük hörməti haqq edər, bunu etməsək baş verəcək və yaşanacaq ağrı-acılı hadisələrdən bizlər də məsul olarıq. Məhz bu təməl prinsipi xatırladığımız və tətbiq etməyə başladığımız zaman, dünya daha yaxşı bir yer halına gəlməyə başlayacaqdır.

Hörmətli Adnan Oktarın "Morocco World News" və "MBC Times"da nəşr olunan məqaləsi:

http://www.moroccoworldnews.com/2015/04/155768/illegal-immigrants-statistic-europe/

http://www.mbctimes.com/english/illegal-immigrants-only-a-statistic-in-europe

Suriya və Yərmuk düşərgəsində baş verən insanlıq faciəsi davam edir

("New Straits Times", "Daily Mail" və "Indian Muslim Observer"

- 9 aprel 2015-ci il)

Rohincada qırğını dayandırın. Rohincaların həyatı əhəmiyyətlidir. Mühacirlər yük deyil, Allahın qonağıdır. Allahın qonağı isə bərəkəti ilə gəlir. Məzlumların həyatını xilas etmək vicdanı rahatlamaqla bərabər, bərəkət və xoşbəxtlik də gətirəcək. Bu Allahın Adətullahıdır.

Əsrlər boyu müharibə və qırğınlara səhnə olan Orta Şərq dünyada ən çox qan tökülən bölgələrin əvvəlində gəlir. "Bahar" ümidi ilə başlayan inqilab

sülh, dinclik və sabitlik yerinə daha çox qan və şiddətə gətirib çıxarması bölgəni xarabaya çevirərkən bölgənin gələcəyini də böyük bir bilinməzliyə daşımış oldu. İnqilab ardıcıllığının ən ağır nəticəsi isə heç şübhəsiz Suriyada baş verdi.

Tarix boyunca bir çox mədəniyyətə ev sahibliyi etmiş olan Suriya bu gün bölünmüş, sosial toxuması parçalanmış və dağılmağa yaxınlaşmış bir ölkədir. Demək olar ki, hər yerində acılar hakimdir. Beşinci ilinə girən vətəndaş müharibəsinin görünüşdəki başlanğıc səbəbi gənclərin azadlıq axtarışları olsa da geri planda məzhəb müharibələri, iqtisadi böhran, işsizlik, gəlir qazancındakı ədalətsizliklər, fərdi məhdudlaşdırmalar və hökumətin radikal tətbiqləri kimi faktorların gətirib çıxardığı bir təcrübə vardır. Müxaliflərin bəsləndiyi bu faktorlar inqilab atəşi içərisindəki kiçik bir qığılcımı vətəndaş müharibəsinə çevirərkən, hadisələrdən ən böyük zərəri görənlər bir tərəfdən rejim və müxaliflər, digər tərəfdən radikal təşkilatlar arasında qalan məzlum suriyalılardır.

...Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır. (Hucurat surəsi, 13)

Azadlıq və demokratiya axtararkən özlərini müharibənin ortasında tapan və çox parçalı bir təşkilatlar mübarizəsinin qanlı cəbhələrində həyatlarını

davam etdirməyə çalışan suriyalılar tərifi mümkün olmayan əzablar yaşayırlar. Demokratik, azad bir həyata qovuşa bilmədikləri kimi canlarından, övladlarından, evlərindən, yurdlarından, mallarından mülklərindən olurlar. Üstəlik yaxın, ya da uzun müddətdə hərbi və ya siyasi bir həllin reallaşacağına, sülhün gələcəyinə və ölkələrinin əvvəlki günlərinə dönəcəyinə dair ən kiçik bir əlamət yoxdur. BMT-nin Suriya üzrə xüsusi nümayəndəsi Staffan de Mistura insani vəziyyətin gün keçdikcə daha da pisləşdiyi Suriyanın gəldiyi son nöqtəni Christiane Amanpourun CNN-dəki proqramında belə yekunlaşdırdı: "Prezident Əsəd daxil olmaqla hər kəs öz vicdanında bilir ki, burada hərbi bir müvəffəqiyyətdən danışmaq mümkün deyil. Bunun göstəricisi ortadadır; dörd il ərzində həyatını itirən 220 min insan və 1 milyon yaralı."25

Yüksək miqdarda ölü və yaralı sayı ilə yanaşı, 4 milyona yaxın insan ölkəsini tərk etmək məcburiyyətində qaldı, 7 milyon adam mühacir oldu. Suriyalı Amerikan Tibb Dərnəyinin son hesabatına görə bu gün Suriyada mühasirə altında yaşayanların sayı təxminən 650 minə yaxındır.26 On mindən çox suriyalı uşaq həyatını itirdi, minlərləsi aclıqla və xəstəliklərlə mübarizə edir, bir çoxu quldur dəstələrinə daxil edildi, əsgərliyə getməyə məcbur edildi. Uzun mühacirlik müddəti və pis şərtlərə görə 18 yaşın altındakı təxminən 2 milyon suriyalı uşaq itkin nəsil olma riski altındadır.

Mühacir problemi, müxtəlif ölkələrdə baş verən vətəndaş müharibələrinin bir nəticəsidir. Əslində müharibəni başladan nifrət mühitini ortadan qaldırmaq, insanlar arasında sevgini hakim edəcək bir anlayışı inkişaf etdirə bilməkdir.

Müharibədən ən çox təsirlənən yerlərdən biri də Şamın mərkəzinə təxminən 10 kilometr uzaqlıqda olan Yərmuk mühacir düşərgəsidir. 1948-ci ildə İsrail dövlətinin qurulması ilə birlikdə yaşadıqları torpaqlardan güc tətbiq olunaraq çıxarılan fələstinlilərin bir hissəsi Suriyaya köç etmiş və özləri üçün yaradılan mühacir düşərgələrinə yerləşmişdilər. Yərmuk düşərgəsi müharibə başlayana qədər bu düşərgələrin ən böyüyü və ən inkişaf etmişi idi.

Suriya vətəndaşlığına sahib olmayan, ancaq ölkə daxilində səyahət azadlığı, təhsil haqqı kimi bəzi konstitusiya haqları əldə edən, dövlət məmuru ola bilən, istədikləri işi edə bilən, dövlətə aid xəstəxana və məktəblərdə pulsuz xidmət görə bilən bütün fələstinlilər kimi Yərmukdakı mühacirlər də müharibəyə qədər suriyalılardan çox fərqli yaşamırdılar. Minlərlə evi, məktəbləri, məscidləri, xəstəxanaları, sobaları, şirniyyat evlərini, üstəlik qadınlar üçün gözəllik salonu, gənclər üçün internet klubları27 olan düşərgədəki həyatları sakit bir şəkildə axıb gedirdi. Hal-hazırda yerlə bir olmuş düşərgədə təxminən 20 min adamın olduğu ifadə edilir.

Müharibənin əzabını ən ağır ödəyən bölgələrdən biri olan Yərmuk düşərgəsində indiyə qədər aclıq və xəstəliklərə görə həyatını itirənlərin sayı 200-dən çoxdur.28 İnsanlar həyatlarını davam etdirə bilmək üçün ot yeyir, içmə suyu olaraq da qarı əridib istifadə edirlər.

Su kəsilməsi, elektrik, yanacaq və dərman yoxluğu səbəbi ilə artan xəstəliklər müalicə edilə bilmir, çünki bölgədəki bütün ilk yardım və sağlamlıq mərkəzləri bağlıdır.

BMT fələstinli mühacirlərə Yardım Təşkilatı başçısı Pierre Krähenbühlün Yərmuka ziyarətindən sonra söylədikləri, düşərgənin vəziyyəti haqqında əhəmiyyətli işarələr verir: “Yərmuka ziyarətimdə müharibənin insanlara nələr edə bildiyini gördüm. Həyatlarını itirən, dolanışıq imkanları

olmayan, psixoloji stress keçirən, bir çox sağlamlıq problemi olan, elektrik və sudan məhrum insanların vəziyyəti Yərmuku inanılmaz bir hala gətirir. Yərmuk, fələstinli və suriyalı immiqrantların nə cür çətin mərhələlərdən keçdiyinin bir simvoludur."29 Yenə eyni təşkilatın direktoru olan Robert Turner isə Yərmuk mühacir düşərgəsindəki vəziyyəti bu sözlərlə təsvir edir: "Qorxunc mənzərələri görüb təsirlənməmək mümkün deyil. Görüntülər ürək ağrıdır. Yan-yana düzülmüş qaralmış zəif üzlər, çirk içindəki çöhrələr, BMT qida paketlərini gözləyən, aclıqdan məhv olmuş uşaqlar, uşağını itirmiş, kədər içində bir ana, uzun zamandır itkin olan qızına qovuşan bir atanın sevinc göz yasları... Bütün bunlar gecə bülletenlərinin dəyişməz xəbərləri halına gəldi."30

Həqiqətən də Suriyada və Yərmuk düşərgəsində davam edən insanlıq faciəsi bütün dünyanın gözləri qarşısında cərəyan etdiyi halda lazımi qədər səs gətirmir. Halbuki vicdan sahibi hər kəs zülm altındakı məzlumlar adına bir şeylər edə bilər; aclıq və ədalətsizliklərlə mübarizə aparan bütün quruluşlar və qeyri-hökumət təşkilatları sosial media və informasiya texnologiyalarını da istifadə edərək ictimai rəy yarada bilər; gərək yazılı və vizual mediada, gərəksə bu zülmün sona çatması üçün böyük bir kampaniya başladıla bilər. Dünyada baş verən zülmə tamaşaçı qalmamaq və işıqlı bir gələcəyi birlikdə qurmaq üçün yaxşıların birlik olması əsas şərtdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "New Straits Times", "Daily Mail" və "Indian Muslim Observer"də dərc olunmuşdur:

http://dailymailnews.com/2015/04/23/syrias-human-tragedy/

http://indianmuslimobserver.com/2015/04/27/the-human-tragedy-in-syria-and-yarmouk-still-continuing/

Yərmukun yardım fəryadı

(“Arab News” və “Jefferson Corner” - 25 aprel 2015-ci il)

Reklam dünyasında qəribə bir ziddiyyət var. Televiziya kanalları tərəfindən hər gün reklam bombardmanına məruz qalır, şokolad kimi iştaha açan qida məhsullarını istehlak etməmiz üçün razı salmağa çalışırlar. Lakin eyni kanallar artıq çəkidən xilas olma sözü verən idman hərəkətləri və diyet məhsullarını da təqdim edirlər.

Şübhəsiz ki, mənim himayədarım Kitabı (Quranı) nazil edən Allahdır. O, saleh əməl sahiblərini himayə edər. (Əraf surəsi, 196)

Media dünyası da bundan fərqli deyil. Media vasitələri tərəfindən südə möhtac yazıq körpələrin, güllə yaralarının yaxşılaşması üçün antibiotikə ehtiyac duyan insanların görüntüləri həmişə qarşımıza gətirilir. Ancaq bu görüntülər yalnız ən yaxşı fotoşəkil kadrları olaraq görünməkdə və ən nəhayət isə statistik məlumat olaraq yer almaqdadır. Bəli, Suriyada teatr səhnəsində kimsəsiz və çarəsiz tərk edilmiş olan Yərmuk xalqından bəhs edirik.

Yərmuk, 1948-ci ildə İsrailin qurulmasından indiyə qədər 160 min suriyalıya ev sahibliyi etdi. Düşərgənin bir Paris olduğu deyilə bilməzdi bəlkə, amma suriyalılar üçün hər şey yolunda idi. Hər an ölüm qorxusu ilə yaşamaq məcburiyyətində qalmadıqları normal bir həyatları vardı. Lakin 2012-ci ilin dekabr ayında Baas rejiminin öz vətəndaşlarına hücum etməyə başlaması ilə Yərmuk dünyanın ən böyük açıq həbsxanası halını aldı.

Türk tarixi çətin vəziyyətdəki mühacirləri hər zaman qonaq edən şanlı bir tarixdir. 1-ci Dünya Müharibəsinə qədər olan dövrdə 2.5 milyona yaxın Çərkəz Anadoluya köçmək məcburiyyətində qalmışdır. Polşalı mühacirlər Osmanlı torpaqlarına sığındığında isə, mühacirləri geri istəyən Rusiyaya Əbdülməcidin cavabı belə olmuşdur: "Taxtımı verərəm. Lakin dövlətimə sığınanları əsla geri vermərəm".

Rejim gücləri, müxaliflərin Yərmuku istifadə etdiyini iddia edərək, Yərmuk xalqını aclığa, susuzluğa və dərmansızlığa tərk etdi. Xüsusilə də

bir şəkil dünya tərəfindən tanındı. Orta əsrlərdən bir səhnəni xatırladan bu şəkil, küçəni dolduran bir çox insanın məhdud sayda insani köməyi ala bilmək üçün çarəsiz gözləməyi göstərirdi.

Ancaq məşhur mediada, karton qutuların içərisində donmuş körpə cəsədləri, aclıqdan ölümə tərk edilmiş körpələr və buz üzərində çılpaq ayaqla getmək məcburiyyətində olan kiçik uşaqların görüntüləri heç bir zaman yer almadı. Ya da cəsur görünməyə çalışan 10 yaşındakı uşağın BBC videosunda hadisələri izah etdiyi video görüntüləri... Özünü vəziyyətdən təsirlənməmiş kimi göstərməyə çalışarkən "bəli, acıq" deyir və daha çox dözə bilməyib, bir tərəfdən zəif düşdüyü üçün utanc duyarkən, bir tərəfdən də özünü tuta bilmir və ağlamağa başlayırdı.

Tarixdə olduğu kimi indi də Türk milləti qapılarını, qəlbini və imkanlarını mühacirlərə açmışdır. Türkiyənin bu üstün rəftarı, dünyaya böyük bir dərs vermişdir və heç bir zaman unudulmayacaq.

Yərmuk və artıq çəki ilə mübarizə aparan dünyanın digər hissəsi arasındakı fərq o qədər böyük və kəskindir ki, sanki iki tam fərqli dünya

kimi. Bu fərq eynilə aclıqla həyat mübarizəsi verən bir cəmiyyətin əyləncə üçün digər cəmiyyət tərəfindən izlənilməsini mövzu alan filmlər kimi. Dövrümüzdə isə zalım olanlar filmlərdəki pis xarakterlərdən daha zalımdırlar, çünki bütün dünya bu görüntüləri bir film kimi izləməkdədir.

Mərhəmətsizlik, aclıq, cinayət artıq dünyanın bu hissəsinin ortaq yönləri halına gəldi. Dünyanın digər hissəsi üçün isə, bu xəbərləri dinləyib keçib, heç təsirlənmədən həyatlarına davam edə bilmək çox sıradan bir vəziyyətdir.

Bu gün 18.000 insan Yərmukda ölümə tərk edildi. BMT təcili evakuasiya çağırışı etdi və son xəbərlərə görə sadəcə 2.000 adam evakuasiya edildi.

Birləşmiş Millətlər Təşkilatının Yaxın Şərqdəki Fələstinli Qaçqınlara Kömək və İş Agentliyi (UNRWA) Ümumi Komissarı Pierre Krahenbuhl, böhrandan zərər çəkən Yərmuk mühacirlərini görmək və ehtiyacı olan insanlara necə yardım göndərilə biləcəyi mövzusunu məsləhətləşmək üzrə liderlərlə görüşdü. Bunlar yaxşı xəbərlərdir, ancaq yetərli deyil. O halda nə edilməlidir?

Radikal terror təşkilatlarına istiqamət verənlər də daxil olmaq üzrə Orta Şərqdəki problemlərin həqiqi həllinə toxunmadan əvvəl, bu humanitar yardım problemi ilə əlaqədar qısa müddətli və sürətli tənzimləmələr etməliyik. BMT-nin də üzərində dayandığı kimi bütün xalqın tezliklə evakuasiya edilməsi vacibdir. Təhlükəsizlik Şurası bazar ertəsi günü təcili yığıncaq keçirdi ancaq daha sürətli olmaları lazımdır. Aralarında 3.500 uşağın da iştirak etdiyi xalqa kömək edilməsi məqsədiylə Azad Suriya Ordusu və digər müxalif qruplarla əməkdaşlıq edilməsi bir yol ola bilər. Pierre Krahenbuhl, Suriya rejim güclərinin Yərmuka atdıqları çəllək bombası hesabatları üzərinə vəziyyəti “insanlıqdan kənar” olaraq xarakterizə edərək çağırış etdi.

Başqa bir ssenari ilə, rus ordu qoşunlarının nəzarətində mühacirlərin humanitar yardım təşkilatlarının dəstəyi ilə bölgədən çıxarılmaları təmin edilə bilər. Nə rejim gücləri bu əsnada rus qoşunlarına qarşı çıxmağa çalışacaq, nə də İŞİD yeni bir cəbhə açmaq istəyəcəkdir.

Bu insanların qarşılaşdıqları digər bir problem isə, demək olar gedəcəkləri heç bir yerin olmamasıdır. İordaniya, Livan və Misir Suriyadan fələstinli mühacirlərin girişini qadağan etdi. İraqda qarşıdurmalar olduğu üçün oraya da gedə bilməzlər. Türkiyə isə hər zaman çətin vəziyyətdə qalan insanlara ev sahibliyi etmişdir. Türk hökuməti hal-hazırda təcili olaraq qonaqpərvər açıqlama ilə çox böyük bir addım atmış olacaq.

Dünyanın təcili olaraq o bölgədəki günahsız xalqın çıxarılması əməliyyatını başlatması lazımdır. Unutmayın ki, orada xəstə və yaralı uşaqlar, qadınlar və yaşlılar var və köməyimizi gözləyirlər. Özünüzü onların yerinə qoyun və onlara kömək etmək üçün əlinizdən gələni edin.

Hörmətli Adnan Oktarın bu məqaləsi, "Arab News" və "Jefferson Corner" qəzetlərində dərc olunmuşdur:

http://www.arabnews.com/news/734206

http://www.jeffersoncorner.com/yarmouk-cries-for-help/

FƏSİL

A9 TV şərhləri və Avropanın hərəkəti

(16 noyabr 2014 -cü il. A9 TV)

Yanlarına aldıqları az miqdarda əşya ilə evlərini və yurdlarını tərk edən mühacirlər, Türkiyə sərhədində sevgiylə qarşılanmışlar.

Türkiyə sərhədindən daxil olan mühacirlər.

Yer üzündə zəif və möhtac vəziyyətdə qalmış bu insanları qorumaq, xüsusilə qadınların və uşaqların zərər çəkməsinin qarşısını almaq və onları xoşbəxt etmək dəyəli əməldir.

Allahın (fəth edilən) məmləkətlərin xalqından Peyğəmbərinə verdiyi qənimətlər sizdən zəngin olanlar arasındakı bir sərvətə çevrilməsin deyə Allaha, Peyğəmbərə, qohumlarına, yetimlərə, yoxsullara və yolda qalmış yolçulara məxsusdur... (Həşr surəsi, 7)

Uşaqlar müharibəyə və zülmə layiq deyillər. Uşağın haqqı ağlamaq deyil, gülməkdir. Günahsız uşaqların ağladılmaları, hətta öldürülmələri vicdanları dərindən yaralamaqdadır.

Suriyada qanayan yara bir çox insanı maraqlandırmır belə. Oyun oynamalı olan uşaqların suda boğulmaları bəziləri tərəfindən bir neçə mesaj ilə qınanır, sonra bir çoxları tərəfindən unudulur.

Buna görə də Allah onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir. (İnsan surəsi, 11)

Orta Şərqin gözəl ölkələrindən Suriya 5 il ərzində, küçələrində tankların rahatlıqla gəzdiyi bir müharibə sahəsinə çevrildi. Keçmişdə baş verən Ruanda və ya Bosniya qırğınlarını xatırlayarkən başı önə əyilənlər görəsən gələcəkdə Suriya üçün də "buna maneə ola bilərdik" deyib peşman olacaqlarmı?

Güclü dövlətlərin real siyasi hesablara basdırılmış vicdan itkisi bu dövrdə, baş verən insanlıq ayıbına qarşı ağlı başında insanların bir araya gəlib səs gətirəcəyi bir güc meydana gətirmək və mühacirlərin sahibsiz olmadığını göstərmək lazımdır. Mühacirlərin başqa variantı yoxdur. Amma sizin var.

Siz sərhədi açmasanız nə yeməyimiz, nə də suyumuz var.

Avropanın bəzi bölgələrində mühacirlər, təzyiqli sular, gözyaşardıcı qazlarla geri qaytarılmağa çalışılmaqda, bəzən də şiddətə məruz qalmaqdadır. Gözəl Avropa yalnız zənginləşməyə çalışan bir elita birliyi deyil, insanlığı daha vacib bilən mədəniyyət birliyi olmalıdır.

O kəslər ki, mallarında müəyyən bir haqq (zəkat və sədəqə payı) vardır - Dilənən və (utandığı üçün istəyə bilməyib) məhrum qalanlar üçün. (Məaric surəsi, 25)

Suriyalı mühacirlərə “gedin” demək onları ölümə tərk etmək olar

Ölüm qorxusu ilə, öldürülməkdən qorxaraq qaçan, can qorxusu ilə ev-eşiyini tərk edən insanlar var. Bu insanlar normal yaşayırdılar. Kasıb da deyildilər. Normal həyatları vardı. Amma bu bəlanın təsiri ilə qaçıb gəldilər. Bu belə olmaz. Hadisə olmuş və gəlmiş qonaqlar. Belə bir müharibə də baş vermiş. Başqa cür hərəkət edə bilmərik biz.

Gəlin mühacirləri ən yaxşı şəkildə qarşılayaq.

Məsələn biz yolda gedərkən, Allah əsirgəsin, bir insan yaralı olur, qan rəvan içində. Sən avtomobildən enib kömək edirsən. Yeni kostyumun var, amma qan rəvan içində qalır. Birlikdə xəstəxanaya gedirsən. Polis səni nəzarətə götürür. Adam haqqında məlumat alacaqlar çünki. Sən də təcili yardımda səhərə qədər gözləyirsən adama nə olacaq deyə. Bu Allah rizası üçün edilər. Tamam başına bir çox şey gəlmiş olar. Çətinliklə qarşılaşmış olarsan. Amma sən olsan, sənə də kömək edilməsini istəyərsən? Eynisinin edilməsini istəyərsən. Məhz həmin anda bunu edirik. Bunu qəbul edəcəyik. Elə olmaz. Məsələn yerdə qan-rəvan içində biri var, amma dönüb gedir. Bunu etmək doğrudur? "Mənə nə" deyilər heç? Bu nə qədər dəhşətli bir əxlaqdır. Bir insan necə yatacaq?

Allah əsirgəsin suriyalı qardaşlarımıza deyilsə ki, "Ölkənizə gedin. İki milyon adam bizə dərd oldunuz. Sizinlə məşğul olacağıq? Yeməyimizi aldınız, imkanlarımızı aldınız. Bezdik sizdən, gedin." Allah əsirgəsin. Mühacirləri geri göndərdik və çəllək bombaları ilə və ya başqa şəkildə onları məhv etdilər, öldürdülər. Allah əsirgəsin, insan necə rahat yemək yeyər, necə rahat yaşayar, necə yatar? Bölgədə çox dəhşətli bir hadisə var. Böyük bir bəla var. Onun təbii nəticəsidir bunlar və biz bu qonaqları utandırmayaq. Bir qonağın ən çəkindiyi şeydir bu, "görəsən yük oluram?" deyə düşünməsin. "Ayıb edirəm, yük oluram?" deyə düşünər. Onu təsəlli etmək ev sahibinin vəzifəsidir. Nəzakətdir bu.

"Heç elə şey olar? Sən Allah qonağısan. Bərəkətinlə gəldin, biz səndən məmnunuq. Elə bir şey yoxdur. Əsla elə düşünmə. Mənim malım, mülküm sənindir. Qardaşımızsan" deyib təsəlli etmək lazımdır. Məsələn ənsar-mühacir necə idi? Cənabı Allah tərəfindən Quranda necə təriflənir? Eynisini etməmiz lazımdır.

İmmiqrant anlayışından fərqli olaraq, müharibədən və zülmdən qaçan və öz ölkələrinə dönə bilməyəcək vəziyyətdə olanlara mühacir adı verilir. 1951-ci il müqaviləsinə əsasən, bu kəslər beynəlxalq səviyyədə qorunmalı və geri qaytarılmamalıdır.

Avropa İnsanlıq üçün hərəkətə keçməlidir

(“Tehran Times” və “Weekly Blitz”-12 may 2015-ci il)

Kiçik və ya böyük fərq etməz, hər insanın mütləq özünə görə xəyalı vardır. Həyatda qalmaq və xoşbəxt olmaq üçün xəyallar lazımlıdır. Yaşadığımız dünya artıq sülh olan bir yer deyil; hər yerdə qarşıdurmalar və təbii fəlakətlər var. Az inkişaf etmiş ölkələrdə dünyaya gələnlər Avropa və Amerika kimi həyat standartları yüksək ölkələrdə dünyaya gələnlərdən daha çətin həyat şərtlərinə sahibdir. Bu kasıb insanlar, ya Birma kimi üçüncü dünya ölkələrində ciddi təzyiq altında, ya da Suriya və Liviya kimi yerlərdə davamlı müharibə qorxusu ilə, səfalət və yoxluq içində yaşayırlar. Hər günlərini ölüm təhdidi altında keçirən bu insanlar, yalnız bir az azad ola bilmək üçün ana vətənlərini tərk etmənin yollarını axtarırlar. Ailələrinin yaxşılığı üçün hər şeyi geridə buraxmaqdan başqa bir çarələri yoxdur.

Yaşadığımız kabus mühitində kimsənin bir gün mühacir olmayacağının zəmanəti yoxdur. Dünya mühacir vəziyyətinə düşmüş insanların halını yaxşı başa düşməlidir.

İnsan tacirləri, bu kimi vəziyyətlərdə sanki birdən ortaya çıxıb vəziyyətdən faydalanmağa çalışan leşyeyən ordusu kimidirlər... Sahib olduqları hər şeyi itirmiş bu insanları saxta bir xülya vədi ilə aldadıb əllərindəki hər şeyi alırlar. Xeyr, səhv eşitmədiniz; özlərinin dürüst insanlar olduqlarını söyləyərək bu insanların xəyalları ilə oynayır, zülmdən qaçmalarının tək yolunun bu olduğuna onları razı salırlar. Başqa

imkanları olmayan, bu, köməyə möhtac insanlar da xəyallarını reallaşdırması üçün varlarını-yoxlarını satıb bu qaçaqçılara verirlər.31

Bu yazıq insanların "ölüm səfərləri" qaçaqçılara ödəniş etmələri ilə dərhal başlamır. Xəyallarına qovuşmalarına vəsilə olacaq gəmiyə minə bilmək üçün gələcək telefon zəngini gözləmələri və o müjdəli çağırış ilə, deyilən tarixdə o gəmiyə çatmaları lazımdır.

De: "Ey Rəbbim, (bizi) bağışla və (bizə) rəhm et! Sən rəhm edənlərin ən xeyirlisisən!" (Muminun surəsi, 118)

Gözlənilən zəng gəldiyində yeni həyatlarına gedən çətin səfərləri də başlamış olur. Xəyalları arxasında qaçan bu insanların bir çoxu uşaq, hətta aralarında hamilə qadınlar və xəstə yaşlılar da var. Suriyalı bir qaçqının ifadəsinə görə, yalnız dəniz səfəri belə, heç bir insanın dözə bilməyəcəyi şərtlərə sahib, sanki üzən bir həbsxana kimi idi...

Çox təəssüf ki, son iki il ərzində ölkələrini tərk edərək Avropaya qayıqlarla çatmağa çalışan immiqrantların bir çoxu yenə dənizlərdə həyatını itirdi: Yalnız 2015-ci ilin ilk üç ayı ərzində bu səfərlərdə ölənlərin sayı bir əvvəlki ilə nisbətlə 10 qat daha çoxdur.32 Daha da pisi, bu ayların qış mövsümünə düşdüyü üçün immiqrantlar tərəfindən dəniz səfərinin ən az seçildiyi dövr olması; sonrakı aylarda bu rəqəmlərdə daha da artım olur.

Liviya bu gün xaricdən dəstəklənən vətəndaş müharibəsinin kabusunu yaşamaqdadır. Ölkəsində güvən içində görə bilməyənlər öz yurdlarından ayrılmaq məcburiyyətində qalmışlar.

Ötən həftələrdə baş verən bənzər bir hadisədə, İtalyan və Fransız donanmaları 1.400 mühaciri Aralıq dənizində xilas etməyi bacardılar.33 Ən son 800 mühacirin dənizdə can verməsindən sonra Aralıq dənizində belə müvəffəqiyyətli xilasetmə əməliyyatlarının reallaşdırıldığını görmək həqiqətən çox sevindiricidir.34 Sicilyanın Kataniya şəhərində olan “Save the Children” təşkilatının katibi olan Sarah Tyler belə demişdi: “... bu demək olar Titanikdə ölənlərin sayına bərabər və Costa Concordia battığında ölənlərin sayının 31 qatıdır.”35

İnsanlığın ibrət götürməsi lazım olan bu mənzərə bütün dünyanın gözləri qarşısında reallaşır. Yalnız 2014-cü ildə 3.000 immiqrant daha yaxşı həyat standartlarına qovuşmaq üçün Avropaya çatmağa çalışarkən ya öldü, ya da itdi. Son iki ildə ölümlərin sayındakı bu artım, avropalı dövlətlərin təşkil etdikləri xilasetmə fəaliyyətlərinin azalmasından qaynaqlanır. Bu şəkildə Avropaya sığınma tələblərinin də zamanla azalacağını düşündülər. İtalyan donanması 2013-cü ildə ayda 10 milyon dollar maliyyəti olan "Mare Nostrum" (bizim dənizimiz) adında xilasetmə əməliyyatı təşkil etdi. Amma bu xərci yüksək görən Avropa bu dəfə 3 milyon dollar maliyyətli yeni bir xilasetmə əməliyyatı olan "Triton"u həyata keçirdi.36

Avropa Birliyi üzvü olan hər dövlət həyatları təhlükədə olan bu immiqrantların həyatlarının qurtarılmasından məsuldur. Bu ölkələrin öz mənfəətlərini bir kənara buraxaraq birlik içində hərəkət etmələri lazımdır. Bütün dünyanın gözləri qarşısında hal-hazırda çox ciddi bir faciə yaşanır. İnsan haqları baxımından bu qəbul edilə bilməz bir vəziyyətdir. Avropa Birliyi üzvləri təklif edilən çözümlər qarşısında fərqli bir davranış sərgiləyirlər. Göründüyü kimi immiqrantlarla əlaqədar bir çözüm də ortaya qoya bilməyəcəklər.

Avropa İnsan Hüquqları Konvensiyasının hakimi Pinto Da Albuquerque Avropanın boynuna götürdüyü bu məsuliyyət haqqında bu şərhi etdi: "Afrikadan qaçmağa çalışan immiqrantların Avropaya qəbul edilmək üçün haqq tələbləri yoxdur. Yalnız insan haqları idealının beşiyi və hüquq sisteminin doğum yeri olan Avropanın, zülmdən qaçan ümidsizlik içindəki bu insanlara qapılarını bağlamamağını istəyirlər. Bu olduqca təvazökar və Avropa İnsan Haqları Müqaviləsinə uyğun bir tələbdir. Buna laqeyd olmamalıyıq".37

İnsan həyatının dəyəri qiymətsizdir. Bu səbəbdən dünya üzərindəki hər bir fərd digər insanları qorumaq üçün əllərindən gələnin ən yaxşısını etmək məcburiyyətindədir. Bu hamımızın üzərinə əxlaqi və vicdanı bir məsuliyyətdir. Bəzi Avropa ölkələrinin bu immiqrantları öz torpaqlarına qəbul etməyə çatacaq miqdarda qaynağı olmaya bilər. Ancaq artıq ümidlərini itirmək üzrə olan bu insanların azad və rifah içində olacaqları bir həyata qovuşa bilmələrinə liderlik etmə zamanı gəldi. Çoxu ölümlə nəticələnən dəniz səfərlərinin əvvəli və sonrası üçün çox sayda tədbir almaq lazımdır. Bu insanlar hədəflədikləri yerə çatdıqdan sonra da onlara heç bir zaman pis rəftar edilməməli, onları xoş qarşılamalı və özlərini evlərindəymiş kimi hiss etmələri təmin edilməlidir. Dünyanın bir çox yerində var olan boş sahələr immiqrantların yaşaya biləcəyi etibarlı bölgələrə çevrilə bilər. Bu insanlar üçün iş imkanları yaradıla bilər və bu xüsusi bölgələrdə məktəblər açıla bilər. Etdikləri seçim asan bir seçim deyil və xəyallarını reallaşdırmaq üçün çox böyük çətinliklərlə qarşılaşırlar. Onlara xəyalını qurduqları həyatı təmin etmək üçün güclərimizi birləşdirmənin tam zamanıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Tehran Times" və "Weekly Blitz"də dərc olunmuşdur:

http://www.tehrantimes.com/index_View.asp?code=246687

http://www.weeklyblitz.net/2015/06/europe-must-step-humanity/

Rohinca tragediyası, yoxsa vicdan korluğu?

(“Arab News”, “The Frontier Post” və “Daily Mail” - 24 may 2015-ci il)

Benqazi baş verən vətəndaş müharibəsinin təsiri ilə müharibə sahəsinə çevrilmişdir. Ölkədə yayılan sevgisizlik və eqoistliyi yox edəcək bir iş görülməlidir. Bu da ancaq insanların müharibə məntiqini buraxıb sevgi məntiqinə keçmələri ilə mümkün olacaq.

Dünyanın bir ucunda, köhnə gəmi içindəki yüzlərlə insan aclıqla boğuşarkən, getdikləri hər sahildən geri göndərilib aclıqdan ölməyə tərk edilərkən, bu insanların quruya addım atmalarına icazə verilməzkən,

əslində bütün dünyaya sirayət etmiş vicdan korluğu ilə qarşılaşdıq. Dünyanı bütün bu səfalətə alışdıran, bu qorxunc mənzərəyə qarşı laqeyd edən nə idi görəsən? Bir gəmi dolusu insanın kiçik bir quru parçasına ayaq basmasını rədd edəcək bir vicdan necə meydana gəlmişdi? İnsanlıq bu zalımlıq ölçüsünə nə vaxt gəlmiş və buna necə bu qədər asan alışmışdı?

Gündəlik həyat davam edərkən; bəzisi işinə gedərkən, bəzisi dəvətlərə qatılarkən; bəzisi axşam yeməyində qonaqlarını qarşılayarkən, bəzisi kompüterdə sosial media paylaşmalarını izləyərkən Myanmadan qaçanları daşıyan bir gəmi qapqara sularda ölüm səfərinə tərk edildi.

Ayla adlı körpənin Bodrumda sahilə vurmuş cansız bədəni, bütün dünyanı yerindən oynatmış və vicdan hesabı etməyə məcbur etmişdi. Lakin hər faciədə olduğu kimi bunun da təsiri qısa sürdü.

Mühərriki xarab olan gəmidə aclıqdan ölməkdə olan Rohinca müsəlmanlarının quruya addım atmalarını bütün ətraf ölkələr çox görmüşdü. Onlara bir çadır verməyi; onları öz bağlarında, meşələrində, bomboş dayanan ərazilərində qonaq etməyi istəmədilər. Futbola, dəvətlərə, bahalı paltarlara, avtomobillərə, stadionlara, alver və turizm

mərkəzlərinə xərcləməkdə olduqları pulları bu yazıqlara ayırmağı gərəksiz gördülər. Bu məzlum insanların vəziyyətinə "necə əlac taparıq?" demək yerinə, "onlardan necə xilas olarıq?" deyə fikirləşməyə başladılar. Mühacirləri geri çevirmə mövzusunda bir-birləri ilə sanki yarışa girdilər. Əlbəttə hər rəhbər və dövlət başçısı bu fikirdə deyil. Rohinca müsəlmanları üçün səfərbər olmuş ölkə xalqları, vicdanlı insanlar da var. Amma siyasətdə sözü keçənlərin son qərarları, illərdir davam edən əhəmiyyətli bir zülmü bütün açıqlığı ilə təkrar gözlər önünə sərdi. Rohinca müsəlmanları; insan tacirlərinə baxmayaraq, başqa ölkələr tərəfindən rədd ediləcəklərini bilmələrinə baxmayaraq, "ölümə" baxmayaraq, özlərini köhnə gəmilərdə dənizə buraxırlar. Bir insanı bu cür çarəsiz hala nə gətirə bilər?

Mühacir və İslam əleyhdarlığı hal-hazırda Avropada get-gedə böyüyən çox böyük bir virusdur. Bu əleyhdarlıq zehniyyəti, bəzi Avropalıları irqçiliyə sürükləməkdə və Avropanın əsas özünə zərər verməkdədir.

Myanmadan yola çıxıb dənizdə mühərriki xarab olan və içində onlarla adamın aclıqdan həyatını itirdiyi, getdiyi hər ölkədən rədd edilən bir gəminin İndoneziya tərəfindən qəbul edilməsi ilə problemlərin həll edildiyi zənn edilməsin. İnsan tacirlərinin məskən tutduğu Tailandda keçdiyimiz aylarda faciəli bir şəkildə toplu məzarların olması, insan ticarəti edənlərin qeyri-qanuni fəaliyyətlərini dayandırmış kimi görünsə də həqiqət elə deyil. Hal-hazırda Myanmadan yola çıxmış və başıboş dənizlərdə gəzən gəmilər təxminən 8.000 adam tutur. İnsan tacirləri artıq immiqrantlardan son ödəmələrini quruya çıxdıqlarında deyil dənizdə ikən alır və gəmini tərk edirlər. Malayziya və İndoneziya kimi müsəlman ölkələrin xalqları immiqrantlara kömək əli uzatmaq üçün hər şeylərini səfərbər edərkən, ölkə rəhbəri immiqrantları almamaq mövzusunda qərarlıdırlar. Üstəlik Myanma rəhbərliyini məsul tutaraq, bu problemin özlərindən uzaq olduğuna dünyanı inandırmaq istəyirlər. Halbuki bu müsəlmanların problemi, insanlıq problemidir. Necə bizlərdən uzaq ola bilər ki?

Malayziya Xarici İşlər Nazirliyini Banqladeş, İndoneziya və Tailand nazirlikləri ilə görüşərək problemə həll axtarışları əlbəttə diqqətə dəyər. BMT baş katibi Ban Ki-Munun mövzu ilə əlaqədar olaraq Malayziya və Tailand baş nazirləri ilə görüşməsi və gəmilərdəki immiqrantların qurtarılması üçün çağırış etməsi əhəmiyyətli bir addımdır. ABŞ "Soyqırım xatirə muzeyi" (Holocaust Memorial Museum) Myanmada müsəlman azlığa qarşı soyqırım şərtlərinin meydana gəlmiş olduğunu ifadə etməsi də uzun zamandır görməməzlikdən gəlinən Rohinca müsəlmanlarının dünya ictimaiyyəti tərəfindən fərq edildiklərinə dair əhəmiyyətli bir əlamətdir. Lakin həqiqət budur ki, dünya ictimaiyyətinin reaksiyasına baxmayaraq, dövlət çevrilişindən sonra yarı vətəndaş rəhbərliyə keçdiyi zənn edilən, amma əslində hələ də hərbi rəhbərlik altındakı Myanmadan bir həll gözləməsi çətin görünür. İndiyə qədər bütün çözüm çağırışlarını

rədd etmiş, bu istiqamətdəki yığıncaqlara qatılmamış Myanma rəhbərliyini bəlkə ən çox təsir edəcək şey, ancaq ASEAN (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası) üzvlərinin ciddi sanksiyaları ola bilər. Bununla yanaşı, Myanmadan təbii qaz kəməri çəkən Çin kimi nəhəng güclərin dəstəyi ilə belə bir sanksiyanın həyata keçirilməsi də çox çətindir.

İçinizdən fəzilət və sərvət sahibləri qohumlara, yoxsullara və Allah yolunda hicrət edənlərə (sədəqə) verməyəcəklərinə dair and içməsinlər! (Onları) bağışlasınlar və (bu niyyətlərindən) vaz keçsinlər! Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah çox bağışlayandır, rəhmlidir. (Nur surəsi, 22)

Bu vəziyyətdə, xüsusilə Malayziya və İndoneziya kimi müsəlman ölkələrin, bu problemi Myanmaya aid deyil, öz dindaşlarının, öz vətəndaşlarının problemi kimi həll yolu tapmaları lazımdır. Çözüm isə çox sadədir. Eynilə 2 milyondan çox mühaciri tərəddüdsüz, xarici kömək almadan, sevgiylə qəbul edən Türkiyədə olduğu kimi bu iki ölkədə də boş sahələr olduqca çoxdur. İndoneziya 17 mindən çox adadan meydana

gəlməkdədir. Bu adaların bəzilərini tam, bəzilərinin isə böyük bir hissəsi boş ərazidir. Həmin boş sahələrə çadır, ya da konteynerlər qurularaq məskunlaşma yerləri hazırlanmalı, bu insanlara ətrafdakı torpağı əkə biləcəkləri imkan, heyvandarlıq edə biləcəkləri bir neçə kiçik-böyük baş heyvan verilməli və həm özlərinin, həm də ölkənin dolanışığına iştirak edəcəkləri bir vətəndaş olaraq qəbul edilməlidirlər. İşçi ehtiyacının çox olduğu Malayziya kimi ölkələr üçün də bu iş qüvvəsi əhəmiyyətli bir qatqı olacaq. Xarici kömək gözləməsi mənasız və nəticəsizdir; bunların hamısı mövcud hökumətlərin imkanları ilə, çox xərc çəkmədən, asanlıqla reallaşdırıla bilər.

Dövrümüzün mərhəmətsiz siyasət anlayışı nəticəsində olduqca səhv bilinən bir həqiqəti xatırladaq: Çöldən gələn çətin vəziyyətdəki bir immiqrant, bir çox burjuanın zənn etdiyi kimi bir yük deyil, tam tərsinə Allah qonağıdır. Allahın qonağı isə bərəkəti ilə gəlir; onu qarşılayan və qonaq edənlər, Allahı razı edəcək bir iş görmənin qarşılığını və nemətini mütləq görərlər. Bu Allahın ədalətidir. Allahın ədalətinin qarşısında isə nə siyasətçilərin, nə beynəlxalq qanunların hökmü keçmir.

Əsas olan isə müsəlmanların birlik ruhunu yaşaya bilmələridir. Müsəlmanlar, Allahın onlara əmr etdiyi birlik ruhunu yaşamadıqları müddətcə, bu zülm sistemi dünyanın gözləri qarşısında davam edəcək. Bunu aradan qaldıracaq çözüm isə birlik və sevgidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi, “Arab News”, “The Frontier Post” və “Daily Mail” qəzetlərində dərc olunmuşdur:

http://www.arabnews.com/columns/news/750706

http://dailymailnews.com/2015/06/04/nobody-to-wipe-Rohincas-tears/

http://www.thefrontierpost.com/article/301831/nobody-to-wipe-Rohincas-tears/

FƏSİL

Şimali Afrika və Türkiyənin rolu

(“Morocco World News” - 29 may 2015-ci il)

Bir neçə il əvvəl Suriyanın Hələb şəhərindən qaçıb Liviyaya gəlmişdi. Ancaq burada da qarşıdurmalar başlayınca Suriyada yaşadıqları ağlına gəldi. Küçədə partlayan silah səsləri evinin içindən eşidilib, evi qarət ediləndən sonra ailəsinin təhlükəsizlikdə olmadığına əmin oldu. Yoldaşının tanış etdiyi bir adam uyğun bir ödəniş qarşılığında onu və ailəsini Avropaya aparmağı vəd etdi. Əlindəki pul çatmırdı. Evindəki əşyaları satıb bir az da borc taparaq pulu düzəltdi.

Macarıstan sərhədinə çəkilən ülgüclü məftillər, Avropa sərhədlərinə tikilən divarlar mühacir probleminin həlli deyildir. Şiddətə istiqamətli hər hərəkət, daha çox qəzəblə cavab tapır. Aqressiv cəmiyyətlər, daha çox müharibə və daha böyük mühacir axınları deməkdir.

Böyük bir anbarda yüzlərlə adam ilə birlikdə gözlədildikdən sonra bir gecə insanların qucaq-qucağa oturdulduğu, əldə qayırma bir gəmi ilə dənizə açıldı. Arvadı və kiçik qızı gəmidə ayrı bir yerə oturdulmuşdu. Özü gəminin içində bir neçə kvadrat metrlik bir məkanda onlarla adam ilə birlikdə idi. İçərisi çox isti idi, nəfəs almaq belə çətin idi. Sahildən xeyli uzaqlaşmışdılar ki, birdən yüksək səslə bağırışmalar eşitdi. İnsanların üzərinə basaraq göyərtəyə çatdı. Gəmiyə su dolduğunu gördükdə arvadı və qızının üzmə bilmədiyi gəldi ağılına. İlk düşündüyü şey yanlarına gedib onları qurtarmaq oldu. Ancaq o qədər izdiham vardı ki, onların olduğu tərəfə yönələ bilmədi belə, gəmi sürətlə batdı. Qaranlığın içində dənizdə bir tərəfdən bir taxta parçasına yapışıb, digər tərəfdən var gücü ilə arvadının və qızının adını qışqırırdı. Lakin səsi kömək istəyənlərin qışqırmaları arasında itib getdi. Gün doğularkən bir İtalyan gəmisinə alındı. Gəmi ilə birlikdə güvən içində davam edəcəyi həyata dair bütün xəyalları da yox olmuşdu. Üstəlik həyat yoldaşı və uşağı da yox idi artıq...

Son iki ildə bu və bənzəri hekayələr Şimali Afrika sahillərində sıxlıqla yaşanılırdı. Əfqanıstandan, Suriyadan, Eritrədən və Qara Afrikadan bir çox adam qurtuluşu Avropaya keçməkdə axtarır. Palermo Prokuroru Maurizio Scaliaya görə hal-hazırda ən az 1 milyona yaxın immiqrant Liviyadan İtaliyaya gəlmək üzrə hazır gözləyir.38

Avropa sənin insanlığın yox olmuş. Divar inşa etmək, mühacirləri sərhədin digər tərəfində tutmaq, gözlərimizin önündəki bu səfaləti ortadan qaldırmaz. Sərhədin digər tərəfində, avropalılar görsə də, görməsə də mühacir kabusu davam etməkdədir.

Avropaya keçmək istəyənlərin bir hissəsi daha yaxşı bir həyat, daha çox gəlir qazanma ümidi ilə yola çıxır. Bir çox Avropa ölkəsində də mühacirlər öz zənginliklərindən istifadə etmək istəyən əcnəbilər olaraq görülür.

AB Daxili İşlər və Xarici İşlər nazirləri mühacir probleminə qarşı alınacaq tədbirlər ilə əlaqədar hazırladığı hərəkat planı Avropanın mühacirləri bir insanlıq problemi olaraq deyil, özünün təhlükəsizlik problemi olaraq gördüyünü ortaya qoyur.

Təhlükələrin öhdəsindən gəlmək üçün divarlar inşa etmək tarix boyunca edilən primitiv üsullardan biridir. Bu divarlar yalnız qəzəb və zülm gətirmiş, bu divarlarla problemlər həmişə daha çox böyümüşdür.

Əslində bənzəri bir plan 2013-cü ildə bir komissiya tərəfindən hazırlanmış və üzv ölkələrin təsdiqinə təqdim edilmişdi. Amerikanın Səsi internet saytında köhnə plan yenisi ilə müqayisə edilərək bu qiymətləndirmə edilir:

2013-cü ildə üzv dövlətlər tərəfindən təsdiqlənməyə təqdim edilmiş, lakin 28 üzv dövlətdən 24-nün müxalifəti ilə qarşılaşan bu planın ən diqqət çəkici tərəfi, insan ölçüsünün aşağı olması idi.39

Euronews internet saytı isə Avropanın mühacirlərə münasibətinə "AB immiqrantlara kömək etməkdə sinifdə qaldı" deyərək daha dəqiq bir şəkildə ortaya qoyur.40

Avropa ölkələrində sığınacaq axtaranların yardımı və müdafiəsi ilə bağlı siyasətinin güclü müxalifətlə qarşılaşmasının əsas səbəbi birliyə hakim olan mənfəət fəlsəfəsidir.

Bu fəlsəfənin ən son təzahürü, sığınacaq axtaran şəxslərin müəyyən edilmiş kvotaya görə AB ölkələrinə paylanması təklifinə sərt reaksiya idi. AB Komissiyası sədr müavini Frans Timmermans, bu vəziyyəti, "Sığınacaq axtaranlar dənizdə boğulmasın, amma onları bizə də gətirməyin" deməsi də tamamilə qəbuledilməzdir" deyərək tənqid edir.41

Hər üzv ölkənin, siyasi və sosial inkişaflar qarşısında əvvəlcə mənfəətlərini güdməsi birliyi dərindən sarsıdır. İspaniyada Katalonya, İtaliyada Padanya, İngiltərədə Şotlandiya daha çox gəlir əldə edəcəyi düşüncəsi ilə ayrılmaq üçün fürsət gözləyir. Belə olduqda, öz ölkəsindəki kasıb insanlara belə dözə bilməyən insanların, kənardan gələn köməyə möhtac insanlara əl uzatmasını gözləmək mənasız hala gəlir.

Buna qarşı AB-də problemə daha humanist yaxınlaşanlar da var. İtaliya baş naziri Mateo Renzi kimi. Renzi, mühacirlərin Avropadan uzaq tutmaq məqsədi ilə yaradılan təhlükəsizlik tədbirləri təsdiq etmir. İtaliya baş naziri, 100 mühacir gəmisindən 91-nin Liviyadan gəldiyini deyərək; "Liviyaya hərbi müdaxilə gündəmdə olan bir mövzu deyil. Çünki bir hərbi müdaxilə ilə sülh və dinclik gətirmək üçün lazımlı şərtlər yoxdur. Belə bir müdaxilə Əfqanıstanda olduğu kimi kövrək bir demokratiya və ya sülh sazişlərinə hörmət çərçivəsində ola bilər." ifadə etdi.42

AB-nin məruz qaldığı mühacir axınının qəti həlli köçə gətirib çıxaran səbəbləri ortadan qaldırmaqdan keçir. BMT mühacirlər Yüksək Komissarlığının hesabatında iştirak edən statistikalara görə köçün əsas səbəbi insanların can təhlükəsizliklərindən narahat olmalarıdır.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)-nin hesabatına görə 2014-cü ilin birinci yarısında məcburi köçkünlərin sayında daha da artım oldu. Hesabata görə, 2014-cü ilin ilk yarısında 5.5 milyon insan didərgin düşmüşdür. Onlardan 1.4 milyonu ölkələrindən qaçaraq beynəlxalq sərhədləri keçərək sığınacaq axtaranlar oldu. Qalan 4.1 milyon insan öz ölkələri daxilində zorla köçürüldü. "Beynəlxalq ictimaiyyət mövcud münaqişələrə siyasi həll yollarını tapmaqda və yenilərinin başlamasının qarşısını almaqda davam etdikcə, faciəvi humanitar nəticələrə cavab verməyə davam etməliyik." deyərək mühacir probleminin dünyadakı qarşıdurmaların bir nəticəsi olduğunu belə söyləyir.43

Avropa ölkələri Orta Şərqdə və Afrikada həm Avropaya, həm də yerli xalqlara bir təhdid meydana gəldiyində o bölgəni dərhal bombalamaq, ya da işğal etmək yerinə terrorizmlə mübarizədə daha ağıllı, elmə, təhsilə söykənən üsullara əl atmalıdır. Məsələn, insanları haqsız yerə öldürmək, vətənlərindən didərgin salmaq, əmlaklarını qəsb etmək və işgəncənin zülm olduğunu bütün din mənsublarına uşaq yaşlarından öyrədilə bilər. Avropada sığınacaq axtaranların axınının dayandırılması istənirsə, Şimali Afrikada sığınacaq axtaranlara deyil, buna məcbur edən şərtlərlə mübarizə aparılmalıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Morocco World News"də dərc olunmuşdur:

http://www.moroccoworldnews.com/2015/05/159614/asylum-seekers-a-problem-of-humanity-or-security/

Türkiyənin suriyalı qaçqınlara köməyi iqtisadi zərər deyil

(“Diplomacy Pakistan” - 3 iyun 2015-ci il)

Miqrasiya qloballaşma ilə birlikdə gündəmə gələn ən təməl problemlərdən biridir. Bu gün yaşadıqları yerləri tərk edib başqa yerlərə köçən insanların sayı həmişəkindən çoxdur. Bu geniş əhali hərəkatının iki əsas səbəbi var; təhlükəsizlik və iqtisadi narahatlıqlar. Demokratiyaya totalitar rejim şəklində başlayan, lakin Yaxın Şərqi qısa müddətdə münaqişə zonasına çevirən Ərəb Baharı, mühacirlərin sayının sürətlə artmasına səbəb oldu. Suriyada yaşayan insanların bir çoxu ölkədəki vətəndaş müharibəsindən qaçmaq üçün qonşu ölkələrə sığındı.

Petra Laszlo adlı bir operator Macarıstan sərhədində əvvəl kiçik bir qız uşağını, sonra da 7 yaşındakı oğlu Zaid ilə birlikdə sərhədi keçməyə çalışan Mohsen adlı suriyalını badalaq ataraq yıxmış və bunlar mətbuata əks olunmuşdur. Petra Laszlonun təpiklədiyi kiçik mühacir qız uşağı. Laszlonun dünya ictimaiyyətinə əks olunan bu görüntüləri, bütün Avropa cəmiyyətini təmsil etməsə də, bəzi insanların nə qədər kütləşmiş olduğunun əhəmiyyətli bir dəlilidir.

Bu köçdən ən böyük payı da Türkiyə aldı Türkiyə cümhuriyyəti Daxili İşlər Nazirliyi Miqrasiya İdarəsinə görə 2011-ci ilin aprel, 2014-cü ilin may ayı arasında Suriyada baş verən daxili qarışıqlıqlar səbəbiylə bir milyona yaxın adam Türkiyəyə sığındı.44 Bu gün bu rəqəmin 2 milyon adamı aşdığı təxmin edilir.45

Türkiyədə bir siyasi partiyanın hazırladığı 72 səhifəlik hesabatda Suriya və İraqda baş verən böhranların Türkiyəyə təsiri qiymətləndirildi. Hesabatda Türkiyənin suriyalı immiqrantlar üçün dövlət büdcəsindən 5.5

milyard dollar istifadə etdiyi ifadə edilmişdir. Ayrıca yenə hesabata görə Türkiyənin hər iki bölgədəki böhranlara görə 4 il ərzindəki itkisi 16.7 milyard dollara çatmışdır. Suriyalı sığınacaq axtaranların xərci potensial ixracat itkilərindən və turizm gəlirlərinin azalmasından ibarətdir.46

Macar polisi tərəfindən gözyaşardıcı qaz ilə uzaqlaşdırılmağa çalışılan mühacirlər. Yan tərəfdə qazdan zərər çəkmiş mühacir qız uşağı.

Hesabatda suriyalı immiqrantlar yalnız iqtisadi baxımdan qiymətləndirilir və Türkiyənin immiqrantları qəbul etməsi böyük bir səhv olaraq əks etdirilir. Halbuki Suriyada baş verən böyük insanlıq faciəsini və ölümdən qaçaraq qapımıza gələn suriyalı mühacirlərin yaşadıqlarını yalnız rəqəm və statistikalarla qiymətləndirmək mümkün

deyil. Bu vicdan sahibi bütün insanların kömək etməsini tələb edən böyük bir fəlakətdir.

Əvvəlcə ifadə etmək lazımdır ki, Türkiyənin suriyalılara qarşı qonaqpərvər davranışı gündəlik daxili siyasət gərəyi, ya da məzhəb yanaşmasının nəticəsi deyil. Yaxın keçmişdə, Türkiyənin IŞİD-dən qaçan yezidləri və Səddam Hüseynin zülmündən qaçan kürdləri qəbul etmiş olması bunun ən böyük isbatıdır. Qaldı ki, Türkiyənin möhtac vəziyyətdə olanlara qucaq açması yeni bir davranış deyil. Türkiyənin uzaq tarixində də bənzər hadisələri görmək mümkündür.

Macarıstan sərhədində mühacirlərin vəhşi üsullarla dayandırılmağa çalışılması uzun müddət yaddaşlarda qalacaq kimi görünür. Halbuki bu insanlar terrorist deyil, vəhşilikdən qaçan məzlum insanlardır.

1850-ci illərdə Krım tatarları ilə başlayan köç dalğaları, sonrasında gürcü və çərkəzlər başda olmaq üzrə dağıstanlılar, çeçenlər, lazlar kimi Qafqazda yaşayan xalqlarla birlikdə Anadoluya köç hərəkatları yaşanmışdır.47 Krım tatar köçləri 1783-cü ildə Çar Rusiyası Krımı ələ keçirən zaman Osmanlı torpaqlarına köç edən ilk böyük dalğa idi. Osmanlı-Rusiya müharibələri sonrakı tatar köçünün 1890-cı ilə qədər müəyyənləşdirən amil idi.

Çərkəz köçü ən az Krım Tatarlarının köçü qədər faciəvi nəticələri olan və Anadolunun demoqrafik quruluşunu təsir edən kütləvi bir köçdür. Birinci Dünya müharibəsinə qədər 2.5 milyona yaxın çərkəz fasilələrlə Anadoluya köç etmək məcburiyyətində qalmışdır. Ancaq bu immiqrantların böyük bir hissəsi (təxminən 1 milyona yaxın) köç əsnasında həyatını itirmişdir.

19-cu əsrin əvvəllərindən etibarən Azərbaycandan da çox sayda qaçqın gəlmişdir. Xüsusilə 1877-1878 illər arasında köçlər sıxlaşmışdır. Yalnız Birinci Dünya Müharibəsi əsnasında da təxminən 10.000 adam Azərbaycandan Anadoluya köç etmişdir.48

1828-1829 illərdəki Osmanlı-Rus müharibəsindən sonra başlayan gürcü köçləri 1921-ci ilə qədər davam etmişdir. Albanların Anadoluya gəlişi isə 1468-ci ildə reallaşmış və bu immiqrantlar heç bir ayrı-seçkilik göstərilmədən Osmanlı tərəfindən sahiblənmişdir. Belə ki, Osmanlı Dövlətində baş vəzir vəzifəsinə gətirilən 215 adamdan 35-i alban idi. Dövrümüzdə isə, Türkiyədə beş milyona qədər alban olduğu təxmin edilməkdədir.49

Türkiyəyə köç edənlər yalnız etnik, ya da dini olaraq türklərə yaxın olanlardan ibarət deyil. Polşa Krallığının 1830-cu ildə Rusiya ərazisinə daxil olduqdan sonra, 1831-ci ilin əvvəllərində 10.000 adam Polşadan köç etmiş, köç edən insanların bir hissəsi də Osmanlı torpaqlarına gəlmişlər. Polşalı immiqrantlar ruslar və avstriyalılar tərəfindən israrla geri istənmiş, ancaq Osmanlı padşahı Əbdülməcid bu tələbləri "Taxtımı verərəm. Lakin dövlətimə sığınanları əsla geri verə bilməm" deyərək rədd etmişdir.50 Yəhudilər Avropadan qovularkən onlara qucaq açan yenə osmanlılar olmuşdur.

Köçlərin sıxlaşdığı 18-ci əsr və sonrası Osmanlının iqtisadi olaraq ən çətin zamanlarıdır. Bu dövrdə belə dövlət immiqrantları artıq xərc olar deyərək

rədd etməmiş, Osmanlı xalqı və dövləti ən dar zamanında belə imkanları ölçüsündə immiqrantlara kömək olmağa çalışmışdır.

Anadoluya köç Osmanlı sonrasında Türkiyədə Respublika qurulduqdan sonra da davam etmişdir. Bolqarıstandan, Makedoniyadan, Tatarıstandan, Çeçenistandan Qazaxıstandan, İrandan Türk-müsəlman olan və olmayan yüz minlərlə adam Türkiyə cümhuriyyəti torpaqlarına sığınmışdır. 12 minə yaxın qədər erməni immiqrant bu gün hələ də Türk torpaqlarında yaşamaqdadır.51

Türk tarixi torpaqlarına sığınan mühacirlərə qarşı nümunə rəftarlarla doludur. Heç bir zaman qaçqınlara yuxarıdan baxan, xor görən bir rəftar sərgilənməmişdir. Mühacirləri yük olacağı narahatlığı ilə rədd etmək qeyri-insani davranışdır. Bunun, evi yanarkən çölə qaçan bir insana "Sən niyə qaçdın? Yanan evin içinə qayıt!" deməkdən bir fərqi yoxdur.

Sayları nə olursa olsun suriyalı mühacirlər Türk xalqının qardaşıdır. Türk torpaqlarına sığındıqları andan etibarən sünni, şiə, ərəb, ya da kürd olsun hamısı vətəndaş rəftarı görəcəklər. Türk xalqı onlara sahib çıxmaqla məsuldur. Türk xalqı bunun üçün lazım olsa bütün çətinliklərə sinə gərəcəkdir. Türkiyə bir qatilə insan təslim etməz, çünki bu rəftarın nə türk tarixində nə türk mədəniyyətində, nə də İslam əxlaqında yeri yoxdur.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Diplomacy Pakistan"da dərc olunmuşdur:

http://www.diplomacypakistan.com/articles/it-is-no-economic-loss-to-help-syrian-refugees/

Tarix Türkiyəni unutmayacaq

(“Arab News”, “Pakistan Observer” və “The Malaysian Insider”-27 iyun 2015)

Canını, namusunu, övladını qurtarmaq üçün yollara düşmüş, geridə varını-yoxunu buraxmış bu insanlar, sahib olduqları bir tikə çörəyi belə paylaşmağa hazır məzlum insanlardır. Heç biri, bu cür insanlıqdan kənar rəftara layiq deyildir.

Evlərində rahat yaşayan insanlar üçün mühacirlik həmişə “başqalarının” problemidir. Bəlkə bundan 5 il əvvəl suriyalılar üçün də başqaları idi mühacirlər. Bundan bəlkə bir neçə il sonra mühacirlərə nifrətlə qarşı

çıxanlar eyni vəziyyətə düşəcəklər. Bəlkə bir çanta əşya ilə bütün varlığını itirmiş olanlar özləri olacaq və dünyanın laqeydliyinə heyrət edəcəklər. Duamız bundan sonra artıq başqa ölkələrdə, başqa faciələr görməməkdir əlbəttə. Lakin, dünyadakı 59 milyon insanın hamısının mühacir doğulmadığını da unutmamaq lazımdır.

20 iyun mühacirlər günü səbəbi ilə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) 2014-cü ilə aid müxtəlif məlumatlar açıqladı. Buna görə dünyada 59.5 milyon adam mühacirdir. Bu, II Dünya Müharibəsindən bəri dünya səviyyəsində baş verən ən böyük mühacir böhranıdır. Beynəlxalq cəmiyyət isə əksəriyyətlə bu məsələni mühacirləri saxlayan ölkələrin üzərinə buraxmışdır. BMT, suriyalı mühacirlərə dəstək üçün qoyduğu maddi kömək hədəfinin yalnız 23%-nə çata bildi. Afrikada isə, mühacirlər üçün lazım olan pulun yalnız 11%-ni tapa bildi. Afrika qitəsindəki mühacir mövzusuna hələ kifayət qədər əhəmiyyət verilmir, bu səbəbdən də mövzu həlsiz olaraq davam edir.

Rohinca müsəlmanlarının illərdir sürən faciəsi hələ də davam edir. Myanma sahillərindən ayrılan, rohinca müsəlmanlarını daşıyan gəmilərdən çox azı ətrafdakı ölkələrin sahillərinə çata bilir. Yaxın qohuma, yoxsula və yolda qalmış müsafirə (zəkat, yaxud sədəqədən) haqqını ver! Allahın rizasını istəyənlər üçün bu daha xeyirlidir. Onlar əsil nicat tapanlardır. (Rum surəsi, 38)

Mühacir böhranını aşmaq üçün, problemin baş verən ölkələrdə BMT-nin nəzarətində etibarlı bölgələrin yaradılması (keçici də olsa) hal-hazırda ən vacib həll kimi görünür. Lakin əlaqədar bölgələrə BMT-nin pul köçürə bilməyəcək olması bu fikrin həyata keçirilməsini qeyri-mümkünləşdirir. Mühacir probleminin yaşandığı demək olar ki, hər ölkə üçün bir neçə inkişaf etmiş ölkənin qarant olması və ehtiyacları qarşılaması tətbiq oluna bilər bir həldir. Amma bu mərhələdə də bunu edə biləcək ürəkli və vicdanlı ölkə tapma problemi qarşımıza çıxır.

1

Solda ABŞ Ferqüson polisinin zəncilərə; sol aşağıda Çin polisinin Şərqi Türküstan xalqına; sağda hərbi çevrilişdən sonra Misir polisinin öz xalqına qarşı zorakılıq rəftarı görülür. Bunlar İnsan Haqları İzləmə Təşkilatının (HRW) işgəncə və müharibə cinayətləri hesabatında əsas nümunələrdəndir.

Mühacir böhranını yalnız çadır düşərgələrdə yaşayan insanlarla məhdud tutmaq doğru deyil. Yurdlarından kor bir hədəfə çatmaq üçün ayrılıb heç bir yerdə sığına bilməyən, qorxunc insanlıq faciəsi ilə üzləşənlərin sayı və vəziyyətləri heyrətverici ölçülərdədir. 31 may etibarilə 2015-ci ildə Aralıq dənizini keçmək istəyən 1865 adam həyatını itirdi. Cənub-Şərqi Asiyada isə, 2015-ci ilin ilk dörddə birində gəmilərdə təxminən 300 adamın öldüyü təxmin edilir. Ölüm səbəbləri aclıq, susuzluq və gəmi heyətinin tətbiq etdiyi şiddətdir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (OHCHR), gəmilərdəki qadınlara təcavüz

edildiyini, kişilərin döyülərək dənizə atıldığını, uşaqların isə ailələrindən ayrılaraq istismar edildiyini açıqladı.

Beynəlxalq cəmiyyət, üzərinə düşən vəzifəni tam mənası ilə etməmiş olsa və xüsusilə Avropa ölkələri, Avstraliya və ABŞ mühacirlər mövzusunda gözləniləndən daha laqeyd bir görünüş sərgiləsə də atılan bəzi addımlar və bir sıra ifadələr sevindiricidir. Baş verən fəlakətlərin ardından Aralıq dənizində Triton əməliyyatının keçmişdəki Mare Nostrum səviyyəsinə çıxarılması, Myanmadakı rohincalıların adının bəlkə də ilk dəfə beynəlxalq cəmiyyət böhranlarının arasında keçməsi dünya üçün hələ də ümid vəd edən hadisələrdir. “Aralıq dənizində mühacirləri ölümdən qurtarmaq Avropadakı ölkələr üçün əxlaqi bir vəzifədir. Qitəmizin qapıları qarşısında insanları suya tərk etsək qürurumuzu da itirmiş olarıq” sözləri Almaniya prezidenti Gauka aiddir.

İnsan haqları pozuntuları nümunələrinə bu gün dünyanın çox böyük bir hissəsində rast gəlmək mümkündür. Bu faciəvi mənzərə, sevgi və mərhəmətin yerinə haqsızlıq və vicdansızlığı seçən insanlıq adına narahat edicidir.

Mühacir böhranını uzaqdan seyr edərkən birdən-birə bu problemin öz qapılarına söykəndiyini görən Avropa böyük bir qarışıqlıq yaşadı. Avropa bu vəziyyətə alışsın, BMT Yüksək Komissarlığı hesabatında, dünyada ən çox mühaciri saxlayan ölkə Türkiyə oldu. Türkiyəyə kənardan baxan bəzi insanlar bu vəziyyəti bir çətinlik, çatışmazlıq və ya fəlakət olaraq xarakterizə edə bilərlər. Halbuki suriyalı və iraqlı qardaşlarımızı öz torpaqlarımızda qonaq etmək bizim üçün qürurdur. Əzilmiş məzluma, müharibədən qaçan yazığa, ehtiyac içindəki yoxsula kömək etmə fürsəti Allah tərəfindən bizə verilmişdir. Bizlər bu qüruru İspaniyadan qaçan yəhudiləri, Stalindən qaçan rusları, Səddamdan qaçan kürdləri torpaqlarımıza qəbul edərək də yaşamışdıq. Bu cəmiyyətlərin bizləri hələ sevgi və dualarla xatırlamalarının səbəbi budur. İctimaiyyət belə bir yaxşılığı var olduqları müddətcə unutmazlar. Çünki onlara bu fürsəti verənlərin sayı həmişə çox az olmuşdur.

İsraf həddini aşar, bütün pullar silahlara xərclənər, milyonlarla dollarlıq bomba yüklü dronlar, ölkələrdəki faiz sistemi mərhəmətsiz şəkildə işləyərkən; Türkiyə kimi inkişaf etməkdə olan ölkə 5.1 milyard dolları mühacirlərə ayıra bilmişkən; içlərində dünyanın ən zəngin 7 ölkəsinin də olduğu 193 ölkədən ibarət olan BMT mühacirlər üçün pul tapa bilməməkdədir. Ölkələr çox yollarla həll edə bildikləri qaçqın problemini yalnız insan alverinin qarşısını alan hərbi qanunlarla dayandırmağı hədəfləyirlər və çox vaxt bu insanların ölkələrini tərk etmələri üçün həll yolları tapmaq əvəzinə ölkələrinə gəlməmələrini təmin etməyə çalışırlar. Bir ölkə üçün mühacirləri qəbul edib, saxlamaq, qoruyub təhsil vermək, onlara öz vətəndaşı kimi baxmaq qaçqın probleminə çözüm ikən, Macarıstan kimi başqa ölkələr üçün Serbiya sərhədinə 4 metrlik hasar inşa etmək həll olmaqdadır.

Xatırladaq ki; İnsan alverçisinə hərbi tədbirlər tətbiq etmək bəzi ölkələr üçün təsirli vasitə kimi görünə bilər. Zülmü düzəltməyin yeganə yolu,

insanın olduğunu xatırlatmaqdır. İnsanı sevgisiz və əxlaqsız edən bütün dəyərlər yoxa çıxdığından ölkəsindən qaçmaq məcburiyyətində qalan bir mühacir görən problem, bir yük və ya bəla olduğunu düşünən bir zehniyyət ilə buna nail olmaq mümkün deyil.

Mühacir, bir yük və ya bəla deyil, Allahın qonağıdır. Qeyri-rəsmi məlumatlara görə 2.5 milyon qonağı saxlayan Türkiyə isə bizim üçün qürur vəsiləsidir. Yəhudiləri, rusları, kürdləri yarı yolda buraxmamış tariximiz bizim üçün qürur vəsiləsidir. Geriyə dönüb baxdığımızda, "bu insanları torpaqlarımıza qəbul etmədik ona görə öldülər" deyə biləcəyimiz qorxunc bir keçmişimiz olmadığı üçün şükürlər olsun. Çünki o peşmanlığı bir daha heç bir şeylə düzəldə bilməzsiniz. Müqəddəs kitabımız Qurana görə isə bir can xilas etdiyində dünyanı xilas etmiş sayılmış olarsınız (Maidə surəsi, 32).

Hörmətli Adnan Oktarın bu məqaləsi "Arab News", "Pakistan Observer" və "The Malaysian Insider"də dərc olunmuşdur:

http://www.arabnews.com/columns/news/768001

http://epaper.pakobserver.net/201506/28/comments-2.php

http://www.themalaysianinsider.com/sideviews/article/a-heart-for-helping-refugees-harun-yahya

Vicdanlar kor olanda, uşaqlar da ölər

(“Middle East Monitor” - 3 iyul 2015-ci il)

Dövrümüzdə zəif qınamalar bu gün insan haqlarının pozulmasına demək olar ki, təsir göstərmir. Bu pozuntulara son vermək üçün, insanların həyat damarı olan sevgini təkrar ürəklərində inşa etmək lazımdır.

Artur Londonda yaşayan ingilis uşaqdır. Artur sağlamdır və ailəsi ona çox yaxşı baxır. Xəstələnsə belə evlərinin yaxınında kömək ala biləcəyi bir xəstəxana var. Anası nizamlı və düzgün bəslənməsinə diqqət göstərir, bir çox oyuncağı da var. Həyatı bir çox uşaq kimi evi və məktəbi arasında

keçsə də, yoldaşları ilə gözəl vaxt keçirir. Ürəyi istədiyi zaman rahat çölə çıxıb oyun oynaya bilir. 9 yaşındakı Arturun ən böyük xəyalı isə atası kimi hərbi pilot olmaqdır.

Safi lazkiyeli bir uşaqdır. Artur ilə həmyaşıd. Lakin həyat şərtləri onun həyatından çox fərqlidir. Məktəbində oxuyarkən Suriya rejiminə bağlı təyyarələr tərəfindən Safinin məktəbinə çəllək bombası atılmışdı. Yaşadığı kənd bombardman ediləndə bütün kəndlilər bölgədən qaçmışdı. Bu hadisədən bir ay əvvəl isə başqa bir hücumda evinin şüşələri parçalanmışdı. Partlayan bombaya görə saçılan qəlpə parçalarının bəziləri Safinin üzünü parçalamış, bir qismi hələ kürəyində durur. Üzündəki qəlpə yarasına görə yoldaşlarının qorxub onunla oynamaq istəməyənlərin olduğunu söyləyir. Arturun əksinə Safi həkim olmaq istəyir; məqsədi böyüdükdə "yaralanan uşaqları, böyükləri müalicə etmək, həyatlarını qurtarmaqdır."

Avropanın öhdəliklərinə görə, qaçqınlar təhlükəsiz ərazilərdə saxlanılmalı, onların yaşamaq hüquqları təmin edilməli və lazımi yardım göstərilməlidir. Həmin müqaviləyə görə bu etibarlı bölgə Türkiyədir. Bu səbəbdən Avropa, əgər öz sərhədləri daxilinə mühacirləri qəbul etməməkdə qərarlıdırsa, bu vəziyyətdə mühacirlər üçün lazım olan köməyi Türkiyəyə təmin etməlidir.

Bu, Antakyada yaşayan suriyalı bir uşağın əsl həyat hekayəsindən bir hissə idi. UNICEF-in türkcə internet saytında onlarla suriyalı uşağın buna bənzər hekayəsi yer alır.52 Bu hekayələrdə hər birinin məruz qaldığı təzyiq, sürgün ya da qırğına dair ürək sıxan detallar yer alır.

Baş verən mühacir axını, verdiyi bir çox dərslə yanaşı Avropaya, Avropa Birliyinin Türkiyəyə ehtiyacı olduğunu göstərmişdir. Türkiyəyə verdiyi dərs isə budur: Əgər Türkiyə Avropa Birliyinin bir hissəsi olacaqsa azadlıq, demokratiya kimi dəyərləri həmişə irəlidə tutmalıdır.

Suriyadakı vətəndaş müharibəsinə görə yetim qalan uşaqların sayı gün keçdikcə artır, müharibə uşaqlar üzərində çox qorxunc təsir buraxır. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) və Uşaq Fondu UNİCEF-in son hesabatına görə, Suriya və İraqdakı münaqişədən zərər görmüş uşaqların sayı 14 milyona çatdı.53 Suriyada yardıma ehtiyacı olan uşaqların sayı 5.6 milyondur, bunlardan 323.000-i 5 yaşından balacadır.

Ölkələrindən qaçan suriyalı mühacirlərin bir milyondan çoxu 11 yaşından kiçik uşaqlardan meydana gəlir. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)-in rəhbəri Antonio Guterres, “Uelsdə bir milyon uşaq yoxdur. Los Angeles və Bostonu birləşdirsəz bir milyon uşaq toplaya bilməzsiniz. Bu rəqəm dəhşətlidir”54 deyərək bir milyon uşağın qaçqın vəziyyətinə düşməsinin nə qədər dəhşətli olduğunu dilə gətirir.

Onlar öz nəfsləri çəkməsinə baxmayaraq yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (İnsan surəsi, 8)

Suriyada hələ də 18 yaşından kiçik 11.525 uşaq nəzarətdə saxlanılır. Suriyada Şiddət və Zorakılıqları Sertifikatlaşdırma Mərkəzinə görə 98 min 823 uşaq müharibəyə görə yetim qaldı.55 Suriya İnsan Haqları Təşkilatı SNHR-nin hesabatına görə Suriyada 9 min 500 uşaq isə məhbusdur.56 Eyni hesabatda 94 uşağın gördüyü işgəncəyə görə həyatını itirdiyi məlumatı da yer alır.

Tək Suriyada deyil İraqda, Əfqanıstanda, Liviyada və başqa yerlərdə uşaqlar və ya onların anaları, ataları ölməyə, müharibədə yetim qalanların sayı gedərək artmağa davam edir. Milyonlarla uşaq məktəbinə gedə bilmir, yetərli bəslənə bilmir, səhiyyə xidmətləri yoxdur, üstəlik hər an ölüm qorxusu ilə yaşayır. Bir şəkildə müharibə sahəsindən qaçmağı bacarmış uşaqları belə böyük çətinliklər gözləyir. Qonşu ölkələrə sığınmış uşaqların böyük bir hissəsinin evləri yoxdur. Paltarları yoxdur. Əşyaları,

oyuncaqları, məktəbləri, yoldaşları... Ən əhəmiyyətlisi isə onlara könüldən sevgi, şəfqət və maraq göstərəcək kəsləri yoxdur. UNICEF direktor müavini Yoka Brandt, Suriyadan qaçaraq başqa ölkələrə sığınmış uşaqlarla əlaqədar olaraq bu şərhləri edir:

"Bu uşaqlar qoruna bilmir: Cinsi istismara məruz qalır, uşaq yaşda işlədilib, erkən yaşda evləndirilir. Gələcəkləri oğurlanır."57

Suriyalı uşaqların vəziyyəti əsas xəbər bülletenlərində olan bir detala çevrildi. İnsanlar hər gün yanmış, dağılmış evləri, güllələnmiş uşaqları yuxulu gözlərlə izləyir. İnsanların bir çoxu İnternetdə müharibənin nəticələrini ortaya qoyan xəbərləri, şəkilləri görsələr də bunlara çox baxmırlar. Baxsalar da tez unudur, unutmaq istəyirlər, çünki bəzi insanlar öz rahatlığı, öz təhlükəsizliyi yerində olduğu müddətcə hər hansı bir problem görmür.

Twitterdə bir neçə cümlə, Facebookda bir-iki fotoşəkil paylaşmaq, bir neçə qınayıcı mesaj yazmaq onlar üçün yetərlidir. Suriyalı immiqrantlara kömək olmaq üçün yardım edənlərin sayı isə təxmin ediləndən çox aşağıdır.

Halbuki insanlar öz uşaqlarının üzərinə titrədikləri kimi suriyalı uşaqları da düşünməlidirlər. Bu insanlar oturduqları yerdən qalxıb bir neçə günlük Suriyaya gedib oradakı müharibənin gətirib çıxardığı dəhşəti və qorxunu yaşamış olsalar eyni laqeydliyi davam etdirə bilərlər? Hər birimizin içində olduğumuz eqoist ruh halını tərk edib, dünyadakı məzlumların problemlərini həll etməmiz, bunun üçün cəhd göstərməyimiz lazımdır. Bütün dünyada sevgini, sülhü, qardaşlığı, ədaləti, mərhəməti, şəfqəti yaymaq üçün böyük bir səy sərf etməliyik.

Hər şeydən əvvəl uşaqları işgəncə edərək öldürə biləcək qədər vicdanları kor edən ideologiyaların, ehtirasların var olduğunu dərk etməli, bunları

silahla yox etməyə çalışmaq yerinə, fikirlə susdurmalıyıq. Şəxsi və ya milli çıxarlar nə qədər əhəmiyyətli olursa olsun, bunların bir insan həyatından qiymətli ola bilməyəcəyini izah edərək insanların vicdanlarına xitab etməliyik.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Middle East Monitor"da dərc olunmuşdur:

https://www.middleeastmonitor.com/articles/middle-east/19625-when-conscience-fails-children-suffer

Soyqırımlar... Başı önə əyilmiş liderlər...

("Arab News" - 3 iyul 2015-ci il)

İyul ayı iki əhəmiyyətli hadisəni, iki böyük soyqırımı xatırladır. Birincisi tarixin ən böyük soyqırımı olaraq kitaba düşən Ruanda qırğını, digəri isə Srebrenitsa faciəsi. İkisini də dünya liderləri iyul ayında utanaraq xatırlayar. "İcazə verməməli idik" deyərlər; lakin olan olmuşdur.

Paris hücumlarından sonra bütün qaçqınları terrorçu kimi görmək məntiqi Avropadakı əcnəbi düşmənçiliyi və irqçiliyin şiddətini çox artırdı.

Bir az keçmişə qayıdaq. 7 aprel 1994-cü ildə əksəriyyəti hutulardan meydana gələn Ruanda ordusunun ölkədəki tutsi adlı azlığa qarşı soyqırıma başlayaraq əsrin ən böyük qırğınlarından birini reallaşdırması bütün dünya tərəfindən sadəcə izlənilmişdi. Materialist anlayışın ən böyük kozırlarından və saxtakarlıqlarından biri olan "ali irq" anlayışı, illərlə bir yerdə yaşayan Ruanda xalqı üzərinə tətbiq olunmuşdu. Avropada irq üzərinə fikir söyləyən bəzi kütlələr, Ruanda bölgəsində yaşayan insanların, ari irq ilə aşağı irq arasında bir keçid irqi olduğunu iddia etmişlərdi. Buna görə hutular, tutsiləri həqiqi ruandalı olaraq deyil, özlərini həmişə alçaldan və istismar edən avropalıların ölkələrindəki işğalçı qohumları olaraq qiymətləndirməyə başlamışlardı. Sonrakı mənzərə isə məlumdur: Tarixdə bənzərinə nadir rast gəlinən mərhəmətsiz qırğın reallaşdı. Yüz gün kimi qısa bir müddət ərzində 800.000 tutsi və məzlum hutu vəhşicə qətl edildi. İyul ayında qırğın son dövrünə girərkən BMT Sülhməramlı Qüvvələri 10 əsgərinin ölümünü bəhanə edərək bölgədən çəkildi. Bölgənin keçmiş müstəmləkəçiləri Belçika və Fransa isə bilə-bilə gələn bu soyqırımı izləməklə kifayətləndi. Dövrün Fransa prezidenti François Mitterrand "Le Figaro" qəzetinə 12 yanvar 1998-ci il tarixində verdiyi müsahibədə, "O ölkələrdə soyqırım yaşanması o qədər də əhəmiyyətli deyildi" şəklində qərbin nöqteyi-nəzərini təəccüblü bir şəkildə irəli sürən açıqlama ilə gündəmə gəldi.

11 iyul 1995-ci il tarixində isə bir başqa qorxunc soyqırımın utanc günüdür. Bosniya müharibəsi əsnasında Bosniya və Herseqovinanın Srebrenitsa şəhəri BMT tərəfindən etibarlı bölgə elan edilmişdi. Müharibə bölgəsindəki insanlar bu "etibarlı bölgəyə" axın etmiş və müharibədən əvvəl əhalisi 20 min olan şəhər bir anda 60 min olmuşdu. Bölgənin mühafizəsindən cavabdeh olan hollandiyalı əsgərlər gecə yarısı BMT-nin Bosniyadakı Sülhməramlı Qüvvə Komandiri hollandiyalı General Thom Karremansdan aldıqları əmrlə şəhəri və onlara sığınan 25 min insanı

serblərə təslim etdi. Bir həftə davam edən qırğınlar qorxunc bir soyqırımı geridə qoydu. Qırğınlarda qadın və uşaq ayrı-seçkiliyi edilməmişdi. İndiyə qədər bu qırğınla əlaqədar təsbit edilən toplu məzarların sayı 64-ə çatmışdır. Toplu məzarların axtarılması hələ də davam etməkdədir.

Qərb dövlətləri, vicdani məsuliyyət və insanlıq adına böyük bir imtahandan keçir. İndiyə qədər mühacirlərə istiqamətli hər aqressiv rəftar, Avropa mədəniyyətinin təməlini vurdu. Ümid edirik Avropa qısa müddət ərzində çözümün nifrət, ya da ülgüclü məftillər olmadığını görə bilər.

Bölgəni qorumaqla vəzifəli 400 silahlı Hollandiya Sülhməramlı Qüvvə əsgərinin gözləri qarşısında reallaşdırılmış olan bu qırğın, hər iyul ayında Avropa ölkələrinin dövlət səlahiyyətliləri və BMT nümayəndələrinin üzr bəyanları ilə xatırlanır. Birləşmiş Millətlər Təşkilatının nəzarətindəki "etibarlı bölgəni" qorumaqdan aciz qalmışdır.

Görəsən Ruandada baş verən tarixin ən vəhşi soyqırımı, bölgəyə hakim dərin güclər tərəfindən maneə törədilə bilməzdi? Görəsən 193 ölkənin təmsil edildiyi BMT, Srebrenitsa kimi kiçik bir bölgəni iki F16 qırıcı təyyarəni və xalqı serblərə təslim edən bir komandirlə qorumağa çalışacaq qədər aciz idi? Əlbəttə deyil. Bugün bu barbarlıq səhnələrini xatırlayarkən məhz buna görə başlar önə əyilir.



Müsəlmanlar aralarındakı süni ixtilafları bir kənara buraxıb bir araya gəlsələr, dünyada zülm qalmayacaq. O zaman çətin zamanlarında qərb ölkələrinin imkanlarına ehtiyac olmayacaq, müsəlmanlar birlikdə həm maddi, həm mənəvi mənada dünyanın ən böyük gücünü meydana gətirəcəklər.

Günümüzə döndüyümüzdə, bəlkə də ən əzab verən mənzərə, tarixin təkrardan ibarət olduğunu bir daha bütün açıqlığı ilə görmək olur. 20 il əvvəl Ruanda və Bosniyada baş verənlərə bənzər bir müharibə hal-hazırda Suriyada daha geniş formada yaşanır. Suriyada 4 il ərzində təxminən 300.000 adam öldü, 1.200.000 adam yaralandı, 11.000.000 adam

isə yurdlarından didərgin edildi. Yenə dövrədə olan bəzi Avropa ölkələri kimyəvi silah, işgəncələr və yaşayış sahələrinə qəsdən bombardman edilmələri hesabatlarına yazmalarına baxmayaraq, baş verənləri bilə-bilə izləməyə davam edir. Hesabatların təslim edildiyi ünvan isə yenə 193 ölkənin təslim edildiyi Birləşmiş Millətlər Təşkilatıdır. Lakin ölkədəki soyqırıma çarə axtarmaq bir tərəfə, BMT nə ölkədən qaçan mühacirlərə çarə tapa bilir, nə də etibarlı bölgələr yarada bilir. Suriya mövzusunda nə ABŞ-ı, nə Avropa ölkələrini, nə də BMT-ni birbaşa günahlandırmaq şübhəsiz ki, doğru olmaz. Lakin görünən o ki, bəzi kəslərə görə "o ölkələrdə soyqırım yaşanması o qədər də əhəmiyyətli bir şey deyil".

Mənfəətlər olmasa, "irq üstünlüyü" kimi saxta materialist vəsvəsələr xüsusilə Avropa ölkələrini himayəsi altına almasa, siyasi manevrlər deyil "insanlıq" əhəmiyyətli olsa, şübhəsiz vəziyyət Ruandada da, Bosniyada da, Suriyada da indikindən çox fərqli olardı. O zaman BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü hər faciə üçün ortaq qərar almağı bilər, zövq üçün xərclənən, israf edilən milyardlar tərəddüdsüz mühacirlərə köçürülərdi. Dərhal etibarlı bölgələr yaradılar, ölkəyə olan təhdidlərə qarşı daşındırıcı bir dünya gücü sürətli şəkildə yaradılardı.

Bəlkə də problem hər şeyi Birləşmiş Millətlər Təşkilatından və ya dünya super güclərindən gözləməkdən qaynaqlanır. Gələcəkdə daha çox soyqırım görməmək və başımız önə əyilmiş qalmamaq üçün dünyaya aid qərarları yalnız 5 ölkəyə buraxmaq deyil, ağlı başında insanların bir araya gəlib səs gətirəcəyi bir güc meydana gətirmək lazımdır. Orta Şərq; irqçiliyə, Baasın zehniyyətinə və eyni zamanda radikalizmə qarşı çıxmaq ağlı başında müsəlmanları da özündə saxlayır. Çətin vəziyyətdəki insanlara necə kömək ediləcəyini, etibarlı bölgələrin necə yaradılacağını və birlik olub necə daşındırıcı güc yaradıla biləcəyini bəlkə də dünyanı idarə etmədə veto haqqına sahib 5 ölkəyə bizlər göstərə bilərik. Bəlkə də o

zaman “o ölkələrdə” soyqırımı üzrlü hesab edən kəslərin səsləri, artıq o qədər güclü çıxa bilməz.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Arab News” qəzetində dərc olunmuşdur:

http://www.arabnews.com/columns/news/784926

Avropa mühacir imtahanından necə keçəcək?

(“The Jakarta Post” və “The Malaysian Insider” - 3 sentyabr 2015-ci il)

Suriyada bombalardan qaçan məzlum xalq həmişə sığınacaq yer axtarışındadır. Türkiyə insanlıq vəzifəsini əlbəttə sonuna qədər yerinə yetirəcək. Lakin beynəlxalq cəmiyyət də bu təcili vəziyyətə laqeyd qalmamalıdır.

Ötən həftə sərhədi keçmək istəyən mühacirlərin faciəvi görüntülərini Makedoniyadan izlədik. Sərhədə yığılan minlərlə məzlum insan, Makedoniya polisinin şiddət ilə cavab verəcəyini, keçməyə maneə

törətmək üçün tikanlı məftillərlə qarşılaşacaqlarını bəlkə də heç vaxt təxmin etməmişdilər. Bu insanlar müharibənin davam etdiyi ölkələrindən qaçmış, şişmə qayıqlarla Yunanıstana doğru ölüm səfərinə çıxmışdılar. Bu macəranın mərkəzi Aralıq dənizi 2 mindən çox immiqranta məzar olmuşdu. Ölüm səfərini aşmağı bacaran mühacirlər, yolun sonuna gəldik deyərkən, AB ölkələrindən birinin qapısında bu cür qarşılanacaqlarını gözləmirdilər.

Həyatlarını zəmanət altına almaq üçün Almaniyaya doğru yönələn suriyalı, eritrəli, somalili, iraqlı və əfqan mühacirlər haqqında bəhs etdiklərimizdir. Ölkələrindən daha yaxşı bir həyat və ya yoxsulluq səbəbi ilə deyil, yalnız həyatlarını qurtarmaq üçün ayrıldılar. Makedoniya sərhəd şəhəri Gevgelijadakı gənc bir mühacirin bu sözləri vəziyyəti açıqlayır: “Hər ölkə mənim ölkəmdən yaxşıdır. Mənim ölkəmdə müharibə var, ölüm var.” Ölümdən qaçmaq üçün ölümü gözə almaq böyük çarəsizlikdir; ancaq çox təəssüf ki, rahatlıq içində yaşayan insanların çox azı bunu dərk edə bilir.

Zaman sövdələşmə zamanı deyil, insanlıq zamanıdır. Avropa sivilizasiyası fədakarlıqda qabaqcıl olmalı və bütün dünyaya mehriban üzünü göstərməlidir.

Avropa hal-hazırda bununla imtahan olur. Vicdanlı səslər çıxsa da, xalqın böyük əksəriyyəti mühacirlərə kömək etmək istəsə də, avropalı liderlərin bir hissəsi hələ də "mühacir"i problem yox, məcburiyyət olduğunu tam anlamayıbdır. İngiltərə, Fransa və Almaniyanın məsələnin həlli mövzusunda razılığa gələ bilməməsi, AB ölkələrinin Brüsseldən gələn çözüm təkliflərini rədd etməsi, vəziyyəti daha da ağırlaşdırmışdır. AB ölkələrinin hər biri, olduqca məhdud sayda mühacir qəbul etmə mövzusunda qərarlıdır. AB-nin tətbiq etdiyi kvota, 28 üzv ölkənin iqtisadiyyatı və əhalisinə görə mühacir qəbul etməsini nəzərdə tuturdu. Lakin bu tətbiq də, ölkələrin rəqəmlərə etiraz etməsindən sonra aradan qaldırıldı. Macarıstan mühacirlərin ölkəyə girişini maneə törətmək üçün sərhədinə nəhəng divar hörməyi, Slovakiya və Çek Respublikası kimi bəzi ölkələr bünyələrinə yalnız müəyyən sayda "xristian" mühaciri qəbul edəcəklərini açıqladı. Bu vəziyyət, Avropa mühacir kabusunun nə qədər ürküdücü ölçülərdə olduğunu bir daha ortaya qoydu. Slovakiya bu sözləri sonradan geri götürsə də AB-nin tələb etdiyi 1.100 mühacirə sığınma tələbini rədd etdi. Slovakiya Baş Naziri Robert Ficonun bu sözləri ürək ağrıdır: "Tək bir məsuliyyət var. Liviyanı kim bombaladı və Şimali Afrikadakı problemlərə kim səbəb oldu. Slovakiya? Xeyr."

Fransız bioloq Luis Pasteur

Əfqanıstan müharibəsinin başladan ABŞ idi; Suriya müharibəsini başladan isə Baas rejimi. Lakin altı milyona yaxın mühaciri bünyələrinə alaraq nə Pakistan müharibəsini kimin başlatdığını soruşdu nə Türkiyə, nə Livan, nə də İordaniya. Çünki bu ölkələr, bir insanlıq faciəsi ilə qarşı-qarşıya olduqlarının fərqində idilər. Türkiyə hal-hazırda dünyada mühacir qəbul edən ölkələr sıralanmasında birinci yerdədir. Rəsmi rəqəmlərə görə

1.6 milyona, qeyri-rəsmi rəqəmlərə görə 2.5 milyona çatan mühacir axını, şübhəsiz, Avropa ölkələri ilə müqayisə etdikdə milli gəliri çox yüksək olmayan Türkiyə üçün bir problem idi. Lakin Türkiyə bu problemi kimsəyə hiss etdirmədi. Suriyalı mühacirlər üçün 6 milyard dolları öz büdcəsindən ödəyərkən, Kobani hücumları əsnasında yalnız bir gündə 350 min mühacirə qapılarını açmışkən, kimsə Türkiyənin boynuna götürdüyü məsuliyyəti düşünmürdü belə. İndi Avropada baş verən hay-küy, sadəcə iyul ayında bölgəyə gələn 107 min mühacir üçündür. Bəziləri dünyanın ən böyük iqtisadiyyatına sahib 28 ölkə, 107 min insanın baxımını heç cür boynuna götürə bilmir.

Xatırlanacağı kimi bu müharibə ötən aylarda yalnız 40 min mühacirin paylaşılması mövzusunda yaşanmış və səylər yenə nəticəsiz qalmışdı. Avropa Parlamenti prezidenti Gianni Pittella bu çarəsizlik qarşısında aşağıdakı sözləri ifadə etmişdi:

Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ də təkamül nəzəriyyəsi üçün son dərəcə böyük çıxılmaz vəziyyətdir.

“Beş ay davam edən görüşlərin nəticəsində AB üzvlərinin 40 min mühaciri yerləşdirmə mövzusunda bir razılığa gələ bilməmələri gülüncdür... Bəzi AB üzvləri 250, 500 mühacir qəbul edək deyə münaqişə edərkən Türkiyə, İordaniya və Livan 3,5 milyondan çox mühacir qəbul etdi. Bu vəziyyət o ölkələrin insanlıq və həmrəyliyinin göstəricisi ikən, Avropada insanlıq və həmrəylik əskikliyinin ittihamıdır. Ortadakı bu rəqəmlərlə dünyanın humanitar liderliyini necə iddia edə bilərik?”58

İtaliya Baş Naziri Matteo Renzinin reaksiyası isə buna bənzər idi:

“Əgər 40 min adam mövzusunda razılaşa bilmirsinizsə özünüzü avropalı olaraq xarakterizə etməyə haqqınız yoxdur. Əgər sizin Avropa idealınız budursa özünüzə saxlayın. Ya ortada bir həmrəylik vardır, ya da vaxtımızı boşuna xərcləməyin.”59

Dünyada geniş yayılmış terrorizm və qaçqın qəbulunun terrorçuların gəlişinə səbəb olacağı qorxusu Avropa üçün əlbəttə başa düşüləndir. Lakin bunun həlli mümkündür; mühacirlərin şəxsiyyətlərinin təyin olunması və yerləşdirilmələri əsnasında lazımlı yoxlamalar asanlıqla edilə bilər. Bunun xaricində ölkələrindən qaçmış məzlumların bir insan olduğunu unudub onlara sanki bir yük olaraq baxmaq, “sən məndən çox yük götür” mübahisəsinə girmək, Avropaya hər an öz cəmiyyətini korlayan qorxunc bir faciə olaraq dönə bilər. Avropa mühaciri; ancaq ölümdən qaçan Allahın qonağı olaraq gördüyündə, bu mövzunu bir problem deyil, insanlığa qatqı təmin edəcək bir imkan olaraq gördüyündə həqiqi mədəniyyətə çatacaq. Demokratiyası və mədəniyyəti ilə gözəl Avropa təkcə çiçəklənməyə yönəlmiş elita birlik deyil, eyni zamanda insanlığı ön plana çəkən azadlıq və mədəniyyət birliyi olmalıdır. Bunu etmənin başlıca yolu insanları irqlərinə, dinlərinə və həyat şəkillərinə görə təsnif edən primitiv dünyagörüşündən xilas olmaqdır. Avropa

keçmişdə ən böyük səhvlərini bu zehniyyət səbəbiylə etmişdir, indi artıq bunu düzəltmək vaxtıdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Jakarta Post" və "Malaysian Insider" qəzetlərində dərc olunmuşdur:

http://www.thejakartapost.com/news/2015/08/31/will-europe-pass-refugee-test.html

http://www.themalaysianinsider.com/sideviews/article/will-europe-pass-the-refugee-test-harun-yahya

"Ölüm yolu"ndan gələnlər və Avropanın imtahanı

("Arab News" - 5 sentyabr 2015-ci il)

Bir yük maşınında üst-üstə yığılmış insanların cansız bədəni bəlkə də bəziləri üçün insanlığın necə tükəndiyinin ən böyük göstəricilərindən biridir. Keçən həftə əvvəl 71 mühacirin yük maşınında havasızlıqdan boğulduğu xəbəri və ardından Aralıq dənizinin "ölüm yolu"nda yeni bir faciə ilə oyandıq. Belə qorxunc bir mənzərəyə, o insanları qayıqlara və ya yük maşınlarına dolduranların ürəkləri necə dözdü. Çətin vəziyyətdəki bu insanlar, görəsən tək dərdi pul olan insan qaçaqçıları üçün çox dəyərsiz idi?

Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, bunun bir nümunəsidir. DNT dörd ayrı molekulun fərqli düzülməsindən ibarət olan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Əlbəttə bu cür fövqəladə bir məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız etməkdədir.

Yük maşınının içində 71 nəfərin öldüyü fəlakətlə əlaqədar Budapeşt şəhərində insanlar anım tədbiri təşkil etdi. Bu hadisəni unutmaq və insan tacirlərinə diqqət çəkmək məqsədi deyildi. Eyni zamanda, Liviya sahillərində sahilə çıxan cansız uşaqların cəsədlərinə heç kim bir şey deyə bilmədi. Müharibədən qaçmağı bacaran çarəsiz insanların qatili bu dəfə insan tacirləri idi. Həm də Avropanın gözü qarşısında.

Avropa immiqrant böhranını II Dünya Müharibəsindən bəri ilk dəfə bu qədər güclü şəkildə yaşayır. Lakin verdiyi imtahan olduqca müvəffəqiyyətsizdir. Ötən il dənizdə həyat və ölüm uğurunda mübarizə aparan immiqrantlara kömək etməmə qərarı ilə gündəmə gələn Avropa, artıq bu dərəcə vicdansız qərarlar ala bilməyəcək qədər immiqrant probleminin içindədir. Ötən aylar, xatırlanacağı kimi, AB üzvü 28 ölkənin müharibədən qaçan insanları "qəbul etməmə" mübarizəsi ilə keçdi. Bəzisi dünyanın ən böyük iqtisadiyyatını meydana gətirən AB üzvləri, "nə qədər az immiqrant olsa o qədər inkişaf edər, soyumu o qədər qoruyaram" məntiqi ilə hərəkət edir ki, çox immiqrantı saxlamağı etik bir problem və iqtisadi cəhətdən yük olaraq gördü. İmmiqrantları heç cür bölüşə bilmədilər.

Lamark zürafələrin ceyran bənzəri heyvanlardan törədikləri kimi elmdən kənar bir fikrə inanırdı. Onun yanılmalarına görə otlara uzanmağa çalışan bu canlıların zaman keçdikcə boyunları uzanmış və zürafələrə çevrilmişlərdi. Bu məntiqdən kənar iddiaya görə canlılar həyatları əsnasında qazandıqları xüsusiyyətləri sonrakı nəsilə köçürürlər, beləliklə də təkamülləşirdilər. Təkamülçülər bu əfsanəvi izahatı aşağıdakına bənzər xəyali sxemlərlə dəstəkləyərək dəstək olmağa çalışmışlar. 100 il əvvəlki batil inanclar olaraq xarakterizə edilə biləcək bu iddianın genetika elminin inkişafı ilə birlikdə heç bir dayağı qalmamışdır. Mendelin 1865-ci ildə kəşf etdiyi irsiyyət qanunları, həyat əsnasında qazanılan xüsusiyyətlərin sonrakı nəsillərə çatdırılmasının mümkün olmadığını isbat etmişdir. Beləcə Lamarkın zürafə nağılı da tarixə qarışmışdır.

Bütün bunlar baş verərkən, gedərək artan immiqrant sayı hal-hazırda bəzi Avropa ölkələrini bu addımı atmağa məcbur etmiş kimi görünür. Keçən həftə Makedoniya sərhədində reallaşan şiddət hadisələrinin ardından Makedoniya sərhədində mühacirlər üçün düşərgə qurulması,

Almaniyanın suriyalı mühacirləri tərkibinə alacağını və deportasiya etməyəcəyini bildirməsi əlbəttə sevindirici addımdır. Lakin Merkelin bir xəbərdarlığı var; Əgər mühacirləri ədalətli bir şəkildə bölüşdürməyi bacara bilməsək, bir çoxları üçün Şengen mövzusu gündəm halına gələcəkdir. Bilindiyi kimi Şengen, bütün AB ölkələrində sərbəst səyahət azadlığı təmin edir. İmmiqrantların hədəfinin xüsusilə Almaniya olduğunu düşündükdə bir çoxlarına bu sözlər haqlı gələ bilər. Amma insan bunu soruşmadan keçə bilmir: Türkiyə, İordaniya və ya Livan yalnız bir neçə ay ərzində ölkəsinə 4 milyon mühaciri alarkən, bu insanların Orta Şərqdə ədalətli şəkildə paylanmasını şərt qoymuşdular? Əlbəttə xeyr. Sərhədimizə sığınan insanlar müharibədən canlarını qurtarmağa çalışan məzlumlardır. Bizlər Allah üçün, insanlıq adına onlara baxmaqla, onları qonaq etməklə məsuluq. Bizim üçün bu, bəzi avropalıların düşündüyünün əksinə, daha çox inkişaf etmək və daha dərinləşmək üçün gözəl bir fürsətdir.

Avropa Parlamenti prezidenti Martın Schulz, Avropa mühacir siyasətinə sərt tənqidlər yönəldən insanlardan biridir. Schulz, “Aralıq dənizi toplu məzara dönərkən, bəzi avropalılar böyük səhvlər edirlər” deyərkən, Fransa Xarici İşlər Naziri Laurent Fabius, bəzi Avropa ölkələrinin mühacir qəbul etməməsini bir qalmaqal olaraq xarakterizə etdi. Fabius Macarıstana mühacir axınına maneə törətmək üçün sərhədə tikanlı məftil çəkməsini isə “AB dəyərləri ilə uyğun gəlmir” deyərək tənqid etdi. Görəsən nədir bu AB dəyərləri? Bu dəyərlər inkişafa görədir, yoxsa insanlığa görə təyin olunmuşdur? Əgər insanlıq ön plandadırsa, Avropa, adını ləkələyəcək bu immiqrant müharibəsinə başdan girməməli idi.

Təkamülçülər əsrin əvvəlindən indiyə qədər milçəkləri mutasiyaya məruz qoyaraq, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışdılar. Ancaq on illərlə sürən bu səylərin nəticəsində əldə edilən tək nəticə, şikəst, xəstə və qüsurlu milçəklər oldu. Ən solda normal bir meyvə milçəyinin başı və sağda mutasiyaya məruz qalmış digər bir meyvə milçəyidir.

Burada təbii ki, bəzi Avropa siyasətçiləri və Avropa xalqlarının əksəriyyəti istisna edilməlidir. Bir çox siyasətçinin bu mövzuya sahib çıxdığı və Avropa xalqının immiqrantları qorumaq adına böyük səy göstərdiyi bilinən bir həqiqətdir. Almaniyada immiqrant əleyhinə hərəkatlar olsa da, bunların xalqın əksəriyyəti tərəfindən sərt reaksiya ilə qarşılandığı və "mühacirlərə xoş gəldiniz" fəaliyyətlərinin minlərlə insan tərəfindən reallaşdırıldığı bilinir.

Əlbəttə ki, son zamanlar geniş müzakirə olunan mühacir və immiqrantlar arasındakı fərq əlbəttə nəzərə alınmalıdır. Müharibədən və zülmdən qaçan və öz ölkələrinə dönə bilməyəcək vəziyyətdə olan insanlar mühacir olaraq adlanırlar. 1951-ci il müqaviləsinə əsasən beynəlxalq statusla

qorunur və zorla ölkələrinə qaytarıla bilməzlər. İmmiqrantlar isə öz ölkələrində təzyiq altında olmayıb daha yaxşı bir həyat üçün başqa ölkələrə gedən insanlardan meydana gəlir. Dünyanın çalxalandığı bu dövrdə, əlbəttə ölkələrin, bu təsniflərə görə, immiqrantlardan çox mühacirlərə üstünlük vermələri təbiidir. Əslində bəzi Avropa ölkələri buna uyğun tənzimləmələr edirlər. Lakin mövzu Avropa olduğunda ən çox immiqrant deportasiya edən Balkan ölkələrinin mövqeyinin də üzərindən keçmək olmaz. Bu problemi həll etmək üçün ilk addım bəzi Balkan ölkələrinin AB danışıqlarını sürətləndirmək və bu mövzuda müxtəlif tənzimləmələr etmə tələblərini nəzərə almaqdır. Çünki bu, Avropanın yoxsulluqdan əziyyət çəkən ölkələrə sahib olmaqdansa, birlikdə inkişaf etməsini istədiyimiz bir şeydir. Bunun Avropa Birliyinin əsas məqsədi olduğunu xatırlamaq vacibdir.

“AB-nin bütün bunlara necə gücü çatsın?” deyə düşünənlər ola bilər. AB-nin buna gücü yetər, bundan daha çoxunu da etməyə gücü yetər. İqtisadi mənada Avropadakı bir çox ölkədən daha çətin vəziyyətdə olub, qaçqınları himayə etməyi boynuna götürən Türkiyəyə baxa bilərlər. Bu fədakarlıq eyni zamanda Avropa ölkələrinə mütləq gözəl bir dəyər olaraq da geri dönər. Avropa üçün lazımlı olan tək şey bunu istəmək və mühacirin bir “bəla” ya da “yük” deyil, Allah qonağı olduğunu görə bilməkdir.

Avropalı liderlər bir zamanlar Almaniya, Yunanıstan və ya Polşa kimi ölkələrdən xalqların mühacir olaraq ayrılmaq məcburiyyətində qaldıqlarını, bu mühacirlərin digər ölkələrin qucaq açması ilə həyatda qala bildiklərini və bu minnətdarlığı tarixin silib əsla yox edə bilmədiyini xatırlamalıdırlar. Bunu da əsla unutmamalıdırlar; bir insanı xilas etmək, bütün insanlığı xilas etmək kimidir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Arab News" qəzetində dərc edilmişdir:

http://www.arabnews.com/columns/news/801636

Avropa mühacir böhranına dəqiq çözüm: Sevgi

("Albanian Daily News" - 7 sentyabr 2015-ci il)

Avqustun 28-də dünya vicdanını ləkələyən insanlıq faciəsinə göz açdı. 59 kişi, 8 qadın və 4 gənc uşaq da daxil olmaqla cəmi 71 suriyalı qaçqın Avstriya avtomobil yolunda tərk edilmiş bir yük maşınında ölü tapıldı. Bu görünməmiş hadisə bir müddət Avropanı məşğul edən qaçqın böhranında dönüş nöqtəsi oldu.

Təbaşir dövrünə aid bu timsah fosili 65 milyon illikdir. Dövrümüzdə yaşayan timsahlardan heç bir fərqi yoxdur. İtaliyada tapılmış bu balta balığı fosili 37-54 milyon illikdir. Bu 50 milyon illik çinar yarpağı fosili ABŞ-da tapılmışdır. 50 milyon ildir çinar yarpaqları heç dəyişməmiş, təkamül keçirməmişdir.

Evlərini, işlərini, qohumlarını, xəyallarını və ümidlərini geridə qoyub yola çıxan 71 adam... Bütün əziyyətlərdən sonra, quşçuluq şirkətinin yük maşınında heç gözləmədikləri bir şəkildə can verdilər. Dünyadakı hər hansı bir insan kimi ləyaqətli və təhlükəsiz yaşamağa layiq olan analar, nənələr və babalar haqqında düşünmək insanın ürəyini ağrıdır. Lakin Yaxın Şərq ölkələrini sarsıdan müharibələr bölgə xalqları üçün təhlükəli bir yoldan başqa bir seçim buraxmadı.

Bu dəhşətli hadisədən sonra Avropa liderləri məsələyə böyük maraq göstərdikləri üçün böhran yeni bir mərhələyə qədəm qoydu. Vyana konfransında çıxış edən Almaniya kansleri Angela Merkel, bu acı xəbərdən dərin sarsıldığını söylədi. “Bu hadisə Avropadakı qaçqın

problemini tez bir zamanda həll etməli və həmrəylik ruhunda çözüm tapmağımızı xatırladır.”

Təkamülçülər fosillər üzərində etdikləri açıqlamaları ümumiyyətlə ideologiya istiqamətində edərlər. Bu səbəblə gəldikləri nəticələr əksəriyyətlə etibarlı deyil.

Bəzi Avropa dövlətləri bu günə qədər qaçqın məsələsini ciddiyə almayaraq çox da yaxşı olmayan portret nümayiş etdirdilər. Bəziləri ölkələrindəki qaçqınları qəbul etməkdən imtina etdi, bəziləri isə Avropa Birliyindəki böhranın həlli ilə bağlı təkliflərini rədd etdi.

Digər tərəfdən bəzi dövlətlərin icraatları sözün tam mənası ilə “insanlıqdan kənar” idi: Macar polisi, çətinlikləri aşaraq Avropa Birliyi ölkələrinə girməyə çalışan mühacirləri göz yaşardan bombalarla maneə almağa çalışdı. Yunanıstanın Kos adasında polis mühacirlərə yanğınsöndürən maşınlarla hücum edərək onlara şiddət tətbiq etdi. Təxminən 2.500 mühacir 24 saat stadionda heç bir qida və su olmadan və ya çox az qida ilə stadion içərisində bağlı saxlanıldı. Çevik polis qüvvətləri isə sənədlərini almaq üçün gözləyən uşaqlı analara və yaşlı insanlara qarşı səs bombası istifadə etdi. BMT Mühacir Agentliyi Yunan hökumətinin immiqrantlara qarşı davranışlarını “tamamilə utanc verici” olaraq qiymətləndirdi. Həmçinin Sərhədsiz Həkimlər Beynəlxalq Humanitar Yardım Təşkilatı [Médecins Sans Frontières] immiqrantların

böyük əksəriyyətinin təməl gigiyena ehtiyaclarının qarşılanmadığını və polis tərəfindən istismara məruz qaldıqlarını təsdiqlədi.

Təkamül tərəfdarı olan qəzet və jurnallarda yayımlanan xəbərlərdə yuxarıdakılara bənzər xəyali "ibtidai" insan təsvirləri tez-tez istifadə olunur. Bu xəyali şəkillərə əsaslanan xəbərdəki yeganə mənbə yazıçının təxəyyülüdür. Ancaq təkamül elm qarşısında o qədər çox məğlubiyyət aldı ki, elmi jurnallarda təkamül haqqında daha az məlumatlar var.

Dövlətlərin icraatlarını tənqid edənlər yalnız humanitar yardım təşkilatları olmadı. Fransa Xarici İşlər naziri Laurent Fabius, Şərqi Avropa dövlətlərinin siyasətinə qarşı səsini yüksəltdi və xüsusilə Macarıstanı "qalmaqal" sayıla biləcək immiqrant siyasətinə görə ağır şəkildə tənqid etdi. Laurent ayrıca Macarıstanın mühacirlərin pasportsuz Şengen bölgəsinə keçmələrinə maneə törətmək üçün Serbiya sərhədinə tikanlı məftil çəkməsinin, Avropa Birliyi dəyərlərinə zidd davranış olduğunu söylədi.

Müharibənin ağır zərbə vurduğu ölkələrindən qaçmaq məcburiyyətində qalan çarəsiz insanların gözlədiyi tək şey getdikləri ölkələr tərəfindən yaxşı qarşılanmaq idi. Lakin həmin ölkələrin polis məmurları və sərhəd gözətçiləri tərəfindən istismara və pis rəftara məruz qaldılar.

Avropa ölkələri mühacir böhranı mövzusunda əhəmiyyətli bir həqiqəti unutmamalıdırlar:

Bu dünya heç kim üçün etibarlı liman deyil; kim olursa olsun, ya da dünyanın harasında yaşayırsa-yaşasın hər kəs bir anda çətin şərtlərlə qarşı-qarşıya qala bilər. Təbii formada, ya da insani səbəblərlə meydana gələn fəlakət və ya gözlənilməz qəza insan həyatını bir anda alt-üst edə bilər. Daha əvvəl kömək əli uzadılmış bir adam da hər an belə bir vəziyyətlə qarşı-qarşıya qala bilər və şəxsən özü köməyə möhtac olan birinin vəziyyətinə düşə bilər. Bu səbəblə Avropanın mühacir problemini həll etmək üçün sahib çıxması lazım olan kilid dəyərlərdən biri, kansler Merkelin bəhs etdiyi "həmrəylik ruhu"dur.

İnsanları və xalqları ehtiyac içində olana köməyə sövq edəcək olan maddi gücdən çox sevgi, şəfqət, empatiya və həmrəylik ruhudur. Şübhəsiz, sevgi bütün maneələri aşar. Mövzu köməyə möhtac insanlar olduğunda empatiya üçün heç bir bəhanə yoxdur. Bu da bilinməlidir ki, başqalarına qarşı sevgi bəsləməmiz bütün böhranları həll etməyə bəs edəcəkdir.

Hörmətli. Adnan Oktarın bu məqaləsi "Albanian Daily News"də dərc olunmuşdur:

http://albaniannews.com/index.php?idm=2701&mod=2

Liviyada əvvəlcə bloklar arasında sevgi və şəfqət təmin edilməli, daha sonra özləri kompromisə gələcəkdir

(“Diplomacy Pakistan” - 18 sentyabr 2015-ci il)

Liviya Afrika qitəsinin ən kritik ölkələrindən biridir. Ölkə çox əhəmiyyətli təbii qaz və neft yataqları ilə nəhəng yeraltı su qaynaqlarına sahibdir. Ayrıca qitənin ticarət yollarının tam mərkəzindədir. 2011-ci ildə hadisələr başladığında xarici borcu olmayan ölkənin maliyyə vəziyyəti də çox yaxşı idi.

Liviya üçün dövrümüzdə ən böyük problemlərdən biri yenə aşirətlərdir. Aşirətlər Cənubi Afrika sərhədlərinə qədər çox geniş bir bölgəyə uzanır. Buna görə aşirət müharibələrinin və xaosun Seneqaldan, Çaddan, Sudana qədər uzanan bir çox ölkəyə təsiri var. Qəddafinin devrilməsi ölkədəki aşirətçiliyi və bölgə milliyyətçiliyini çox ciddi olaraq təhrik etdi. Bu gün Liviya ilə sərhədi olan və aşirətlərə görə qarşılıqlı təsiri olan bir çox ölkə narahat bir şəkildə Liviyanı izləyir.

2011-ci ildən bəri davam edən Liviya probleminin yaranmasında BMT əhəmiyyətli rol oynamışdır. Hər nə qədər bugünkü baş verənlərin səbəbi “Ərəb baharı” olaraq görülsə də, Liviya üçün əsas əhəmiyyətli tarix 18 mart 2011-ci ildir. Bu tarixdə BMT Təhlükəsizlik Şurası uçuşa qadağan bölgə tətbiq etmiş və Liviyaya hərbi əməliyyata icazə verən qərarı qəbul etmişdir. Ölkəyə BMT-nin müdaxiləsi Qəddafi rejiminin sonunu gətirmiş və aşirətlər arasında qanlı vətəndaş müharibəsinin başlamasına səbəb olmuşdur.

Bu gün Liviya vətəndaş müharibəsi, qarşıdurma, radikalizm, siyasi qeyri-sabitlik, aşirətlər arası mübarizə və iqtisadi problemlərlə boğuşmaqdadır. Qəddafidən sonra ölkədə heç bir şəkildə sabit hökumət qurulamamış, qurulan hökumətlər də yalnız masa hökumətləri olub ölkəyə heç bir qatqı təmin edə bilməmişdir.

Hal-hazırda ölkədə şiddətli vətəndaş müharibəsi yaşanmaqdadır. Tobrukda ayrı bir rəhbərlik, Trablusda ayrı bir rəhbərlik, Binqazi və ətrafında İŞİD, Fecri Liviya, Misrata Hərbi Şurası kimi bir çox özünə xas idarə etmə, ayrı yerli güc mərkəzi olaraq hərəkət etməkdədir.

Bilindiyi kimi gündəlik həyatın siyasi və hərbi iğtişaşlarla keçdiyi Liviyada 2014-cü ilin iyun ayı seçkilərinin ardından iki əsas blok meydana gəlmişdir. Hərəsinin özünə aid məclisi, hökuməti, ordusu və iqtisadi gücləri vardır. Tərəflərin güc tarazlığına və ölkədəki mövqelərinə baxılanda bunların bir-birinə bərabər olduğu görülməkdədir. Bir az geniş araşdıranda isə bu mübarizənin qalibi ola bilməyəcəyi və mübarizəni itirən tərəfin Liviya cəmiyyəti olduğu aydın olmaqdadır.

Liviyada mübarizə edən iki gücə bir də İŞİD faktorunu əlavə etmək lazımdır.

Liviyada davam edən qeyri-sabitlik, toqquşmalar və siyasi müharibələr güc qazanan insanlarla birlikdə radikalizmi gücləndirdi. Bu müharibələr, savaş ağaları və radikal qrupların da hadisəyə daxil olması ilə onsuz da çətin vəziyyətdə olan Liviya problemini daha da kompleks bir hala gətirmişdir.

Guya ölkələri adına müharibə edən qruplar, ölkə üçün strateji əhəmiyyətə sahib neft boru xətlərini, hava limanlarını, avtomobil yollarını, limanlarını hədəf almaqdadırlar. Ayrıca şəhər mərkəzlərinə edilən hücumlarla xalq üçün vacib olan su və kanalizasiya kimi şəhər infrastrukturlarını yox etməkdədirlər. Şəhər mərkəzlərindəki silahlı mübarizələr nəticəsində mülkü vətəndaşların ölümləri artmağa başlamışdır.

Təəssüf ki, neft-qaz yatağı ilə zəngin olan ölkədə neft və təbii qaz istehsalı dayanma nöqtəsinə gəlmişdir. Bu qədər qaynaq və zənginliyə baxmayaraq

müəyyən bölgələr üçün idxalat edilmə zəruriliyi belə yaranmışdır.

2011-ci ildə alınan müdaxilə qərarı, Liviyanı bugünkü vəziyyətə salmışdır. BMT ölkədə baş verənlər və qonşu ölkələrə miqrasiyaya görə, Avropa tərəfləri birləşdirməyə çalışmaq üçün artıq hərəkətə keçdi. Görəsən nə qədər müvəffəqiyyətli ola bilər?

BMT ölkədə güclü görünən iki əsas elementi – Tobrukda yerləşən Tobruk Nümayəndələr Palatası və Tripolidə olan Milli Məclisi birləşdirməyə çalışır. Bu iki ünsür ölkədəki çox başlı rəhbərliklər arasında ən oturmuş quruluşa sahib olanlardır. Ancaq bu iki idarəetmə, nəzarət etdikləri ərazilərdə tam suverenliyə sahib olmadıqları üçün orada yaşayan qəbilələrə və milislərə çox təsirli deyil. Bu vəziyyətdə, "iki tərəf anlaşsa belə qalanları nə edəcək?" sualı yaranır.

BMT-nin Liviyadakı Xüsusi Nümayəndəsi, Mərakeşin Suheyrat şəhərində tərəflər arasında bir sıra danışıqlar apardı və bu danışıqlar nəticəsində Liviyadakı 22 partiyadan 18-nin imzaladığı siyasi müqavilə 11 iyul 2015-ci ildə imzalanmışdır. Bu müqaviləni Tobruk Nümayəndələr Məclisi imzalayarkən, Trablus Milli Məclisi imzalamamıştır. Amma səslərin 18-ə qədər qalxması BMT üçün ümid oldu.

Liviyada xalq həqiqətləri görə bilmir. Dünyanın ən zəngin qaynaqlarına sahib olmalarına baxmayaraq, kasıblıq və aclıqla qarşı-qarşıyadırlar. 22 təsirli qrupun bir-biri ilə qarşıdurmasının ortasında qalan xalq, ölümü gözə alaraq qonşu ölkələrə və xüsusilə Avropaya köç edir.

Liviyada diqqət çəkən bir başqa mövzu isə radikal islamçıların ölkədə gün keçdikcə güclənmələridir; xüsusilə də Benqazidə.

BMT Mərakeşdə başlatdığı görüşlərdə oktyabra qədər bir nəticə əldə edəcəyini ümid edir. BMT-nin alacağı nəticə isə, nə qədər uzun sürməsi mübahisəlidir.

BMT-nin bu günə qədər guya sülh təmin etdiyi heç bir cəmiyyətə tam mənası ilə hüzur gəlmədi. Kağız üzərində təmin edilən sülh, real təmin edilmədiyi müddətcə bir ölkənin bərpası, inkişafı mümkün deyil. Buna ən dəqiq nümunə isə Bosniyadır. Bosniyanın keçmişdə yaşadığı və bu gün çəkdiyi çətinliklərdə BMT-nin rolunu unuda bilmərik.

BMT-nin ölkəyə sülh gətirmə səyi çox gözəldir, ancaq bunu uzun müddətli təsis etmək üçün fikir və layihə yarada bilməməsi böyük bir qüsurdur. Ölkədəki fərqli aşirət və idarəetmə nümayəndələrinə vəzifə, rütbə və səlahiyyət verərək onları birlikdə yaşamağa istiqamətləndirmək Bosniyada olduğu kimi ölkəyə heç bir fayda verməz və ölkə rəhbərliyini çətin hala gətirər.

Liviyada sülh və əmin-amanlıq üçün tərəflər əvvəlcə güc və hegemonluq istəklərindən imtina etməli və ölkəni və xalqını düşünməlidirlər. “Mən bu fürsəti itirməməliyəm” əvəzinə, “Bunu birlikdə etsək, birlikdə daha yaxşı yaşaya bilərik” deyə düşünməyə başlamalıdırlar.

İllərcə Qəddafi rəhbərliyində sevgidən uzaq yaşayan aşirətlərin qaynaşmaları üçün ölkədə əvvəl qarşılıqlı sevgi və şəfqət anlayışının təmin edilməsi lazımdır. Yazılı müqavilələr, ancaq aşirətlər arasında bu qarşılıqlı anlayış və dostluğun qurulması ilə faydalı olar.

Liviyada əvvəlcə bloklar arasında sevgi və şəfqət təmin edilməli, daha sonra özləri kompromisə gələcəkdir

Buna görə BMT-nin Liviyada əvvəlcə bloklar arasında sevgi və şəfqət təmin etməlidir. Daha sonra öz-özünə düzələcəkdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Diplomacy Pakistan”da dərc olunmuşdur:

http://www.diplomacypakistan.com/articles/the-priority-in-Liviya/

FƏSİL 2

Sevgi ilə həll

("İlmi Mercek", sayı 131 - may 2015-ci il)

✓ Açıq dənizlərə kiçik bir gəmi ilə açılan yüzlərlə aç, susuz insan...

√ Bir çay, ya da tikanlı məftilləri keçmək bahasına verilən canlar...

√ Bir ölkəyə çatıb tam xilas olduq dedikləri anda qarşılaşdıqları alçaldıcı rəftarlar...

√ Çətin həyat şərtlərindən xilas olub insan kimi həyat yaşamaq üçün ölümü gözə alan mühacirlər dünyadakı ən əhəmiyyətli problemlər arasında yer alır...

Görəsən bu problemi necə həll etmək olar?

Mühacirlər dili, dini, siyasi düşüncələri fərqli olduğu üçün və ya müəyyən bir sosial qrupa üzv olduqlarına görə zülm görən və ölkələrindən ayrılmaq məcburiyyətində qalan insanlar olaraq təyin olunar. Yaşadıqları yerlərdəki dolanışıq çətinliyi təhlükəsizlik ilə birləşincə, insanlar daha firavan, daha etibarlı gördükləri yerlərə köçüb burada yaşamaq istəyirlər. Çox vaxt bu köç ölkə daxilində baş verər, ancaq Ərəb baharı və qlobal böhran kimi faktorlar bu köçlərin gedərək daha çox artmasına gətirib çıxarır. Bu insanlar qorxularına görə ölkələrinə geri dönmək istəmirlər.

Qarşıdurma bölgələrindən qaçan insanların sayı hər keçən gün daha da artmaqdadır. Suriya, Əfqanıstan, Pakistan, Somali, Sudan, Keniya, Afrika və Birma mühacir probleminin ən sıx yaşandığı ölkələrdir.

İspaniya, Malta və İtaliya Şimali Afrikadan, Yunanıstan Egey Dənizi və Trakyadan, Almaniya isə Balkanlardan çox sayda köçə məruz qalır. Türkiyə isə Suriya və İraqdan rekord səviyyədə köç qəbul etmişdir. Türkiyə; İspaniya, İtaliya, Yunanıstan və Almaniyadan daha az inkişaf etmiş olmasına baxmayaraq mühacirləri rədd etmir və onlara daha yaxşı imkanlar təqdim edir. Ancaq xüsusilə Avropa ölkələrinin son zamanlarda mühacirlərə qarşı rəftarı dəyişməyə başladı. Avropa ölkələri mühacirlərə insan haqlarını pozan rəftar sərgiləməkdədir.

Dünyanın həqiqi xəstəliyi sevgisizlikdir

Eqoizmin, nifrətin və qarşıdurmaların ardında qatı bir sevgisizlik vardır. Fərqli irq, məzhəb və inancdan olduğu üçün başqa cəmiyyətlərlə uyğunlaşa bilməməyin, müharibələrin arxasında da yenə sevgisizlik vardır. Yer üzü artıq sevgi və ədalətlə hökm edib qan axıtmayacaq, axan qanı dayandıracaq sevgi sahiblərini gözləyir. Allah ən qısa zamanda insanlığı sevginin hakim olduğu gözəl günlərə çatdırsın inşaAllah.

AB niyə mühacirləri istəmir?

Avropaya çatmaq üçün on minlərlə adam gəmi, ya da quru yolu ilə çətin səfərə çıxaraq həyatlarını riskə atırlar. Beynəlxalq Əfv Təşkilatının araşdırması, onların əvvəl Böyük Qala Avropanın barrikadalarını aşması lazım olduğunu ortaya qoyur. Bir çoxu polis və sahil təhlükəsizliyi tərəfindən şiddət tətbiq edərək geri göndərilir və ya ağır şərtlərdə həftələrlə saxlanılırdı. Gəmi yolu ilə Avropaya çatmağa çalışan mühacirlərə istiqamətli "geri-qaytarma" əməliyyatı tətbiq olunur. Bu əməliyyatlar son dərəcə insanlıqdan kənar olurdu. Məsələn hesabatda, bir mühacirin Yunanıstan dövləti haqqında: "Gəmidə bütün kişiləri yerə uzatdılar; üzərimizə ayaqları ilə basdılar və üç saat boyunca silahları ilə bizə vurdular. Sonra səhər 10:00 radələrində mühərriki sökdükdən sonra bizi plastik qayığımıza geri qoydular və Türkiyə tərəfə bizi geri aparıb dənizin ortasında buraxdılar" sözlərinə yer verildi.

Hesabata görə, Suriyadakı vətəndaş müharibəsindən qaçan 2.3 milyon müdafiəsiz mühacirin 12.000-ni qəbul edən Avropa bütün mühacirlərin yalnız 0.5%-nə qapılarını açmışdır. Əsl əhəmiyyətli nöqtə isə 10.000 mühacirə sığınma haqqı verən Almaniya bu siyahıdan çıxarıldığında geri qalan 27 AB ölkəsi cəmi 2.340 mühaciri qəbul etmişdir. Beynəlxalq Əfv Təşkilatının hazırladığı "Böyük Qala Avropa: Suriyalı mühacir ayıbı ortaya çıxdı" hesabatının təəccüb yaradan hissəsi belədir:

Suriyalı mühacirlərə, Fransa 500, İspaniya isə yalnız 30 yer ayırarkən, 18 AB üzvü olan dövlət (Birləşmiş Krallıq və İtaliya da daxil) heç yer təklif etmədi. Bu günə qədər 55.000 mühacir Avropaya çatmağı bacarıb sığınma tələb edərkən bu rəqəm yalnız bütün mühacir sayının 2.4%-ni meydana gətirir. Beynəlxalq Əfv Təşkilatının hesabatında yer alan bir başqa tənqid nöqtəsi də 2012-ci ildə Avropada mühacirlərə istiqamətli insan haqları

pozuntularının yaşanmasına və tətbiq olunan sərhəd siyasətlərinə baxmayaraq Avropa Birliyinin Nobel Sülh mükafatını almasıdır. Nobel Komitə sədri Thorbjoern Jagland, Avropa Birliyinin 60 ildən çox müddətdir insan haqlarına, demokratiyaya və sülhə olan qatqılarından ötrü Nobel Sülh Mükafatına layiq görüldüyünü ifadə etmişdi.

Göründüyü kimi, insan haqlarını, azadlığı, sülhü və demokratiyanı müdafiə edən Avropa, öz ölkələrində yaşama haqqı tapa bilməyən bu insanlara azad və etibarlı bir həyat imkanı təmin etməkdən çəkinir. Yaxşı bəs, Avropa Birliyi baş verən bu insanlıq faciəsinə qarşı niyə bu qədər laqeyddir? Həyat mübarizəsi verərək sığınma tələbi ilə gələn insanlara qarşı niyə arxa çevirir, niyə qorxur?

Bu qorxunu yaradan ən əhəmiyyətli səbəb, müsəlmanlığın Orta Şərqdə və bir çox ölkədə əsli yaşanmamasıdır. İslam dini həqiqətdə avropalı cəmiyyətlərin çox rahat yaşayacağı, demokratiyanın, azadlığın ən yüksək anlayışına malikdir. Ancaq İslamın əslindən uzaqlaşıb, dini mövhumatçı anlayışla yaşayan kütlələr tərəfindən İslam insanlara mühafizəkar, mövhumatçı, həyatı məhdudlaşdırıcı, estetikaya, sənətə, bütün gözəlliklərə, demək olar həyatın özünə qarşı olan bir inanc kimi təlqin edilir. Bu səbəblə İslamiyyətin, azadlığı, müasirliyi, musiqi, heykəl, şəkil, teatr kimi incəsənət sahələrini və demokratik bir həyat tərzini məhdudlaşdırdığı sanılır. Buna görə, özlərini incəsənətin və demokratiyanın lideri mövqeyində görən Avropa ilə, İslamı onlara səhv tanıdan bu anlayışın tamamilə zidd olması, baş verən bu qorxunu gücləndirir.

Bu qorxunu dəf etmək də müsəlmanların əlindədir. İslamda əsla yeri olmayan mövhumatçılığı bir an əvvəl son vermələri və İslamın əslini yaşamaları lazımdır. Avropadakı bu səhv imici ancaq bu şəkildə qıra bilərik. Müsəlmanlar son dərəcə müasir, mədəni, keyfiyyətli və təhsilli

olduqlarında, estetikaya və incəsənətə əhəmiyyət verdiklərində, Avropanın qorxusu da yox olar.

Ancaq hər nə səbəblə olursa olsun, AB-nin bu qədər rifah içində yaşayarkən, bütün baş verənlərə gözünü yumması qəbul edilməzdi. Bu etdikləri tamamilə insan haqları pozuntusudur. Əgər bu haqların müdafiəçisi olduqlarını iddia edirlərsə, buna uyğun davranmalılar.

Mühacirlərin yaşadıqları ölkələrdə qarşılaşdıqları problemlər

Suriyadakı vətəndaş müharibəsində baş verən məcburi köç, Birləşmiş Millətlər Mühacir Təşkilatının (UNHCR) tarixində gördüyü ən böyük köç hərəkatı olaraq qiymətləndirilir. Müharibədən əvvəl 22 milyon əhalisi olan Suriyada demək olar əhalinin yarısı məcburi köçə məruz qaldı. Qaçqın düşən suriyalıların 75%-i qadın və uşaqlardan meydana gəlir. Suriyalıların böyük əksəriyyəti ölkə daxilində yer dəyişdirərkən 2.5 milyon suriyalının 97%-i qonşu ölkələrə sığındı.

Əfqanlar da dünyadakı ən böyük mühacir qrupunu meydana gətirməkdədir. Əfqan mühacirlərin 95%-i Pakistan və İran kimi qonşu ölkələrə sığınmışdır. Dünyadakı hər dörd mühacirdən biri Əfqandır. Əfqanıstanı Suriya, Somali və İraq izləyir. Livanda isə BMT-yə qeydiyyatlı 450 min mühacir yaşayır. Toplama düşərgəsinə bənzər 12 məskəndə yaşayan Livandakı mühacirlər yoxsulluq içində varlıqlarını davam etdirməyə çalışırlar. Konstitusiya haqları rədd edilmişdir və simvolik mənada belə siyasi haqlardan məhrumdurlar.

Livandakı mühacirlərin çoxu, 1947-48-ci illər arasında Fələstindən sürgün edilmişdi. 66 ildən bəri bu insanlar, hələ vətəndaşlıq haqqına sahib deyildirlər və mühacir olaraq yaşayırlar. Şərqi Türküstandakı Qırmızı Çin zülmündən qaçan müsəlman Uyğur türkləri, Myanma rəhbərliyinin təzyiqi altında vətəndaşlıq haqları əllərindən alınan arakanlılar və sayları yüz minlərə çatan mühacirlər həyatda qalma mübarizəsi verməkdədir. Bu mənzərə dünyada köməyə möhtac insanların necə çətin şərtlər içərisində yaşadıqlarının qısa xülasəsidir. Heç düşündünüzmü bu insanlar canları bahasına əllərindəki bütün pulu insan tacirlərinə verərək niyə belə təhlükəli bir səfərə çıxmağa qərar verirlər?

Kömək etmənin, sahiblənmə ruhunun kamil iman üzərindəki təsiri

Mühacirlərə kömək etmək insanın nəfsindəki xəsis və eqoist ehtiraslardan təmizlənməsinə vəsilə olar. Bu səbəbdən Peyğəmbərimiz (s.ə.v) zamanında olduğu kimi mühacirlərə kömək edənlər və onlara maddi-mənəvi müxtəlif imkanlar təqdim edənlərin Allahın icazəsi ilə imanı dərinləşər və əxlaqı yetkinləşər.

Buna görə mühacirlərə kömək hər şeydən əvvəl imanda dərinləşmək və kamil imana qovuşmaq üçün əhəmiyyətli bir vəsilədir. Allah Quranda bu üstün əxlaqı belə xəbər verməkdədir:

> *Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.*
>
> **(Ənfal surəsi, 72)**

Mühacirlərin həyatından hər kəs məsuldur

Dünyanın müxtəlif yerlərindəki insanların başqa ölkələrə köç etməsinin və mühacir vəziyyətinə düşməsinin tək səbəbi var; ölüm qorxusu. Əfqanıstanda, Yəməndə, Suriyada, Arakanda yaşayan bu insanlar hər an öldürülmə təhlükəsi ilə qarşı-qarşıyadırlar. Bu səbəblə çox vaxt sonu ölümlə bitən bu təhlükəli yola xilas olma ümidi ilə çıxırlar. Bu insanların başqa çarələri olmadığı üçün, dövlətlərin mühacir siyasətlərini ciddi mənada nəzərdən keçirmələri lazımdır. Xüsusilə Avropa ölkələri, mühacir probleminə qarşı laqeyd hərəkətdən əl çəkib, əfqan, afrikalı, suriyalı, "hansı ölkə vətəndaşı olursa olsun hər insanın həyatı qiymətlidir" fikri ilə hərəkət etməlidir.

Hal-hazırda olduğu kimi çözüm axtarışında əsas hədəf mühacirlərin yollarını bağlamaq deyil, əksinə gəlişləri əsnasında canlarının təhlükədə olmaması üçün tədbirlər görmək olmalıdır. Çünki sadəcə keçən il 3.500-dən çox insan Şimali Afrikadan Avropaya dəniz yolu ilə keçməyə çalışarkən həyatını itirdi. Xəbərlərdə yer alan məlumatlar isə qan dondurucudur.

Kiçik gəmilərlə batma təhlükəsi olduğu halda dənizə açılan yüzlərlə adam... İnsan qaçaqçılarının, mühacirlərin pulunu aldıqdan sonra bilərəkdən batırdıqları gəmilər...

Mühacirlərin qurtarılma ehtimalına maneə törətmək üçün bilərəkdən radio stansiyası və radarları sökülən gəmilər...

Hər il Aralıq dənizini keçməyə çalışarkən yüzlərlə adam ölür. 2014-cü ilin oktyabr ayında üç gəmi Şimali Afrikadan Avropaya keçməyə çalışarkən batdığında 650-yə yaxın mühacir və immiqrantın öldüyü təxmin edilir, bu qaçış və can itkiləri hələ də davam edir.

2015-ci il fevralın 16-sı günü İtalyanın Lampedusa adasının 120 mil cənubunda, Liviyanın paytaxtı Trablusun 30-50 mil uzaqlığında 12 qaçaq immiqrant gəmisindən gələn kömək siqnalları gözləri yenidən mühacir probleminə çevirdi. Sahil təhlükəsizlik qruplarının köməyi ilə içlərində çox sayda qadın və uşağın da olduğu tam 2.100 immiqrant ölümdən son anda qurtarıldı.

Xatırlanacağı kimi 2013-cü il oktyabr ayında yenə eyni bölgədə İtalyanın Lampedusa adası sahillərində əldəqayırma bir mühacir gəmisinin batması ilə 363 mühacir həyatını itirmişdi. Bu fəlakət qarşısında beynəlxalq ictimaiyyətin də təzyiqi ilə Mare Nostrum adlı xilasetmə missiyası quruldu. Ancaq İtaliya, bu xilasetmə əməliyyatları əsnasında hər ay 10 milyon avro sərf etmək məcburiyyətində qaldığı və AB ölkələrindən də bu mövzuda dəstək ala bilmədiyinə görə bu missiyanı sonlandırmışdı. Halbuki, o dövrdə bu missiya sayəsində 100 minin üzərində mühacirin həyatının qurtarıldığı açıqlanmışdı.

Bunun yerinə qurulan daha aşağı büdcəli Triton missiyası isə mühacirləri qurtarmaqdan çox mühacirlərin Avropa Birliyi ölkələrinə girişinə maneə olub, onların gəldikləri ölkəyə geri göndərilmələrini təmin etdi. Bu nöqtədə vicdanı bir məsuliyyət daşıyan İtaliyada, başda baş nazir Renzi olmaq üzrə bir çox siyasətçi, mühacirlərə kömək mövzusunda tək qaldıqları üçün AB ölkələrini məsuliyyəti birlikdə boynuna götürməyə dəvət etdi. Lampedusa şəhərinin bələdiyyə başçısı Giusa Nicolini isə bunları söylədi:

“Avropanın bizi tək buraxdığı hissinə qapılırıq. Hökumətin yeni bir humanitar missiyası ilə Aralıq dənizində özünü göstərməsi lazımdır. Məsələn son hadisədə mühacirlər dənizdən qurtarıldıqdan sonra, Lampedusanın olduqca Cənub bölgələrində patrul keşiyi çəkən Mare Nostrum missiyasına bağlı gəmilərə gətirilə bilsəydilər, donaraq

ölməmiş olacaqdılar. Əgər burada hədəf, sağ mühacirdən çox ölü mühacir qurtarmaqdırsa o zaman məqsədlərinə çatdılar deməkdir."

Pro Asyl adlı mühacir təşkilatından Karl Kopp isə bu vəziyyəti belə izah edir:

"Mare Nostrum, Avropa dəniz xilasetmə missiyasının tamamilə təcili xilasetmə tədbiri idi. Ancaq Avropa şüurlu bir şəkildə dəniz xilasetmə fəaliyyətlərindən çəkildi. Triton missiyası isə yalnız kiçik bir sahədə ağır irəliləyən gəmilərlə işləyə bilir. Bu vəziyyətdə Aralıq dənizində kütləvi ölümlərə bilərək imkan verilmiş olur. AB şüurlu bir şəkildə bu ölümlərə göz yumaraq mühacirlərə bir mənada göz dağı verir və beləcə daha çox sayda mühacirin Avropaya gəlməsinin qabağını almış olur. Əgər xilasetmə missiyaları AB-nin maliyyə problemlərinə maneə olursa, o zaman Brüsseldəki məsul adamların bir insanın nə qədər dəyəri olduğu sualını cavablandırmaları lazımdır."

Mühacir probleminin həll edilməsi üçün alınacaq tədbirlər

Bir insanın həyatı qiymətsizdir. Bu səbəblə AB ölkələri Triton missiyasından bir an əvvəl dönüb mühacirləri ölümdən qurtarmaq üçün Mare Nostrum missiyasını daha da genişlədəcək əməliyyatları dövrəyə salmalıdır. Avropanın mərkəzində hər ay göz görə-görə yüzlərlə adamın ölümünə göz yumulması insan hüquqları lideri qəbul edilən AB ölkələrinin missiyasına tamamilə tərs düşməkdədir.

Dünya ictimaiyyəti də mühacirlərin bu qədər əziyyətinə şahid olarkən, çətinlikdə və darda olan bu insanların köməyinə çata bilməyəcək qədər yetərsiz görüntü sərgiləməməlidir. Necə ki, ötən günlərdə bir hesabat daha açıqlandı. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)-nun qida israfı ilə mübarizədəki əhəmiyyətli adamlardan biri prof. Per Pinstrup-Andersen, Avropada hər il 100 milyon ton qidanın zibilə atıldığını ifadə etdi. FAO-nun ən optimist təxminlərinə görə dünya səviyyəsində istehsal olan qidanın üçdə biri yeyilmədən əvvəl ya itirilir, ya da israf edilir.

Nəticədə bu məlumatlar, dünyada 7 milyard insanı doyduracaq yemək qaynaqlarının olduğunu bizə göstərməkdədir. O halda, ilk etapda bu qaynaqların ehtiyacı olan coğrafiyalarla əl birliyi ilə çatdırılması, ardından da yer üzündə heç bir insanın aç və ortada qalmaması üçün çalışacaq sistemlərin qurulması ən vacib mövzudur.

Yemək israfı mövzunun yalnız bir istiqamətidir. Əsas ən böyük israf, müharibə üçün düzəldilən silahlar, şəhərləri dağıtmaq üçün istehsal edilən bombalardır. Yer üzündə sevgi hal-hazırda sanki yox edildiyi üçün ölkələr dəlicəsinə silahlanmağa çalışır. Nifrət isə yalnız dağıntı və yeni

əzablar gətirir. Hər cür israfın qarşısı alındığında, malı Allah rizası üçün, bir ibadət olaraq insanlara paylayan mexanizmlər qurulduğunda bu problemlər ortadan qalxacaqdır.

Mühacir probleminin həllində qurulacaq İslam Birliyinin əhəmiyyəti

Olduqları yerlərdəki çətinliklərə görə yer dəyişdirmək məcburiyyətində qalan insanların ilk ehtiyacı, rahat yaşaya biləcəkləri ölkələrə sərbəst giriş və sərbəst yaşama haqqıdır. Bu şəkildə uzun səfərlərdən sonra bir də sərhəd qapılarında gözləmək məcburiyyətində qalmayacaqlar və heç olmasa səfərlərinin ilk addımı asanlaşacaqdır.

Bu problemi həll etmək və Orta Şərqdə gedərək böyüyən mühacir probleminə bir çözüm olması məqsədi ilə əvvəlcə müsəlman dövlətlərin Avropa Birliyini xatırladan bir birlik qurması vacibdir. Bir-birlərinə Avropa Birliyindəki kimi sərbəst yaşama haqqı tanıyacaq olan ölkələrin vətəndaşları bu şəkildə çətin vəziyyət meydana gəldiyi zaman asanlıqla çıxış yolu və bir insani koridor tapa biləcəklər. Bu vəziyyətlə birlikdə vətəndaşlıq haqqı, vizasız iş haqqı kimi mühacirləri məhdudlaşdıran və həyatlarına insani şərtlərdə davam etmələrinə maneə olan mənfi hallar da ortadan qalxacaq və vicdan sahibi hər kəsin narahatlıqla seyr etdiyi bu vəziyyətə bir yöndən çözüm təqdim edilə biləcək.

Yalnız mühacirlərin həyat şəkillərinin yaxşılaşdırılaraq daha insani bir mərhələyə gətirilməsi üçün belə baxdığımızda, Orta Şərqin öz birliyinə möhtac olduğunu görürük. Uzun siyasi və bürokratik yolların xaricinə çıxılıb bu təcili vəziyyətin sürətli həlli üçün, inanclı və ya inancsız hər insanın; azadlıq və bərabərlik qanunlarını müdafiə edən hər fərdin birlik çağırışı etməsi lazımlıdır.

FƏSİL 5

Mühacirlər dəyərdir, divarlar deyil

("Tehran Times" - 21 sentyabr 2015-ci il)

Ötən həftələrdə, sosial mediada tez-tez paylaşılan bir fotoşəkil bütün dünyanı şok etdi. Türk əsgərin, suriyalı mühacir olan kiçik Aylanın Bodrum sahilinə vurmuş cansız bədənini tapdığında bütün dünya dərindən sarsıldı. Suriyadakı müharibəyə laqeyd qalan və bu dəhşətli mühitdən qaçan suriyalıların yaşadığı çətinlikləri görməməzlikdən gələn bir çox adam və bəzi dövlətlər nəhayət bu faciəvi vəziyyətin fərqinə vara bildi. Ayla insaniyyətin simvolu olmuş, hər kəs bu kiçik uşağı öz övladının yerinə qoyaraq vəziyyəti qiymətləndirmişdi. Böyük əks-səda oyandıran bu sevimli uşağın sahildə yatan cansız bədəni insanların yaddaşına həkk olunmuş, mühacirlərin tələblərini görməməzlikdən gələn dövlət adamları belə göz yaşları içində və alqışlarla suriyalı mühacirləri ölkələrinə qəbul etdiklərini açıqlamışdılar. Bu faciəvi hadisə əlbəttə heç kimsənin istəyəcəyi bir şey olmasa da, sahildə yatan sevimli Ayla yaşadığımız bu mərhəmətsiz dünyada vicdanın və insaniyyətin hələ var olduğunu gözlər önünə sərdiyi üçün əhəmiyyətlidir.

Gözü və qulağı, kamera və səs qeyd edən cihazlarla müqayisə etdiyimizdə bu orqanlarımızın bəhs etdiyimiz texnologiya alətlərindən daha çox kompleks, daha çox müvəffəqiyyətli, çox daha qüsursuz quruluşa sahib olduqlarını görərik.

Qonşu ölkələrdəki şərtlər

Suriyadakı müharibədən qaçanların 95%-i üç qonşu ölkəyə sığındı; Türkiyə, Livan və İordaniya. Üç ölkə iqtisadi baxımdan çox zəngin olmasalar da ehtiyac içində olanlara kömək əli uzatmanın dini və insani məsuliyyət olduğunu bilərək mühacirlərə qucaq açdılar. Ancaq müharibə gedərək alovlandığı üçün, minlərlə adam Suriyanı tərk etməyə davam edir. Burada unudulmamalıdır ki, qonşu ölkələrə sığınan mühacirlərin problemləri yalnız müharibədən qaçmaqla bitmir; bir qismi çətin şərtlərdəki mühacir düşərgələrində həyat mübarizəsi verərkən, bir qismi də qeyri-sabit və təhlükəli şəraitdə yaşamaq məcburiyyətində qalmalarıdır.

Məsələn, İordaniyaya sığınan mühacirlər Birləşmiş Millətlər Təşkilatının ianələri tükəndiyi üçün kömək ala bilmirlər. Həyatda qala bilmək və ailələrinə yemək və sığınacaq tapa bilmək ümidi ilə başqa ölkələrə yönəlirlər. Halbuki, mühacirlər yerləşdikləri ölkələrdə lazımlı köməyi alaraq dinc bir həyata qovuşa bilsələr, oranı tərk etməyəcək, Aralıq dənizi və Egey dənizində çıxdıqları bu ölümcül səfərləri gözə alaraq Avropaya getməyə çalışmayacaqlar. Üstəlik həyatlarını təhlükəyə ataraq Suriyaya geri dönməyi belə seçən ailələr var. Hal-hazırda, İordaniyadakı yardımlar kəsildiyindən bəri, müharibə bölgəsinə dönən mühacirlərin sayları iki qatına çıxmışdır.

Bir cisimdən gələn impulslar elektrik siqnalına çevrilir və beyinə təsir göstərir. Gördüyümüzü söylədiyimiz zaman, elektrik siqnallarının təsirini beynimizdə izləyirik. Beyin işığa bağlıdır. Başqa sözlə, beynin içi qaranlıqdır, işıq beynin yerləşdiyi yerə daxil ola bilməz. Görmə mərkəzi deyilən yer, işığın heç vaxt çatmayacağı qaranlıq bir yerdir. Ancaq bu qaranlıqda parlaq və işıqlı bir dünyanı seyr edirsən.

Mühacirlərin Avropada qarşılaşdığı çətinliklər

Mühacirlərin bir ölkədən digərinə keçərkən gözə aldıqları uzun və çətin səfəri Avropa torpaqlarına sağ-salamat çatacaqları zəmanətini heç bir zaman vermir. Son iki ildə Avropaya çatmaq üçün qayıqla üzən qaçqınların əksəriyyəti həyatını itirdi. Çatmağı bacaranlar isə bəzi Avropa ölkələri tərəfindən heç də xoş qarşılanmadılar.

Son zamanlarda yenə sosial mediada paylaşılan videolarda bu məzlum insanların bəzi qərb ölkələri tərəfindən məruz qaldıqları kobud rəftara da şahid oluruq. Məsələn, Macarıstanda qadın video operator, qucağında oğulu ilə qaçan suriyalı mühacir ataya badalaq ataraq yerə yıxdığında bu vəziyyət cəmiyyətdə böyük qəzəb oyandırmış, video operator etdiyi bu davranışına görə üzr istəməyə məcbur edilərək, iş yerindən də uzaqlaşdırılmışdır. Əlbəttə bu, media vasitəsi ilə xəbərdar olduğumuz utanc verici hadisələrdən yalnız biridir. Yüzlərlə mühacir Serbiya sərhədindəki polis kordonu müşayətində düşərgələrə məcburi göndərilir və barmaq izləri alınır. Yenə Macar hökuməti mühacirlərdən ibarət olan kütləyə buterbrod atmaları və bir tikə yemək üçün bir-birləri ilə mübarizə edən insanları göstərən video görüntüləri, ehtiyac içindəki bu insanların vəziyyətini gözlər önünə sərir. Avropadakı bəzi ölkələr (Yunanıstan, Bolqarıstan, Macarıstan və Fransa) mühacirlərin ölkələrinə girişinə maneə törətmək üçün sərhədlərə tikanlı məftil çəkməyə başladılar. Halbuki həyatda qalmaqdan başqa istəyi olmayan bu insanlar qəti şəkildə təhlükəli terrorist və ya azğın qatil deyildirlər və məruz qaldıqları pis rəftara da əsla layiq deyillər. Bu nöqtədə hər kəs vicdanının səsini dinləməli və özünü onların yerinə qoyaraq hərəkət etməlidir.

Almaniya və digər ölkələrə nəzərən daha az sayda mühaciri ölkələrinə qəbul etmələri gözlənilən Orta Avropa dövlətləri isə AB-nin qərarından

məmnun deyildirlər. Macarıstan Baş Naziri Victor Orban bu böhranı "qeyri-qanuni immiqrantların üsyanı" şəklində şərh edərkən, Slovakya Baş Naziri Robert Fico isə mühacirlərdən yalnız Xristian dininə mənsub olanları qəbul edəcəklərini açıqladı. Halbuki keçmişdə baş verən müharibələr Avropada da mühacir böhranı yaratmışdı. Avropa suriyalı bu günahsız insanların yaşadıqları çətinlikləri keçmişdə şəxsən təcrübə etməsinə baxmayaraq indi unutmuş görünür. Məsələn, Otuzillik müharibədə Çexiya ərazisində əhalinin üçdə biri Avropanın müxtəlif bölgələrinə köç etməyə məcbur qalarkən, yenə Birinci və İkinci Dünya Müharibələrində çox sayda adam yerini-yurdunu tərk etmək məcburiyyətində qalmışdı.

Keçmiş zamanlarda timsaha tapınan insanların inanışları nə dərəcə qəribə və ağla sığmazsa, indiki vaxtda Darvinistlərin inanışları da eyni dərəcədə ağla sığmazdır. Darvinistlər təsadüfləri və cansız şüursuz atomları cahilcə, sanki yaradıcı güc olaraq qəbul edərlər. Hətta bu batil inanca, bir dinə bağlanar kimi bağlanarlar.

Mühacirlər üçün sülh yolu çözümü təklifi

Bu problemi əlbəttə sülh yollarla həll etmək lazımdır. Mühacirləri qəbul etmək üçün ölkə sərhədlərinə divarlar hörmək, ya da tikanlı məftillər çəkmək qəti şəkildə məntiqli bir çözüm deyil. İctimai mənada uzlaşma təmin edilməsi əhəmiyyətlidir, çünki əsl fərq yaradacaq olanlar dövlət rəhbərlərindən daha çox, o ölkələrdə yaşayan xalqlardır. Yenə sosial media sayəsində müşahidə etdiyimiz İngiltərə nümunəsində olduğu kimi. Başlanğıcda İngilis hökuməti mühacirləri ölkəyə qəbul etmək istəməmiş, ancaq ictimaiyyətin təzyiqi ilə qərarı tez dəyişdirmək məcburiyyətində qalmışdır. Artıq cəmiyyətlər onları idarə edən siyasətçiləri demokratik yollarla təsir edə bilirlər. Bu səbəbdən cəmiyyətlərdə insani və vicdanı şüurlanmanın artırılması son dərəcə vacibdir. Beynəlxalq Sığınacaq Aktı nəzəriyyə olaraq məntiqli görünsə də bu qanunun təcrübədə elə olmadığı aydın olur. Çünki AB-yə üzv olan hər ölkə bir-birindən fərqli mövqelər tutsa da və tutarlı bir əməkdaşlıq olmayanda köklü bir həll tapılmır.

Mühacirlərə daimi yardım və qoruma təmin edəcək lazımlı qanunları qəbul edə bilmək üçün rəsmi yığıncaqlar təşkil edilməli; daha da əhəmiyyətlisi bunun bir insanlıq vəzifəsi olduğunu unutmamalıdırlar. Mühacirlər qəti olaraq heç bir dövlətin üzərində yük olaraq görülməməli, Allahın bizləri məsul etdiyi qonaq olaraq düşünülməlidir. Nəticədə bu insanlar yalnız həyatlarını qurtarmaq bahasına sahib olduqları hər şeyi geridə buraxıb qaçmaqdadırlar.

Digər tərəfdən dövlətlərin ianə etməklə BMT-yə töhfə verməsi çox vacibdir. Beləcə qonşu ölkələrə sığınan mühacirlər ehtiyacları olan köməyi ala bilərlər. Bundan əlavə, bu insanları işlə təmin etməklə həyatlarını davam etdirmək üçün dəstəklənməlidir. Əsla unutmamaq

lazımdır; əgər mühacirlər stabil həyata qovuşa bilsələr sığındıqları ölkələri tərk etməyəcək, həyatlarını təhlükəyə atan çətin səfərlərə çıxmayacaqlar. Nəticə olaraq hamımız bu fəlakət yaradan vətəndaş müharibəsini dayandırmaq üçün (xüsusilə də Orta Şərqdə) güclərimizi birləşdirib sülhü təmin etmək üçün səy göstərməliyik.

Hörmətli Adnan Oktarın bu məqaləsi “Tehran Times”da dərc olunmuşdur:

http://www.tehrantimes.com/index_View.asp?code=249534

Təhlükəsizlik problemi divarlarla həll edilə bilməz

(“Iran Daily”, “Ahlul Bayt News Agency”, “Islamic Republic News Agency” və “Daily Mail” - 23 sentyabr 2015-ci il)

Dövrümüzdə yalnız əllərində silah tutanları deyil hərkəsi sarsıdan müharibələrin yaşandığı bölgələrdən gələn xəbərlər, fotoşəkillər və barbarlıq görüntüləri vicdanı olan hər kəsin ürəyini parçalayır. Milyonlarla məzlum insan Suriyada, Cənubi Sudanda, Nigeriyada, Ukraynanın Donbass bölgəsində, Şimali Malidə, Liviyada, Yəməndə, Orta Afrika Respublikasında və daha bir çox ölkədəki qanlı bölgələrdə həyatlarını davam etdirməyə çalışarkən, milyonlarla insan da Rohinca,

Şərqi Türküstan, Fələstin, Əfqanıstan, Kəşmir, Moro kimi yerlərdə məruz qaldıqları zülm qarşısında həyatda qalma mübarizəsi verir. Beynəlxalq sülh və təhlükəsizliyi ən çox təhdid edən mövzuların başında gələn terror isə hər il minlərlə günahsız insanın qanını tökməyə davam edir.

Belə bir mühitdə bütün dünyanın əl-ələ verib sülh üçün səy göstərməsi lazım olarkən, etibarlı bir gələcək üçün ümidlərin daha çox silahlanmağa bağlanmış olması son dərəcə heyrətvericidir. Bunun ən böyük səbəbi isə fərdi, ictimai və cəmiyyətlər arası səviyyədə baş verən mənəvi çöküş, insanlar arasında yayılan nifrət, sevgisizlik, mənfəətçilik və bunlardan sonra bütün dünyanı qucaqlayan etibarsızlıq. Aclığı gündəlik həyatın bir hissəsi olaraq yaşayan Afrikanın da bütün imkanlarını silah sənayesinə istiqamətləndirməsi bu vəziyyəti ortaya qoyan açıq-aşkar bir göstəricidir.

Təhlükəsizlik - dövrümüzdə yalnız müəyyən ölkələrin deyil, bütün dünyanın ortaq problemidir. Ölkələr terrordan, müharibələrdən, qeyri-qanuni cinayət təşkilatlarının zərərlərindən özlərini qorumaq üçün milyardlarla dollar xərcləyərək geniş diametrli tədbirlər görürlər. Ancaq bəzi ölkələrin təhlükəsizlik adı ilə həyata keçirdiyi tədbirlər digər ölkələr üçün etibarsızlıq hissi yarada bilər. Müharibələri, qarşıdurmaları, ölüm

qorxusunu, avtoritar rejimlərin təzyiqini, iqtisadi çətinlikləri, yoxsulluğu və yaşadıqları etibarsızlığı arxalarında buraxıb etibarlı və hüzurlu həyat axtarışı ilə yola çıxan milyonlarla qaçqının bir çox ölkə tərəfindən təhlükəsizlik problemi olaraq görülməsi buna bir nümunədir.

Sərhədlərə hörülən divarlar da bu gün bir çox ölkənin etdiyi təhlükəsizlik tədbirlərindən biridir. Qaçaq immiqrantların əsas ünvanı olan Avropanın bir çox ölkəsi təhlükəsizlik məqsədi ilə sərhədlərinə divar hörmüşdür. 2015-ci ilin sonunda Avropaya girən immiqrant sayının 1 milyonu aşa biləcəyi nəzərdə tutulur. İmmiqrantların çoxu Türkiyədən Yunanıstana keçib, oradan da Avropaya çatmağa çalışır. Sayları gedərək artan immiqrantların ehtiyaclarını qarşılamaqda çətinlik çəkən Yunanıstan Meriçdəki quru sərhədinə tikanlı məftil çəkmə qərarı aldı. Bolqarıstan da Türkiyə üzərindən reallaşdırılan köçün öz torpaqlarına sirayət etməməsi

üçün 160 kilometrlik tikanlı məftil çəkdi. Şimali Afrikadan İtalyanın cənub sahillərinə mühacir axını isə fasiləsiz olaraq davam edir.

Ötən günlərdə qatarla Almaniyaya keçməyə çalışan immiqrant və mühacirlərə qarşı Macarıstan və Xırvatıstanın göstərdiyi reaksiya bütün dünya tərəfindən tənqid olundu. Macarıstan, Serbiya üzərindən gələn immiqrantların girişinə maneə törətmək üçün sərhədə divar hördü. Macarıstan indi də bənzər divarı Xorvatiya ilə öz arasına inşa edəcəyini bildirdi. Əksəriyyəti Suriya, İraq və Əfqanıstandan gələn minlərlə immiqrant əvvəl Aralıq dənizini keçərək Yunanıstana, ardından Serbiya üzərindən Macarıstana çatır. BMT bu nöqtədə əsas həllin humanitar yardım olacağını ifadə edərək, Suriya və İraqda şərtlər düzəlmədikcə Avropaya axının sürəcəyini ifadə edirlər. BMT İmmiqrant Haqları Xüsusi Məruzəçisi François Crepeau mövzu ilə bağlı bu sözləri dedi: “Divarlar tikərək, gözyaşardıcı qaz sıxaraq və ya şiddət edərək, həbs edərək, sığınacaq, qida, su kimi təməl ehtiyacların daxil olmasına maneə

törədərək, nifrət ifadəsi göstərərək, immiqrantların və mültəcilərin Avropaya gəlməsini dayandırmaq mümkün deyil.”60

İmmiqrant axınına qarşı mübarizə ilə yanaşı terrordan qorunmaq üçün sərhədlərinə divar inşa edən ölkələrin sayı olduqca çoxdur. Səudiyyə Ərəbistanı, şimalındakı Turaif və Hafar əl Batin şəhərləri arasında min kilometr uzunluğunda divar hörəcəyini açıqladı. Ayrıca cənub qonşusu Yəmənlə olan sərhədlərini də Əl-Qaidəyə qarşı qorumaq üçün nəhəng divarlar hörəcək. Keniya, Əl-Şebab təşkilatı mənsublarının keçməsinə maneə törətmək üçün Somali sərhədinə divar hörməyə başladı. Türkmənistan da Talibana qarşı ölkəsini qorumaq məqsədi ilə Əfqanıstanla olan sərhəd xəttinə divar hörəcəyini ifadə etdi. Artıq 745 kilometrlik divarın inşasına başlanmışdır.

2014-cü ildə Rusiyadakı böhranın səbəb olduğu qarşıdurmalarda minlərlə insanın həyatını itirdiyi və minlərlə insanın didərgin düşdüyü Ukrayna, ölkənin təhlükəsizliyini təmin etmək üçün sərhədlərini divarlarla bağlamağa qərar verən başqa bir ölkədir. Sərhəd təhlükəsizliyi daxilində Rusiya sərhədinə 2 min kilometrlik divar inşaatı planlayan Ukrayna 100

milyon avroluq xərci Avropa Birliyi köməyi ilə qarşılamağı hədəfləyir. Divarın tikanlı məftil, mina və elektrikli avadanlıqlardan ibarət olacağı ifadə edilir.

İsrail də təhlükəsizlik üçün Qərb Şəriyə ilə Fələstin torpaqları arasında divar və nəzarət nöqtələri yaratmışdır. Hər 200 metrdə bir müşahidə qülləsi olan divar elektrikli məftil ilə, dərin və dörd metr genişlikdəki xəndəklər ilə əhatəlidir. Divarın yaxınlarında kimsənin gəzməməyi üçün isə uzaqdan idarə olunan silahlar saxlanılır.

Daha bir çox nümunəyə rast gəlinən və şəhərləri, ölkələri, bir-birləri ilə qardaş birlikləri, qohumları ayıran divarların tarixi əslində çox qədim dövrlərə uzanır. Roma İmperatorluğunun 2-ci əsrdə tikdiyi nəhəng divarlar, Çinin Şimal-Qərbi boyunca uzanan və dünyanın ən uzun müdafiə divarı olan Çin Səddi və yaxın keçmişdə Şərqi Almaniya vətəndaşlarının Qərbi Almaniyaya qaçmalarını önləmək üçün tikilən Berlin Divarı tarixin ən məşhur divarlarındandır. Lakin məsələləri demokratiya və insan haqları çərçivəsində sülh və ağıllı təhlükəsizlik siyasəti izləyərək dinc yollarla həll etmək var ikən, divarlar hörərək təhlükəsizliyi təmin etmək keçmişdə də müvəffəqiyyətli olmamışdır.

Unudulmamalıdır ki, yer üzündə dinclik və təhlükəsizliyin, nizam və asayişin ən fundamental şərti sevgi, dostluq və qardaşlıqdır. Dostluq olmadan, birlik və bərabərlik ruhu, qarşılıqlı sevgi, hörmət, həmrəylik olmadan əlbəttə ki, sülh olmaz; fikir və düşüncəyə dözüm olmaz; insanlar sevgi, mərhəmət, tolerantlıq kimi duyğuları itirərlər və bunun da nəticəsində qardaşca danışıb razılaşmaq yerinə divarlarla bir-birlərindən qopub uzaqlaşmaq istəyərlər. Sevginin hakim olduğu bir dünyada isə irqləri, rəngləri, dinləri, mədəniyyətləri fərqli olsa da sevgi ilə qucaqlaşmaq; canlarını qurtarmaq üçün yurdlarından ayrılmaq məcburiyyətində qalan immiqrantlara sığınacaqları etibarlı bir yer təmin

etmək; nöqsanları varsa onları öyrətmək və doğru istiqamətdə istiqamətləndirmək; təzyiq, şiddət və zülm altındakı xalqlara, ehtiyac içindəki məzlumlara, ac olana, susuz olana kömək etmək heç də çətin deyil.

Şübhəsiz, bu nöqtədə dünya liderlərinə əhəmiyyətli bir vəzifə düşməkdədir. Bütün dünya liderləri birləşdirici, sülhsevər, sevgi üslubunu vacib bilməli, şəfqət, mərhəmət, birlik, bərabərlik, sülh və qardaşlıq anlayışlarını önə çıxarmalıdırlar. Bu sevgi dili ilə dünyanın dörd bir tərəfində baş verən immiqrant böhranları, müharibələr və qarşıdurmalar, terrora və şiddətə söykənən qlobal təhlükəsizlik təhdidləri və hər cür qarışıqlıq bir-bir ortadan qalxacaq. Bu səbəbdən sərhədləri divarlarla ayırmaqla, daha çox silahlanmaqla, bölgələrə daha çox əsgər yerləşdirmək; qısaca problemlərin tam təhlükəsiz həll edilə bilməyəcəyi; bütün problemlərin ardındakı səbəblərin ancaq sevgi, şəfqət və insaniyyət ehtiva edən məqsədəuyğun təhsil siyasəti ilə həll edilə biləcəyi başa düşülməlidir. Ümid edirik ki, bu əsr sevgisizliyin, gərginliklərin və qarşıdurma ruhunun sona çatdığı bir əsr olacaq; qorxuların, etibarsızlığın yerini həsrətini duyduğumuz sülh, hüzur, dostluq, qardaşlıq və güvən mühiti əvəz edəcək.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Iran Daily", "Ahlul Bayt News Agency", "Islamic Republic News Agency" və "Daily Mail"də dərc olunmuşdur:

http://newspaper.iran-daily.com/newspaper/pagepdf/6015

http://en.abna24.com/cultural/archive/2015/09/23/711966/story.html

http://www.irna.ir/en/News/81770602/

Mühacirlər Avropa üçün problem deyil əhəmiyyətli bir dəyərdir

(“Burma Times” - 10 oktyabr 2015-ci il)

Ötən həftələrdə 3 yaşındakı suriyalı mühacir Aylanın sahilə vurmuş kiçik cansız bədəni bir anda Avropa cəmiyyətində mühacirlərə qarşı ortaq bir vicdanın oyanış simvolu halına gəldi.

Aylanın şok görüntüləri dünyaya yayılmadan bir qədər əvvəl, Qərb dünyasının əhəmiyyətli hissəsində, xüsusən Avropada qaçqınlara qarşı

amansız, eqoist və ayrı seçkilik siyasəti hökm sürürdü. Bu məzlum insanlara qarşı tarixə keçəcək utanc verici sözlər və tətbiqlər yönəldildi.

Bu utanc verən mənzərə, mühacirlərin keçid yolunun üstündə olan bəzi Orta Avropa dövlətlərinin Hitler dövrünü xatırladan, şiddət və mərhəmətsiz davranışları insanlıq vicdanını yaralayırdı.

Aylanın sahildəki fotoşəkilinin mətbuatda və sosial mediada yer almasının dərhal ardından Qərb cəmiyyətində mühacirlərə qarşı ciddi bir yumşalma və mərhəmət hissi meydana gəldi. Bir çox yayım orqanları, dövlət adamları və siyasətçilər cəmiyyətdəki bu həssaslığa uyğun olaraq qaçqınların təhqir olunmasını pisləyən açıqlamalar verdilər.

Mühacirlərin keçməsi asanlaşdırıldı, maneələr böyük ölçüdə qaldırıldı. Müxtəlif ölkələr mühacirləri qəbul etmək üçün onlara düşən payı boynuna götürməyə hazır olduqlarını bildirdi. Avropa cəmiyyəti ilə mühacirlər arasındakı həmrəylik bir anda əhəmiyyət qazandı, insanlar evlərini mühacirlərlə paylaşmaq istədiklərini bildirdi.

Xüsusilə Almaniya, daha əvvəl mühacirlərə qarşı sərt davranarkən, böyük bir dönüş edərək 800.000, hətta daha çox qaçqına qapılarını açacağını bildirmişdir.

Lakin, bu xoş mənzərə çox qalıcı olmadı. Macarıstanda mühacirlərin polisdən qaçışını göstərən qadın operatorun Petra Laszlonun kiçik bir mühacir qız uşağını təpiklədiyi, 7 yaşındakı oğlu Zaid ilə birlikdə qaçan Mohsen adlı suriyalıya isə badalaq atması kimi çirkin görüntülər dünya ictimaiyyətdə şok təsiri yaratdı.

Müharibədən qaçan minlərlə mühacir Almaniya və Şimali Avropa ölkələrinə çata bilmək üçün Xorvatiya, Sloveniya və Macarıstan üzərindən

keçməyə çalışarkən "The Guardian"ın ifadəsi ilə, "Orta Avropalı qonşular çirkinləşdilər".

Yenə, eyni qaynaqda yer alan məlumata görə, Macarıstan Xorvatiya sərhədinə zirehli hərbi maşınlar gətirdi. Xorvatiya sərhədindəki bir çox keçid nöqtəsini bağlayan Sloveniya polisi isə yollarına davam etmək istəyən və aralarında körpə, uşaq, qadın və yaşlıların olduğu yüzlərlə suriyalı və əfqan mühaciri "bibər qazı" istifadə edərək dayandırdı.61

Eyni şəkildə, 175 kilometr uzunluğunda və 4 metr hündürlüyündə tikanlı məftillərlə hörülərək bağlanılan Macarıstan-Serbiya sərhədində mühacirləri təzyiqli su və gözyaşardıcı qazlarla dayandırmağa çalışan macar əsgər və polislərin sayının mühacirlərin sayından daha çox olduğu bildirildi.62

Macar Parlamentində, orduya mühacir böhranına müdaxilə ola bilməsi üçün icazə verən sənədin qəbul edilməsi ilə əsgərlərin sərhədi keçməyə çalışan immiqrantlara qarşı plastik güllə və gözyaşardıcı qaz istifadə etmələri sərbəst edildi.

Övladları ilə çəllək bombalarından qaçaraq ac, susuz, tükənmiş və acınacaqlı vəziyyətdə, dənizdə boğulmaq həddinə çatmış və ölkəni yalnız tranzit olaraq keçməkdən başqa niyyəti olmayan məzlum qaçqınlara sanki işğal ordusu kimi davranan Macar baş nazir Viktor Orban və hökumətinin insanlığa uyğun olmayan davranışına reaksiyalar yağdı.

Xorvatiyanın Baş Naziri Zoran Milanoviç Macarıstanın tədbirlərini "anlaşılmaz" adlandıraraq, Xorvatiya sərhədinin bağlanmasının "insanları öldürməsi" mənasına gələcəyini söylədi.63

Serbiya Baş naziri Aleksandar Vuçiç Macarıstanı "vəhşi" və "qeyri-Avropalı davranışına" görə tənqid etdi və AB-ni müdaxilə etməyə çağırdı. Rumıniya Baş Naziri Victor Ponta isə, "Tikanlı məftillər, itlər, polislər,

silahlar... Bunlar 1930-cu illərin Avropasına bənzəyir. Görəsən, bununla mühacir problemini həll edə bildik? Xeyr həll edə bilmədik" dedi. 64

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Guterres, mühacirlərə pis rəftar göstərməklə günahlandırılan Macarıstana 2-ci Dünya Müharibəsində Avropaya sığınan 200 min macarı xatırladaraq "suriyalı mühacirlərə, o zamanlar Avropada gördüyünüz rəftarı nümayiş edin" ifadə etdi.65

Digər tərəfdən Birləşmiş Millətlər Təşkilatının Baş katibi Pan Gi Mun, qaçqınların Avropa ölkələri sərhədləri içərisindəki vəziyyət haqqında, "Gördüyüm görüntülər qarşısında şok oldum" dedi. Hər ölkənin öz daxili problemlərinin olduğunu ifadə edən Ban, "ancaq torpaqlarından gəlib keçən mühacirlərə kömək etmək lazımdır. Beynəlxalq hüquq bunu tələb edir. Beynəlxalq hüquqdan da başqa, insanlıq bunu tələb edir" deyə danışdı.

Bununla belə, insanlığın tələb etdiyi təcrübələrin bir çox AB ölkələrinin vacibləri arasında olmadığı görünür. AB-nin 160.000 sığınacaq axtaran şəxsin Avropa ölkələrinə paylanması planına ilk etiraz edən Danimarkanın İnteqrasiya naziri İnger Stoyjberg bu yaxınlarda plana daxil olmayacaqlarını və sığınacaq axtaranları qəbul etməyəcəyini açıqladı.66

Mövcud vəziyyət, Avropa xalqının əksəriyyətinin mühacirlərə qarşı şəfqətli, qucaqlayıcı rəftarı ilə bəzi ölkələrin Orta əsrlərin dərəbəyilik zehniyyətindən sıyrıla bilməmiş mərhəmətsiz, eqoist, insaniyyətsiz iqtidarları arasında ciddi bir ziddiyyət olduğu həqiqətidir. Avropa xalqları üçün ilk fürsətdə özlərini təmsil edəcək və insan hüquqları ilə insan dəyərlərinə həssas olan rəhbərlərin gətirilməsi aktual mövzudur.

Türkiyənin çətin iqtisadi şərtlərinə baxmayaraq 2 milyondan çox mühacirə ev sahibliyi etdiyi düşünülsə, yarım milyard əhalisi olan AB-nin

ən çox bir neçə milyon mühacirin sadə və məntiqli bir planlama ilə böyük qitədə idarəli şəkildə paylamaq əslində son dərəcə asandır.

Üstəlik, Almaniyanın təkbaşına 800.000 və daha çox qaçqını qəbul etməyə hazır olduğu bir vaxtda zərər çəkənləri dəstəkləmək və səyahətlərini asanlaşdırmaq lazımdır. Bunu etməyən dövlətlər isə ən azından gəlib keçən qaçqınlara mane olmaqdan, onlara maddi-mənəvi əziyyət etməkdən əl çəkməlidir.

"Əmək qabiliyyətli" xüsusiyyəti olan gənc əhalinin gündən günə azalması bütün Avropanı bürüyən bir təhlükədir. Hətta statistikalar, təcili immiqrant almadığı təqdirdə xüsusilə Almaniyanın 2060-cı illərə qədər ümumi əhalisinin və iş gücü potensialının ciddi nisbətdə düşəcəyini göstərir. AB ölkələrinin bu dəhşətli həqiqəti də göz qabağında saxlayaraq, böyük əksəriyyəti bacarıqlı, təhsilli, universitet məzunu, peşə və sənət sahibi insanlar olan mühacirləri problem olaraq deyil, fürsət və gözəllik olaraq görməsi daha uyğun olacaqdır.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Burma Times"da dərc olunmuşdur:

http://burmatimes.net/refugees-not-a-threat-but-an-important-asset-for-europe/

Seçki zəfəri rohincalılara nə gətirəcək?

("New Straits Times" - 14 noyabr 2015-ci il)

Bu köşədə Myanma xalqının faciəsindən çox danışdıq. 2012-ci ildə reallaşan qarşıdurmaların ardından rohinca müsəlmanlarının necə soyqırım ilə üz-üzə qaldıqlarını, köhnə qayıqlarla ölkələrindən qaçmaq istəyərkən necə sahil sularında tərk edildiklərini, Myanma vətəndaşlığından necə çıxarılıb insani haqlarından məhrum

edildiklərindən dəfələrlə bəhs etdik. Rohinca müsəlmanlarının faciəsini bilənlər, ötən həftə Myanmada reallaşan seçkilərin də bu insanlar üçün nə məna daşıdığını anlaya bilərlər.

Myanma təxminən 50 il davam edən xunta rejimindən gəlir. 2010-cu ildəki seçkilər nəzəri olaraq bu hərbi xuntanı sona çatdırsa da, ölkədə hakim partiyanı dəstəkləyən xunta varlığı həmişə hiss olunur. Ötən həftənin

2015-ci il seçkiləri Nobel mükafatı laureatı müxalifət lideri Aung San Suu Kyinin başçılıq etdiyi NLD-nin böyük uğuru ilə nəticələndi. Bu böyük müvəffəqiyyətə baxmayaraq, ölkədəki sistemin tam mənasıyla demokratik olduğu deyilə bilməz. Çünki məclisə girəcək millət vəkillərinin 75%-ni xalq təyin edərkən, qalan 25%-i ordu tərəfindən təyin edilirdi. Buna görə parlamentə girən lider partiyanın qanun qəbul etməsi və yeni islahatlar aparması qeyri-mümkün görünür. Ordunun hər qərarı veto ilə cavab verəcəyi başa düşülə bilər.

Aung San Suu Kyi əslində 1990-cı il seçkilərində qalib gələn bir liderdir. Parlamentdəki 80% səs çoxluğunu qazansa da, xunta o dövrdə seçkinin nəticələrini tanımadı və ev dustaqlığına məhkum etdi. Suu Kyi 2010-cu ilə qədər tam 15 il ev həbsində qaldı.

Hal-hazırda xunta hakimiyyəti guya sona çatmış olsa da Suu Kyinin bu müvəffəqiyyətinin təkrar dövlət çevrilişi ilə qarşılıq görə biləcəyini dair

narahatlıqlar var. 2011-ci ildə ölkəni xunta rejimindən geri alan Thein Sein, “seçicilərimizin qərarını qəbul etməliyik” desə də, bir çox analitik, əsgər Seinin mülayim islahatçı fikirlərini ölkədə gözlənilməz nəticələrə görə məsuliyyətə cəlb edəcəyini söyləyir.67

Bəs bu nəticələr Rohinca xalqı üçün nə məna ifadə edir?

Seçkilərdən əvvələ qayıdaq. 2012-ci ildə reallaşan və yüzlərlə rohincalının ölümü ilə nəticələnən qarşıdurmalardan sonra ölkədə yaşayan bir çox rohinca müsəlmanları iş yerlərindən və evlərindən qovulub qaçqın düşərgələrinə köçürüldü. Myanma hökuməti onların ölkə daxilində hərəkət etmələrini, sağlamlıq və təhsil kimi xidmətləri görmələrinə maneə törətdi. Bu ilin əvvəlində isə hökumət, bəhs etdiyimiz azlıq müsəlmanların Myanma vətəndaşı olmadıqlarını iddia edərək onların əllərindəki şəxsiyyət sənədlərini aldı. Məhz buna görə rohinca müsəlmanları bu il noyabr ayında reallaşan seçkilərdə nə özlərini təmsil edə bildilər, nə də səs verə bildilər. Myanma seçkilərində ilk dəfə olaraq parlamentdə bir müsəlman yox idi.

Digər tərəfdən, rohinca xalqı hazırkı administrasiyanın tənəzzülə uğramasından məmnundur, lakin keçmişdə böyük ümidlər yaşadıqları Aung San Suu Kyi-yə qarşı kəskin şəkildə qarşı çıxırlar. Bunun ən böyük səbəbi, sentyabr ayının sonlarında Suu Kyinin “rohinca” ifadəsini istifadə etməkdən qaçınması, seçki gəzintiləri əsnasında ölkənin şimalında bir çox rohincalının yaşadığı bölgəni ziyarət etməyi rədd etməsidir. Rohinca məsələsi gündəmə gəldikdə, onun yayındırılan cavabı diqqətdən kənarda qalmadı və bildirildi ki, azlıqların hüquqları məsələsi “çox həssas bir məsələdir” və “çox diqqətlə” idarə olunmalıdır.68

Bir çox Rohincalı üçün bu yayındırıcı cavab, ölkədə buddistlərin səslərini itirməməsi üçün izlədiyi siyasi metod olaraq qiymətləndirilir və tənqid olunur. Ölkənin ümumi vəziyyəti kənardan və bütövlükdə təhlil edildikdə bu siyasi manevrin fərqli mənalar verə biləcəyini nəzərə almaq lazımdır.

Xuntanın üstünlük təşkil etdiyi bir ölkədə tarazlıq saxlamaq və xuntanın istəmədiklərinin hüquqlarını müdafiə etmək həmişə çətindir. Myanma kimi xunta hakimiyyətinin təcrübədə sona çatmadığı, şiddət və işgəncədən çəkinməyən ölkələrdə isə, ölkədəki qarışıqlığı daha çox artıracaq risk daşıyan hərəkətlərdən uzaq dayanaraq haqqı müdafiə etmək həmişə ən ağıllı üsul olmuşdur. Suu Kyi seçkilərdən əvvəl Rohincanın hüquqlarını vurğulasaydı, çox güman hərbi xuntanın reaksiyası ilə qarşılaşacaqdı. Ölkənin şərtlərini nəzərə alsaq, Suu Kyinin seçkidən əvvəl fərqli bir taktika tətbiq etməsi qəribə olmamalıdır.

Tənqidləri əsaslandırmaq və ya tənqid etmək üçün yeganə yol Suu Kyinin növbəti yoludur. Hər nə qədər partiyasının xunta konstitusiyası xaricində hərəkət etmə və dolayısilə ciddi islahatlar etmə gücü olmasa da ölkə daxilində haqsızlıq və soyqırımı beynəlxalq cəmiyyətə daşıya bilmə imkanı genişləmişdir. Suu Kyi beynəlxalq ictimaiyyətdə rasional bir siyasətlə Myanma soyqırımının gündəmində olmasını təmin edə bilər. Myanma üçün həll yolu, ən praktik mənada beynəlxalq təzyiq ilə mümkün ola bilər.

Seçkiyə qədər olan müddətdə rohinca xalqının həyatında çox dəyişiklik olmadığını da bura əlavə edək. BMT 2015-ci ildə yanvar-iyun ayları arasında dənizlərdə 370 rohincalının həyatını itirdiyini ifadə etdi Ancaq "Amnesty International" təşkilatına görə bu say məlum olanlardan daha çoxdur. Şahidlər bildirirlər ki, onlarla gəmi sahildən çıxıb, lakin yalnız bir neçəsi İndoneziya və Malayziya sahillərinə çatıb.69 Beləliklə, Rohinca faciəsi səssizcə davam edir.

Ümid edirik bu yeni dövr, təzyiq altında saxlanılan, bütün insani haqları əllərindən alınan və soyqırıma məruz qalan rohinca xalqı üçün xeyirli bir dövr olar. Bizlər də bu əsnada, onlar adına bu sətirlərdən səsimizi eşitdirməyə və dua etməyə davam edəcəyik.

Hörmətli Adnan Oktarın bu məqaləsi "New Straits Times" qəzetində dərc olunmuşdur:

http://www.nst.com.my/news/2015/11/112585/Rohincas-uncertain-fate-post-polls

İnsan hüquqları bəyannamədə mövcuddur, lakin dünya üzərində yoxdur

(“Harakah Daily” və “Morocco World News” - 23 dekabr 2015-ci il)

10 dekabrda bir daha Dünya İnsan Haqları Günü geridə qaldı. Bilindiyi kimi, “bütün insanların doğuşdan azad və bərabər olduğu” prinsipi üzərinə hazırlanan İnsan Haqları Universal Bəyannaməsi, 10 dekabr 1948-

ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında qəbul edilmişdir.

Bu bəyannamə ilə milyonlarla günahsız insanın həyatını itirdiyi I və II Dünya Müharibəsi kimi fəlakətlərin bir daha yaşanmaması; siyasi çıxarlarını reallaşdırmada heç bir maneə tanımayan, hər cür qanuni əngəlləri, zorakılığı və qüvvəni qanuni yolla dəf edəcək iqtidar liderlərini dayandıracaq bir mexanizm yaratmaq məqsədi daşıyırdı.

Ancaq 67 il keçməsinə baxmayaraq, dünyada mənzərə Bəyannamənin hədəf aldığı modelə əks istiqamətdə inkişaf edir. Dünyanın bir çox ölkəsində insan haqlarının pozulması həddindən artıq artmışdır. Yaxın Şərq bu pozuntuların ən çox yaşandığı yerlərin başında gəlir. Hüquq müdafiəçiləri, demək olar ki, hər gün bu ərazilərdə qeyri-insani əməllərin olduğunu bildirirlər.

Dünyada ən çox insan hüquqlarının pozulduğu 11 ölkə bu hesabatların başında yer alır. Bu ölkələr, pozuntuların şiddətinə görə sondan başa doğru; Nigeriya, Yəmən, Myanma, Şimali Koreya, İraq, Əfqanıstan, Somali, Pakistan, Konqo Demokratik Respublikası, Sudan və Suriyadır.

Yenə də bu xəbərlərdə, xüsusən son dövrlərdə mülki şəxs itkisi, qəsdən yaşayış məntəqələrinə atılan bomba, minaatanlar, raketlər, barel bombaları və ölümcül silahların partlaması kimi ballistik raketlər diqqəti çəkir. Son iki ildə mülki yaşayış məntəqələrinə atılan partlayıcı silahlar nəticəsində on minlərlə günahsız vətəndaşın öldüyü və ya şikəst olduğu bildirilir. Bu say hər gün artır.

İnsanlıq adına böyük bir utanc olaraq qəbul edilən bu mülki qırğınların, bütün dünyanın gözləri qarşısında, sürətlə davam etdiyi ölkələrin başında isə Suriya gəlir.

Beynəlxalq rəqabət, mənfəət və çəkişmələrin müharibə meydanına çevrilən Suriyada, 5 ildir ən zalım və mərhəmətsiz ölçülərdə sürən müharibədə, ağır yaralılar xaric, 300 mini aşan insan həyatını itirdi. 7 milyon adam evlərini tərk etmək məcburiyyətində qaldı və bunların 4 milyonu xarici ölkələrdə mühacir, 14 milyonu isə öz ölkəsində insani köməyə möhtac hala gəldi. Məcburi köçə məruz qalan məzlum suriyalılar üçün isə Aralıq dənizi sanki mühacirlərin toplu şəkildə həyatını itirdikləri bir ölüm tələsinə çevrildi.

644 səhifəlik “2015-ci il dünya hesabatı”nda “Human Rights Watch” 90-dan çox ölkədəki insan haqları pozuntularını araşdırdı.

Senat CIA üçün 6.000 səhifəlik işgəncə və müharibə cinayətləri hesabatı hazırladı. Bu hesabata görə, ABŞ son illər təhlükəsizlik qüvvələri, xüsusən də qara dərililərə ədalətsiz və pis rəftar və qətllər yolu ilə qeyri-mütənasib güc tətbiq etməsi ilə insan hüquqlarına etinasız yanaşan əsas ölkələrdən biridir.

Son illərdə, xüsusən də hərbi və təhlükəsizlik qüvvələri ilə Şərqi Türküstan bölgəsində itkin düşmüş, həll edilməmiş, işgəncə və məhkəmədən kənar edamlarla əlaqədar Çində vəziyyət çox da fərqli deyil.

Eyni hesabatda, Misirdəki insan haqları pozuntularının, ölkənin müasir tarixindəki ən ciddi insani böhran olduğu və bunun hələ də bütün şiddəti ilə davam etdiyi ifadə edilir. Bilindiyi kimi, Misirdə 3 iyul 2013-cü il hərbi çevrilişdən sonra minlərlə adam həyatını itirmişdi. Ölkədə rəhbərlik əleyhinə özbaşına həbslər, uzun həbs müddətləri və işgəncələr hələ də azalmadan davam edir.

On illərdir dəhşət verici zülm, təzyiq və ayrı-seçkiliyə məruz qalan rohinca xalqının vəziyyəti də Dünya Hesabatında yer alır. Myanmanın qərbindəki Arakan əyalətində, 2012-ci ildəki zorakılıq hadisələrindən sonra yaşadıqları bölgələri tərk edən 140.000 rohinca müsəlmanına istiqamətli sistematik basqının, bu gün də eyni şəkildə davam etdiyi bildirilir. Banqladeş sərhədindəki Maunqdavca və Buthidaunq şəhərlərində təxminən 1.000.000 rohincalı həyat haqları, iş əldə etmə və dini azadlıq mövzusunda saysız məhdudlaşdırmalarla qarşı-qarşıyadır.

Eynilə, 2015-ci ildə Avropanın müxtəlif ölkələrində qaçqınlara qarşı nümayiş etdirilən və Hitler dövrünü xatırladan ayrı-seçkilik, amansız və dözülməz davranışlar insan haqları və demokratiya qabaqcılı olan Qərbin bu baxımdan səmimiyyətini artırdı. 13 noyabr Paris hücumlarından sonra Fransanın, Avropa Şurasına, "təcili vəziyyət"ə görə insan haqları mövzusundakı məsuliyyətlərini təxirə salacağına dair etdiyi rəsmi müraciət isə son dərəcə narahatlıq vericidir.

Yuxarıda yalnız bir hissəsindən nümunələr verdiyimiz insanlıq cinayətləri dünyanın demək olar ki, hər yerini əhatə etmişdir. Şiddətini artıraraq da davam edir. Hüquq pozuntularından və qəddar davranışlardan və sanksiyalardan qaynaqlanan bu şikayətlərə əlavə

olaraq, biganəlik, etinasızlıq, laqeydlik və ədalətsizliyin qurbanı olan ac, kasıb, evsiz və acınacaqlı insanların sayı yüz milyonlarla ifadə olunur.

Halbuki, dünyamız ümumi ehtiyatları və iqtisadi zənginliyi, üzərində yaşayan insanları, hətta daha da çoxunu rahatlıqla və ən gözəl şəkildə ev sahibliyi edəcək vəziyyətdədir. Ancaq eqoizm, dünyəvi ehtiraslar, hesab və qayğılar, maraqlar, sevgi, şəfqət və gözəl əxlaq əskikliyi, milyonlarla məzlum insanın acı çəkməsinə gətirib çıxarır.

İnsan Haqları Bəyannaməsini imzalayan BMT-nin, əsas belə bir zamanda bu haqlara sahib çıxıb qoruması lazımdır. Ancaq BMT, şiddəti tarixi ölçülərə çatmış dünya səviyyəsindəki insanlıq cinayətlərinə, yalnız cılız bəzi qınama və iradlar xaricində bir həll gətirə bilmir. Güc sahibi bir neçə dövlətin mənfəətlərini qanuniləşdirmə rolundan başqa, insanlığa qatqı mənasında tamamilə simvolik və funksiyasız bir mexanizmdən ibarətdir. Bu səbəbdən insan haqlarını qoruma missiyasını yüklənmiş BMT kimi əhəmiyyətli bir təşkilatdan, bütün dünyanın gözlədiyi əsas və vacib olaraq bu mövzuda konkret və çözüm gətirən addımlar ata bilməsidir.

Görüldüyü kimi insanlıq artıq ən təcili şəkildə, kin, şiddət, müharibə və nifrətdən təmizlənmiş yeni bir modelə möhtacdır. 10 dekabr İnsan Haqları Günü vəsiləsi ilə bir daha, bütün insanların sülh, dinc, xoşbəxt, ədalət və sevgi dolu olduğu, haqlarının tam qorunduğu insanlıq qüruruna yaraşan bir dünyaya ən qısa zamanda qovuşmasını bir daha diləyirik.

Hörmətli Adnan Oktarın "Harakah Daily" və "Morocco World News"də nəşr olunan məqaləsi:

http://www.moroccoworldnews.com/2015/12/175876/humans-have-rights-on-paper-but-apparently-not-in-real-life/

http://www.harakahdaily.net/index.php/article/39067-humans-have-rights-on-paper-but-not-in-real-life

Mühacirlər Türkiyəni AB-yə yaxınlaşdırdı

(“Arab News” - 24 aprel 2015-ci il)

Aylan adlı körpənin sahildəki o faciəvi görüntüsünün ardından, bunun dünyanı yalnız qısa müddət hərəkətə keçirəcəyini söyləmiş və bu xatırlatmanı etmişdik: "Kimsə fövqəladə nəticə gözləməsin. Bir çox faciəvi əhvalatdan sonra olduğu kimi dünya real siyasi hesablarına təkrar geri dönəcək." Bu faciəvi hadisənin insanlar və ya cəmiyyətlər üzərinə qalıcı vicdanı təsirləri şübhəsiz oldu; amma siyasi arenada vəziyyət yenə bildiyiniz kimidir. Avropa hər nə qədər mühacir məsuliyyətini boynuna götürməyi keçici bir müddət etmiş olsa da bu problemin tam mənası ilə məşğul olmaq istəmir. Məhz bu səbəblə Almaniya kansleri Merkel keçən həftə İstanbulda idi.

Merkel əsas öz ölkəsi üçün, lakin bir mənada da Avropa adına Türkiyəyə gəlmişdi. Məqsədi Avropaya addım atan mühacirlərin hədəf olan ölkənin Almaniya olmasından başlayaraq bu axını dayandırmaq və bunun qarşılığında da müxtəlif təkliflər təqdim etmək idi. Burada, Avropa nəzdində mühacirlər mövzusunda ən böyük fədakarlığı göstərən ölkənin Almaniya olduğunu xatırladaq. Qısaca bu ziyarətdə, mühacirlərin Türkiyədə saxlanması və getdikləri Avropa ölkələrindən geri göndərilmələri təklifi gəlmişdi. Bunun qarşılığında Türkiyəyə mühacirlər üçün, miqdarı tam dəqiqləşməyən, lakin 3 milyard Avro olaraq dəyərləndirilən pul köməyi ediləcək, ayrıca AB qapısında gözlədilən Türkiyəyə, uzun zaman əvvəl reallaşması lazım olan bəzi haqlar veriləcək. Bu haqların ən əhəmiyyətlisi Türk vətəndaşlarına veriləcək olan viza azadlığıdır. Buna görə geri qəbul müqaviləsinin qüvvəyə minməsi ilə birlikdə gələn il iyul ayında Türkiyə Şengen müqaviləsinin bir hissəsi olacaq. Bunda meydana gələ biləcək hər hansı bir çətinliyə qarşı isə Türkiyənin geri qaytarma müqaviləsini qəbul etməmə kimi dostyana təhdidi var.

Geri qaytarma müqaviləsinin Türkiyə tərəfindən imzalanması ilə birlikdə, 7 il əvvəl demək olar ki, tamamilə sona çatan Türkiyə-AB müzakirələrinin canlanması və gözləyən yeni goruşmələrin açılması mümkün olacaq. Bu səbəbdən Avropa, müxtəlif səbəblərlə dayandırmış olduğu Türkiyənin AB-yə üzvlük müzakirələrini "məcburiyyətə görə" də olsa təkrar başlatmış olacaq.

Həqiqi siyasət; “güc balansını və milli maraqları nəzərə alan xarici siyasət” deməkdir. Anlayışı ilk istifadə edən və tətbiq edən isə Alman birliyinin memarı Otto von Bismarck olmuşdur (1866). Sivilizasiyaların davamlı münaqişə ilə güclənə biləcəyini və milli maraqların hər şeydən üstün olduğunu iddia edən materialist siyasətlə, həqiqi siyasət zamanla bir çox ölkələr üçün fövqəladə bir maraq halına gəldi. Avropa ilə Türkiyə arasında ehtimal edilən bəhs etdiyimiz müqavilə də qələbə qazanma siyasətinin bir nümunəsi olaraq önə sürülməkdə və bir həqiqi siyasət müvəffəqiyyət olaraq görülməkdədir. Türkiyə AB müzakirələrini bu yolla təkrar başlada bilməkdə; Almaniya isə, mühacir yükünü üzərindən atmaqla bərabər Merkelə 2017-ci ildə seçki müvəffəqiyyəti gətirəcək addımı atmaqdadır. Almanlar arasında həmrəy insanlar olduqca çox olmasına baxmayaraq, mühacirləri aralarında istəməyənlərin nisbətinin 53% olduğu bilinməkdədir.70

Dövlətlərin mənfəətləri üçün müvəffəqiyyət olsa da, burada söhbət hər şeylərini itirmiş, müharibədən qaçan insanlar olduğunu unutmamaq lazımdır. Ölkəsindən qaçmaq məcburiyyətində qalan məzlum insanların həyat qərarlarını başqa dövlətlərin etmələri, “mən qəbul etmirəm, səndə qalsın” deyərək bazarlıq ünsürü halına gətirmələri, Aylanın verdiyi insanlıq dərsini istər istəməz sorğulamamıza səbəb olur. Həqiqi siyasət maraqlar adına qiymətləndirildiyində, bu zehniyyət bir çoxları üçün yaxşı fürsətdir. Ancaq insanlıq adına vəziyyət vicdanlı hesab tələb edir.

Mövcud vəziyyətin müsbət istiqamətlərini də ifadə etməyi laqeyd yanaşmayaq. Əvvəlcə bəhs etdiyimiz müqavilə, (ümid edirik ki) dənizdən Avropaya qeyri-qanuni keçmənin önünü kəsəcək. Bu, daha çox Aylan kimilərin həyatını itirməsinin qarşısını almaq baxımından olduqca əhəmiyyətlidir. Geri qaytarma müqaviləsi, mühacirlərin geri göndərildikləri ölkələrin etibarlı bölgə elan edilməsini tələb etməkdədir. Etibarlı bölgələrdə, mühacirlərin həyat haqları zəmanət altına alınmalı, onlara demokratiya və yaxşı şərtlər təqdim edilməlidir. Bu vəziyyətdə dediyimiz etibarlı bölgə Türkiyədir və bəhs etdiyimiz şərtlərin AB dəstəyi ilə yaradılması Türkiyə üçün qiymətsiz bir qazanc olacaqdır. Türkiyə təxminən 2.5 milyon mühaciri heç tərəddüd etmədən almaqla bütün dünyaya tarix boyunca unudula bilməyəcək insanlıq dərsi vermişdir. Bu qərar ilə ölkəmiz həmişə qürur qaynağımızdır. Lakin Türkiyənin bir anda gələn bu əhali qarşısında bir çox baxımdan hazırlıqsız yaxalandığı

doğrudur. AB-nin dəstəyi ilə nöqsanların təmiri və mühacirlərə veriləcək haqların təmin edilməsi onsuz da istədiyimiz və gözlədiyimiz bir şeydir.

Mühacir mövzusu, insanlıq məsələsi olmasından başqa Türkiyə və AB baxımından iki əhəmiyyətli həqiqəti göstərmişdir:

Birincisi, AB İslam ölkəsi olmasına görə hər nə qədər bütün gücü ilə Türkiyəni kənarlaşdırmağa çalışsa da, Türkiyənin eyni zamanda bir Avropa ölkəsi olduğunu da xatırlamaq məcburiyyətində qalmışdır. Orta Şərqin giriş qapısında, avropalı demokratik İslam ölkəsinə Avropa Birliyinin ciddi şəkildə ehtiyacı vardır. Tarix bunu dəfələrlə göstərmişdir və Suriya böhranı ilə təkrar göstərməkdədir.

İkincisi isə, əgər Türkiyə həqiqətən avropalıdırsa, Avropanın demokratiya, azadlıq, qadın haqları, incəsənət, keyfiyyət kimi gözəl dəyərlərinə əhəmiyyət verən bir üslub və zehniyyət inkişaf etdirməlidir. Bütün siyasətlərini və prioritetlərini bunun üzərinə qurmalıdır. Avropanın azadlıq və ədalət anlayışından faydalanmaq istəyib, Avropanın bütün dəyərlərinə israrla qarşı çıxan mövhumatçı zehniyyəti müdafiə edən kəslərə üstünlük verməməlidir.

Dünya dəyişir. Ümid edirik bu yeni dövr suriyalı qonaqlarımızın ölkəmizdə rahat olduqları, dənizdə ölmədikləri və Türkiyədə bu vəsilə ilə insan haqları və demokratiyanın daha çox inkişaf etdiyi bir dövr olar. Tarix çətinlik içində olanlara qucaq açanları heç bir zaman unutmamışdır, unutmayacaq.

Hörmətli Adnan Oktarın “Arab News”da nəşr olunan məqaləsi:

http://www.arabnews.com/columns/news/824991

Mühacirlər Paris hücumlarına cavabdehi yox, zərərçəkənidir

(“MBC Times” - 27 dekabr 2015-ci il)

Avropa sahillərinə çatmağa çalışarkən, Egey və Aralıq dənizinin sularında boğulurlar; körpə, qadın, kişi cəsədləri sahilə vurur. Hətta bəzən qayıqları bilərəkdən batırılır və dənizdə ölümə tərk edilirlər.

Ya da səyahət etdikləri yük maşınlarında havasızlıqdan can verirlər.

Mədəniyyətin mərkəzi olaraq qəbul edilən torpaqlarda uşaq və qadın ayırmadan bibər qazı və təzyiqli su ilə qarşılanır, döyülür, yerlərdə süründürülürlər.

İnsan haqları və hüququn üstünlüyü dəyərləri üzərində qurulan Avropa Birliyi ölkələrində qəfəslərə bağlanılaraq insanlıqdan kənar hərəkətlərə məruz qala bilirlər.

Bütün bu zülmlər bəs deyilmiş kimi, indi də bəzi kütlələr tərəfindən Paris hücumlarının cavabdehi olaraq göstərilirlər.

Onlar demək olar ki, hər gün faciələrini mediadan izlədiyimiz mühacirlərdir. Əslində tək məqsədləri var: Bombardmanlar, terror və müharibə səbəbiylə artıq yaşanmaz hala gələn vətənlərindən qaçırlar; ailələri ilə birlikdə hüzurlu, təhlükəsiz və rifah içində yaşaya biləcəkləri ölkələrə çatmağa çalışırlar.

Hər nə bahasına olursa olsun mühacirlərin Avropaya qəbul edilməsinə qarşı olan kütlələr, Paris hücumlarını bəhanə etməkdə gecikmədilər. Fransa Milli Cəbhə Partiyası lideri Marine Le Pen immiqrant qəbulunun dərhal dayandırılması çağırışı etdi; səbəbi isə mühacirlərin arasında İŞİD üzvlərinin ola biləcəyi ehtimalı idi.71 Polşa Hökuməti Avropa Birliyi naziri Konrad Szymanski, Parisdə reallaşan faciəvi hadisədən sonra, AB-nin mühacirləri Avropa ölkələri arasında bölüşdürmə layihəsinin tətbiq etmək imkanı qalmadığını söylədi.72

Nasist Almaniyası II Dünya Müharibəsində Parisi işğal etdiyində, digər ölkələr ölümdən qaçan fransızları, aralarında nasist agenti ola bilər ehtimalıyla qəbul etməsəydilər, Le Pen nə deyərdi? Ya da qərb ölkələri,

soyuq müharibə illərində, Sovet İttifaqı işğalı altındakı Polşadan gələn mühacirləri geri göndərsəydilər Szymanski nə düşünərdi?

Xoşbəxtlikdən mövzunu ağılla qiymətləndirən qərbli siyasətçilər də çıxdı. Almaniya Daxili İşlər naziri Tomas da Maiziere, mühacirlər ilə Paris terror hücumları arasında əlaqə qurulmamasını ifadə etdi.73 Yenə Avropa Komissiyasının sədri Jean Claude Juncker avropalı liderləri xəbərdar etdi; Terroristlər və qaçqınları qarışdırmamaq lazım olduğunu və hücumların günahkarlarının sözün əsl mənasında sığınacaq axtaranların qaçdıqlarını söylədi.74

Mediada mühacirləri terrorist kimi göstərib hər yerdə əzilmələrinə çalışan, bilərək və ya bilməyərək onları hədəf göstərənlər var. Şübhəsiz, Paris hücumlarını bu cür məzlum insanların üstünə yıxmaq çox böyük bir zülm olar. Həmçinin, indiyə qədər təhqiqatın ortaya qoyduğu həqiqət, terror aktına qatıldığı dəqiqləşən bütün militanların AB vətəndaşı olduğudur. Təcavüzkarların birindən iddia edildiyi kimi Suriya pasportu çıxdığını qəbul edək. Bu pasport oğurlanmış və ya saxta ola bilər, terroristə deyil də hadisə yerindəki günahsız birinə aid ola bilər, bir çox ehtimal mümkündür. Təhlükəsizlik səbəbiylə əhatəli tədbirlər almaq dövlətlərin əlbəttə təbii haqqıdır, amma immiqrantlara sərhədləri bağlamaq bir tədbir deyil.

Qaldı ki, İŞİD kimi radikal təşkilatların şiddət və terror aktları reallaşdırmaq üçün immiqrantlara ehtiyacı yoxdur. Onsuz da hal-hazırda Avropa sərhədləri daxilində fransız, ingilis ya da AB vətəndaşı minlərlə İŞİD mənsubu və ya dəstəkçisi yaşayır. Bu səbəbdən günahsızı günahkardan seçmək ancaq ətraflı kəşfiyyat ilə mümkün ola bilər.

Əlbəttə ki, kəşfiyyatın şiddəti artırmayan bir şəkildə istifadə edilməsi vacibdir. Xəbər alma fəaliyyəti çözüm deyil, yalnız qoruyucu və önləyici bir tədbir ola bilər. Qəti həll üçün isə problemin mənşəyinə istiqamətli bir

plan lazımdır. Şiddət tərəfdarı radikal militanlar İslamı Qurana görə anlamır; mövhumatçı inanclar, saxta hədislər və xurafatlardan çıxardıqları izahlar ilə öz ağıllarına görə şiddəti qanuni hala gətirirlər. Bu səbəbdən qəti həll, yalnız həqiqi İslamı və Quran əxlaqını əsas götürən bir təhsildir. Sevgi ilə, şəfqətlə, mərhəmətlə və təvazökarlıqla yaxınlaşaraq təqdim ediləcək bir təhsil. Bunun xaricində əsla azğın ideologiyalarını və silahlarını əldən buraxmazlar.

Mühacirlərə görə sərhədlərə tikanlı məftillər çəkmək və ya yüksək divarlar hörmək qəti həll olmaz. Onlar şiddətdən və müharibədən qaçan və bu uğurda hər cür çətinliyi, hətta ölümü gözə alan insanlardır. Belə tədbirlər mühacirlərin çətin həyat şərtlərini dözülməz hala gətirər, amma yollarından geri çevirməz, daha da dəhşətlisi soyuq hava şərtlərində kütləvi ölümləri qat-qat artırar. Düşünməsi belə narahat edən bu vəziyyət isə, vicdani dərin yaralar açar, Avropa tarixi üçün bir utanc qaynağı olar.

Onlar evlərini, mallarını, sevdiklərini, hər şeylərini geridə buraxmış kasıb və məzlum insanlardır. Dəhşət içində hara gedəcəklərini, nə edəcəklərini bilməyəcək vəziyyətdədirlər. Çoxunun üzərindəki paltarı və kiçik plastik torbasındakı bir neçə əşyasından başqa heç bir şeyi yoxdur. Avropalılar qısa bir müddətə də olsa özləri, ailələri və sevdiklərini bənzər bir vəziyyətə düşdüyünü düşünməli; mühacirlərin düşdüyü çətinliyi hiss etməyə çalışmalıdırlar. Bu sayədə onlara sevgini, şəfqəti və mərhəməti əsas götürərək yaxınlaşmanın əhəmiyyətini daha yaxşı anlayacaqlar.

Qərb dövlətləri əhəmiyyətli bir imtahandan keçir. Sahib olduqları güclü maddi, iqtisadi və texnoloji imkanlarla mühacir probleminə təcili həllər tapa bilərlər. Ümid edirik, çarəsiz vəziyyətdəki mühacirlərə sevgi ilə qucaq açarlar və müdafiə etdikləri azadlıq, bərabərlik, qardaşlıq, ədalət, sevgi, həmrəylik kimi gözəl dəyərləri bir daha sahiblənərlər. Əks təqdirdə daha çox şiddətli hadisələrə səbəb olacaqdır.

Hörmətli. Adnan Oktarın “MBC Times”da nəşr olunan məqaləsi:

http://www.mbctimes.com/english/refugees-are-the-victims-of-the-paris-attacks-not-its-perpetrators

FƏSİL 4

Sonsöz

(14 dekabr 2015-ci il)

Bu gün İraqda, Suriyada, Liviyada, Misirdə, Əfqanıstanda və daha dünyanın bir çox bölgəsində müsəlmanlar hücuma, təcavüzə məruz qalır, köç etməyə məcbur edilir, ya da qətl edilir. Köç etməyə məcbur edilənlərin də əhəmiyyətli bir hissəsi yollarda canlarını verirlər. Köç etməyə məcbur edildikləri üçün, Egey dənizində boğulan kiçik, günahsız uşaqların fotoşəkilləri hələ də gözlərəmizin qarşısındadır. Belə bir mənzərəni şübhəsiz, heç bir səmimi müsəlman qəbul edə bilməz. Sanki bu hadisələrin heç biri ona maraqlı deyil kimi əsla arxasını dönüb gedə bilməz. Hər müsəlman, bu gedişata "dayan" deməklə məsuldur. Əvvəlcə, müsəlmanların bir-birinə sahib çıxmaları və tezliklə birlik olaraq bu zülmə etiraz etmələri, Allahın bizə Quranda bildirdiyi fərzdir:

Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?

(Nisa surəsi, 75)

Diqqət yetirilsə Avropada tək bir insan öldürülsə bütün dünya ayağa qalxır, ancaq milyonlarla müsəlmanın qətl edilməsi dünyada dərin bir səssizlikdən başqa heç bir təsir yaratmır. Müsəlmanlar, dünyanın böyük bir hissəsi tərəfindən dəyərsiz görülür. Hətta, heyvanlara göstərilən maraq və şəfqət belə, bəzi yerdə müsəlmanlar üçün göstərilmir. Görəsən bu vəziyyətin günahkarı, ya da cavabdehi kimdir? Hansı səbəblə bu gedişata kimsə "dayan" deyə bilmir və getdikcə artan sürətlə bu zülm böyüyür?

Bu gedişatın cavabdehini və səbəbini əlbəttə ki, əvvəlcə müsəlmanlar arasında axtarmaq lazımdır. Çünki, Allah zülmün yalnız "birlik olmaqla" sona çatacağını bildirmişkən, müsəlmanların çox böyük bir hissəsi Allahın bu əmrini göz ardı edir. Bəziləri sanki özlərindən başqa doğru yolda olan müsəlman camaatı yoxmuş kimi davranır. Hətta bəziləri də bir-birlərini düşmən olaraq görür. Buna görə də heç bir zaman həqiqi mənada birlik ola bilmirlər. Məsələn Avropada bir çox məscid fərqli qrupların hakimiyyəti altında istifadə edilir. Bu səbəbdən bir müsəlman istədiyi kimi hər hansı bir məscidə gedə bilmir; mütləq öz inancına uyğun kəslərin, daxil olduğu müsəlman camaatın olduğu məscidə getməsi lazımdır. Məhz bu acı həqiqət belə, müsəlmanların əsrlərdir niyə bir-birindən uzaq olduğunun, niyə zəif və gücsüz qaldığının açıq bir göstəricisidir. Ən əhəmiyyətlisi də, Allahın "qardaş olduqlarını" bildirdiyi müsəlmanların bu ayrılığı, Allahın razı olmayacağı bir əxlaq olduğu üçün, bu vəziyyət bərəkətsizlik, əzab-əziyyət və çətinliklərə gətirib çıxarmaqdadır. Allah Quranda "birlik olmamağın" necə olacağını belə açıqlamışdır:

> *Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.*
>
> **(Ənfal surəsi, 73)**

Birlik bir tərəfə, hal-hazırda dünyanın bir çox yerində müsəlmanların ən böyük düşmənləri yenə bəzi müsəlmanlardır. Bu gün yer üzündə öldürülən müsəlman sayına baxdığımızda, bu rəqəmin 90%-nin müsəlmanların əli ilə reallaşdığını görürük. Dünyanın əsas böhran və müharibə bölgələrinə baxdığımızda da bunların müsəlman torpaqları olduğunu və o sahələrdə bir-biriylə var gücü ilə müharibə edən, bir-birini qətl edənlərin də yenə müsəlman birliklərin olduğunu görürük.

Bu gün yer üzündə təxminən 1.57 milyard müsəlman yaşayır. Müsəlman ölkələr olduqca geniş iqtisadi və hərbi imkanlara sahibdirlər. Müsəlmanlar aralarındakı ixtilafları bir kənara buraxıb bir araya gəlsələr həm maddi, həm də mənəvi baxımdan dünyanın ən böyük gücünü meydana gətirərlər. Bu elə bir gücdür ki, bu gücün mində biri belə istifadə edilsə yer üzündə ac, susuz, köməyə möhtac olan müsəlman qalmaz. Yalnız müsəlmanlara deyil, Quran əxlaqının gərəyi olaraq, dünyanın dörd bir tərəfindəki hər inancdan, hər fikirdən insana kömək əli uzadılmalıdır. Bu birliyin gücü ilə insanlığın yaşadığı bütün dərdlərə və çətinliklərə həll gətirilə bilər.

Məhz belə gözəl bir nəticə üçün isə əvvəlcə müsəlmanların məzhəb, təriqət fərqi güdmədən və heç bir böyüklük hissinə qapılmadan, Allahın fərz etdiyi bu böyük ibadəti yerinə yetirmələri və birlik olmaları lazımdır. Bu günə qədər baş verən əzablar göstərmişdir ki, bu müddət nə qədər uzadılsa, acılar da artaraq böyüməkdə və daha qorxunc nəticələr meydana gəlməkdədir. Əlbəttə ki, bunun günahı da bu çağırışa laqeyd

qalan, öz aralarındakı ixtilaflarla məşğul olan müsəlmanların boynuna olacaq.

Dünyada və axirətdə bu cür böyük bir məsuliyyətin altında qalmaqdan çəkinən bütün müsəlmanların əvvəlcə "böyüklük" və "üstünlük" iddiasından əl çəkmələri lazımdır. Sonra isə müsəlman qardaşlarına müxalif olmaq səhvini görmələri vacibdir. Allahın əmrini yerinə yetirmək üçün niyyət etməli; birlik və bərabərliyi pozacaq fikir ayrılıqlarından çəkinməlidirlər. Bu gün vacib olan "birlik olmaq"dır. Bu, Allahın müsəlmanlara açıq bir əmridir. Buna görə bunun qarşısında heç bir maneə ola bilməz. Hal-hazırda dünya hərçi-mərc içindədir. Milyonlarla günahsız müsəlman zülm altındadır. Necə ki, haradasa bir ev yanarsa heç kim əvvəlcə evdəki stolu, stulu qurtarmağa çalışmaz, əvvəl insanların canını qurtarmağa çalışar; hal-hazırda dünyada belə bir zülm varkən, müsəlmanların əsas məsuliyyəti, digər mövzulardan əvvəl bu birliyi qurmaq üçün səy göstərmək olmalıdır.

Şübhəsiz ki, bu vəziyyətdə ağla gələn sual belə olacaq: "Yaxşı, müsəlmanlar necə bir yerə gələcəklər?". Bu birlik əlbəttə ki, rəsmi, saxta bir birlik olmayacaq. Necə ki, belə sınaqlar çox edilmiş və bu təşkilatlar bir nümayişdən uzağa gedə bilməmişdir. Məsələn, son dövrdə İranda edilən birlik konfransında, şiələr və sünnilər ayrı-ayrı, öz məzhəblərinə bağlı imamların arxasında namaz qılmışdılar. Bu səbəbdən guya birlik üçün bir araya gəldikləri bir mühitdə, ayrılıqlarını açıq şəkildə ortaya qoymuşdular.

Bu bilinməlidir ki, müsəlmanlar ancaq, rəsmiyyətdən uzaq, səmimi, sevgi dolu bir mühitdə bir yerə gələ bilərlər. Bu vəziyyətdə, müsəlmanların birlik olması üçün ediləcək yeganə yol, hər təbəqədən müsəlmanın sözünə, səmimiyyətinə, fərasətinə, sevgisinə, qardaşlığına, məlumatına tam güvənə biləcəyi və heç bir təbəqəyə bağlı olmayan, tərəfsiz, ədalətli

bir müsəlmanı mənəvi lider olaraq seçmələridir. Çünki, bir başçı olmadan heç bir zaman bir birlikdən söhbət gedə bilməz. Məhz o adam, böyük müsəlman birliyinin başçısı olacaq. Beləliklə, müsəlmanlar artıq sahibsiz olmayacaq, ürəkdən bağlı olduqları bu insana çox dəyər verəcəklər və onun sözlərini sevərək tətbiq edəcəklər.

Müsəlmanların mənəvi bir lideri olduğunda nələr baş verər? Əvvəlcə ilk ağla gələn əsas mövzuları sıralayaq:

Müsəlmanlar fərqli fikirdə də olsalar, bütün problemlərini bir-birləri ilə müharibə etmədən, zorakılıq olmadan, sevib saydıqları liderlərinə müraciət edərək asanlıqla öz aralarında həll edərlər.

Böyük bir sevgi mühiti meydana gələr, bütün müsəlmanlar yaxınlaşar, güvən və hüzur mühiti yaşanar. Beləliklə müsəlman dünyasında hər sahədə böyük bir potensial ortaya çıxar; elm, incəsənət, iqtisadiyyat mümkün qədər inkişaf edər, böyük bolluq və firavanlıq mühiti yaranar.

Xristian və yəhudi icmaları ilə yaxşı əlaqələr qurular, çünki müsəlmanlar keyfiyyəti, müasirliyi, sevgini və yaxşı davranışları artıracaqlar.

Dünyanın harasında olursa olsun, heç kim sahibsiz gördüyü üçün müsəlmanların haqlarına hücum edə bilməz; çünki belə bir vəziyyətdə, haqq və hüquq ilə özünü müdafiə edəcək, bir-birinə sıx bağlı böyük bir gücü qarşılarında görəcəklərini bilərlər.

Birlik içində olan müsəlmanların arasına xarici dərin dövlət mənsubları ayrılıq, müharibə toxumları əkə bilməz. Hər fitnə, müsəlmanların mənəvi lideri tərəfindən söndürülər. Beləliklə müharibə tacirlərinin müsəlman qanı ilə bəslənməsinə də maneə törədilər.

Yer üzündə baş verən hər hansı bir cinayət müsəlmanlara aid edilərək, müsəlman qırğını başladıla bilməz. Çünki müsəlmanlar, Quran əxlaqının

gərəyi olaraq, cinayətə və zorakılığa qəti olaraq qarşı olan liderlərinin sözündən çıxmazlar. Beləliklə, heç bir təxribata da imkan verməmiş olarlar.

İndi də "Bu mümkündür?" sualına belə cavab verə bilərik: Əlbəttə ki, mümkündür. Çünki bu, Allahın Quranda əmr etdiyi və yerinə yetirildiyində yer üzünə güvən və hüzuru gətirəcəyini müjdələdiyi böyük bir ibadətdir.

Türkiyə mühacirlər mövzusunda yenə əhəmiyyətli rolu boynuna götürür

("Gulf Times" - 16 fevral 2016-ci il)

2016-cı ilin fevral ayı Suriya qaçqın böhranında yeni bir mərhələ kimi görünür. Noyabr ayından bəri Rusiya hava bombardmanı ilə irəliləyən Suriya rejimi qüvvələri Hələb şəhər mərkəzini mühasirəyə aldı. Haləbin Türkiyə ilə əlaqəsini təmin edən koridoru da yararaq bağladı.

Türkiyə-Suriya sərhəd xəttindəki çadır şəhərləri, bu hücumlardan qaçan 50.000 mühacir ilə tamamilə dolmuşdur. Çətin qış şərtləri ilə boğuşan yazıq insanların böyük əksəriyyəti yaşlı, qadın və uşaqlardan ibarətdir.

İdarəli olaraq Türkiyəyə qəbul edilən mühacirlərdən ilk etapda 10.000 nəfərlik bir qrup sərhəddən içəri qəbul edildi. Ancaq, rejim-Rusiya koalisiyasının sıradakı hədəfi olan Hələbi tamamilə ələ keçirdikdə təxminən 1.000.000 nəfərlik yeni bir mühacir dalğasının Türk sərhədinə çatması an məsələsidir.

Suriyalı mühacir axını 3 may 2011-ci ildə Türkiyə sərhədinə gələn 300 adam ilə başlamışdı. 2011-ci ilin iyununda Cisr Ko-Sugur şəhərinin rejim gücləri tərəfindən əhatə edilməsi ilə ilk dəfə 10.000 adamlıq mühacir qrupu ortaya çıxdı. Daha sonra suriyalı mühacir sayı 2012-ci ildə 400 minə, 2013-cü ildə 1.5 milyona, 2014-cü ildə 3 milyona, 2015-ci ildə isə 4

milyona çatdı. Dünyanın ən inkişaf etmiş müharibə təyyarələri tərəfindən bombalanan şəhərlər bu gün dağılmış vəziyyətdədir. Yəni mühacirlərin böyük əksəriyyətinin artıq geri dönə biləcəyi bir evi, hətta şəhəri belə yoxdur.

Sərhədi keçən mühacir sayının hər keçən gün sürətlə artmasından sonra, 2012-ci il mart ayında, Türk hökuməti 4 böyük şəhərdə çadır şəhərciyi qurmağa başladı. Türkiyə 600 km-lik Suriya sərhədində ilk gündən etibarən açıq qapı siyasəti tətbiq edir. 2.5 milyondan çox mühacir bu gün Türkiyə sərhədləri daxilində yaşayır. Bunların arasında, 300.000 suriyalı uşaq Türkiyədə təhsil alır, 150.000 suriyalı körpə də Türkiyədə həyata gözlərini açdı. Bu gün mühacirlərin yalnız 10%-i mühacir şəhərciklərində qalır. 90%-lık bir hissə isə Türkiyənin müxtəlif yerlərinə dağılmışdır. 130.000 nəfərlik əhalisi ilə 120.000 mühacirə ev sahibliyi edən Kilis şəhəri Nobel Sülh Mükafatına namizəd göstərildi. Bir çox adam kilislilərin bu rəftarını bu günə qədər tayı bənzəri görülməmiş bir fədakarlıq nümunəsi olaraq göstərir.

Türkiyənin 5 ildə mühacirlər üçün xərclədiyi məbləğin dəyəri 10 milyard Amerikan dollarına çatdı. Türk dövləti bu pulun demək olar ki, hamısını öz qaynaqlarından təmin etdi. Beynəlxalq cəmiyyət isə Türkiyədəki 2.5 milyon mühacirin varlığını uzun zaman görməməzlikdən gələrək Türkiyəni köməksiz və tək başına buraxdı. Hələ də sərhədin Suriya tərəfindəki düşərgələrin ehtiyacları da Türkiyə tərəfindən boynuna götürülmüşdür. Bu kömək səfərbərliyində Türk qeyri-hökumət təşkilatları, rəsmi quruluşlarla gözəl bir koordinasiya içində işləyir. Bir çox Türk yardım təşkilatı, xüsusən də İHH, milyonlarla insanın əziyyətlərini müəyyən qədər yüngülləşdirməyə çalışırlar. 75

Suriyalı mühacirlərin gözlərində Türkiyənin, Türk xalqının yeri çox fərqlidir. Ailəsi ilə Suriyanın Azez şəhərindən qaçaraq Türk sərhədindəki Harameyn düşərgəsinə sığınan Abdullah Əzizi yaşadıqlarını belə izah edir: “Sanki cəhənnəmdəyik. Dörd bir tərəfdən rejim və dəstəkçiləri bizi vurur. Təyyarələrin atdığı bombalar evlərimizi başımıza yıxır. Tək sığınacağımız ocaq, tək zəmanətimiz Türkiyədir. İnsanlıq buralarda ölmüş, dünya ölümümüzü izləyir”. Yeni qurulan Harameyn düşərgəsinə yeni gələn Əhməd Abdullah isə, “Bizim tək dostumuz varmış, o da Türkiyə. Ərəb olmamıza baxmayaraq illərlə bizə yemək və paltar dəstəyini kəsmədi. Bizi bu vəziyyətə salanlar Allahından tapsın. Gün gəlincə onlar bizə etdiklərinin əvəzini ödəyəcəklər” sözləri ilə hisslərini ifadə edir.

Çox yaxında qarşılaşılacaq ən vacib problem, Hələbin işğal olmasından sonra ortaya çıxacaq 1.000.000 adama yaxın nəhəng mühacir qrupudur. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, Türk dövlətindən qapılarını Hələbdən gələn mühacirlərə açmasını istəyir. Türkiyənin illərdən bəri bu məzlum insanlara qapılarını heç bir zaman bağlamadığı həqiqətindən sanki xəbərsizdirlər...

Türkiyənin bu mövzuda, başda BMT və AB olmaq üzrə, beynəlxalq cəmiyyətdən təcili kömək tələblərinə isə nədənsə eyni ciddiliklə qarşılıq gəlmir. AB ölkələri, Türkiyədəki qaçqınların ehtiyacları üçün 3 milyard Avroluq yardım paketini bir neçə aydır dilə gətirir. Üstəlik bu qədərlik pulu da 2 ilə bölməyi düşündüklərini ifadə edir. Angela Merkel ötən həftə Türkiyə ziyarəti əsnasında bu pulun Brükseldəki bir sonrakı yığıncaqda verilməsi üçün əlindən gələni edəcəyini söylədi. Türkiyə Baş Naziri Əhməd Davudoğlu isə bu kömək vədi ilə əlaqədar bunları söyləyir:

"3 milyard avro Türkiyəyə edilən kömək deyil. Suriyalı mühacirlərə verilən puldur. Səhv fikir formalaşıb. Türkiyə 3 milyard avro ilə qaçqın sövdələşməsi edəcək qədər insani vicdandan uzaq bir ölkə deyil. Biz kimsəylə mühacirlərin xərcinin sövdələşməsini etmədik, etmərik. O pul humanitar yardımdır. Suriyalı mühacirlərindir. İqtisadi yükü paylaşmaq üçün AB-nin təklifidir. AB-dən gələn köməyin bir qəpiyi belə Türkiyə üçün istifadə edilməyəcək."

Haqqında danışılan 3 milyard avronun mühacirlərin ehtiyaclarını qarşılamaq baxımından son dərəcə yetərsiz, tamamilə simvolik bir rəqəm olduğu ən sadə bir riyaziyyat hesabı ilə belə aydın ola bilər. Sığınacaq, yemək, istilik, geyim, təmiz su və təhsil kimi milyonlarla insanın əsas ehtiyacları qarşılanır. Suriya sülh danışıqları sona çatdı və bölgədəki gərginlik və xaosun artması müharibənin nə vaxt bitəcəyini qeyri-müəyyən etdi. Üstəlik, müharibə başa çatsa da, qaçqınların geri dönə biləcəyi evlər, məhəllələr və ya şəhərlər yox idi. Bu səbəbdən 5 ildir davam edən mühacir problemlərinin ən az bir o qədər də davam etməsi ehtimal edilir. Bu səbəblərə görə, bu kasıb, çarəsiz insanlara real bir töhfə vermək üçün ən azı 30-40 milyard avro məbləğində yardım paketinin təcili olaraq təsdiqlənməsi lazımdır.

Məlum olduğu kimi, Avropa Birliyi ildə 20 trilyon ABŞ dollarına yaxınlaşan dünyanın ən böyük iqtisadiyyatıdır. Bu gücdə bir birliyin belə humanitar yardım üçün bu qədər müqavimət göstərməsi, bunu insan sövdələşməsi halına gətirməsi uyğun deyil. Avropalı liderlər real siyasət, ya da milli mənfəətlərinə görə deyil, vicdanlarının səsinə görə hərəkət etməlidir. Zaman sövdələşmə zamanı deyil, insanlıq zamanıdır. Avropa mədəniyyəti, fədakarlıqda və həmrəylikdə bütün dünyaya nümunə olmalıdır. AB-nin qərar mexanizmləri, bəzi kor olmuş vicdanların insafına buraxılmamalıdır. Əks halda, hal-hazırda baş verən insanlıq faciəsi tarixi bir insanlıq ayıbına çevriləcəkdir.

Hörmətli Adnan Oktarın bu məqaləsi "Gulf Times"-da dərc olunmuşdur:

http://www.gulf-times.com/story/480235/The-EU-is-in-danger-of-taking-Turkey-for-granted

Sonsöz

Kitabın əvvəlindən bəri təqdim edilən, dünyanın ən böyük qəzetlərində nəşr olunmuş məqalələrdə dövrümüzdə yer üzünün bir çox yerində baş verən müharibə və qarşıdurmaların təsiri ilə evlərini, yurdlarını, ailələrini, dostlarını, mallarını mülklərini geridə buraxıb xarici ölkələrə sığınmaq məcburiyyətində qalan milyonlarla insanın düşdüyü çətin şərtlərə toxunduq. Aralarında kiçik uşaqlar, hətta körpələr, qadınlar, yaşlılar olan bu məzlum insanların bəzisi soyuq havaya, yağışa və palçığa baxmayaraq həyatını qurtarmaq bahasına arxasına baxmadan qaçır, bəzisi özü ilə bir şey götürmədən, köhnə gəmilərə yalnız paltarları ilə minərək naməlum bir səyahətə çıxır. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) hesabatına görə dünyadakı mühacir sayı 50 milyonu aşmışdır. Öz vətənlərini, doğulub böyüdükləri

torpaqları və vərdiş etdikləri hər şeyi geridə buraxaraq tam fərqli torpaqlara köçmək məcburiyyətində qalmış 50 milyon insan...

Heç şübhə yoxdur ki, bu gün mühacir deyiləndə ağılımıza dərhal, təxminən beş ildən bu yana müharibənin səngimədən davam etdiyi Suriyadan köç edən 4 milyon insan gəlir. Bu rəqəmin 75%-ni qadınlar və uşaqlar tutur. Evlərini buraxıb başqa bir şəhərə köçmək məcburiyyətində qalan, digər bir ifadə ilə öz yurdlarında mühacir vəziyyətinə düşən 7 milyondan çox suriyalını da hesaba qatsaq, müharibədən əvvəl 22 milyon əhalisi olan ölkənin demək olar yarısının məcburi köçə məruz qaldığını söyləmək mümkündür.

Vətəndaş müharibəsi və aclıq səbəbi ilə yurdlarını tərk edən bir başqa xalq da somalililərdir. Müxtəlif ölkələrə dağılmış olan somalili mühacirlərin sayı bir milyonu aşır. Müharibədən qaçaraq bir çox ölkəyə sığınmış olan əfqan mühacirlərin sayı isə 2.4 milyondur.

Myanmanın Arakan bölgəsində yaşayarkən gördükləri zülmdən qaçan 1.5 milyon rohincalı müsəlmanı Bangladeşdə aclıqla mübarizə apararaq həyatda qalma mübarizəsi verir. 240 mindən çox rohincalı müsəlman da milyonlarla suriyalı kimi öz vətənində mühacir vəziyyətinə düşən bir birlikdir. Ölkənin Tailand sərhədində isə 120 min mühacir var. Pakistan, Səudiyyə Ərəbistanı, Malayziya, Tailand və bəzi Avropa ölkələrində də yüz minlərlə rohincalı mühacir statusunda yaşayır.

Mühacir probleminin Suriya, Əfqanıstan, Somali, Myanma xaricində İraq, Sudan, Yəmində və daha bir çox ölkədə gedərək artdığı bilinir. Zülm, təzyiq və zorakılığa görə sonu bilinməyən bir səfərə çıxmaq məcburiyyətində qalan milyonlarla insanın bəzisi yollarda həyatını itirərkən, hədəflərinə çatan az bir hissəsi də heç layiq olmadıqları insanlıqdan kənar rəftarlarla qarşılaşa bilirlər.

Halbuki dinləri, məzhəbləri, mənşələri nə olursa olsun hər hansı bir səbəblə yer üzündə zəif düşmüş insanlara sahib çıxmaq, onları qorumaq və dünyadakı zülmün sona çatması üçün cəhd göstərmək bir insanlıq vəzifəsi olmasından başqa, İslamın əhəmiyyətli bir şərtidir. Ediləcək əsas şey, ölüm qorxusu ilə yurdlarından çıxan və etibarlı bir sığınacaq axtarışında olan məzlum insanlara sevgi və şəfqətlə qucaq açmaq, əldəki bütün imkanları onlarla paylaşmaqdır Başqalarının təhlükəsizliyinə gəldikdə, onların qurtuluşunu öz rahatlıqlarından, öz hüzurundan daha yaxşı görmək fəzilət şərtidir. Üstəlik qaçqınlara yalnız sərhəd qapılarını açmaq deyil, onları öz evlərindəymiş kimi qonaq etmək, rahat etdirmək də İslami və əxlaqi dəyərlər çərçivəsində üzərimizə düşən bir məsuliyyətdir.

Bu nöqtədə həm dövlətlərə, həm qeyri hökumət təşkilatlarına, həm də dünya mediasına böyük bir vəzifə düşməkdədir. Mühacir məsələsinə insani bir məsələ olaraq baxıldığında, aid olduqları vətəndən, evlərindən, ailələrindən, mallarından, mülklərindən ayrılmaq məcburiyyətində qalan bu yazıq insanlara sevgi və şəfqət əsaslı bir yanaşma mənimsədiyində problemin kökdən həll ediləcəyinə şübhə yoxdur. Unudulmamalıdır ki, sevgi bütün çətinliklərin həllidir. Dünyanın dörd bir tərəfində həmrəylik və fədakarlığı dirildəcək bir sevgi kampaniyası başlatmaq, mühacir problemini həll etmədə ən əhəmiyyətli addım olacaqdır.

Həqiqət budur ki, yaşadığımız dövr, ədalətsizliklərə və şiddətə səssiz qalınacaq, milyonlarla insan zülm altında ikən heç bir şey yoxmuş kimi davranılacaq bir dövr deyil. Mühacir mövzusu da, heç bir şəkildə səssiz qalınmayacaq bir mövzudur. Zülmə səssiz qalmanın zülm olduğu həqiqətini unutmadan, vicdan sahibi hər kəs məzlum mühacir qardaşlarımızın qurtuluşu üçün üzərinə düşən vəzifəni yerinə yetirməlidir.

ƏLAVƏ BÖLMƏ 5

Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun

bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution

of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

> **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur

təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət

olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar

edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların

qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli

əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə

dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb

çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəzilərdir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli

qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir

təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz

daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi

qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:



(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.

(Əraf surəsi, 116)


Earth
SPECIAL ISSUE
ORIGINS
The Oldest Questions,
Our Newest Answers

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:



Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.

(Əraf surəsi, 117-119)





Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!

(Bəqərə surəsi, 32)


Konuşma
Düşünme
Hareket
Görme
İşitme
Koku alma
Tat alma
Dokunma

FƏSİL 6

Qeydlər

http://www.mynet.com/haber/guncel/Yermuk-multeci-kampindaki-buyuk-dram-1032766-1

http://www.zaman.com.tr/dunya_Yermuk-kampinda-50-kisi-acliktan-oldu_2194016.html

https://www.aa.com.tr/tr/dunya/276131—Yermuk-multeci-kampi

http://www.haber7.com/ortadogu/haber/1123066 -Yermuk-multeci-kampi-nefes-aldi

http://www.hurriyet.com.tr/dunya/25590184.asp

http://www.hurriyet.com.tr/dunya/26868411.asp

http://www.aljazeera.com.tr/interaktif/66-yillik-felaket

http://www.aa.com.tr/tr/dunya/353796—26-afrika-ulkesi-gida-yardimina-muhtac

http://www.huffingtonpost.co.uk/robin-lustig/this-immoral-government_b_6080696.html

http://www.multeci.net/index.php?option=com _content&view=article&id=216:denizdeki-muelteciler&catid=3:av-taner-klc&Itemid=27&lang=en

http://www.reuters.com/article/2014/11/13/us-thailand-Myanma-Rohincas-bangladesh-idUSKCN0IX0DY20141113#q0wjT5dcMZmjWW5x.97

http://www.reuters.com/article/2014/11/10/thailand-Myanma-Rohincas-bangladesh-idUSL3N0T04FT20141110#UKKYAsH6WH8lMS1j.97

http://www.reuters.com/article/2014/09/30/us-Myanma-Rohinca-idUSKCN0HP15T20140930

http://www.sabah.com.tr/gundem/2011/06/19/turkiyeye-minnettarim

http://www.sosyalhizmetuzmani.org/avruba_birligi_unutmamali.htm

http://www.dw.de/abnin-m%C3%BClteci-sorunu/a-17015520

http://tr.euronews.com/2014/10/03/avrupa-da-multecilere-icler-acisi-muamele/

“Dünden Bugüne Arakan”, Dr. Muhammed Yunus, 2012, http://www.ihh.org.tr/fotograf/yayinlar/dokumanlar/dunden-bugune-arakan.pdf

“Soas Bulletin of Birma Research”, (Buchanan 1992:82), https://www.soas.ac.uk/sbbr/editions/file64388.pdf

“Arakan Rohinca Milli Organizasyonu”, 1942 Müslüman katliamı, http://www.Rohinca.org/portal/index.php/Rohinca-library/26-Rohinca-history/55-the-muslim-massacre-of-1942.html

“A Handbook of Terrorism and Insurgency in Southeast Asia”, səh. 330-340, https://books.google. com.tr/books?id=ZzMmpCinBYoC&pg=PA327&lpg=PA327&dq=Arakan+islam+embraced&source=bl&ots=CqkoQvEL1N&sig=EcmIrnCsz9Ops40I95VeTI6Ok2k&hl=en&sa=X&ei=dcn6VP7iA4WfyAPwx4C4BA&ved=0CCkQ6AEwAg#v=onepage&q=Arakan%20islam%20embraced&f=true

“BM Mülteci Ajansı”, UNHCR, http://www.unhcr.org/pages/49e4877d6.html

http://www.independent.co.uk/voices/comment/in-aleppo-all-i-think-about-is-how-my-family-will-survive-shelling-starvation-and-the-snipers-bullet—but-we-are-still-the-lucky-ones-10107104.html

http://www.aljazeera.com/indepth/interactive/ 2015/03/left-syria-150317133753354.html

http://transcripts.cnn.com/TRANSCRIPTS/1503/05/ampr.01.html

http://www.usnews.com/news/world/articles/201503/20/apnewsbreak-report-says-640-200-syrians-in-besieged-areas

http://www.bbc.co.uk/news/world-middle-east-11072328

http://www.aljazeera.com/news/middleeast/ 2015/01/yarmouk-camp-victim-water-wars-syria-201514102955303689.html

http://www.bbc.co.uk/programmes/p02l69yh

http://www.huffingtonpost.com/robert-turner/dont-forget-gaza_b_4967649.html

http://edition.cnn.com/2015/04/23/opinions/smuggled-syrian-migrant/

http://www.amren.com/news/2015/04/record-number-of-migrants-expected-to-drown-in-mediterranean-this-year/

http://www.nytimes.com/2015/05/03/world/europe/1400-migrants-rescued-at-sea.html?smid=nytcore-ipad-share&smprod=nytcore-ipad&_r=0

http://www.theguardian.com/world/2015/apr/20 /italy-pm-matteo-renzi-migrant-shipwreck-crisis-srebrenica-massacre

https://flipboard.com/topic/titanic/aid-agency-compares-migrant-deaths-to-titanic-tragedy/f-2d3e96674d%2Fapnewsarchive.com

http://www.aljazeera.com/indepth/opinion/2014/ 12/does-europe-remember-geneva-con-2014 12189019976228.html

http://www.eepa.be/wcm/dmdocuments/publications/Report_Human_Trafficking_in_the_Sinai_Final_Web.pdf

http://www.hurriyet.com.tr/dunya/28793454.asp

http://www.amerikaninsesi.com/content/avrupa-birliginden-10-maddelik-plan/2728316.html

http://tr.euronews.com/2015/04/20/ab-gocmenlere-yardimda-sinifta-kaldi/

http://tr.euronews.com/2015/05/20/ab-de-kota-tartismasi-buyuyor/

http://www.trthaber.com/haber/dunya/20-yil-once-srebrenitsada-gozlerimizi-kapattik-180028.html

http://www.unhcr.org.tr/home.php?content=611

http://www.goc.gov.tr/icerik3/kitlesel-akinlar_409 _558_559

http://www.iha.com.tr/haber-turkiyede-kac-suriyeli-multeci-var-394712/

http://www.al-monitor.com/pulse/tr/contents/articles/originals/2015/04/turkey-iraq-syria-cost-of-crisis-16-billion.html

http://www.yazipciziyoruz.biz/index.php?option=com_content&view=article&id=3&Itemid=30

Bilgin, “Türk Romanında Savaş Sonrası Anadolu’ya Zorunlu Göçler” Doktora Tezi, T.C. Marmara Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Türk Dili ve Edebiyatı Ana Bilim Dalı

Yeni Türk Edebiyatı Bilim Dalı, İstanbul, 2006.

Bakay, Gönül, "İçimizden Biri: Arnavutlar", IV. Kültür Araştırmaları Sempozyumu, İç/ Dış/ Göç ve Kültür, Işık Üniversitesi Şile, İstanbul, 15 – 17 sentyabr 2007

http://www.polonezkoy.biz/tarih-boyunca-turkiye-polonya-iliskileri.html

http://www.hurriyet.com.tr/yazarlar/13837628.asp

http://www.unicef.org.tr/basinmerkezidetay.aspx?id=2445

http://www.unicef.org/media/media_81172.html

http://www.amerikaninsesi.com/content/suriye-de-ic-savasin-en-agir-bedelini-cocuklar-oduyor/1739950.html

http://kdk.gov.tr/haber/cocuklar-suriyedeki-savasin-en-buyuk-magduru-olmaya-devam-ediyor/427

http://www.trtturk.com/haber/suriyedeki-ic-savasin-4-yillik-agir-bilancosu-116176.html

http://www.amerikaninsesi.com/content/suriye-de-ic-savasin-en-agir-bedelini-cocuklar-oduyor/1739950.html

http://www.socialistsanddemocrats.eu/newsroom/gianni-pittella-migration-failure-agree-relocation-40000-refugees-farcical

http://www.independent.co.uk/news/world/europe/mediterranean-migrant-crisis-furious-italian-pm-matteo-renzi-forces-belated-compromise-on-quotas-at-10349039.html

http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?LangID=E&NewsID=16344

http://www.theguardian.com/world/2015/sep/19/refugees-croatia-hungary-borders-europe

http://www.aljazeera.com/news/2015/09/hungary-declares-state-emergency-refugee-influx-150915081707010.html

http://www.theguardian.com/world/2015/sep/19/refugees-croatia-hungary-borders-europe

http://www.euractiv.com.tr/abnin-gelecegi/article/ multeci-krizinde-macaristanin-politikalarina-tepki-yagdi-032089

http://www.aljazeera.com.tr/haber/gordugunuz-muameleyi-gosterin

http://www.thelocal.dk/20150911/denmark-we-wont-take-any-of-the-160000-refugees

http://www.theguardian.com/world/2015/nov/09/Myanma-election-result-military-aung-san-suu-kyi-govern-analysis

http://foreignpolicy.com/2015/10/22/Myanma_Rohinca_violence_election_aung_san_suu_kyi/

http://www.telegraph.co.uk/news/worldnews/asia/BirmaMyanma/11942819/Birma-election-Rohinca-Muslims-look-to-sea-not-ballot-box-as-new-wave-of-Asian-boat-people-prepares-to-flee.html

http://www.theguardian.com/commentisfree/2015/sep/06/refugee-crisis-germany-response-heartwarming-will-pressures-show

http://www.dailymail.co.uk/news/article-3320841/Paris-terror-attacks-pave-way-march-Far-Right-Le-Pen-demands-immediate-halt-new-migrants-France-PEGIDA-hopes-draw-record-crowds-tally-tonight.html

http://www.independent.co.uk/news/world/europe/poland-plans-to-backtrack-on-migrant-commitment-following-attacks-in-paris-a6734521.html

http://news.yahoo.com/dont-paris-attacks-migrant-influx-german-interior-minister-153747598.html

http://www.independent.co.uk/news/world/europe/paris-terror-attacks-jean-claude-juncker-warns-european-leaders-do-not-mix-up-terrorists -with-a6736271.html

suriye-yardim.ihh.org.tr/en/main/news/0/ihh-taking-care-of-syrian-refugees-present-on/3125

KİTAB HAQQINDA

Dünya tarixində heç görmədiyi qədər böyük fəlakətlərlə və böyük bir mühacir axını ilə qarşı-qarşıyadır. Hər keçən gün daha çox insan, xarabaya çevrilmiş ölkələrini tərk etmək və başqa bir ölkədə yeni bir həyat qurmaq məcburiyyətində qalır.

Bu faciənin təsiri getdikcə artaraq davam edir. Evini, ailəsini, işini, ölkəsini, həyatını tərk edərək bir bilinməyənə doğru yol almanın nə demək olduğunu düşünmək istəməyənlər isə vicdanlarını itirmişlər.

Bu kitab, mühacirlərlə əlaqədar məqalələrdən ibarətdir. Məqsəd sevgisizliyi sərhədlərlə, divarlarla deyil, qəlblərlə, sevgi ilə həll etməkdir.

— HARUN YƏHYA —

MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.